**YAŞAR BÜNYAD**

# İBLİS BUSƏSİ

*roman*

**(Bu romanımın ərsəyə gəlməsində, illərlə kiçik kaprizlərimə də dözərək son nöqtəni qoymağıma imkan yaradan ilk oxucum və tənqidçim olan ömür-gün yoldaşıma, bu kitabı əlinə götürüb oxuyan hər bir oxucuma minnətdaram. Nə xoş ki, varsınız!)**

*Yaşar Bünyad*
***İBLİS BUSƏSİ* (roman)**

*Korrektor: Elçin Hüseynov*

*"OXU" MMC, 2017, 304 səh.*

*Yaşar Bünyadın "İblis busəsi" romanının mövzusu təlatümlü 80-90-cı il hadisələrinə və bu ağır dövrün min cür məhrumiyyətlərlə üzləşmiş talesiz insanlarına həsr olunub. Əsərin qəhrəmanı Rüfət üzləşdiyi əzablara qatlaşa bilməyərək Rusiyaya üz tutur. Yenicə dağılmış SSRİ-nin uçuqları altında qalan Rusiyada vəziyyət bütün possovet respublikalarındakının eynidir – xaos, diktatura, gücün və pulun hakimiyyəti, mənəvi dəyərlərin aşınması, hər şeyin, o cümlədən insan həyatının hərraca qoyulması... Rüfətin həm fiziki cəhətdən güclü olması, həm də genlə və kodla gələn bir sıra insani keyfiyyətləri belə onun bu çirkablar və cinayət çetesinə bulaşmasına mane ola bilmir. Əsər maraqlı hadisələr və gözlənilməz sonluqlarla zəngin olduğundan oxucunu buraxmır.*

*© Yaşar Bünyad, 2017*

# MÜHACİRƏT ƏDƏBİYYATI VƏ YA MÜHACİRLƏR HAQQINDA ƏDƏBİYYAT

## (Ön söz əvəzi)

Mühacirət ədəbiyyatının iki dalğası yaxşı bəllidir: 1920-ci ildə qırmızı imperiyanın müstəqil ölkəmizi işğal etiyi zaman mühacirətə gedənlərin Avropada yaratdıqları və faşist Almaniyasının əsir götürdüyü adamların Azərbaycana qayıda bilməməsindən sonra yaranan ədəbiyyat.

Üçüncü dalğa isə 20-ci əsrin sonunda müstəqillikdən sonra zor-xoş ölkəmizi tərk edənlərin dünyanın çeşidli ölkələrinə səpələnməsi zamanı onların içərisindən yetişməsi ilə başladı. Bu dəfə Rusiyadad da ədəbiyyatımılzı təmsil edənlər meydana atıldılar. Onların içərisində ən maraqlı qələm təcrübələri ilə diqqətimi çəkənlərdən biri istedadlı nasir Yaşar Bünyaddır.

Yaşar Bünyadın əvvəllər bir neçə hekayəsini oxumuşdum. Həmin hekayələrdə elə Yaşar bəyin özü kimi çörək dalıncan Rusiyaya üz tutmuş, orada min bir əziyyətlərə qtlaşan soydaşlarımızın obrazı boy verirdi. (Elə buradaca qeyd edim ki, MÜHACİRƏT ƏDƏBİYYATI anlayışı ilə bərabər, həm də MÜHACİRLƏRİN HƏYATINDAN BƏHS EDƏN ƏDƏBİYYAT anlayışı da mövcuddur ki, Yaşar Bünyadın qələmə aldığı bədii nümunələr bu barədə də söz açmağa kifayət qədər material verə bilir. ) Sonralar Yaşar Bünyad mənim baş redaktoru olduğum "Yazı"ya da öz hekayələrini göndərdi və onun qələm təcrübələrini redaktə edib çap edərkən bir şeyə əmin oldum: nəsrimizə bənzərsiz bir nasir gəlir – ütüsüz, bir qədər pırpıtraqlı cümlələri ilə də olsa, yeni nəfəsili, yeni yanaşma tərzinə malik və xüsusilə də (bu sonuncu çox mühüm amildir) özünün xüsusi mövzuları və zəngin yazı materialı olan nasir!

Yaşar Bünyadın bir qədər çəkinə-çəkinə "Yazı"ya göndərdiyi ən son əsər isə "İblis busəsi" romanı idi. Açığı mən özüm də romanı bir qədər ehtiyatla oxudum. Həmişə hekayələri ilə

tanıdığım adamın birdən-biri kifayət qədər iri həcmli bir əsər qələmə alması məni bir qədr təəccübləndirmişdi. Mətni birnəfəsə oxuyub bitirəndən sonra çox sevindim: müəllif çox ağır bir mövzunun öhdəsindən ustalıqla gəlmiş, onun bədii həllinə nail ola bilmişdi. Və beləcə, romanı dərgidə hissə-hissə oxuculara təqdim etməyə başladıq.

Nədən bəhs edir "İblis busəsi"?

Romanının mövzusu təlatümlü 80-90-cı illərin hadisələrinə və bu ağır dövrün min cür məhrumiyyətlərlə üzləşmiş talesiz insanlarına həsr olunub. Əsərin qəhrəmanı Rüfət üzləşdiyi əzablara qatlaşa bilməyərək Rusiyaya üz tutur. Yenicə dağılmış SSRİ-nin uçuqları altında qalan Rusiyadakı vəziyyət bütün possovet məkanındakının eynidir – xaos, diktatura, gücün və pulun hakimiyyəti, mənəvi dəyərlərin aşınması, hər şeyin, o cümlədən insan həyatının hərraca qoyulması...

Sevgisini, ailəsini itirmiş Rüfət heç olmasa Vətənini itirmək istəmir – artıq onun doğulduğu torpaqda müharibə gedir axı! Ona görə də yollandığı Rusiyadan qayıdaraq Qarabağa döyüşməyə gedir. (80-ci illərdə Əfqanıstan müharibəsində iştirak etməsi ona döyüş sirlərini aşılaya bilmişdi və bu bacarığından düşmənə qarşı mübarizədə istifadə etmək qərarına gəlir. ) Nə yazıqlar ki, burada da hiyləgər və nadürüst adamların kələyi ilə üzləşir. Döyüş zamanı vətənpərvər oğlanları ən ağır nöqtəyə göndərsələr də, arxalarınca kömək getmir, mühasirəyə düşüb ölümlə üz-üzə qalırlar...

Müharibənin onun yaddaşında açdığı yaralar yenidən Vətəndən uzaq düşməsinə səbəb olur. Moskvada mafiyanın tüğyan etdiyi yerə, hadisələrin lap episentrinə düşür. (Onunla Əfqanıstanda döyüş yolu keçən Andrey bu mafiyanın başında duran şəxs kimi Rüfəti də öz oyunlarına alət etməyə çalışır və nə yazıqlar ki, buna nail olur da. )

Ənənəvi müsbət qəhrəman yaratmağa girişməyən müəllif, qəhrəmanı Rüfətin sağlam düşüncəli, fiziki cəhətdən güclü

olmasını önə çəksə də, bunların onun şərə müqavimət göstərməsi üçün yetərli olmadığını da vurğulayır.

Romanda Andrey və arvadı Sofya obrazları Şərin təmsilçiləridr. Sanki böyük Rusiya imperiyasının simvolikası olan bu iki şəxs İblis busələri ilə bütün insanlığı, o cümlədən Rüfəti də qarsırlar...

Romanda Rüfətin anası, göbəkkəsdisi Aliyə, erməni qızı Marqo, Rusiya çöllərində səfil həyatı keçirən Sərdar kimi obrazlar maraq doğurur.

Kitab halında oxuculara təqdim olunacaq bu əsəri başqa bir yöndən də – bir qarın çörəyə görə amansız Rusiya çöllərində min cür məhrumiyyətlərlə üzləşən Azərbaycan insanının obrazını yarada bilmək baxımından da təqdirə layiqdir. Bu kitabın öz oxucuları olacağına inanıram və onun geniş oxucu kütləsi tərəfindən də seviləcəyinə əminəm.

*AZAD QARADƏRƏLİ*

*İnsan öz silahlarından özünə allah yaratmışdır;*
*silahı qalib gəldikdə, özü məğlub olur.*

**_Rabindranat Taqor_**

## Hərə bir nemətə uyub,
## yoxsa hamı peyğəmbər olardı ki...

... Göy üzü qıpqırmızı köz düşmüş təndir kimi alışıb yanır. Aşağıda – göz işlədikcə hüdudsuz, mavi bir sonsuzluq. Dağılıb parçalanmış buludlar kimi yumşaq ağ duman seyrəldikcə, qarşıdakı məchulluğun aydın siması gecə vaxtı qalın meşədə azmış nabələd adamın üzünə açılırırmış kimi, hər şey yenidən doğulur elə bil – saf, billur cazibəsini saxlamaq üçün... Onun əfsanəvi pıçıltısını eşidir, göydən şığıyan, heç də bu yerlərə xas olmayan cəhənnəm istisini özünə yaxın buraxmayıb sifətimə toxunan yumşaq havanın şirin tamını duyur, qəlbimi riqqətə gətirən bu qəribə nemətə sarı can atır, var-gücümlə onun sehirli ətrini, sərinliyini ciyərimə doldururam. Heç vaxt, heç vaxt ona bu qədər yaxın olacağıma, əlim toxunacaq qədər, lap ovucumun içi kimi yaxından duyacağıma inanmazdım. Həmişə ondan uzaq qaçarkən, ancaq yuxularımda cismimə mərhəm olan varlığın bu qədər möhtəşəm olduğuna da bəlkə heyrət etməzdim.

Gözlərimə bağlanmış yaylıq açılandan sonra, heç fikirləşmədən anladığım bircə şey oldu: lap az çəkəcək, ani, bir göz qırpımında qanadları qırılmış göyərçin kimi müvazinətimi itirib fırlana-fırlana ona doğru uçacam. O, lap uşaq çağlarımdan cılız varlığımda qəddarcasına, qoyduğu çalın-çarpaz izi yaddaşımdan əbədi silmək üçün məni öz müdhiş qoynuna alacaq. Onunla təkbətək, üz-üzə durmuşam. Hələ çoxmu duracam?..

Ta yeddi yaşıma kimi – dünyada atamdan savayı güclü bir varlığın mövcudluğuna şübhə edərkən – onun belə güclü, amansız olduğuna inanmazdım. (Hələ dünya öz gizli, təhlükəli, iyrənc sifətlərini mənim üzümə açmayıbmış. ) Və məni vahiməyə salan da onun müştəbeh amansızlığıydı –ölüm deyildi!

Amma o gün – ən çox sevindiyim gün ki atam qonşumuz Həsənalı əmiylə mənim ad günümdə balıq basdırması bişirmək

üçün geçə ovuna çıxmışdılar – onun amansızlığına əmin oldum. Mənim üçün fərqi olmasa da, öz sevimli, “yeddi qurbanlıq “ oğlunu ona bəxş edən anamın ürəyindən keçdiyi üçün, “bu əziz gündə süfrəmizdə mütləq balıq bastırması olmalıdır!“ – deyib getmişdi. Kaş ki, anam demişkən: ”Heç bir istəyimə məhəl qoymyaydı, getməyəydi. ” O ki dedi, qurtardı. Sözünün sahibiydi. Bir az da tərs idi dədəm, həm də mərd kişiydi.

Eşitdiyimdən, atam onun ürəyindən keçən, dilinin ucundan çıxan hər nə olsaydı, heç düşünmədən yerinə yetirərdi. Təkcə anamın yox aa, elə nənəmin, mənim də. Bir dəfə, qışın oğlan çağında nənəm deyib ki, ürəyim yaman qarpız istəyir, olsaydı, vallahi-billahi, lap onunu yeyərdim. Zahılar kimi qarpızın iyi burnuma dəyir... Arvad kəlməsini bitirməmiş – sözü havada qalır yazıq dədəm bunu eşidəndə – üz tutur Sabirabada, əskərlik dostu Qafarın doqqazına ki, Qafar, məni öldür, day əliboş geri göndərmə, bilmirəm nə olan şeydi, anam qarpıza “yerikləyir”... Qafar da, elə bil belə hallarla tez-tez rastlaşdığından, dostunun qəfil, hövlnak gəlişinə təəccüblənmir, “ayə, bu yaşda nə yerikləmək, zahı-zad döyülki arvad?”, deyib mırtdaşmır da, novruza saxladığı üç qarpızdan birini verir dədəmə... Vallah, qulaq günahkarıyam, anamdan eşitmişəm ki, arvad təkbaşına o qarpızı elə acgözlüklə yeyibmiş, heç bir balaca dilimin də saxlamayıb, fikirləşməyib ki, evdə uşaq da var, özü də öğlan uşağı, birdən nəfsi düşər, tamahı çəkər, daa nə bilim harası şişər... Düzdü, yeyib qurtarandan sonra onun ağzına dirənmiş gözlərimizi görəndə çox pis olubmuş, hətta “qarnıma şiş girəydi “ deyib kövrəlibmiş də.

Hələ bu nədi ki... yağışlı-palçıqlı havada – aranda olanlar bilər, ilin-ayın o vədəsində ki, şoran torpaq lilliyib saqqıza dönür, qaloş, rezin çəkmə zığlaşıb palçıqdan qopmur, zulumbəla addım atırsan, “asvalt” sözünü eşidib üzünə həsrət qalan kəndçilərimiz eşiyə çıxmağa həvəssiz, hövsələsiz olanda dədəm bir kisə buğdanı üyütmək üçün, payi-piyada Kamandar dayının dəyirmanına aparıb yağış kəsən kimi. İndi deyəcəksən,

burda nə var ki, balam, bir kisə buğdadı, at belinə, apar da?!. Düzdü, dədəmi görənlər bilir, o bir kisə nədi, lap iki kisə buğdanı da kürəyində aparardı, heç “uf” da deməzdi! Bu yerlərin lıqqa-palçığını görməyən adama asan gələr. Dəyirman da kənddən iki kilometr aralıda, yağış da, elə bil dünyanın axırıdı, hikkəylə töküb suyunu göydən... Əvvəlcə atam qonşunun eşşəyini götürür ki, heç olmazsa, buğda kisəsini onun belinə yakləsin. Yükləyir də, ancaq nə illah eləyir eşşək palçıqda yerimir ki, yerimir. Qonşu ha söyür, ha çırpır, eşşək dirəndiyi yerdən tərpənmir. (Bədbaxt heyvan gördüyünü görüb aranın zığında, onu da arada anlamaq gərək. Eşşək olanda nə olar, bəs adamın insafı-murivvəti?)

Hə, dədəm yağışın altında, palçığın, löhmənin içiylə getdiyi kimi də, dəyirmanda üyütdüyü bir kisə unla qayıdır kəndə. (Nənəmin dediyindən, o, bir həftə yorğan-döşəkdən qalxmayıb, nə var, nə var, Güldəstə arvadın doqqazından keçəndə dədə-babadan ağız tamı olan qara buğda unundan bişən təndir çörəyinin iyi dəyib anamın burnuna. ) Bax, ona görə də atam toxumluq üçün saxladığı bir kisə buğdanı dəyirmanda üyüdüb ki, arvad şışməsin!... Pis-yaxşı, mənim atam belə olub...

Yaxşı yadımdadır: gecənin bir yarısına qədər nənəm, anam və mən təlaş içində, bir kəlmə də danışmadan, əllərimiz dizimizin üstündə oturub qapının nə vaxt açılacağını, atamın bir səbət balıqla necə sevincək içəri girəcəyini gözləmişdik. Həmişə balıq ovuna gedərdi, amma bu qədər yubandığını heç vaxt görməmişdik deyə ürəyimizdən qara qanlar axırdı.... Buna gözləmək deməzdim vallah, bu cür müsibətli, dəhşətli, ürəkçəkici saatları heç kəsin ömrünə yazmasın yaradan! Nənəm ah-uf elədikcə anam yerindəcə qovrulur, əllərini dizlərinə sürtə-sürtə bütün bədənini oturduğu yerdə də o yan-bu yana yırğalayır, tanrıya yalvarırdı. Özü də o qədər astadan sızıldayıb yalvarırdı, onun səsini məndən və nənəmdən başqa kimsə eşitmirdi, bəs tanrı necə eşidəcəkdi? Birdən fikirləşdim ki, anam da, nənəm də əlbəttə məndən çox bilir, hələ ki, atamın

öldüsü-qaldısı bilinmir, yəqin ona görə yavaşcadan yanıb-yaxılır, elə tanrıya da astadan xitab edirdilər ki, lənət şeytana, – şeytanın qulağı həmişə səsdədi – eşidər, bəndələrinin naşükür olduğunu, onun yazdığına üsyan etdiyini çatdırar tanrıya, o da əsəbiləşər, doğrudan öldürər atamı. Mənə belə gəlirdi...

Sonra Həsənalı əminin də arvad-uşağı təşviş və hətacan içində bizə gəldilər. Beləcə səhəri birgə diri gözlü açdıq, a töbə, bir adamın da cınqırı çıxmadı sübhə qədər, çünki hamımız içimizdə göynəyirdik. Elə bil ürəyimizə nəsə dammışdısa da, ürək eləyib içimizdəki fəryadı bayıra çıxarmağa cürət etmirdik. Yaşlılar belə məqamlarda səbrini basar, "dünyanın işlərin bilmək olmaz" deyib allahdan möcüzə gözləyərdilər.

Səhər tezdən bütün kənd onları axtarmaq üçün dəli Kürün lilli sularıyla əlbəyaxa oldu. Kür aldığı canları geri vermək istəmirdi. Üzə bilənlər suda axtarış edir, sahil boyu düzülən arvad-uşaq möcüzə gözləyirmiş kimi gözlərini dəli Kürün sularına dikmişdi. Heç bir möcüzə baş vermədi, çünki bu yerlərdə dədə-babadan möcüzə olmayıb.

Sədrimiz Moskvaya sərgiyə getdiyindən yeri görünürdü kişinin, bütün kənd yığışıb hərənin qulpundan nə çıxdı, pul topladı, Bakıdan gələn dalğıclara verdi. O gündən düz üç gün ötüşdü, amma dalğıcların əziyyəti fayda vermirdi. Ağsaqqallardan biri gileylənirdi ki, Qəşəmin ölən günüdü e, burda olsaydı bircə günə tapdırardı meyidləri. Düz də deyirdi, vallah, bütün göstəricilər üzrə rüspublikada birinci olan kolxozumuzun sədrini hamı tanıdığından indiyəcən onun bir sözünü iki eləyən olmuyub. Bircə zənglə ən çətin məsələləri də həll eləmək iqtidarındaydı Qəşəm kişi, özü də pulsuz-parasız. Camaat da bilir də nə danışır, çünki, Qəşəmin gücünə bələddilər...

Nə isə, sədrin Moskvada olmağı çox işləri ləngidirdi. Bir yandan da bu pul yığmaq məsələsi camaatı hövsələdən çıxarmışdı. Yalan-doğru, kolxozun aqronomu Kifayət də " dalğıclar pula görə vaxtı uzadırlar; əvvəlcə meyidin yerini bəlləyirlər, sonra günəmuzd haqq aldıqlarına görə uzadırlar axtarışı"–

demişdi. Bilmirəm, Kifayət, yəqin nəsə bilirdi, ona görə belə danışırdı, amma sonda dalğıclar camaatın yığdığına qane olub axtarışı davam etdilər. Bir yandan bu camaatı da qınamaq olmaz e, qara camaat neyləsin, ya aqronom, ya da işıq pulu yığan olsun, fərq etməz – qoltuğunda papkası olan hər adama inanır...

Həsənalının meyidini dörd gündən sonra kolxozun nasos stansiyasının bir kilometrliyindən tapa bildilər ; yazığın sir-sifəti, qarnı şişmiş, gömgöy göyərmiş, tanınmaz olmuşdu. Bizi oradan uzaqlaşdırdılar ki, bu müsibəti görüb qorxmayaq. Nənəm Allaha yalvarırdı ki, oğlunun da ölüsü tapılacaqsa, elə Həsənalınınkı kimi tapılsın, təki, ələ nəsə gəlsin balamnan... Amma, ha nalə qopardı, ha Allaha yalvardı, səsi çatmadı qurban olduğuma! Atamın meyidi indi də, ya Kürün qara bulanıq sularında uyuyur, ya da ac balıqlara yem olub. (Ta Bakıya gələnəcən balıq ətini yeməzdim. Hər balıq dədəmin potensiyal qatili kimi görünürdü gözümə, balıq yox, özümü sanki onun ətini yeyirəmmiş kimi hiss edirdim. )

Bax, o vaxtdan, çayın sahilində oturar, dizlərimi bərk-bərk qucaqlayaraq həsədlə, heç nə olmayıbmış kimi Kürdə atılıb-düşən həmyaşıdlarıma baxar, hərdən paxıllıq da edərdim. Ehh, sonralarsa, “onların da atalarını su udsaydı, yəqin mənim kimi qorxardılar ” deyə özümə təskinlik verərdim. Axı mən də onlar kimi çayın şıltaq dalğalararını yarmaq, lilli suyun düz dibinə kimi baş vurmaq, bəlkə də o müdhiş axının qucağına girib izi-tozu bilinməyən atamı axtarmaq üçün uzaqlara, lap Xəzərin dərinliyinə üzmək istərdim. Amma ürək eləyib bir dəfə də suya girməzdim. Qorxutmuşdu su məni – insafsızcasına can almağıyla qorxutmuşdu.

Bu ilk, acı sarsıntı anbaan məni izləyərkən, üzülməmək üçünmü, yoxsa, atamın ölümündə özünü günahkar hiss etdiyini anama unutdurmaq üçünmü doğum günümü də atamla birgə Kürdə dəfn etdim və həmən dəhşətli gün yaddaşımda ancaq atamın ölüm günü kimi həkk oldu...

# Şeytanı daşlamaq...

... Od saçan narıncı atəşi güzgü kimi əks etdirən, həm həyat verən, həm də ölüm gətirən dupduru su! Su imiş bu hüdudsuz ənginlik. Həyatımda qorxduğum, yuxularımda da mənə aman verməyən, bəlkə də yeganə bir şey vardısa, o da su idi. Lap uşaqlığımdan varlığımı məngənə kimi sıxan, ən əziz adamımı əlimdən aldığı kimi gözümün də odunu alan su!

Müdhiş, soyuq ləpələr alışıb yanan qıpqırmızı təndirin odunu bağrına basıb söndürmək istəyir. Sanki dünyada göydən asılan körpünün məhəccərindən, məndən və ətrafımı ağuşuna almış sudan özgə heç nə yoxmuş.

Güclu axın qıvrıla-qıvrıla körpünün nəhəng dayaqlarına çırpınaraq irəliləyir. Aşağı baxdıqca məni özünə çəkən dəlisov çayda rəqs edən günəşin şüaları gözlərimi qamaşdırır. Diksinirəm. Geri çəkilmək istəyi daha güclüdür. Geriyə isə daha yol yoxdur. Geridə, bircə göstərişlə öz nişangahını darmadağın etməyi adət etmiş Kalaşnikov avtomatının kürəyimə dirənmiş lüləsi var və onun hər an açıla biləcəyi mənə yaxşı məlum idi. Təsəvvürümdə canlandıra biləcəyim ən dəhşətli an özü gəlib məni tapmışdı. İndi, həyatımda birinci dəfəydi üzməyi bacarmadığıma görə özümə nifrət edirdim !

Bu da son! Heçdən başlayan, heçə dönən əzablı bir yolun sonu... Mənə elə gəldi ki, keçənlər hamısı mənasız bir yuxuymuş – nəfəsimi kəsən dalğa bir kabus kimi məni qırmızı, qara, boz daşlara çırpdığı andan əl çəkməyib məndən. Gerçəklərimlə qarmaqarışıq salıb məni yuxularım. Bir anlığa hansının yuxu, hansının gerçək olduğunu fikirləşdim – Aliyənin saf sevgisi, ecazkar Marqo, axmaqlığımdan yarımçıq qalmış təhsilim, anamın nakam ölümü, Əfqanıstan, lənətə gəlmiş müharibə, Rasimin xəyanəti, törətdiyim cinayət, Moskva... Mümkün qədər qaçdığım, qaçdıqcasa da addımbaşı məni izləyən, gözümə mələk kimi görünüb iblisə çevrilən, məni özümdən

alan, dəli ehtirasına qul eyləyən qadınlar... axı yuxu ola bilməzdi, ola bilməzdi!...

Doğulan bir gün ölür. Necə yaşadığından asılı olmayaraq heç kəs özünə ölüm arzulamır. Arzulamaz! Ölümün öz vaxtı, öz məqamı var. İstər qoca ol, istər cavan, əgər ölməlisənsə bundan qaça bilməzsən. Kim bilir ki, o nə vaxt tutacaq xirtdəyindən? Ölüm özü gəlir, səssiz-səmirsiz. Mən bədbaxt isə neçə illərdi öz axmaq ölümümü axtarırammış ; tələsə-tələsə, öz ayağımla ona doğru qaçır, vüsalına çatmış pərvanə kimi onun alovunda çırpınırammış?!

Əvvəllər yuxu-zad görməzdim. Axı uşaq idim, görürdümsə də, yadımda qalmirdı, yuxu olduğunu anlamırdım. Bəlkə də gündüzlər yaşandıqlarımın eyni, təkrarı olduğundan buna əhəmiyyət vermirdim. Amma, atamı itirəndən sonra, tez-tez eyni yuxunu görərdim. Görərdim ki, kəndimizin qırağındakı “Şeytan dərəsi” deyilən böyük yarğan günü-gündən uçub böyüdüyündən camaat əlinə keçən daş-kəsəyi gətirib ora atır ki, yarğan dolsun. Nədənsə qorxurdu camaat, qorxurdu ki, bu yarğana boş yerə “şeytan quyusu” demirlər, əgər bu yarğan böyüsə, çatları dərinləşsə gedib yerin o biri üzünə çıxacaq və dünya dağılacaq... İllər ötdükcə, yüzlərlə, minlərlə insan bura daş tökür – yarğan dolmur ki, dolmur. Yarğan nə boyda olarmış?! Mən yol qırağından tapdığım yastı, qırmızı daşları gücüm çatdıqca uzağa atıram. Bir... iki... beş... on... Birdən ayağım sürüşüb dığırlanıram yarğanın düz otrasına. Huşumu itirirəm. Handan-hana özümə gəlib gözümü açanda, səs eşidirəm. Daşların altından piqqıltı gəlir: pıqq... pıqq... Bir azdan möcüzə baş verir. Hərçəndi, biz tərəflərdə heç vaxt möcüzə olmur, amma bu yuxudu – yuxuda olar. Qırmızı, qara, boz daş parçalarının arasıyla göz yaşı kimi su fəvvarə vurur. Kəndə xəbər vermək üçün qalxıb qaçmaq istəyəndə fəvvarə burulğan sayağı, yox, Güllü xalagilin çəpərindəki sarmaşıq var ha, bax onun təki qıvrılıb məni qoynuna alır, bir də görürəm eeee... günəşlə üz-üzəyəm. Və birdən, uğultu qopur, sanki yer-

göy silkələnir, adamı vahiməyə salan burulğan yenidən məni ağuşuna alıb geriyə dönür, var gücüylə yarğanın dibindəki daşlara çırpır...

Hər dəfə də bu yuxunu qorxa-qorxa danışanda, anam deyərdi: “ Yuxuda su görmək aydınlıqdı, bala, qorxma! Ömrün su kimi axarlı olacaq. ”

İnanmaq istəmirdim, doğrusu, heç inanmırdım da. Çünki anam:– “Atanı lənətə gəlmiş su apardı !”– deyərdi həmişə, bəs mənə niyə “aydınlıqdı” deyir, su sudu da?.. Sonralar başa düşdüm ki, o zamanlar anam könlümü sındırmaq istəmirmiş.

Nənəm isə başını yelləyər, qəmli baxışlarını üzümə dikib narahat ürəyimi daha da titrədərdi: “Nahaq atmısan daşı, qurbanın olum” deyərdi.

“Niyə?”-soruşanda, o, köksünü ötürər, dərin bir “ah” çəkib deyərdi:

“Şeytan məskənidir oralar. Hirsləndirmisən onu... Şeytan insanın qəlbini oğurlamaq istəyəndə gözünə ən şirin nemət kimi görünər. Su da ən şirin nemətdir. Səni suyla aldadıb. ”

“Bəs özgələr? Onlar hər gün dərəni daşlayırlar. ”

“Ehh, can bala! Şeytan çoxdan girib onların qəlbinə, çoxdan! Sən elə bilirsən ki, insanlar o murdar dərəni hamarlamaq üçün daşla doldururlar? Yoox, yox ay bala!.. Qəlblərinə hakim olan şeytanı –içlərindəki iblisi qovmaq yerinə dərədəkini daşlayırlar. İçlərindəkinə daha gücləri çatmır, çatmır gücləri. Çünki, onu ki yaxına buraxdın, bütün varlığına sahib çıxacaq. ”

“Nənə, deməli mənim də qəlbimə iblis sahib çıxıb?”

“Yox ay bala, sənin nə yaşın var ki ?! Uşaqları aldada bilmir şeytan. Necə ki, İsmayıl peyğəmbəri aldada bilmib”– deyib, sakitləşdirərdi məni.

“Axı hamı uşaq olub, bəs niyə boyüyüb şeytanı daşlayırlar?”

“Aldanırlar... Hərə bir nemətə uyub... Yoxsa, ay qadoy alım, hamı peyğəmbər olardı ki?!.. ” İnsan Allah qarşısında

yalandan özünü gözütox göstərməyə çalışsa da axırda öz murdar təkəbbürdən, gizli nəfsindən alçalır, məhv olar.

"Nənə, ay nənə... "

"Can nənə!... "

"Sən də aldanmısan?... "

Nahaq vermişdim bu sualı ona, nahaq! Bilmirəm bir dəqiqəmi, yoxsa bir saatmı baxdım o çuxura düşmüş solğun, yorğun gözlərin dərinliyinə və nə qədər baxdımsa orada bir damcı da su görmədim, amma o, səssizcə ağlayırdı, içində yana-yana ağlayırdı nənəm. Bu sualıma da heç vaxt cavab vermədi – o gündən ta ölənə kimi ...

İndi Volqanın ən geniş yerində, çayın sinəsini iki bölən hündür beton körpünun üstündə dayanıb, bəlkə də son dəfə, mis kimi qızarmış günəşin ləpədən-ləpəyə atılıb düşməsinə baxdıqca keçmişimdə itmiş yuxularımı xatırlamaq qəribə deyil-dimi? Bəlkə həyatım büsbütün yuxuymuş, elə indicə ayılacam və yuxum da bitəcək ?!

Bu yuxuya bənzəmirdi. Yuxu sonra olacaq – sonda. KİmsƏ mənə demişdi ki, ən şirin yuxu, elə ölümdü, ölüm! Hər gün yatıb gördüyün, sonradan min yerə yozaraq özünə sərfəli çö-zümə saldığın cəfəngiyatla dolu yuxular insanı günbəgün yaxınlaşan ölümünə hazırlayır. Və insan öləndə də elə bilir yuxudadı, yuxusunu görüb qurtaran kimi – nə qədər qorxulu, dəhşətli olsa belə, ayılacaq, yenə necə əvvəlki qaydayla yaşa-mışdı eləcə də yaşayacaq. Lakin, o nə qədər acı olsa da, insan çabalayır, müsibətlərə qatlaşır, sürünə-sürünə yaşasa da, heç yuxu görməsə də hər səhər ayılmaq ümidiylə yatır, ölmək istəmir. Lap can verəndə də onu əbədi xöşbaxt edəcək şirin yu-xudan qorxur, bir an belə çox yaşamaq üçün hər şeyini qurban verməyə hazır olur. Bəzən bir gilə acı dərmandan, bir iynədən də, ümid verən, bir anlıq belə toxdada biləcək sözdən də ömür umur aciz insan. Ölüm adlı şirin yuxu isə gələndə var-dövlətə gözucu da baxmaz. Gələr, götürər, aparar... Və bu elə bir yuxudur ki, onu heç bir münəccim yoza bilməz!

Kəndimizdəki qəbirstanlıqda qalan boş yeri təsəvvür elədim; anamla nənəmin başdaşılarını aydınca gördüm. İlahi, mən indiyəcən buna heç fikir verməmişdim; anam da nənəm də başdaşındakı şəkillərindən ikisinin arasındakı o boş yerə baxırdılar – biri sağdan, biri soldan. Həsrətlə, səbirlə, lap yol gözləyənlər kimi. ” Gəl, oğlum, gəl” deyirmiş kimi... Nə qədər baxdımsa da, aralıqdakı boşluqda öz daşımı görə bilmədim. Daşım yox idi, qeybə çəkilmişdi daşım. Atama qismət olmayan iki arşın torpaq həmişə boş qalacaqdı demək.

Aşağı baxarkən, yox, elə körpü boyu gözləri, qolları bağlı addımlayarkən bu yolun nə qədər uzun və məşəqqətli, ağrılı olduğunu dərk etmişdim. Arxada qoyub gəldiyim yol...

Dönəkmi?...

## Hə, deməli qəhvə, türksayağı...

Svetlana Vladimirovnayla vətəndaş kəbiniylə yaşayan Mədət, Məryəmin rəfiqəsi Gülnarın dünənki zəngiylə məni qarşılamaq üçün Domadedovo aeroportuna gəlmişdi. Baqaj şöbəsində yüküm olmadığına sevindi. “Baqaj gözləməkdən zəhləm gedir”– deyib əl çantamı əlimdən aldı. Bir xeyli piyada gedib pullu dayanacaqda saxladığı maşınına mindik. Yol boyu köhnə tanışlar kimi söhbətləşirdik. ” Qəhrəman Moskva şəhərinə xoş gəlmisiz!” plakatını görəndə hələ Bakıda içimə dolan gərginlikdən azad olmaq istədim. Bacarmadım. Mədət deyəsən Brejnev barədə lətifə danışırdı. Zarafatın məğzini tam anlamadan üzümə süni təbəssüm qonsa da səssiz can verən Rasimin donuq gözləri yaddaşımdan silinmir, özümü dünyanın ən aciz və qorxaq adamı olduğumu düşündükcə varlığıma nifrət edirdim. Bu mən idim, özüm idim, amma elə bil içimdə başqa birisi də vardı, elə hey, “keçdi və getdi... arxada qaldı... unut” deyirdi. Olarmı?...

Maşının əyləcinə basanda fikirdən ayıldığımı, ilk tanışlıqdan sayqısızlıq edib onu dinləmədiyimi biruzə verməmək üçün dil ucu “bağışla” desəm də, Mədət mənim qəmgin və duyğulu olduğumu hiss etmişdi. Lütfkarlıqla gülümsünüb “ qalxaq evə” deyib maşından düşdü. Mən də arxasınca. Özümü heç vaxt belə narahat hiss etməmişdim.

O, Sapyornaya küçəsindəki beşmərtəbəli “stalinka”da, iki otaqlı yaraşıqlı və zəngin mənzildə yaşayırdı. Otaqların klassik üslubda mebellə bəzədilməsi, divarlardan asılmış orjinal rəsm əsərləri onun yaxşı zövq sahibi olduğunu biruzə verirdi. İmkanları da öz yerində. Svetlanadan uşağı olmasa da, dediyinə görə Göyçayda arvadı və iki oğlu var.

Gəldiyim gün mən duşdan çıxana kimi onun harasa zəng etdiyini, suyun şırıltısından aydın başa düşməsəm də mənim barədə ciddi söhbət etdiyini eşitmişdim. Gülnar, Moskvada iş məsələsində, köhnə dostumu tapmaqda mənə kömək edəcək bir adam varsa, o da Mədətdi demişdi axı. Artıq iki gün idi onun qonağıydım və hansısa işin qulpundan yapışıb başımı qarışdırmalıydım. Necə olmasa o iş adamıydı, ailəliydi. İstəmirdim əziyyət çəksin. Ona görə də soruşdum:

– Moskvada bir əsgərlik dostum var. Mümkünsə... onu tapmaqda mənə kömək edərsən? – Naümid soruşdum.

Mədət zolaq-zolaq ev xalatında, qonaq otağının küncünə qoyulmuş bənövşəyi rəngli dəri divanda ayağını ayağının üstünə aşırıb “Arqumentı i faktı” qəzetini oxuyurdu. Bir neçə saniyə məni eşitmirmiş kimi dinməyib oxumağa davam etdi. Sonra, yüngülcə gülümsəyib çərçivəsi qızıl suyu ilə işlənmiş eynəyini çıxarıb qəzetlə birgə jurnal masasının üstünə qoydu.

– Harasındadır Moskvanın? – soruşub gözlərini ovuşdurdu.

– Mərkəzdə... Ünvanı var... məndədir... Bu dəqiqə, – deyib, dəhlizdəki paltar şkafında asdığım pencəyimin döş cibindən sənədlərimi çıxardım. Pasportumun arasından qat kəsmiş kağızı ona uzatdım.– Bilirsən, Əfqanıstandan sonra Saratovda

yaşamışam. Tez-tez zəngləşərdik. Sonra, birdən əlaqəmiz kəsildi...

Mütaliədən ayırdığıma görə əsəbiləşəcəyini zənn edirdim. Əksinə, ona uzatdığım kağızdan gözünü çəkmədən:– Bu ki, bizim yanımızdadır? İki-üç dayanacaq mərkəzə sarı, Qorki küçəsinin tini... Gələndə düz qabağından keçdik... Səhər gedərik, taparıq dostunu... – deyib, qımışdı.

– Sağ ol, qardaş, – deyə təşəkkür etdim.

– Dəyməz, canım, – deyib mətbəxə keçdi. – Gəlsənə bir qəhvə dəmləyim içək, həə? – soruşub, dilucu əlavə etdi. – Bəlkə sən ... çay istəyirsən? Problem deyil... çay...

Bizim kimi çaya meyilli deyil, qəhvə həvəskarı olduğunu başa düşdüm.

– Yoox.. – tələsik cavab verdim. – Sən nə içsən...

Yəqin bu cavabı da gözləyirdi :

– Həə, deməli qəhvə. Təmiz türksayağı...

Bunu elə təmtəraqla vurğuladı ki !

Dediyinə görə, yaxın dostu Dmitri Mərakeşdən xüsusən onunçun gətirdiyi üyüdülmüş "arabika"dan iki çay qaşığı "turka"ya tökdükdən sonra üstünə soyuq su alıb dəmə qoydu. İstanbulda bir qəhvəçi əsl türk qəhvəsini necə dəmləməyin sirrini ona öyrədəndən sonra bu ləzzəti duya-duya, "turka"nın armuduya bənzər belinin divarları boyunca qara köpuyün qalxacağı anı intizarla gözləməkdən başqa mətbəxdən heç bir ləzzət almırdı. Mədət bir də məzəylə deyirdi ki, yataq otağından sonra qadınların tükənməyən fantaziyalarıyla baş-başa qalmaqları üçün düşünülmüş ən mükəmməl guşə – mətbəxdir. Bu guşədə kişilərə yer yoxdur!

Arıq, bir az da bəstə boylu bu insanda həyata olan sevgi nə qədərmiş!. Moskvadakı məşquliyyətini bilməsəm də yanından uzaqlaşmağa imkan vermədiyindən, görüşdüyü, zəngləşdiyi iş adamlarının çox sanballı və sayılıb-seçilən insanlar olduğunu hiss etmişdim. Gündəlik işgüzar görüşlərinin bol olduğuna baxmayaraq mənə vaxt ayırması, diqqət yetirməsi, evdə tam

sərbəstliyim üçün ( bəlkə də qafqazlı qısqanclığından) Svetlananı anasıgilə göndərməsi, top vursan dağılmaz mənzilinin ehtiyat açarını mənə verməsi Məryəmin rəfiqəsinə olan etibardan irəli gəlirdi. Tanış oilduğumuz iki gündə təkcə qəzet oxuyanda laqeyid insan təsüratı yaradan Mədətin qırx-qırx bir yaşlarında olmasına baxmayaraq saçlarına düşmüş dən bakenbardlarında və nazik bığlarında daha qabarıq görünürdü. Gülümsəyəndə parlaq, qonur gözləri alacalanırdı.

İki fincan qəhvəylə qonaq otağına daxil olub birini mənim qarşıma qoydu. Özü də fincandan bir qurtum alaraq "bəh-bəh"lə ust-üstə yığılmış iri döşəklərin üstündə oturub dostum barədə danışmağımı xahiş elədi.

## ... bu kabusun əlində hər an "ehtiyatsızlıq"dan açıla bilən "Kalaşnikov"u varsa...

... Moskvada keçirilən yay Olimpiya oyunlarının başlanma ərəfəsində "N" saylı hərbi– təlim hissəsindən çavuş rütbəsiylə Macarıstana göndərilmək əmri aldıq. Yeni qurğuların sirrlərinə bələd olmağımıza altı ay vaxt bəs etmişdi. Yoldaşlarımızdan çoxunu Almaniyaya, Polşaya təyin etmişdilər. Macarıstana dörd nəfər: baş çavuş Valeryanov, çavuşlardan mən, Andrey Sokolov və Stepan Drazdov uçmalıydıq. Amma nədənsə hərbi aerodromda hamımızı bir təyyarəyə mindirdilər. Hamımız çaş-baş qalmışdıq. Bizə heç nə demədiklərindən fikirləşdik ki, qənaət məqsədiylə yəqin birinci Polşaya gedənləri, sonra bizi və "alman"ları düşürdəcəklər. Allah bilir nə qədər uçduq. Ağır yuk təyyarəsinin gurultusu səhər işıqlananda kəsdi. Təyyarənin qapısı açılar-aşılmaz onsuz da boğanağ bürümüş salona ərimiş qətran qoxulu isti hava hücum edəndə başa düşdük ki, alp çəmənlikləri əvəzinə qızmar günəşin təşnəsində qovrulan səhralıq və getdikcə göy qübbəsinə ucalan bomboz dağlar silsiləsinin qoynundayıq. Yerimizdəcə donub qalmışdıq.

Qulaqlarımız tutulmuşdu. Bir yandan da yuxusuzluq və aclıq bizi haldan salmışdı. İlk öncə səyyar mətbəxə gətirdilər... (Sonralar... ya dizimiz, ya da daş-kəsək üstündə yeməyə öyrəşəndə bu biyöndəm mətbəxi şah sarayı kimi yada salacaqdıq. )

Bir neçə ay harada olduğumuzu hərbi sirr kimi gizlətsələr də Əfqanıstanda başlayan müharibədən xəbərdar idik:"deməli bizi ölülərin yerini doldurmaq üçün gətiriblər!"

Burada tank əleyhinə kadrlara ehtiyac yox idi, çünki əfqanlar dağlarda, qayalıqlarda daha peşəkar döyüşürdülər. Biz səhərdən axşama kimi hərbi təlim keçir, bir neçə saat çadırda, bəzən özümüz qazdığımız birnəfərlik səngərdə, bəzən də eləcə daş, qaya kölgəsində yuxumuzu alırdıq. Çox vaxt nəinki yuyunmağa, hətta içməyə belə su tapılmırdı. Kir basmış bədənimiz qaşınmaqdan qartmaq bağlamışdı; formamızla dərimizin rəngi bu ilan mələyən səhraların rəngiylə eyniləşdi. Sovet hərbi hissələrində ipə-sapa yatmayan gizirlər, rütbələri aşağı salınmış, xidmətdən bezmiş nə qədər mayor, polkovnik var, hamısını seçib göndərmişdilər bu ölüm düşərgəsinə. Onsuz da "bəxti gətirməyənlər" siyahısında olan bu zabitlərin itirəcəyi heç nə yox idi, ona görə də acıqlarını bizdən alırdı it uşağı...

... Çalışırdım söhbətim onu yormasın. Amma maraqla qulaq asdığını görsəm də nəzakət xətrinə aradabir "səni yormuram ki? " deyə soruşurdum. Mədət "məmuniyyətlə dinləyirəm " deyib döşəkçələrin üstündə yerini rahatlayırdı...

... Mənim Andreylə dostluğum hələ "uçebka"nın ilk günlərində başlamışdı. Karantin dövründə onu yerliləri – moskviçlər xırd-xəşil eləmişdilər. Andrey onsuz da çəlimsiz uşaq idi, elə bil xəstəydi. Onu döyməyə nə vardı ki! Hə, sən demə Andreyin atası Moskvada çox yüksək vəzifədəymiş. Mən bunu sonralar bildim. Təsadüfə bir bax, Andreyin atası Almaniyaya təyinat almış Qlebin atasını böyük fırıldaqçılığa görə həbs etdiribmiş. Əsgərliyə bir çağırılmaları da, bir yerə

düşmələri də çox müəmmalıydı. Sanki qurama iş idi – intiqam almaq, sakitləşmək üçün yaradılmış məqammış... Biz Macarıstana "düşəndə", onun adının başqa siyahıda olduğunu eşidən dostumun necə sevindiyinin şahidiydim... Bu sevinc yük təyyarəsinin yerə endiyi vaxta qədər uzandı. Xeyli vaxt bu qədər təsadüfün bir araya gəlməsində hansısa mif, sirr axtarırdım. Sonra başa düşdüm ki, yox, bu təsadüf də deyilmiş, bu Tanrının qismət imiş!

Yumru sifətinə yaraşan nazik burnuna, çəlimsiz, sümüklü qollarına, incə barmaqlarına baxanda orta boylu Andreyi, şıltaq məmur uşağından çox imkansız fəhlə ailəsindən çıxmış, təzəcə yataq xəstəliyindən qalxmış insana bənzədərdin. İlk günlər diqqətimdən kənarda olan bu oğlanı o gecə, kazarmanın tualetində al-qan içində görəndə onun məndən imdad diləyən acizanə gözlərində yığılmış kədəri hələ də unuda bilmirəm...

Növbətçinin xəbəri olmalıydı. Gecə Andreylə kimin və ya kimlərin ayaqyoluna girdiyini öyrənib Qlebi, Timofeyi oyatdım. Hamı mənim idmaçı olduğumdan xəbərdar idi, lakin, gücümü heç kəsə "göstərməmişdim" – bunu yekəxanalıq sanırdım. Sən demə, hər yerdə olduğu kimi burda da gərək güc göstərib tanınasan, yoxsa batdın...

Birinci, çarpayıda xoruldayan serjantı duyuq salmamaq üçün yuxulu-yuxulu gözlərini ovuşduran Timaya "suşilka"da gözləyəcəm deyə pıçıldayanda, əvvəlcə heç nə başa düşmədi, sonra özünü sındırmadan durub geyinməyə başladı. Qlebin rəngi isə ölü rəngindəydi. Yarıqaranlıq kazarmada iki dümsükdən sonra gözlərini açıb damarları gərilmiş sifətimi görəndə dik durdu, üst paltarını belə geyinmədi; qorxmuşdu yaman!

Beş dəqiqədən sonra rütubət və nəm paltarların qoxusu bürümüş otaqda görüşdük. Onlardan niyə Andreyi o hala saldıqlarını soruşdum. Dinmədilər. Daha doğrusu bir-birinə baxıb "sənin nəyinə gərəkdir ?" ya – "kakovo xrena tı dopros ustroyiş? "Ya da: "Da kto tı voosşe..?" kimi sualları ürəklərində götür-qoy edirdilər ki, Qlebdən daha bədənli, möhkəm

əzələli olan Timofeyin göbəyinə bir neçə yumruq vurdum. O qəfil zərbədən qarnını ikiəlli qucaqlayıb zarıdı, “tvoyu ma-aat !” deyərək səngidi. Arxasını deməyə imkan vermədim; sinəsinə vurduğum ikinci zərbədən arxası üstə divarboyu qurudulmaq üçün taxta asılqandan sallanan nəm formalara ilişib yerə sərildi. Qleb sarılığın udmuşdu. Üstünə yeriyəndə ki, növbə sənindir başının, ağız-burununun qanını yuyub təmizləmiş Andrey otağa girdi. Danışmağa halı olmasa da xahiş etdi ki, növbətçi serjantı oyatmamış dağılışaq, yoxsa axırı pis olar. “Qalsın sonraya.. ” deyib dağılışdıq. Amma barışıq olmadı.

Əlbəttə, zabit, serjant nə baş verdiyini təxmin etsələr də, kişilik məktəbi deyilən əsgərliyin öz yazılmamış qanunları var axı; aciz də olsan satqınlıq etməməlisən! Heç kəs, hətta ən çox ehtiyat etdiyimiz ağciyər Qleb də heç kəsi ələ verməmişdi. Və sandım ki, hər şey bununla da ötüşdü...

Əfqanıstana gələndən sonra bu cəhənnəmin içində, amansız düşmənlə üzbəüz, hərə öz canının hayına qalanda da mən ömürlük dost olacağımıza söz verdiyim Andreyi gözümdən kənar buraxmırdım; hiss edəndə ki, səni qarabaqara izləyən kabus həmişə sənin arxandadır və bu kabusun əlində hər an “ehtiyatsızlıqdan” açıla biləcək Kalaşnikovu var – Allahın da üz döndərdiyi Əfqanıstan çöllərində bu ən ucuz və mənasız ölüm ola bilərdi. Mən onu bu kabusdan qoruyurdum.

Bizi hələ döyüşə aparmırdılar. Əfqan mücahidlərinin döyüş taktikasına nabələd sovetlər mənasız itkilər verdiyindən, yerli relyefi uçurum qayalıqlardan, bomboz uzanıb gedən dağlardan ibarət olan döyüş meydanını daha yaxşı mənimsəmək üçün gecə-gündüz kəşfiyyat qruplarının gətirdiyi məlumatlardan bəhrələnir, gah qayalardan, gah da sanki yerin altından gözlənilmədən peyda olacaq düşmənə sərrast və daha az itkiylə cavab vermək taktikası hazırlayırdılar. Zabitlərimiz də bu cəhənnəm iztirabına uyğunlaşdıqca, hələ ki, ayaqda olan əsgərin qiymətini bilməyə başlamışdılar deyəsən: hardansa, içməyə yaramasa da su tədarük edilmiş, quru çörək, konserva

payımızı artırmışdılar. Sonra başa düşdük ki, yox... bu qayğı deyilmiş – təhlükəni anbaan gözləyən Böyüklərin ölüm qabağı Kiçiklərə olan minnətiymiş. Gözü və qarnı ac döyüşçü güllləsiz də ölüdür! Onsuz da müharibələrdə döyüşən əsgər, hər an bir süngünün, bir güllənin, partlayacaq bir minanın hədəfindədir. Hər əsgərin məhvi isə zabitlərin özünü ölümə daha da yaxınlaşdırır... Hər kəsin sifətində "bu müharibənin bizə, mənə dəxli yoxdu " sözləri aydınca yazılsa da bunu dilinə gətirəcək, üsyan edəcək qədər gücsüz idik. Əlac vardımı? Bu dövlətdə xalq bir ovuc qum qədər qiymətsiz, bir insan tirdəki nişangah kimi qəpiklə ölçülən bir şey olduğunu kim bilmirdi ki? Hamı bununla barışmışdı. Heç kəs ölmək istəmirdi. Heç kəs belə tez ölmək istəmirdi.

Gecə, həyacan siqnalı əfqanların qəfil basqınından bir neçə saniyə gec verilmişdi. Qanlı döyüş başladı. Avtomatlar şaqqıldadıqca vıyıldayan güllələr göy üzündə bir atəşfəşanlıq yaratmışdı ki!.. Qonşu düşərgədə toplardan atəş açılmasaydı bir göz qırpımında hamımızı it kimi gəbərdəcəkdilər. Amansız döyuş yarım saatdan az çəksə də mənə elə gəldi bu dəhşətin sonucu olmayacaq...

Polkovnik Romanov özündən çıxmışdı; kəşfiyyatın məlumatına görə çalmalılar çox uzaqda olmalıydı. Sanki göydən düşdülər, bəlkə də yerdən çıxdılar – bilmək olmurdu. Gəldikləri kimi də cəmi üç nəfər itki verərək yoxa çıxdılar. Bizim itkimiz isə iyirmi beşi keçmişdi. Öldürülənlərin çoxu keşikdə duranlar idi – yazıq uşaqların başlarını qurbanlıq qoyun kimi xirtdəyindən üzmüşdülər. Özümü tanıyandan bu qədər qan görməmişdim.

Səhər meyidləri "Ural"a yükləyəndə bildim ki, Timofeyi də evlərinə "göndərirlər"...

Onu döydüyümə görə çox heyfisləndim.

O gündən daha ayıq-sayıq olmağı tapşıran polkovnik Romanov bütün zabitlərə əmr verdi ki, gecə– gündüz gözətçiləri postlara cüt-cüt qoysunlar. (Əlbəttə! Canlı hədəf deyildikmi?!)

... Yaxınlıqdakı dərənin o üzündə balaca kənd vardı. Kəşfiyatın məlumatına inamını itirən polkovnik əmr verdi ki, çalmalıların – əfqan mücahidlərinini gizlənib-gizlənmədiyin dəqiqləşdirmək üçün ora başqa dəstə göndərmək lazımdır.

Dəstənin başçısı leytenant Kostalevski məni, Qlebi, bir də tacik Parvozu seçib hazırlıq görməmizi əmr edəndə Andreyin də dəstəmizə qoşulmasını xahiş etdim – bilirdilər – özümdən aralı qalmasını istəmirdim. Qəribədir, leytenant Andreyin zəif görünüşünə baxmayaraq ürəyində "bu ələngəni niyə əsgər çağırıblar" deyə ağzını büzdüsə də, razılaşdı.

Mən bu cəhənnəmə düşəndən sonra "uçebka"da baş vermiş əhvalatı unutmuşdum. Hər saniyə ölüm qoxusu gələn tozanaqlı əfqan torpağında elə "xırda" dava-dalaşı yada salmaq, nədənsə, gülünc gəlirdi mənə. Amma indi, Andreyin də bizimlə "fərsiz" kəşfiyatçıların məlumatlarını dəqiqləşdirmək üçün (guya biz kəşfiyyat məktəbin bitirmişdik?!) dəstəyə salınmasını xahiş edəndə Qlebin ətli cəmdəyinə vicvicə düşdüyünü hiss etdim. Timofeyin həlakından sonra artıq güvənəcəyi kimsə də yox idi. Hətta, "o gedirsə... mən qalıram" demək könlündən keçdi də. Amma müharibədə könüldən çox şey keçər. Bizi isə ölməyə gətiriblər bu boz səhralara, ölməyə !...

Yük torbamıza iki günlük "suxoy payok", hərəyə dörd maqazin patron, qumbara, siqnal raketləri, yağışdan, həm də gecənin soyuğundan qorunmaqçün plaş-palatkamızı götürüb axşamüstü dağlara tərəf yola düşdük. Avtomatın süngüsünü palçıqla sürtürdük ki, qaranlıqda parıldamasın.

Bizim mövqeyimizdən baxanda o nəhəng dərənin üstündəki gil və qamışdan, qaya daşlarından yapılmış kənd ovuc içi kimi görünürdü, amma, ora getmək üçün qarşıdakı sıldırım qayalıqların arasıyla üzüyuxarı getmək, sonra da yol-iriz tapıb aşağıya enmək lazım idi. Tacik balası Parvozdan özgə belə sıldırım dağları görməmiş dəstə üzvlərini çətin və təhlükəli aşırım sehirli qüvvə kimi özünə çəkirdi.

Bir kilometrə yaxın, bəlkə də bir az çox getmişdik ki, narın-narın yağış yağmağa başladı – yayda, ilanmələyən bu yerlərdə nə bivaxt yağış idi, anlamadıq. Cavan leytenantımız avtomatları qundağı yuxarı asmağı əmr etdi ki, süngülərə vurduğumuz palçıqğı yağış yumasın. Elə də etdik. Plaşlar uzun və gen idi, yoxsa biz bəstəboy olduğumuzdanmı balağı ayaqlarımıza dolaşdıqca sürüşkən qaya parçalarının üstüylə yerimək çətinləşirdi? Yuxarı çıxdıqca yol bir üzü uçurum, bir üzü də qayalıq boyu dar cığıra çevrilir, ayaqlarımız çəkmələrin içində "oynayırdı".

Arxada qoyduğumuz müdhiş mənzərə gecənin zülmətində itib-batdıqca haradasa bir ayaq enində ağac parçasının üstündə yeriyən kəndirbaz kimi tarazlığı itirmədən kor-koranə, cınqırımızı belə çıxarmadan qarşımızdakı əcaib qaranlığa sarı gedirdik...

Leytenant bir kaha gördü. "Burda gecələyək!" deyib kahaya girdik. Çörək, tuşonka çıxarıb iştahla yeyəndən sonra plaşımıza bürünüb yatışdıq. Andrey növbə çəkirdi...

... Nə qədər uzaq da olsa o qədər yaxın xatirələrim Mədəti də yaddaşımın izinə salmışdı. Yenə də "yormuram ki?" soruşdum. Marağını gizlətmədi:"Sonra nə oldu?"dedi.

... Səhər açılar – açılmaz gözünün acısını almış leytenant qalxmağımızı əmr etdi. Özümüzü sahmana salıb yola düzəldik. Yağış kəsmişdisə də yöndəmsiz qayaların üstüylə axıb gələn lilli suyun son damcıları, ahəstə-ahəstə dar cığır boyu sərələnmiş qənbər daşların arasıyla süzülüb uçrumun altındakı dərəyə tökülürdü. Yüksəklikdəki axırıncı qayalıqdan dönüb aşırıma düşürdük ki, ucu-bucağı görünməyən boz dağların arxasında günəşin ilk işıltısı gözlərimizi qamaşdırdı.

Bu necə kənddi? Nə bir xoruz banladı, nə azan səsi eşitdik. Səhər isə açılırdı...

Üzü aşağı düşmək bizə asan gəldi. Yağış kəsdiyinə görə yığıb torbamıza qoyduğumuz uzun plaş daha hərəkətimizi ağırlaşdırmır, nə də daş-kəsək altında gillənmiş torpaq daha

ayağımız altında laxlamırdı. Bəzən çəpəki, gah biri-birimizdən, gah da yarpaqları mücəlib qurumuş çır alça kollarından yapışaraq axırıncı aşırımı keçib kəndə çatdıq.

Bir tərəfdən dağın sinəsində, bizim düşərgəyə sarı isə dibi görünməyən dərənin beş-on metrliyində yerləşən bu məkan kənddən çox, üstünü çətir kimi bağlayan nəhəng qayalığın altında qurulmuş müvəqqəti sığınacağa oxşayırdı; nə bir ağac, nə bulaq vardı, nə də ins-cins həniri gəlirdi. Sanki, yüz illərdi bura canlı ayağı dəyməyib. Balaca, əyri-üyrü dalana qucaq açmış palçıq daxmalar bir haya bənd idilər ki, ovulub tökülsün, yerlə-yeksan olsun.

Leytenant ətrafı nəzərdən keçirdi. ”Bəs hanı bu lənətə gəlmiş düşman? Deməli kəşfiyatçılar düz məlumat veriblər?!” Sakitlik idi. Biz də o günkü müsibəti yada saldıqca “düşmən”lə üz-üzə gəlmədiyimizə görə gizlincə sevinirdik. Amma bu sevinc üzdə idi, içimizdə anlaşılmaz bir qorxu, ürəyin damarlarını titrədən vahimə vardı. Bunu danmaq mümkün deyil. Beləydi.

Leytenant Kostalevski boynundakı durbinlə ucsuz-bucaqsız dərə boyu uzanan yola nəzarət edir, Parvozla Andrey isə adamı vahiməyə salan ölü kəndin əhatəsində bu yerlərə nabələd insanı ilk baxışdan aldadan oxşar, ekiz təsəvvürü yaradan, əslində isə hər qarışında bambaşqa mənzərə, başqa rəng, min illərin tarix yaddaşı uyuyan boz dağların tilsiminə düşmüşdülər. Qleb avtomatını dizləri arasına sıxıb dərənin uç metrliyində oturmuşdu.

Təzəcə doğmuş günəşin qızılı şüaları qırmızı dağlarda, qayaların arasında gizlənpaç oynadıqca gecənin iliyimizə işləyən soyuğunu diksindirirdi. Hələ sümüklərimizə yeriməyən istinin gücünü bir azdan daha yaxından hiss edəcəkdik. Qəribədir, Qobustan qışlaqlrına daha çox bənzətdiyim əfqan torpağında elə bil günəş kimi dağlar da, çöllər də, hətta otlar da qırmızıya çalır. Qobustandan fərqli olaraq addımladıqca havadan yovşan ətri gəlmir bu yerdə. Yoxsa mənə elə gəlir?

Peşab eləmək üçün yük torbamı çiynimdən çıxarıb yerə atdım, onun yanına avtomatımı qoyub uçurum dərənin kənarına yaxınlaşdım. Aşağı baxa bilmədim; dərə boyu qayalardan qopub üzü aşağı yumarlanaraq üst-üstə qalanmış iri, qonur daşların arasıyla ilan kimi qıvrılaraq dünyadan xəbərsiz kimi axan sısqa çayın səsi eşidilməsə də, zəhmi adamı özünə çəkirdi. Bu cazibədən özümü qorumaq üçün gözlərimi göyə zilləyib şalvarımın düyməsini açanda bir çıqqıltı eşitdim. Əvvəlcə elə başa düşdüm ki, sakitlikdən istifadə edən uşaqlar kol-kos yığıb tonqal qalamaq istəyirlər. Sonra "nə tonqal... başımızı cəncələ salmağa heç leytenant icazə verər?" deyə fikirləşirdim ki, ikinci, bu dəfə küt, daha sərt səs gəldi: "şarakk... "

Heç şübhə etmədim – kimsə avtomatı döyüş vəziyyətinə gətirdi. "Bizimkilər yəqin basmaçları görüblər... " Barmaqlarım əsə-əsə şalvarımın düyməsini bağladım yoxsa yox, amma gözümü mavi səmadan ayırıb çevrildim; əlimlə gözlərimi qamaşdıran günəşi "boğdum", baxdım ki, yük torbama söykədiyim avtomat yoxdu. Qleb öz silahını süngüsündən yerə sancmış, mənimkini isə döyüş vəziyyətinə gətirərək Andreyə və Parvoza sarı tuşlamışdı. Hamımız çaşıb qaldıq. Barmaqları əsirdisə də gah mənə, gah leytenant istiqamətinə baxıb fikrində tam ciddi və qəti olduğu bildirdi:

– Kim yaxınlaşsa... atacam. Yerinizdən tərpənməyin, eşitdiniz?! Atacam...

"Tülkü oğlu, tülküymüş! Mənim silahımdan atmağı da qabaqcadan fikirləşib... oğraş! Məqam axtarırmış... İkimizdən də intiqam alacaq... Andreyi vuracaq, deməli özünü də vuracaq mənim silahımla? Hər şeyi fikirləşib, it oğlu, yoxsa heç kəs inanmaz... Məni "dizbat"a salacaqlar... Bəs leytenant, Parvoz? Bəlkə hamımızı vuracaq ?... "

– Qraçov!... Axmaqlıq eləmə! – Özünü itirmiş leytenantın həyacanlı bağırtısı məni fikirdən ayırdı. Sonra bir az udqunub nəsə fikirləşdi, lap həlim səslə, – oğlum, – dedi, – sonra peşman olacaqsan, qoy, qoy yerə silahı.

Andreyə işarə elədim ki, nəbadə hərəkət eləsin. Qorxaqların əlindən çıxan xəta həmişə gözlənilməz və ağlasığmaz olur. Gənc leytenant düşdüyümüz vəziyyəti götür-qoy edir, avtomatı, titrəyən əlində o yan bu yana oynadan Qlebin gözlərinin içinə baxa-baxa ona yaxınlaşırdı. Qleb hiddətli bir səslə bağırdı:

– Y-yaxınlaşma!.. Komandir, mən za-zarafat eləmirəm. Gəbərdəcəm hamınızı... it uşağı!

Leytenant dayandı:

– Yaxşı... Gördün, yaxınlaşmıram... indi gəl kişi kimi danışaq. Səni kimsə incidib? Sənə nə olub axı? Bura heç birimiz öz istəyimizlə gəlməmişik, oğlum... Başa düş... mənimçin də ağırdır... Müharibədir...

"Unutmub... əclaf... Neçə vaxtdır fürsət gəzirmiş, deməli. Mən axmağ da, gör silahımı kimin yanına qoymuşam. Axmağam, axmaq!"

Heç nədən xəbərsiz yazıq leytenant da elə bilir ki, Qleb burda, bu cəhənnəmdə olduğuyçun bezişib. İndi leytenantın səsindəki yalvarış daha çox hiss olundu.

– Çavuş Qraçov, qoy yerə... silahı... Yaddan çıxaraq...– Bizə tərəf baxıb müraciətlə – hə, uşaqlar,– dedi, – unudaq getsin... Bu bir zarafat idi...

– Nə zarafat, sənin ananı!.. Zarafat qurtardı, qurtardı! Bu müharibə də m-mənim yox, s-ssənin müharibəndi. Sizin!...– Əsəbi halda qışqırtısından ətli boynundakı damarları tarıma çəkilmişdi.

Qleb avtomatın qundağını bərk-bərk sinəsinə sıxırdısa da şəhadət barmağının tətikdən aralı, havada titrədiyini hiss edirdim. Hərçənd ki, bu aldadıcı qorxaqlıq bircə anda, məsələn, Andreyin avtomatı çiynindən çıxarmağa cəhd etməsi, leytenantın tapancasına əl atması təqdirində cəsarət həddinə gələ bilərdi. Neçə vaxtdı yığılan qəzəb, nifrət və intiqam hissini gözlərində aydınca oxumaq olurdu. Diqqətlə baxsaydın o qəzəbli baxışlarda bir az cəsarətin kəmliyi, bir az da

məzlumluq görərdin. Səsindəki titrəyiş də ağır bir hökm çıxarmaqda tam qətiyyətli olmadığına, hələ tərəddüd etdiyinə işarə etsə də belə bir situasiyada beyni çönmüş adamdan nə desəydin gözləmək olardı. O sağ ayağını yerə çırparaq bağırmaqda davam edirdi:

– Andreyy, it oğlu, silahını qoy yerə... it oğlu! Sənin ananı ağladacam... Qurd-quşa yem olacaqsız hamınız...

İşarə etdim ki, silahını yerə qoysun. Rəngi ağappaq ağarmış Andrey bir mənə, bir də leytenanta baxdı. Zabitin baxışlarıyla "tərkisilah olmağın məsləhətdir" işarə etməsindən sonra kalaşnikovu qurumuş kolun üstünə atdı.

"Nəsə etmək lazımdır? Nə, necə?... " Bir an, sadəcə bir göz qırpımı, məqam lazım idi ki, titrəyən barmağına təpər gəlsin... və bir maqazin güllə hansımızısa, bəlkə də hamımızı xəlbirə döndərsin. Bayaqdan beynimdə nə edəcəyimi götür-qoy edib, atacağım addımın əsarətində qalsam da, düşüncəmdə o anı geri çəkirdim, gücüm çatmayacağı təqdirdə Tanrıya dua edirdim ki, zamanı bir anlıq dayandırsın. Bu ki onunçun su içmək kimi bir şeydir?!

Qleb arxasını mənə çevirəndə leytenant riskli qərar qəbul edəcəyimi duydu. Axı silahsız da olsa, ona ən yaxın mən idim. Artıq düşünmək zamanı deyildi. Qəfildən üç-dörd addımlıq məsafəni birnəfəsə, arxadan pişik kimi şığıyaraq çiyninin üstündən qollarımı açıb sinəsinə dayadığı avtomatın korpusuna sarılıb geriyə qıvrıldım ki, qamarlayıb əlindən alım. Qleb mənim qəfil basqımdan necə karıxmışdısa şəhadət barmağını titəyə sıxmağıyla lüləsi göyə tuşlanan avtomatın havada şaqqıldaması bir oldu. İkimiz də qanrılıb yerə çırpılanda avtomatın kəməri çiynindən sivişib çıxsa da, arası kəsilmədən açılan son güllələr torpağın bağrını dəlib-deşsə də, qorxudan qıc olmuş barmaqları silahdan qopmurdu. Maqazindəki sonuncu güllə hansısa daşa dəyib vıyıldayanda uçurumun lap qırağında uzandığımızı gördüm. Ani bir hərəkətdən ikmiz də dərənin dibinə yumarlana bilərdik. Avtomatın kəməri sağ qoluma dolaşmışdı.

Sol qolumla onu özümə tərəf sıxdım. Dərənin ətürpədici cazibəsini duydum. Qəzəb dolu gözlərim Qlebin ölü rəngli sifətinə zillənmişdi. Piyli cəmdəyi əsim-əsim əsirdi. Bilirdim, o indi daha çox mənə nifrət edirdi. Dişləriylə alt dodağını necə sıxmışdısa üç yerdən al qırmızı qan puçurlanırdı. ”Qurtardı... hər şey bitdi.. ” deyə gözlərimi qapayıb açdım, başımı qaldırıb dərəyə tərəf işarə etdim ki, yerində qımıldanmasın, yoxsa...

Bu bir anda oldu. Dirsəyimi torpağa möhkəm dirəyib, güclə dizləri üstə oturdum. Gözlərində işıq sönmüş, qətiyyətsizlik, kədər, məyusluq, bir az da qorxu öz rəngləriylə onun solğun sifətində dolaşırdı. Yəqin ki, ədavətə görə intiqam hissiylə çırpınan, gizlincə buna məqam gəzən, döyüş tapşırığı yerinə yetirərkən yoldaşına xəyanət edən bir sovet əsgərinin gələcək aqibətini acı-acı düşünür, bəlkə də bu qədər aciz və fərsiz oğul olduğunu özünə bağışlaya bilmirdi. Sanki bütün dünyadan iyrənirdi, həyatdan, ətrafındakılrdan, hər şeydən bezmışdı. Sulanmış göz qapaqlarının kənarında yığılıb qalmış iki damla duzlu göz yaşı bir göz qırpımına bənd idi ki, sıx, iri kipriklərinin arasından süzülüb tozlu yanağına düşsün. Birdən, aramızda “uzanmış” kalaşnikovdan barmaqlarını üzdü, var gücüylə sinəmdən itələyəyib boğuq və çox kədərli səslə “poşli vı vse...” deyib özünü uçurumun qucağına atdı... Hündür tranplindən arxası üstə hovuza tullanan üzgüçü kimi bunu o qədər cəld və gözlənilməz etdi ki, ona tərəf uzanan əllərim havadan asılı qaldı. Az qala onun arxasınca uçacaqdım.

Bir neçə saniyədən sonra Qlebin dibi görünməyən dərə boyu əks-səda verən vahiməli bağırtısı eşidildi: “Maa-maaa.. aa... ” Sanki dağlar da onun səsinə hay verdilər: ”Aaa... aaa... ”

... Dərənin kənarında xeyli hərəkətsiz, quruyub qalmış leytenant ştabda canlı itki barədə necə məruzə edəcəyini götür-qoy edərkən, mən də gilli əfqan torpağını ovucumda sıxıb, indicə sal daşlara, şiş qayalara çırpınaraq parça-parça olmuş Qlebin qurd-quşa yem olacaq meyidini təsəvvürümdə canlandırır, özümü onun dəhşətli, dəhşətli olduğu qədər də mənasız

ölümündə dostum Andreyə ömürlük şərik olduğumu düşünürdüm...

Görəsən həmin anda Andrey nə fikirləşidi – təəssüfmü edirdi, yoxsa sevinirdimi? Onun baxışlarında, simasında bunu sezdirə bilən heç bir işartı görə bilməmişdim. Mən isə o vaxt da, elə indi də düşünürəm ki, görəsən imkanlı bir məmur cılız, yarıcan oğlunu nəyə görə əsgərlikdən saxlatdırmayıb? Yıxılmasan bərkiməzsən deyimini sınaqdanmı keçirmək istəyib, bəlkə, "kimin uşağından artıqdır ki " – fikirləşib? O doğurdan da, heç kimdən artıq deyildi! Heç olmasa sonradan bura düşdüyünü biləndə başqa hissəyə keçirtdirə də bilərdi. Deməli, qismət beləymiş. Ataların münaqişəsi, düşmənçiliyi kimisə qurbanlıq seçmişdi və bu qurbanlıq Qleb idi. Təkcə Qlebmi?..

Bir olan Allah da şahiddir ki, mən onu xilas edə bilməzdim.

Biz leytenantın əmrinə görə Qlebin yük torbasını, avtomatını götürüb xaraba kənddən uzaqlaşdıq ; üzü yuxarı qalxdıqca başımız üstündə alışıb yanan günəşin çevrəsində halay quran quzğunlar, arxada uzanıb gedən ölüm dərəsində atıb getdiyimiz şıkara "qonaq" getməyə məqam gözləyirdilər...

***

...Mədət bir müddət susdu. Sonra heyrətini gizlətmədən dedi:

– Çox dəhşətli hadisədir. – Bir azdan əlavə etdi. – Sənin dostun isə bivec adama oxşuyur, vallah!

– Sən elə düşünürsən? – Soruşdum.

– Ayə, sən ona qardaşlıq etmisən, can yandırmısan, özünü oda atıb ölümün pəncəsindən almısan... o isə, nə səni axtarıb, nə də ki, evini tanıtdırıb. Özü də deyirsən vəzifəli, imkanlı kişinin oğluymuş... Belə də dostluq olar?

Mən sadəlövhlüklə cavab verdim:

– Yəqin iş-güc imkan vermib. Vaxtı olmub. Bəlkə də başında bir qəzyə var?

– Biz qafqazlılar başqayıq, vallah! Sadəlövüy. Hamını özümüz kimi görürük... Neçə il Saratovda yaşamısan, heç bir dəfə gəlib yanına? Ya da ki, çağırıb Moskvaya ?

İstədim yalan deyəm ki, hə, gəlib, çağırıb... Sonra bir-iki gündür məni tanıyan Mədətin Andreyə qarşı sərt mövqe tutması özümü də çaşdırdı. İndi həmən sualları özüm özümə verdim ki, doğurdan da Andrey mənə qarşı niyə soyuq olub görəsən?

– Yox, – dedim, – gəlməyib. Moskvaya dəvət edirdi, amma mən getmirdim.

– Nə isə...– Boş fincanları götürüb mətbəxə keçəndə,– yerin hazırdı,– dedi, – get dincəl... Sabah gedib baxarıq, şto za druq?!...

Səhər açılmaq bilmirdi, yoxsa mən dan yerinin vaxtından qabaq sökülməsini istəyirdim? Həmişə beləydi, bir yerə getməyə hazırlaşanda gözümü yumub rahatca yata bilmirdim, səhəri diri açırdım. İndi lap narahatam, özüm də bilmirdim niyə. Mədətin dediyindən yaxında olur, lap yaxında... Moskva böyük şəhər də olsa, taparıq yəqin ki...

Heç özümdə bilmirəm onunla görüşə niyə can atırdım. Elə bil hansısa qüvvə məni onun dalınca salıb, axtar deyir, axtar... Görəsən o heç məni düşündümü? Axtardımı..? Bəlkə də heç yadına düşməmişəm...

Mədət “Opel”ini işə salandan iyirmi beş dəqiqə sonra beşmərtəbəli “Monolit” binanın qarşısında maşını saxlayıb pəncərəni açıb başını çölə çıxardı, binanın tinindəki yazıya baxıb dedi:

– Hə, bura olmalıdır... – Hər ehtimala qarşı, bir cibindən çıxartdığı ünvan yazılmış kağıza, bir də divardakı lövhəyə baxıb sözünü başıyla təsdiqlədi. Sonra binaya zəndlə baxıb nəsə hesablayıb əlavə etdi:– İkinci giriş... Getdik.

Sovet memarlığının gözəl nümunəsi olan bu bina elə giriş qapısından adamı heyran qoyurdu; hündür kalonlar, geniş

vestebül, ağ mərmər pılləkənlər, enli metal çərçivəli lift, divar boyu pannolar, addımlarımızın bina boyu əks-səda verən tıqqıltısı... Moskvanın çox binalarından seçilən bu möhtəşəm evdə mötəbər, adlı-sanlı kübar ailələrin yaşadığına şübhə etmədim.

Andreygilin mənzili ikinci mərtəbədə yerləşdiyini qapının ağzındakı sakinlər barədə məlumat yazılan lövhədən öyrəndiyimizdən liftə minmədik. Amma mənzilin qapısına çatanda başa düşdük ki, təngənəfəs olduğumuz geniş və hündür pilləkən əvəzinə yuxarı liftlə daha tez qalxardıq.

Mədət daima maşınla hərəkət etdiyindən pıllələr onu yordu, az qala ləhləyirdi. Yorulduğunu biruzə verməməkçin pilləkənin sürahəsinə söykənib dayandı. Sonra üzbəüz dayandığımız iri qırmızı qapını göztərib dedi:

– Düyməni bas.

Zəngin düyməsini basıb gözlədim. Açan olmadı. Bir də basdım, bir də...

– Heç kim yoxdu...

Mədət özünə gəlib qapıya yaxınlaşdı, sanki mən düyməni düz basmırammış kimi şəstlə məni süzüb zəngi ovcunun içiylə dalbadal bir neçə dəfə döyəclədi. Qapını açan olmadı.

– Elə bil ev boşdur, – müəyyənliklə deyib gözlərimdəki “niyə”ni oxuduğundan təsdiqlədi. – Zəngin səsi gup-gup guppuldayır, eşitmirsən ?

Zəngin səsinə bir az qulaq verib başımı tərpətdim ki, hə, guppuldayır..

Elə bu dəmdə vestibülün sol tərəfindəki mənzilin ağır dəmir qapısının kilidi iki dəfə şıqqıldadı, sonra bir də... daha sonra qapıya təhlükəsizlik üçün vurulmuş qalın zəncir tarıma çəkilənə qədər aralandı. Boğuq, xırıltılı, lakin mülayim bir səs gəldi:

– Cavan oğlanlar, sizə kim lazımdır?

Mədət bir qarış aralı qapının alaqaranlığında solğun, çuxura düşmüş, sulanmış gözləri, qaraqançır olmuş damarlarını

üzündəki dərin qırışlar belə gizlədə bilməyən ahıl, əldən düşmüş, lakin qanında olan aristokratlığını təsəvvür ediləcək qədər saxlayan qadını gördü. Rusca salam verib tələsik soruşdu ki, bilmir qonşuları hardadı?

Moskvalılara xas olan marağını gizlətmədən soruşdu:

– Siz onu hardan tanıyırsız?

– Mənim əsgərlik dostumdur... Andrey, – dedim, – Əfqanıstanda bir yerdə döyüşmüşük.

Andreyin adını eşidəndə qadın bir az ürəkləndi, zənciri bir az da tarıma çəksə də qapını açmadı. Sonra dərindən ah çəkib nazık rəngsiz dodaqlarını qırışmış barmaqlarıyla ovuşdura-ovuşdura təəccüblə soruşdu:

– Deməli bilmirsiz? Onlar... çoxdan burda yaşamırlar... Lap çoxdan... Andryuşa əməliyyat olandan sonra... unutmuşam... hə, deyəsən İsrailə köçdülər... Bilmirəm... Arvadı yəhuduydi deyəsən. Yadımdan çıxıb...

İxtiyarsız bir-birimizə baxdıq. Deyəsən ikimizin də yadına axşam etdiyimiz söhbət düşdü.

– Nə əməliyyat? – Təlaşla soruşdum.

Qadın sanki danışmırdı, səsini içindən dartıb çıxarır, sonra da bu səs aydın eşidilməyən xırıltıya bənzər sözlərə dönüb azca aralı olan qapının arasında boğulub qalırdı.

– Çooxx ağır əməliyyat... yazıq Andryuşa... Be-ləə...

Hələ ki üzümüzə bağlanmamış dəmir qapıya yaxınlaşıb başqa nəsə öyrənmək istədim. Az qala aralı qapıdan içəri soxulacaqdım. Qocanın soyuq nəfəsi, lal, solğun baxışlarıyla üz-üzə, göz-gözə dayanmışdım.

– Bizdən qorxmayın, xahiş edirəm, – deyə yalvardım, – bildiyiniz nə varsa mənə deyin... Xahiş edirəm...

Elə bil mənim qəflətən qapıya yaxınlaşmağım, səsimdəki həyacan qadını qorxutmuşdu. Bir yandan da qaralığım... Titrəyən barmaqlarıyla cəftədən yapışıb qapının üzümə bağladı.

– Daha heç nə bilmirəm... Dərman atmaq vaxtımdır. Gedin...

Zəhmlə kilidlənən qapının o üzündə deyinən qadının özü kimi xırıltılı səsi də yox oldu...

Yeganə ümidimin puç olmasından məyus olub Mədətə baxdım. Başını aşağı dikib durmuşdu.

***

... Yol boyu ikimiz də susduq. Əslində danışılası söz də yox idi. Mədət mənim çox məyus olduğumu gördüyündən maşını yavaş sürür, bəzən işıqforda yaşıl işıq yansa da dayanıb nəsə fikirləşir, arxadakı maşınların təkidli siqnal verdiyini görəndən sonra elə bil özünə gəlirdi. Hiss edirdim ki, dost axtarışının uğursuz alınmağı ona da yer eləyib.

Vağzal dairəsində maşını yolun kənarına çəkib saxladı. Cibindən bir kopa pul çıxarıb mənə uzatdı.

– Kefini pozma... Al, götür bunu, – deyib əlini irəli uzatdı. – Görürsən dayanacağı? Taksi saxla, get Petrovskiyə... Yaxındadı... Mənim vacib işim var, qurtaran kimi gələcəm... Vitalik səni bazarın girişindəki gül dükanında gözləyəcək... – Sonra da narahat görkəm alıb soruşdu. – Azıb eləməzsən ki? – Mənim inciyən kimi olduğumu görüb gülümsündü. Dodaqlarım qaçdı. – Zarafat eləyirəm. Uşaq deyilsən ki...

Pulları cibimə qoyub maşından düşdüm...

... Əvvəllər Moskva məni özünə çox çəkirdi – Kreml, Ostankino, Puşkin muzeyi, Tretyakovka, Taqanka... İndi Moskva da Bakı kimi bazarlarıyla tanınırdı.

Belorus vağzalının qarşısında taksiyə oturub, Petrovsk-Razumovsk bazarına sürməsini xahiş etdim. Yaz yağışı təzəcə kəsdiyinə baxmayaraq taksinin hələ də işləyən fırçası sanki yol boyu sıralanan hündür binalara, ağaclara sığal çəkirdi. Fərasətini mənə nümayiş etdirən orta yaşlı, yaşıl gözlü, şələbığ sürücü bir neçə dəfə ötmə qaydalarını pozaraq, nəhayət bazarın yaxınlığında saxladı. Pulunu ödəyib düşdüm. Bazarla üzbəüz

metro stansiyasının olduğunu görəndə taksiyə verdiyim pula hayıfım gəldi.

Gül dükanında gözləyən Mədətin dostu Vitaliki tapmalıydım...

Petrovsk bazarında əsasən Azərbaycandan gələn padarlar[1] al-ver etdiklərindən öz aralarında “padarovski rınok” da deyirlər. Hətta cavanlar böyük plakat yazıb vurublarmış bazarın giriş qapısına: ”Padarovskiy rınok”. Neçə ay yazı qalıb qapıda, heç bazarın yiyəsi, nəzarətçilər də hiss etməyiblərmiş. Bir gün gecə növbəsində olan milis patrulu diqqətlə oxuyandan sonra darvazadakı yazını dəyişdirdilər. İndiyə qədər bunu kimin etdiyi sirr olaraq qalır.

Bazarın girişinə yaxınlaşanda balaca gül mağazasının qarşısında iki həmyerlim söhbət edirdi. Buna söhbətdən çox mubahisə də deyərdim – bu qələbəlikdə, sanki onlardan özgə kimsə yox idi. Bilmirəm, təbiətən sakit olduğuma görəmi boş yerə mübahisə etməz, bərkdən danışmağı da sevməzdim. Lakin nə etmək olar ki, biz bərkdən, bəzən də qışqıra-qışqıra danışmağı xoşlayan xalqıq.

Gül mağazasına daxil oldum. Çox da geniş olmayan, alıcını uzaqdan cəlb edən şüşə vitrinləri boyunca, plastik örtüklü arxa divarın küncündə qoyulmuş satıcı qızın balaca stolundan başqa mağazanın hər yeri cənnət bağçasını xatırladırdı; rəngbərəng güllər, çiçəklər, saxsı qablar, vazalar... Xoş, bihuşedici ətir içəri girəni məftun edirdi. Necə gülsüz çıxasan burdan...

Satıcı qız məni görcək yaxınlaşdı. Nişan, toy, ya da görüş üçün buket istədiyimi soruşub ağ zanbaqları, qırmızı qızılgülləri, pion və xrezantemaları göstərdi. Qızın necə diqqətcil və qayğıkeş olduğunu söyləyib Vitaliki soruşdum. Sarışın satıcının yanaqları qızardı.

---

[1] Padarlar – qədim türk tayfalarından birinin adı. Azərbaycanda bu adda çoxlu kəndlər qalmaqdadıər. (Redaktorun qeydi)

– Üzr istəyirəm, – deyib tələsik küçəyə çıxdı. Bayaq hündürdən danışan həmyerlilərimdən hündürboy, qara saçları səliqəylə yana daranmış, qonur gözlü oğlana nəsə dedi, o da həmsöhbətiylə tələm-tələsik xüdahafisləşib qızla geri qayıtdı. Yəqin, dedim, Vityanın yerini o bilir.

– Xoş gəlmisiz, – deyib gülümsədi. Təmiz Gəncə şivəsiylə danışan bu oğlan özünü təqdim etdi.– Vitya... ee.. sən Allah bağışlayın, Vəfadar.

Gülümsəyəndə iki qızıl dişi dodaqları arasından irəli çıxıb parıldayan cavan oğlan Vitalik, daha doğrusu Vəfadar imiş. – Burda hamı məni Vitalik kimi tanıyır...

Çaşqınlığımı biruzə versəm də: – Xoşdu, – deyib əlini sıxdım. – Rüfət...

– Bəs Mədət qağa hanı? Səhərdən sizi gözləyirəm..

– Mədətin bir az işi var, gələr, – dedim.

Köhnə dost kimi qoluma girdi, satıcı qıza təşəkkür edib mağazadan çıxdıq. Aramızda on-on iki yaş fərq olmasına baxmayaraq Vəfadar mənimlə "siz"lə danışırdı. Hiss edirdim ki, nəzakət xatirinə belə edir. Mənə "sən" deyə müraciət etməsini xahiş etdim. Elə bil bunu gözləyirdi.

Vəfadar:

– Sən canın, inciməzsən? – deyib başladı danışmağa.– Qağamın dostuna canım da qurban! Gedək iş yerini göstərim. And olsun bizi yaradana, bu bazarda ən xadavoy toçkadı...

"İş yerini" elə təmtaraqla vurğuladı ki, sanki deputat kreslosu təklif edirdi mənə. Giriş qapısının o biri hissəsində, lap iri darvazaya bitişik balaca konteyneri göstərib tanışlığa davam etdi: – Yerlimiz işdədirdi... Yeganə meyvə toçkasıdı, mən ölüm! Alver şıdrığı, pul yağış kimi... Kef elə dəə, mən ölüm !

Yaman xoşuma gəlmişdi Vəfadar. Bu neçə ildə birinci dəfəydi ürəkdən sevinib güldüm. Bilmirəm nədən, demək olar ki, Moskvada yaşayan həmvətənlərimin hamısında olan optimizmə, həyat sevgisinə, isti münasibətinə heyran qalmışdım.

Elə bil Vətəndən kənarda başqalaşırlar, dəyişirlər. Hardan, nədən qaynaqlanırdı bu xoş hisslər?

Cibindən iri seyf qapısının açarına bənzər bir şey çıxarıb qapını laybalay açdı. Çoxdan qapısı bağlı olduğundan içəri boğanaq idi. Dəmir konteynerin divarları da döşəməsi kimi taxta parçalarıyla yığılmış, səliqəsiz də olsa divar boyu üstünü toz basmış meyvə-tərəvəz rəfləri düzülmüş, küncdə köhnə, qırmızı rənglə boyanmış tərəzi qoyulmuşdu. Üzümə diqqətlə baxıb məmnun olduğumu görəndən sonra dedi:

– Qaldı buranı doldurub işə başlamaq. Xeyirli olsun!

– Sağ ol, qardaş! – dedim.

Bir az keçmişdi Mədət də gəlib çıxdı. Xeyir-dua verib "heç nədən narahat olma" dedi.

– Bu bazarın " iti-qurdu " özümüzünküdür... Yer pulunu verərsən Vəfadara. "Tixon"un adamları sənə dəyməz... svoyski uşaqlardı. Bazarın krışasıdır Tixomir...

Sonra Vəfadardan üzr istəyib ciddi görkəm aldı, təklikdə, məxfi söhbətə başlayırmış kimi əlini qeyri ixtiyari çiynimə qoymaq istədi, (yəqin köhnə adətiymiş ) yadına düşəndə ki, mən ondan hündürəm və əli çiynimə çatmayacaq, biləyimdən yapışaraq kənara çəkib dedi:

– Çalış tanımadığın adamlarla ünsiyyət qurma, hələlik qaldığın yeri də heç kimə tanıtma... Bir də... uşaq-zad deyilsən ki... qızlarla bir az ehtiyatlı ol. Bura Moskvadır, hər şey ola bilər. Maşallah, pəhlivansan görürəm... Dedilər Qarabağda da döyüşmüsən. Amma qoluna da hər zaman güvənmə haa. İndi qol yerinə pistoletlər danışır – yadından çıxarma.

– Narahat olma, – dedim.

– Amma, qol da vacibdi... Bir də, məni tapmasan, nə problemin oldu, Vəfadara de, utanma. Malı hardan, neçəyə alacaqsan, o başa salacaq. – Sonra nə fikirləşdisə dayandı. Çevrilib konteyner tərəfə baxıb davam etdi. – Həə... Əsas məsələ qaldı. Yerin düz bazarın qabağındadır, deməli xatalı yerdi. Bazarın içinə "Tixon"un dəstəsi nəzarət edir. Moskvada

hər yer bölünüb, hər yerin sahibinin də sahibi var... Buralar isə şəhərin ərazisidir. Deməli, “Berkut”undur...

– Berkut kimdi?

– Özünü heç görməmişəm, amma başkəsənləri... professionallardır, əsl professional. Diqqətli olmağın kifayətdi.

Maraqla soruşdum:

– Berkut bizim dildə nədir?

– Nə bilim, yırtıcı quşdur... qartaldan balaca, qızıl quş kimi bir şey... Nədi ki?

– Heç... – dedim.

Mədət danışdıqca yaddaşımla vurnuxurdum. Nə idi bu narahatçılıq? Əlbət ki, bandit, başkəsən söhbətləri ürəkaçan olmadığı qədər də qorxu yaratmırdı. İslanmışın yağışdan qorunmasına lüzum varmı? Yox, yox, mənim diqqətimi çəkən o balaca yırtıcı quş idi. Axı harda, harda görmüşdüm o quşu? Yox, quşları... İti caynaqlarında, əyri dimdiklərində qanlı ət parçaları, gözlərində biganəlik, saymamazlıq, yerişlərində ikrah doğuran xudpəsəndlik. Həə, Qarabağda. Döyüş gedən hər yerdə insanları saymazyana, ədasını pozmadan addımbaaddım izləyən, bircə “qrad” mərmisinin uğultuyla fit verib torpağa düşəcəyi anda arxayıncasına, inamla hər an leş üstünə çıxacaqlarına əmin olan yırtıcı sürüsü... Ancaq ilk dəfə, bədənimə vicvicə salan həmən yırtıcı sürüsünü ucu-bucağı görünməyən dərənin üstündə şıkarına hücum çəkməyə hazırlaşarkən görmüşdüm. Elə Andrey də. Bircə anın içində bütün Əfqanıstan qayalarında gizlənib məqamını gözləyən “duşman”lar kimi nə qədər qırğı-quzğun vardısa, hamısı Günəşin üzünə qara pərdə çəkəndə Andrey heyrətlə soruşmuşdu:

– İlahi, bunlar nədi belə?

– Qlebin iyinə gəliblər, qırğıdı...– deyəndə Andrey sanki pıçıltıyla təsdiqləmişdi:

– Yastreb? Net-net, berkut... Xişnyaya ptiça...

Mən də zarafata salıb demişdim ki, sənin familyandakı “sokol”– bizim dildə qartal deməkdir.

Deməli, sən o yırtıcı quşların ən nəhəngisən, Andrey!

Mədət də elə bil mənim ürəyimin içindəydi. Başını yellədi ki, hə, balacalar həmişə təhlükəli və gözlənilməz olur.

Kafedə yüngül qəlyanaltı edəndən sonra Vəfadarla razılaşdıq ki, səhərdən Dmitrov bazarına gedib dükana mal vuraq. Üstəlik Mədət işə başlamaq üçün iki min dollar pul verdi ; özü demişkən, əlborcu.

***

...Yeddinci aya keçirdi ki, dükanı işlədirdim. Vəfadarın köməkliyi ilə bazara yaxın birotaqlı mənzil kirayələmişdim. Metroya tərəf baxan eyvanından gözəl mənzərə açılırdı. Mənzildə bir nəfərin yaşaması üçün lazım olan hər şey vardı; çarpayı, soyuducu, qab-qacaq, paltar dolabı. Eyvanda 70 kiloluq ştanq, ik 40 kiloluq giri olduğundan lap keyfim kökəlmişdi. Məşq etmək üçün artıq heç nə almağa ehtiyac yox idi.

Ən vacibi isə hamam idi. Axşamlar yorğun-arğın gələndə, ilboyu isti suyu olduğundan duş qəbul eləmək nəyə desən dəyərdi. Bizim tərəflərdə nəinki gecə-gündüz şırhaşırla axan isti suyun, hətta içməli su belə qıt olduğundan hər dəfə suyun altına girəndə köhnə tövləmizin dalında məni çimizdirən anam, altını çır-çırpıyla, taxta-talaşla qalayıb qızdırdığı, üstü əyri-üyrü kəsilmiş yüz litrlik çəllək yadıma düşürdü. Yarı yaş, yarı quru odunun hisində qaralmış dəmir çəllək...

Al-verim Vəfadar deyəndən də yaxşı gedirdi. Pulum çoxaldıqca heyfislənirdim ki, kaş anam sağ olaydı, onu yanıma gətirib ingilis kraliçası kimi dolandıraydım!... Qazancımdan Mədətin əlborcunu qaytarandan sonra lazımı qədər mayalıq saxladım, qalan pullarımı da ona verirdim ki, saxlasın. Tez-tez görüşür, bəzən, axşamlar bir yerdə futbola, restorana, ya da teatra gedirdik. Canlara dəyən oğuldu Mədət. Elə Vəfadar da.

Başqa dostum yox idi. Səhər bazara, axşam da evə qaçırdım. Bir də, başım çox çəkmişdi deyə çalışırdım özünü mənə sırıyan qızlardan kənar gəzim. Beləlri o qədər idi ki!...

Bu gün bazar günüdür və al-ver nə qədər güclü də olsa bütün günü özümə sərf etməyi qərara almışdım. Pulu həmişə qazanmaq olar, özümü daa öldürməyəcəm ki?! Ona görə də zəngli saatı da qurmamışdım ki, doyunca yatım.

Yuxudan ayılanda saat on bir idi. Neçə vaxtdı bu qədər yatmadığımdan yerimdə qurcalanır, tənbəlliyimdən ayağa qalxmaq istəmirdim.

Xeyli o yan-bu yana çevrildikdən sonra nəhayət, yerimdən qalxdım. Pərdəni aralayan kimi solğun payız günəşi çağrılmamış qonaq kimi içəri doldu. Eyvana çıxıb ştanqla idman edib bədənimi açdım. Bax, indi oldu əla! Hamama girib duş qəbul etdim. Dişlərimi yuyanda gözüm güzgüdəki Rüfətə sataşdı. Sanki, özümü birinci dəfəydi görürdüm; saçlarıma düşən dənə, gözlərimin yanında, alnımda illərin naxışını salmış nazik qırışlara baxıb heyfisləndim. ”Yaxşı ki, gözümün nuru solmayıb hələ... ”

Kolbasayla holland pendirindən buterbrod düzəldib “vurdum bədənə”. Bir fincan qəhvə içib, nimdaş gödəkçəmi əynimə taxıb evdən çıxdım.

Payız gecikmişdi bu il. Həyətdə səki boyu düzülən nəhəng qovaq, ağcaqayın ağaclarının yarpaqları yamyaşıl idi. Tək-tük qızarmış yarpaq gözə dəysə də havanın həlim olması yaz aylarını xatırladırdı.

Bu gün özümə bazarlıq etməliydim. Payız-qış paltarım yox idi deyə əyin-baş almaq, həm də şəhəri gəzib dolaşmaq istəyirdim. Yeraltı keçiddən bazara girdim. Eşitmişdim ki, əllinci konteyneri işlədən Bəxtiyarla İxtiyar qardaşları Türkiyədən firma mallar gətirir. Baha da satsalar keyfiyyətlinə görə alıcıları çox olur.

Bazarda insan axınından yerimək olmurdu. Hər cərgəbaşı səsləndirilən yeni estrada hitlərinin qulaqbatırıcı sədası, səyyar “şaurma”, su, pivə satanların bağırtısı müştərilərlə şıdrığı al-ver edən satıcıların səs-küyünə qarışmışdı. Tanış ləhcələr, səslər bu hay-küyün içindən şütüyərək qulağımda cingildəyirdi. Cərgəy-

lə sıralanan dəmir konteynerldə al-ver edən həmyerlilərim müştəri cəlb etməkdən ötrü əldən-ayaqdan gedirdilər. Hər kəs öz malını tez və baha satmağa cəhd edirdi. Hər iki konteynerdən birində eyni malların olduğunu nəzərə alsaq, bunun onlara necə baha başa gəldiyini təsəvvür etmək çətin deyildi. ”Bizimkilər ticarətçün yaranıb” deyə düşünməyə haqqım vardı.

Birinci, qardaşların konteynerinə baş çəkdim. Gülərüz, çatma qaşlı qardaşlar ikisi də bir boyda, bir geyimdə olduğundan salam verib görüşəndən sonra adlarını desələr də, mənim üçün onları bir-birindən ayırd eləmək çox çətin oldu. Bəxtiyara İxtiyar, İxtiyara da Bəxtiyar deyə müraciət edəndə hər ikisi gülümsəyib, yarı zarafat-yarı gerçək “fikir vermə, anam da bizi həmişə səhv salırdı, vallah!” dedilər. Heç də zarafata bənzəmirdi.

Bu bazarda işlədiyimi, payız-qış mövsümünə əyin-baş alacağımı dedim. Qardaşlar Türkiyədən gətirdikləri yeni partiyadan bir-bir ölçümə uyğun kostyumları, palto və dəri gödəkçələri göstərir, hansı parçadan, hansı firmada tikildiyini başa salırdılar. Belə şeylərdən başım çıxmadığından gözümə yatımlı, zövqümə uyğun olanlarını seçdim. Bir dəri gödəkcə, iki kostyum, sviter götürüb konteynerin küncündəki soyunub-geyinmə otağına keçdim. Otaq deyəndə, bura iki tərəfi qırmızı parçayla tutulmuş, divarında iri güzgü vurulmuş künc idi.

Seçdiyim paltarları asacağa keçirib pərdəni çəkdim. Divardakı güzgünün çatlaq olduğu nəzərimdən qaçmadı. Ərklə, Bəxtiyara səsləndim ki, nə əcəb sınıq güzgünü dəyişmirsən? Yaxşı əlamət deyil bu...

Mən pərdənin bu üzündə olduğumdan hansı qardaşın cavab verdiyini təyin edə bilmədim.

– Ata bilmirəm, – dedi. – Əmioğludan yadigardı, qardaşım.

“Əcəb yadigardı. Belə də yadigar olar?” Kostyumun birini, bir də gödəkcəni bəyənib çıxanda İxtiyar qalanlarını əlimdən alıb yerindən asdı. Sviterin bir ölçü böyüyünü istədim.

– Xoşum gəldi, amma... bir az sıxdı, – dedim.

– Beş dəqiqə gözlə, skladdan gətirim. Bilirdim bu “sklad” məsələsini; kimdə ki, alıcının ölçüsü olmurdu skladdan gətirim adıyla qaçırdılar başqa konteynerə, lazım olan ölçünü tapıb gətirirdilər, təki, alıcı pərişan olmasın. Həm də biri-birinə yardım edirdilər bu cürə.

Bir daha boynundakı ölçüsünə baxıb konteynerdən çıxdı. Bəxtiyar gülümsünüb kostyumu və gödəkçəni iri paketə yerləşdirdi.

“Yadigar güzgü” məsələsini öyrənmək üçün marağımı gizlətmədim. Güzgüyə işarə edib:

– Yaxşı əlamət deyil, – dedim, – tulla getsin.

Bəxtiyarın üzündəki təbəssüm yoxa çıxdı. Fikrimi başıyla təsdiq edərək güzgüyə yaxınlaşdı.

– Bilirəm, – dedi. – Başa düşürsən, qardaşım, bu güzgünün üstündə əmioğlumun qanı var... Əlim gəlmir tullamağa.

Məni maraq bürüdü. Soruşdum:

– Nə olub ki?

– Keçən il, Samir, əmioğlumu deyirəm, qonaq gəlmişdi Moskvaya.. – Bəxtiyar kövrəldi. – Kaş gəlməyəydi. Uşaq... İşləməyə yox ee, helə-belə gəlmişdi, gəzməyə... Mənə deyən lazım idi ki, ay axmaq, uşağı bazara niyə gətirirdin axı?! Apar Qızıl meydana, sirkə, kinoya... O günə daş düşəydi!..

Bu vaxt əlində bir neçə sviter konteynerə daxil olan İxtiyar nəfəsini dərib qardaşının yarımçıq qalmış söhbətini dinlədiyimi görüb əlindəkiləri rəfin kənarına qoyub susdu.

Bəxtiyar o ağır, faciəli günün təsirinə düşdüyündən onun gəldiyini belə hiss etmədi.

– Bilirsən, – deyə davam etdi. – Samiri, lənətə gəlmiş bazara gətirdiyim gün konteyneri təzəcə açmışdım ki, aləm qarışdı birbirinə. Arxa cərgədən kimsə bağırdı: ”Gəldilər!... ” Elə bunu eşitdim. And olsun bizi yaradana, heç beşcə dəqiqə keçmədi, banditlərin bazara soxulmasıyla hər şey alt-üst oldu. Mənim konteynerimə üç pəzəvəng girmişdi. Əllərindəki beysbol dəyənəyilə boynumun ardından necə vurdularsa, huşumu itirib yerə

sərildim. Handan-hana özümə gələndə, birinci əmioğlu yadıma düşdü. Başımdakı ağrıdan bir şey anlaya bilmədim; Samir o güzgünün qabağında yerə uzanmışdı. Cərgələrdəki qıy-qışqırıq, hay-haray imkan vermirdi ki, kimisə köməyə haylayım. İlahi, o günü ömrümə yazma!.. Uşağa yaxınlaşdın ki, qaldıram... Təsəvvür edirsən, qardaşım, təsəvvür edirsən?.. Bu dəhşət idi!.. Samir, qanın içində, başından aldığı güclü zərbədən... ölmüşdü! Samir ölmüşdü...

Lənətə gəlsin bu sınıq güzgü! Bilsəydim, heç sual verməzdim. Mən onun hələ də sağalmamış yarasına duz səpmişdim. İxtiyara içəri girən müştərini göstərib, onu havaya çıxardıb toxtaqlıq vermək istədim.

– Sən özünü üzmə, – dedim. – Rəhmətliyin alın yazısıymış...

Sözüm ağzımda qaldı. Deyəsəın bunu çox demişdilər ona.

– Nə yazı-mazı, qardaş?! Qurban olduğum bir parça çörək dalınca didərgin düşən kasıb-kusuba nə vaxt rəhm edəcək?! Elə biz bədbəxtlərin alın yazısı olur, həə?!...

Mən Bəxtiyarı yaxşı başa düşürdüm. Əmisi oğlunun ölümündə özünü günahkar bilir, qovrulur, əzab çəkirdı... (Xaos baş alıb gedən keçmiş sovet məkanında bir parça çörək pulu qazanmağın nə qədər məşəqqətli, iztirablı, qorxulu olduğunu bu anları yaşayanlardan başqa kimsə anlamaz).

Nədənsə, bu bazara gəldiyim ilk gündə Mədətin bəhs etdiyi banditlər yadıma düşdü. Əvvəlcə soruşmağa ürək eləmədim, daha doğrusu, güclə sakitləşmiş Bəxtiyarı təzədən o günlərə qaytarmaq istəmədim. Marağım bu hissə güc gəldi. Soruşdum:

– Kim idi o banditlər?

Bəxtiyar təəccüblə xeyli baxdı.

– Deyəsən təzəsən burda?

– Hə, altı ay olar...

– Deyirəm də, bilmirsən. Tixomiri tanımamış olmazsan.

– Hə, bazarın yiyəsidi.

– Bax, o vaxtı "Tixon" adı gələndə hərə başını soxmağa bir deşik axtarırdı. Onun başkəsənləri bazar sahiblərini də, al-ver eliyənləri də zara gətirmişdi. İki-üç gündən bir basqın edib haqq ödəməyənlərin dükanını alt-üst edib talayırdılar. Qəribəsi o idi ki, bazarın sahiblərinə hədə qorxu gəlirdilərsə də, zərər çəkən biz yazıqlar idik. Necə deyirlər, yanan da mən, yamanda... Onların bir tələbi vardı ki, işləmək istəyirsizsə bizə haqq ödəməlisiz, yoxsa, halınıza baxın. Özü də elə məbləğdən dəm vururdular ki, bazar sahibləri yığdıqları yer pulunun hamısını da versəydilər yenə borclu qalırdılar. Özbaşınalıq olan ölkədə banditlərin qılıncının sağı da, solu da kəsirdi. Heç milislər də yaxın dura bilmirdilər. Elə indi də... Axırda, bezdilər haqq ödəməkdən, olan-qalanlarını yığışdırıb əkildilər, bazar da keçdi Txomirin əlinə... Əmioğlumu da onun cəlladları vurub öldürmüşdülər...

O hər dəfə Tixomirin adını elə astadan çəkirdi ki, sanki, kiminsə eşidəcəyindən ehtiyat edirdi. Bu neçə ayda baş verənlərdən hali olduğumdan onun təlaşını başa düşürdüm.

Söhbət banditlərdən düşmüşkən ondan "Berkut" barədə soruşdum. Çoxdan Moskvada al-ver etdiyindən onun barədə eşitməmiş olmazdı. Təəccüblə üzümə baxıb soruşdu:

– "Berkut"u hardan tanıyırsan?

– Yoox,– dedim,– tanımıram. Eşitmişəm bu barədə...

– Heç kim onu yaxşı tanımır, vallah! Deyilənə görə, Tixomirin bir düşməni varsa, o da "Berkut"du. Arxası yuxarılara bağlıdı. Demək olar ki, şəhərin yarısına nəzarət edir. Bulardan heç nə qopara bilmir, dişi batmır. "Tixon" da özünə görə deyil haa, avtortetdi. Bir dəfə güclü "razborka"ları da olub, qan su yerinə axıb. Vallah, eşitdiyimi deyirəm. Nə bilim...

– Görən olmub onu?

– Pul yığan var ee, Vitalik, o deyirdi ki, Moskvaya qara "Ceep"i birinci gətirən odu. Başqa heç nə ...

Məni maraq götürdü:

– Bizim Vitalik?! Gəncəli Vəfadar?

Bəxtiyar təəccübləndi:
– Hə də. Tanıyırsan onu?
Daha heç nə demədim. Fikirləşdim ki, yaxşı olar Vəfadarı görəndə soruşaram.
Cərgələr arasında bir az var-gəl edib İxtiyarın yanına qayıtdıq. O kostyum bəyənmiş müştəriylə haq-hesablaşırdı. Gülümsəyib onu yola salandan sonra mənə yaxınlaşdı. Bu söhbətin təsirindən özümü narahat hiss edirdim. Sviterdən birini götürüb əynimə keçirdim. Daha güzgüyə yaxınlaşmadım. ”Necədi?” – soruşdum.
– Əə-ladı, qardaş canı! – dedi. – Lap əyninə toxunub. Sağlıqla geyin!
– Hesabla ...
Bəxtiyar çox səmimi olaraq:
– Qonağım ol, – dedi. Mən təşəkkürümü bildirdim. Çox çək-çevirdən sonra beş yüz dolları cibinə basdım.
Sviteri də kostyum olan paketə qoyub, “mer-meyvə lazım olanda utanmayın, gəlin dükana” deyib qardaşlarla xudahafizləşdim.
Yol boyu “Berkut” fikrimdən çıxmırdı. Kim idi kabus kimi xəyalımda dolanan bu varlıq? Niyə axı yadımdan çıxara bilmirəm onu, niyə?!
Yaşadığım binanın altındakı marketə girib kolbasa, pendir, bulka alıb evə qalxdım. Ərzaqları mətbəxə, paltarları divanın üstünə qoyub duşa girmək istəyirdim telefona zəng gəldi. Mədət idi. Əvvəlcə mənzildən xoşum gəlib-gəlmədiyini, işlərin necə getdiyini, bir çətinlik olub-olmadığını xəbər aldı. Mən xatircam olduğumu bildirəndən sonra dönə-dönə “Bakı” restoranında görüşəcəyimizi yadıma saldı.
– Əlbəttə, – dedim, – sabah axşam yeddidə ordayam. Arxayın...

## Biz aldanmışıq, Rufatcan, aldanmışıq... Elə siz də...

– Ara, Rufaat, bu sənsən? Ara, albatta, sənsən!.. Ara, bayaxdan baxiram, baxiram... On, ili ne on? Kaneçno je on!.. Salam ara, Rufatcan... tı menya ne uznal? Mənəm daa, ara, Armen... ermenikend... Rafikin qardaşı... Qarabax, zasada... Yaddan çixib? Ay oynun olsun sanun! Tanimadi haa...

Əvvəlcə bizim masaya diqqətlə göz qoyub, sarışın, hündürboylu cavan ofisiantla bir şüşə "Ararat" konyakı göndərən, ərklə: "zemlyaki, nuş olsun!"deyib, başını yellə, dərək salamlaşan, sonra da mənə yanaşıb yüz ilin tanışı kimi qucaqlaşan, onunla "əlli-əlli" vurmağı xahiş edən orta yaşlı bu kişini indi yadıma sala bildim. O, Rafiqin adını çəkməsəydi, çətin ki, Marqonun təsvir etdiyi kimi yadımda qalardı. Hətta Qarabağda baş verən olayı xatırlatsaydı belə, Armen mənim yaddaşımda nəfəsindən səngər rütubəti, paltarından barıt qoxusu gələn, illərlə saqqalı qırxılmayan, dişləri saralmış, gözlərinin altı tuluqlamış zabit kimi qalmışdı... Əlbəttə, gizlədə bilmədiyim təəccübümü o da sezdi. Müəmmalı-müəmmalı gülümsündü.

Qarşımda bahalı ətir və Yerevan konyakının tünd qoxusu gələn qara kostyumlu, üzü təraş olmuş, cod saçları səliqəylə arxaya daranmış, qafqazlılara xas sərt üzlü, lakin artıq Moskva abu-havasını udub rəngi-ruhu dəyişmiş orta yaşlı bir kişi dayanmışdı. Sadəcə, bir balaca çox içdiyindən dil-boğaza qoymurdu ki, bu da ciddi-cəhdlə yaxın keçmişini ört-basdır edə biləcək avropasayağı geyiminə heç cürə yapışmırdı, hətta bir az da gülünc görsənirdi. Yaxşıca yeyib-içdikləri, keyflərinin saz olduğu onunla bir masa arxasında oturan, əsasən Moskva restoranlarında pullu, qadın düşkünü olan qafqazlı müştərilərlə yeyib-içəndən sonra onlara intim xidmətlər göstərən ayağısürüşkən qızların həddən ziyadə şənlənməsindən də məlum idi.

O bizim masaya yaxınlaşanda, ağzını açan kimi ləhcəsindən erməni olduğunu duymuş Mədət qoltuğunun altında saxladığı

pistoleti tez-tez barmaqucu “yoxlamasını” hiss etmişdim. Onu qınaya bilməzdim, çünki son vaxtlar Moskvada baş verən çaxnaşmalardan sonra üstündə silah gəzdirdiyini bilirdim – özünümüdafiə üçün. Amma burda, Allah eləməmiş, bir xəta çıxmasını heç birimiz istəməzdik!

Armenlə gözlənilməz görüşə məətəl qaldığım qədər də narahat olmağa başladım. Əvvəlcə, Mədət çağırılmamış sərxoş qonağın bizə “ilişdiyini” zənn edib, hər hansımıza zərər verə biləcəyini düşünərək tez ayağa qalxdı, onu çox mədəni formada, özünəməxsus təmkinlə masamızdan uzaqlaşdırmaq istəyəndə əlimlə işarə etdim ki, narahat olmasın, tanışdı. Yenə də ürəyimi yeyirdim: ”Birdən ağzından qələt-zad çıxardar, peşiman edər məni, onda necə? İçkili adamdan nə desən gözləmək olardı. Heç yeriydi? Əcəb yerdə axşamladıq.... ” Mədəti sakitləşdirsəm də mənim gərginliyimi duymuşdu. Arif adamdı bu Mədət.

Armenin qəfil şaqqanaq çəkib gülməsi məni fikirdən ayırdı. O artıq bizim masanın arxasında oturmuşdu.

Mədətlə Vəfadar, nəhayət ki mənim təzə işimi “yumaq” üçün Moskvanın düz göbəyində yerləşən “Bakı” restoranında masa sifariş verəndə mənim ağlıma da gəlməzdi ki, indiki vəziyyətdə azərbaycanlıların restoranına ermənilər də gələr. Əvvəlki vaxtlar deyildi axı?! Hələ də gözlərimin qarşısından getməyən müharibənin dəhşətləri qeyri-ixtiyari bunu düşünməyə vadar edirdi, burdakılarınsa heç vecinə də deyildi. Çaşqınlığımı görən Vəfadar sakitcə qulağıma dedi ki, narahat olma, bura Qarabağ deyil ha, biri-birimizə güllə ataq? Rossiya – şedraya duşa! Oralara ağlın getməsin, burda hamıya yer var. Təki öz yerini biləsən...

“ Bakı” restoranı öz interyeriylə, yüksək səviyyəli personalıyla, əsasən mətbəxi ilə – Azərbaycandan gətirilən cürəbəcürə ləziz təamları, təzə meyvə-tərəvəziylə fərqlənirdi və paytaxt qonaqlarının xüsusi rəğbətini qazanmışdı. Azərbaycanı, onun mətbəxini sevənlərin ən arzuolunan istirahət guşəsi, məhz

buraydı, inanın ki, burada hər kəs özünü Azərbaycandakı kimi hiss edirdi. Əlbəttə ki, Moskvada yaşayan, işləyən, qonaq gələn həmvətənlilərimiz də fəxr və iftixarla öz dostlarını heç fikirləşmədən, məhz bu restorana dəvət edirdilər.

Restoranın kiçik orkestri Tofiq Quliyevin hansısa tanış melodiyasını ifa edirdi. (Şarl Aznavurun mahnısını oxusaydılar heç təəccüblənməzdim.) Zalda nastalji kohnə Bakı abu-havası duyulurdu...

Mənim spirtli içkilərlə yaxın "dostluğum" olmadığından içmirdim. Vəfadar konyakdan süzüb tanışlıq şərəfinə badə qaldırdı. Vurdular.

O bizə yaxınlaşana qədər içkiliydi, həm də heç nə yemirdi. Deyəsən, konyak onu əməlli-başlı tutmuşdu. Tez-tez dostlarına tərəf boylanıb əliylə işarə edirdi ki, indi gəlirəm, amma bizdən belə tezliklə aralanacağına özü də əmin deyildi. Yəqiin ki, dostları onun xasiyyətinə yaxşı bələd olduğundan heç də narahat görünmürdülər.

– Çoxdan Moskvadasan? – Soruşdüm.

– O zasadadan iki gün sonra, tüpürdüm hər şeyə. Az qalmışdı sizə görə paz vursunlar dalıma. Ha-ha-haa !.. Ara, bu dava çox uzanacaq, vallax! Klyanus boqom, bizi lox sayırlarmış ee, loxx!... İndi qoy başqaları vuruşsun. Mən heyvan kimi yaşamaq istəmirəm daha...

Armenin səmimiyyətnə şübhə etmirdim. Düşmənçiliyin fanatikcəsinə beyinlərə tıxlaşdırıldığı, nifrət, qəzəb tüğyan edən bir vaxtda onun risk eləyib bizi azad eləməyi, doğrudan da ağılasığmaz bir hərəkət idi. Hələ indiyə kimi anlamıram ki, onu buna vadar edən nə idi?!.. O öz həyatı bahasına başa gələcək addım atmışdı. Elə o gündən də ona bir can borcum olduğunu unutmamışdım. Başqa vaxt, başqa bir şəraitdə onunla təsadüfən görüşsəydim nələr edərdim, özüm bilirəm. Xasiyyətimə bələd olanlar bilirdi ki, milliyətindən asılı olmayaraq hər insan üçün ürəyimdə yer var, təki insan olsun. Amma belə bir gündə rastlaşmağımız heç ürəyimdən olmadı. Mən heç e, bu uşaqlar

onu yaxşı tanımırdılar, bələd deyildilər, bir də şeytanın qıçını sındırıb, ayda-ildə bir dəfə bir yerə yığışıb kef çəkmək, dərddən-sərdən uzaq olmaq istəyirdilər, bu da özün hardan yetirdi, bir Allah bilir.

"Yaxşı, tanıdın, görüşdün, dostlarımla tanış oldun, bir "əlli" də vurdun... başqa bir vaxtda, daha əlverişli şəraitdə, həm də ikimiz görüşüb dərdləşə bilərdik, daha əhvalımızı pozan, dərdləri təzələyən söhbətlərin yeri deyildi axı?! Orda olanları qurdalamaq kimə gərəkdi axı?" Bir yandan da fikirləşdim ki, burda nə var ki, dərd elə hamımızın dərdidir, bunlar da mənim başım çəkən müsibətlərin kiçik xronikasına səyahət edirsə daha yaxşı, məni də yaxından tanıyarlar, bilərlər, maraqlanarlar bəlkə də... Çünki, heç vaxt, bəziləri kimi yerli-yersiz, yekəxanalıq edib cəbhədən, döyüşlərdən danışmazdım. Qəribəsi o idi ki, onlar bu barədə soruşmazdılar, mənə elə gəlirdi ki, bu mövzuda olan söhbətlər onlar üçün maraqlı deyil... Bəlkə yanılırdım, amma...

Ürəyimə min cürə fikirlər gəlirdi. Deyirdim, bəlkə bu bir təxribatdı, ya da sadəcə, əvvəlcədən hazırlanmış ssenariyə əsasən burda istirahət edənlərdən kimisə aradan götürmək üçün qurulan hiylədi. Elə məqam gözləyirlər ki, kimsə "millət", "torpaq" söhbəti eləsin, sözlər çəpləşsin və başlansın vur-haray... Belə hadisələr tez-tez olurdu axı. Restoranın ətrafında dolaşan milislər də elə bir haya bənddi...

Mən belə düşünürdüm, lap detektiv romanlardakı kimi bir anlığa xəyalımda da canlandırırdım. Çünki, düşmənlə səngərdə, üz-üzə döyuşmək ayrı, başqa şəhərdə bir stol arxasında oturub "vurmaq" ayrı. Düşmən yenə düşməndi. Diqqətimi çəkən, məni narahat edən isə zalda oturanların bizə tərəf çəpəki baxmasıydı; bizim öz dilimizdə danışdığımıza görə yox a, rus dilində danışsa da ləhcəsindən erməni olduğu açıq-aşkar bilinən Armenə görə. Onları başa düşürəm. Moskva da ki, özün bilirsən, balam, heç Bakıdan fərqlənmir; hara getsən, yalan olmasın, elə beş-on adamdan biri azərbaycanca danışır. Elə ki,

darıxdın, ürəyin sıxıldı, könlündən kiminləsə laqqırtı vurmaq keçdi – çıx şəhərin istənilən gur yerinə, budur, görəcəksən ki, nə bir, nə iki, lap beş nəfər həmyerlinə rast gəldin, day bazarları demirəm: hansına ayaq basdın, pəh, budu, hansı bölgədən istəsən tap, istədiyini al çənənin altına, doyunca mırtdaş da... Amma, birdən, çaşıb uzun illər dost olduğun erməniylə deyib-gülüb, danışdın, vay sənin halına – hərə bir vedrə bağlıyacaq. Hansı ki, o vedrə bağlıyanlar nə döyüşlərdə olub, nə də baş verənlərin məğzini bilirlər, hələ oğrun-gizlin ermənilərlə münasibət qurur, dostluq edir, şərik biznes də yaradır... Qonşu masalardan altdan-altdan, oğrun-oğrun, kinlə bizə dikilən gözlərə fikir verməmək kifayət edərdi ki, sakitcə durub burdan əkiləsən... Amma, lənətə gəlmiş bu qafqazlı qonaqpərvərliyi öz işini görürdü: qonağı süfrədən qovmayacaqdıq ki ?!

Armen öz aləmindəydi. Heç vecinə deyildi. Səsinin yoğun yerinə salıb danışırdı. Birdən səsi avazıdı, uşaq da hiss edəcək dərəcədə biruzə verdiyim narahatçılığımı görüb soruşdu:

– Ara, Rufatcan, deyəsən meşat elədim, haa?.. Bəlkə mən gedim?...

İncimişdi. Gözlərimin içinə baxa-baxa ürəyimin içinə girmişdi elə bil. Oxuyurdu ürəyimi.

Mədət qalxmaq istəyən Armenin qolundan tutdu ki, “otur”. Mən pərt olmuşdum. Gic-gic fikirləri beynimdən tullamağa çalışdım. ”Lənət sənə kor şeytan! “ Düşmən də olsa:

– Yoox... C-canımçun inciyərəm, – deyə bildim.

Dodağı yüngülcə qaçdı. Amma bu razılıqdan çox pərt olduğunu biruzə verməmək, özünü sındırmamaq üçün edilən jestə daha çox bənzədi. Oturdu.

Düzü, biz buraya Vəfadarın təriflədiyi quzu kababı yeməyə gəlmişdik. Demişdi ki, Moskvanın hər dəlmə-deşiyində olan kafe-restoranlarda kabab yemişəm, amma buranın kababından ola bilməz!.. Bir saat olardı tərifli quzu kababını sifariş edib oturduğumuz. Armenin gəlişinə qədər dəniz məhsullarından hazırlanmış soyuq “ Bakı” salatı, kolbasa, mal dilinin soyut-

ması, göy-göyərti, pomidor-xiyar, şor və pendirlə başımızı qatmışdıq.

Soyuq qəlyanaltılardan ona təklif etdim. Nimçəsinə salat-dan bir qaşıq çəkib iştahsız da olsa yeməyə başladı. Mənim kimi çəngəl-bıçaqdan istifadə etməyi yadırğadığı çəngəl-bıçağı gah sağ əliylə gah da sol əliylə tutmağından hiss olunurdu. Bir yandan da gərginlik öz işini görürdü.

Bir anlığa, əsirlikdə olarkən iri alüminium qazana çəkilmiş parça-parça mal ətini kirli əllə, elə qazandan götürüb dişimizə çəkdiyimiz gözlərim qarşısında canland – o süfrə hara, bu hara... Allahtərəfi deyim ki, Armen olmasaydı, bəlkə o, bizim son naharımız olacaqdı. Özümü güclə gülməkdən saxlaya bil-dim. Deyəsən Armenin də xəyalı oralarda idi – güldü.

Bir xeyli sakitlik hökm sürdü.

Ecazkar musiqi məni ovuda bilmirdi.

Ardı-arası kəsilməyən top atəşindən məhv edilmiş dəstə-mizdən beşcə nəfər sağ qalmışdıq. Buna möcüzə də demək olardı, qismət də. Nə deyirsən de, amma bu qismətin sonucu bizim əlimizdə deyildi. Düşdüyümüz şəraitdə heç nəyi götür-qoy eləmək imkanımız yox idi. Sağ qalmağımız isə kimlərinsə planını pozmuşdu. Sonralar, hospitala düşəndə, gözlərinə kabus görünürmüş kimi bizə baxan həkimlərin dediyindən belə çı-xırdı ki, o yüksəkliyə göndərilənlərin hamısı ölənlər siyahısın-dadı. Bəli, biz ölmüşdük!

Bombardmandan sonra hara getdiyimizi belə dərk etmədən yola düşmüşdük. Əsir düşəndə də möcüzə baş verdi desəm, yanılmaram. Möcüzəni o mənada deyirəm ki, eşidib gördüklə-rimdən dəqiq bilirdim, türkə qarşı amansız olan ermənilərin əlindən bir nəfər də olsun elə-belə, əvəzsiz qurtula bilməzdi; əvəzində ya yanacaq, ya da bir azərbaycanlı yerinə on erməni əsirini geri alardılar... Armen döyüş yoldaşlarına nə demişdi, sonralar özünü necə müdafiə etmişdi bilmrəm, amma danılmaz fakt o idi ki, həmin anda bizi öz həyatı bahasına xilas etmişdi...

– Ara, – deyib sükutu pozdu, – sizi buraxandan sonra fikirləşdim, fikirləşdim, kəlləmi yordum ara, bəs indi neca olacaq, ha?!... Uşaqlar kənddən qayıdanda nə deyəcəm ha olara?!... Ara, Rufat, mazzab haqqı, bu Armenin kəlləsi işləyirmiş, başın haqqı!.. Tövlənin qapısındakı axrannik molodoy paçan idi, özü də Spitakdan. Dedim ona ki, ara, kəndə getmədik, heç olmasa burda ikimiz bayram eləyək. Sizi göstərib dedim, ara, onlar heç hara qaçan deyil, halları pisdi... Gətir o tut arağından vuraq. Ara, o molodoy da buna bənd imiş ha, bir butulka tutovkanı içib tövlənin qapısının ağzında xoruldamağa başladı qoca kişi kimi, ha-ha-ha... hi-hi-hi... Mən də getdim palatkaya... Sonra nə oldu, başa düşdün da, ara...

O bunları elə sakit nəql edirdi ki, sanki dövlət əhəmiyyətli bir sirrin üstünü düşmənə açırdı.

Güləndə də səssiz kinodakı kimi ağzının açılıb-yumulması görünür, sonradan-sonraya cingiltili, qəribə bir xışıltı eşidilirdi. Birdən nəsə fikirləşib şübhəli-şübhəli o yan-bu yana boylanıb dəsmalı ağzına tutdusa da səssiz gülüşünü güclə saxlayıb ciddi görkəm aldı.

– İncimə haa, – dedi, – mən ölum düzünü de, mənim batalyonum zasadaya düşsəydi, buraxardun sağ-salamat? Tolko, çesno de, buraxardun?

Doğrusu, bu sualı heç gözləmirdim. Özündən razı halda mənim nə deyəcəyimi gözləyirdi.

Bəlkə düşməninə aman verdiyi, içini didən peşimançılığının yükünü, ağırlığını çiyinlərindən atmaq üçün, neçə vaxtdı mənimlə beləcə üz-üzə gələcəyini gözləyərək dilinin ucunda gəzdirirmiş bu sualı?! Bir yandan da fikirləşdim ki, elədiyi qəhrəmanlığı qabartmaqla, bir növ gözə soxmaqla, dostlarımın yanında özünə hörmət-izzət qazanmaq istəyir, yəni baxın, mən belə oğulam e!.. Nə deyəcəyimi bilmədim. Armen də mənim çətin seçim arasında qaldığımı duyub, dostlarımın diqqətini çəkəcək tərzdə, sualına özü də cavab verdi:

– Anamın goruna and içaram haa, bəlkə də sən buraxardın, bilmirəm, amma... buraxsaydun, sani gəbərdərdilər, masab haqqi!

– Bəs sən?... Əgər o hadisəni danışmasaydım, ya da Rafikin yerində başqa birisinin qardaşı, qohumu olsaydı necə? Axı o günə kimi Rafiklə görüşməyə də bilərdin?! Çox güman ki, onda mənim varlığım, yoxluğum səninçün bir əhəmiyyət kəsb etməzdi. Hə, birdən sənin yerində Karapetin qardaşı, lap elə özü olsaydı, mənim aqibətim necə olardı, təsəvvür edirsən?!

Mədətlə Vəfadar mənim düşündüyümdən də çox maraq göztərdikləri söhbətimizin nə vaxtsa yekunlaşacağını səbirlə, hövsələlərini basıb gözləyirdilər ki, nəhayət, əməlli-başlı yeyib-içsinlər. Amma söhbət getdikcə onları da özünə çəkirdi. Dedim axı, ilk dəfə görüşdüyümüzdən onun da, mənim də ürəyimiz doluydu, elə bil bu günə, ba saata qalmışdı hər şeyi ortalığa töküb ayırd eləmək...

– Həə, təsadüflər ... Nə yazıq ki, təsadüflər həmişə belə xoş olmur.

O çox məmnun görünürdü.

– Peşmansan?... – Qəfil soruşdum. Karıxdı.

Armen xeyli fikirə getdi, sonra qədəhinə konyak süzüb başına çəkdi, bir dilim limon götürüb yedi. Qətiyyətlə:

– Yoox, – dedi. – Bilirsən niyə?

– Niyə?

– Birincisi ona görə ki, kişi adamsan; kimdi, nəçidi bilmədən uşağı xilas eləmisən – Rafiki deyirəm, qoymamısan ölməyə. Bilirsən, Rafik Rastova gələndən sonra bütün məclislərdə sənin sağlığına badə qaldırırdı. Deyirdi ki, o mənim Anqel-xranitelimdir!

Deməli, yaşasın TƏSADÜF?!!

Həyatda elə təsadüflər olur ki, ağlına gəlməyən bəlalara düçar olmağa şərait yaradır, səni bir dünyadan başqasına aparır, yaşayışın cəhənnəmə dönür... Oturduğun, durduğun yerdə əsl zibilə düşər, xəstəlik, bəla tapar, hətta ölümlə üzləşər, özü də

bu o qədər gözlənilməz, o qədər ixtiyarsız olar ki, nə qədər soyuqqanlı olsan belə həmən təsadüfdən uzaqlaşmaqda imkansız olarsan. Və elə təsadüflər də var ki, ağlın, dərrakən səni başqa səmtə yönəlməyi, bəlkə də qaçmağı tələb edəndə belə ürəyinin hökmünə üstünlük verirsən – bu nə qədər təhlükəli və mənasız olsa belə...

Əsir düşəndə, ermənilər Cavidə işgəncə verərkən çoxdan unutduğum, bəlkə də əhəmiyyət vermədiyim bir hadisəni yadıma salmışdım. Nədən? Özümü, nə olacağını düşünmədən qoluzorbalının Cavidin başına gətirəcəyi müsibəti hiss etdiyimdən. Cavid Qarabağlıydı və onu əsiri olduğumuz ermənilər tanımışdılar, başa düşürdüm ki, ilk baxışdan çox çəlimsiz görünən, amma olduqca qıvraq olan Caviddən nəyinsə qisasını almaq istəyirlər. Təsadüfdən, xoş təsadüfdən, həmən Armen mənim ürək ağrısıyla danışdığım hekayəti eşidirmiş. Tanrının işinə bax ki, gəncliyimdə bir uşağın iztirabına biganə qalmamağım illər ötəndən sonra dörd nəfər döyüş yoldaşımın sağ qalmasına səbəb olmuşdu...

... Son vaxtlar Marqo ilə evlərində, valideynləri işdə olanda görüşürdük. (Qurd ürəyi yemişdik!) İkinci dəfə idi Bakının "Ermənikənd" deyilən məhəlləsinə gəlirdim. Hə, bəlkə də Allah həmin anda Rafiqə görə mənim orda olmağımı istəmişdi, bilmirəm.

Qonşular duyuq düşməsin deyə "santexnik" adıyla (Marqonun tapıntısıydı ) məni həyətlərindəki hamam otağına salır, guya mən də başı çıxanlar kimi orada bir az qurcalanır, heç bir təhlükə olmadığını yəqin edəndən sonra məni evə çağırırdı. Beləcə oğrun-gizlin xosunlaşırdıq. Həmən gün də əlüstü-ayaqüstü görüşüb, azarımızı öldürəndən sonra tələsik küçəyə çıxanda artıq hava qaralmışdı.

Sərin yaz axşamı. Gilavar, qöca söyüdlərin asvaltı süpürən salxım budaqlarıyla vals oynayırdı. Barmaqlarımla saçımı darayıb, kefikök, Lenin prospektinə çıxan arkaya təzəcə çatmış-

dım ki, tindəki taxta köşkün dalından tükürpədici inilti eşitdim. Cəld səsə tərəf döndüm. Köşklə divarın tininə qısılan on beş-onaltı yaşlarında cılız bir oğlan uşağı al qanın içində zarıyırdı. Ətrafa baxdım – heç kəs yox idi – küçədən əl-ayaq yığışmışdı, tərslikdən Marqo da evlərinə qayıtmışdı. Doğrusunu boynuma alım ki, bu məhlənin adamlarını tanımadığımdan, əvvəlcə xata-bəladan uzaq olmağı üstün tutaraq, cinayət yerindən iti addımlarla uzaqlaşmaq istədim. Qorxdum desəm lap yerinə düşər. Niyə də qorxmayım; zəmanə pis idi, özüm də tələbə. Allah göstərməsin, milis cinayət yerində səni yaxalasa, deməli işlərin şuluq olacaq; belə vəziyyətdə tülkü tülkülüyünü sübut edincə gözünü açıb-yumarsan, görərsən ki, hop, əməlli-başlı zibildəsən, milislər son vaxtlar nə qədər açılmayan cinayətlər var sırıyıblar sənin boynuna və onlar bunu necə ustalıqla ediblərsə, hətta əşyayi-dəlillər də sənin əleyhinə "danışır". Lənətə gəlmiş belə bir zəmanədə şahidlik etmək də elə kəndiri öz boynuna keçirmək kimi bir şeydi.

Uşağın iniltisinə ürəyim dözmədi, bir də gördüm işıqlı prospektin ortasında, əllərim havada maşın saxladıram. Birinci saxlayan "Qaz-21"in sürücüsü məni dinləmədən yeddimərtəbəli söyüş söydü, ürəyi soyumadı, hələ əlavə də etdi :"Yoldan çıx, ay gic...." deyib, maşını sürüb getdi. Mən də onun arxasınca deyinə-deyinə dəli kimi, şütüyən avtomobillərə məhəl qoymadan, yaxınlaşan "Jiquli"nin qarşısına atıldım. Saxladı. Yaşlı kişiydi. Xahiş etdim ki, kömək eləsin, cavan oğlan can verir, yazıqdı, onu xəstəxanaya çatdırmaq lazımdır. Ürəyiyuxa kişiymiş – razılaşdı. Uşağı qucağıma götürüb maşına mindirdim. O, oğlanın vəziyyətini görüb "ay oğul, bu ki, mollalığdı?" deyib maşını yerindən elə tərpətdi ki, on dəqiqədən sonra "Semaşko"nun qəbul otağında olduq...

Sağ olsun növbətçi həkim, oğlan çoxlu qan itirdiyindən vəziyyətinin necə kritik olduğunu görüb tez əməliyyata götürmüşdü.

Düzünü boynuma alım ki, adi prosedurları saymasaq birinci dəfəydi xəstəxanaya işim düşürdü. ( Allah düşmənimə də göstərməsin – bura düşmək cəhənnəmi görüb qayıtmağa oxşar bir ziyarət imiş ?!) Başlandı, nə başlandı – milis çağırmaq, sorğu-sual, onu yaz, bura qol çək.... Milislərə dedim ki, oğlanı tanımıram, küçədə yaralı gördüm, yazığım gəldi, qucağımda gətirmişəm. Zalım uşağı, inanmaq istəmirdilər. Mənim kimi səriştəsiz və sadəlövhün biri əllərinə göydəndüşmə sərvət idi deyə, o qədər biyöndəm suallar verib məni çaşdırmaq istəyirdilər. Bir anlığa fikirləşdim, yaxşı ki, sürücü bizi düşürdən kimi aradan çıxdı. Yəqin başı çox çəkibmiş yazığın...

Əməliyyat gecə saat 2-20 də qurtardı. Gecə vaxtı taksi tutub yataqxanaya qayıtmağa pulum qalmamışdı. Növbətçi həkimin razılığıyla palatada, narkozun təsirindən sayaqlayan oğlanın yanındakı döşəksiz çarpayının üstündə uzanıb səhəri dipdiri acdım...

Sonralar öyrəndim ki, Marqonun ondan uşağa qaldığından bixəbər Armen, yataq xəstəsi olan anasını və balaca qardaşı Rafiqi taleyin umuduna qoyub birdəfəlik Rastova gedəndən sonra nəzarətsiz qalan uşaq məktəbdən yayınır, özündən böyük məhlə uşaqlarına qoşulub, tez-tez onlarla qumar oynayırmış. Uşağın əli tez-tez gətirsə də cüvəllağı Karapetin kart düzməsindən xəbəri yoxmuş, daha doğrusu inanırmış qonşusuna. Karapet də ki, bu yolla, onu əvvəlcə şirnikləndirib, sonra da elə tavana qoyub ki, yazıq uşaq borcunu qaytarmaq üçün xəstə anasından gizlincə evdəki qiymətli şeyləri yavaş-yavaş əridirmiş. Bir, iki, üç... belə, işdən xəbər tutan anası nə qədər yalvarıb-yaxarırsa da Rafiq əl çəkmir qumardan, bir növ "kişiliyinə" sığışdırmır, deyir: – "Karapeti mələtməsəm, əl çəkmərəm!" Nə isə, günlərin bir günü, axşamçağı qumar oynayanda yenə də Karapetin fırıldaq gəlməsini duyan Rafiq onunla əməlli– başlı tutuşub. Xoruzlanıb üstünə. Söhbətin axırı ana söyüşündə dirənib. Stadionun hasarına bitişik uçuq binadan çıxıb evlərinə gedəndə, Karapet əl atıb bıçağa. Rafiq götürülüb

ki, qaçsın, amma pinəçi Zakirin köşkünün tinində ayağı büdrəyib yıxılanda ona çatan Karapet bıçağı düz iki dəfə sancıb kürəyinin ortasına və aradan çıxıb. Sonradan Marqodan eşitmişdim ki, Karapet Yerevana, dayısının yanına qaçsa da milis izinə düşüb, onu ordaca həbs eləyib...

Üç gündən sonra Marqo ilə onu yoluxmağa gələndə qonşusunu – sevgilisi Armenin qardaşını tanımışdı. Xəstəxanadan çıxana kimi Marqo, oğlunun vəziyyətindən xəbər tutmamaq üçün Rafiqin anasına min cür yalan uydurur, xəstə arvad da ya bu yalanlara inanır, ya da bir söz demədən göz yaşı tökürdü. Mənimlə hər gün onu yoluxmağa gələn Marqo yəqin ki, sonralar Rafiqə xilaskarı barədə hər şeyi danışıbmış...

– İkincisi, – deyə sozünə davam etdi. – Sizi əsir götürəndə neçə nəfərdiz, yadındadır ?

– Beş...

– Vot ... Kim nə deyirsə desin, axı mən indiyə kimi özümü bakılı sayıram. Bakılılar kəsdiyi duz-çörəyə təpik atmaz, arada ölüm olsa da! Biz duz-çörək kəsməsək də arada Rafiq vardı. Başqa cürə bacarmazdım. Bilirsən, siz gedəndən sonra necə rahatlandım?... Allah mərdimazara lənət eləsin, bizi düşmən elədi, ara... Bax, iki il döyüşdüm, evim – səngər, döyüş yoldaşlarım – ailəm oldu. Neçə canlar aldım, qanlar tökdüm... Üç dəfə yaralandım. – Başını qabağa əyib güclə eşidiləcək səslə dedi. – Axırda nə oldu, həə? – Əlini çiynimə qoyub sual dolu gözlərini sifətimə zillədi. Özünü ələ alsa da gözlərinin dərinliyində bir nisgil, kədər vardı. Tez başını yana çevirdi ki, o kədərin nə qədər acı olduğunu duymayaq... – Axırda, biz aldığımız torpaqlarda müharibədən xəbərsiz avropalı mafiozlar, işbazlar ağalıq eləməyə başladı... Başa düşdüm ki, mənim kimi qolu güclü dəliqanlılar onların yalançı vətənpərvərlik əqidələrinin qurbanıdır. Biz aldanmışıq, Rufatcan, aldanmışıq... Elə siz də... Mən iyrəndim bu davadan.

Elə bil rahatlandı. Hiss eləmişdim ərk eləyib yerlilərinə deyə bilmədiyini bizlə bölüşdüyünə, ürəyini boşaltdığına görə dərindən nəfəs alıb sevindi də.

Ofisiant sifariş etdiyimiz quzu kababını gətirsə də heç kəs əlini süfrəyə uzatmırdı. İştahımız tamam küsmüşdü. Armenin kədərli etirafları hamını birtəhər eləmişdi. Ürəyimdə onun vaxtsız gəlişini lənətləyirdim; Mədətin qonaqlığına bir hüzn, ürəksıxıcı bir qüssə gətirdiyinə görə.

– Nə oldu... bəs deyirdin Bakıda görüşərik? –Sualım onu tutdu.

– Həə, demişdim, – deyib, bic-bic gülümsədi. – Fərqi nədir, ara, ora olmasın, bura olsun?!-Restoranı göstərdi. Amma o Bakıyla bu "Bakı"nın fərqinin nə qədər çox olduğunu ondan yaxşı bilən yox idi. Bir az kövrəldi, deyəsən bu cür deməyinə peşiman oldu. – Gül kimi yaşayırdıq, məsəb haqqı! – Bir az ara verib soruşdu. – Görürəm, buralar sənin də xoşuna gəlib, haa?!

İstədim var gücümlə bağıram :"Axı, lənətə gəlmiş müharibədən kimin xoşu gəlir ?! Soyuq səngərdə yatmaqdan, hər an snayper atəşinə tuş gəlməkdən, gözünün qənşərində bığ yeri hələ tərləməmiş cavan-cavan uşaqların minaya düşüb parça-parça olmasından... hansı oğraş həzz ala bilər axı?! " Onsuz da ovqatı pozulmuş Mədətgilə görə deyə bilmədim, boğuldum.

Özümü güclə ələ alıb gözlərinin içinə baxıb soruşdum:

– İndi rahat yaşayırsan?

– Ha...

– Bəs yuxu necə, heç yuxu görürsən?...

Mənim gözlənilməz, bəlkə də yersiz sualımdan devikdi. Başını qeyri-müəyyənliklə tərpətdi.

– Sən bizi azad buraxandan sonra aclıq, soyuq bizi əldən salmışdısa da dayanmadan yol gedirdik. Təsəvvür edirsənmi insan öz torpağında özünü özgə mülkünə təcavüz etmiş oğru kimi hiss edəndə hansı hisslər keçirir? Bu dəhşətdi!... O yolun nə qədər uzun və cansıxıcı olduğunu anlamaq səninçin çətin olar; hər an arxadan bizə basqın edəcəyinizi düşünərək irəlilə-

mək, daima gözlərimiz arxada, qulağımız səsdə. İki gündən sonra boşalmış bir kəndə girdik. Təsəvvür edirsən, bomboş, bir-iki yiyəsiz it sülənən kənddə, ömrü boyu bu kənddən qırağa addımını da qoymayan qocayla qarıya rast gəldik. Quruyub yerimizdə qalmışdıq. Əlləri dizlərinin üstündə oturub kimisə gözləyirdilər. Soruşanda ki, ata, hamı kəndi tərk edib, siz niyə qalmısız? Bilirsən nə dedi? Dedi ki... dedi ki, oğlum söz verib... gəlib bizi aparacaq. Mütləq gələcək!... Nə qədər yalvar-yaxar elədik, fikrindən döndərə bilmədik qocanı, getmədi bizimlə... Məcbur olub qocanı qarısıyla boş kənddə qoyub uzaqlaşdıq. Bir saatdan sonra "Qrad"ın uğultusuna dönəndə nə görsək yaxşıdır? Gördük ki... g-gördük ki, həmən kənd alov içində yanır... Bax, o gündən evinə, ocağına sidqi-ürəklə bağlanmış o qocanı hər gün yuxumda görürəm və nədənsə fikirləşirəm ki, bəlkə heç onun oğlu da yoxmuş?! Eləcə oturub öz doqqazında, doğmaca ocağında halallıca ölümünü gözləyirmiş... Bilirsən, bu dava çox ədalətsiz davadı. Ən dəhşətlisi də odur ki, bunu hamı bilir, hamı...

Bu qoca əhvalatını danışanda Mədətin doluxsunduğunu gördüm. Sanki unutduğu əzizləri yadına düşmüşdü, kimisə xatırladı, yarası sızıldadı, göynədi. Əlimi biləyinə toxundurdum, ovutmaq, sakitləşdirmək istədim. Başını tərpətdi ki, keçib gedər, amma bir anlığa üzündən ötən qara bulud yox oldusa da, kölgəsi qalmışdı – uzaqlaşmaq istəmirdi.

Yaman toxunmuşdu ona, yaman... Mədəti hələ bu cürə qəmgin, çarəsiz görməmişdim və düşündüm, yarasını sızıldadan nədir görən, niyə içini bizə açmadı, bəlkə soruşum?... Sonra da bu fikirdən vaz keçdim ki, əgər biz hər şeyi bittə-bittə danışırkən, o susdusa, deməli münasib bilmədi. Məncə hər kəsi göynədən bir şey var ki, onun ağrısını içində saxlayır, özünün-küləşdirir... Daha dərinə getmədim.

Sonralar onlarla, yüzlərlə Mədətkimilər gördüm; qayğısını, ağır dərdini, inanılmaz faciəsini içində dilim-dilim edib parçalayır, nə qədər pul-para qazanıb ətrafdakılara xoşbəxt görünsə

də yalandan gülüb-danışır, özgələrə təsəlli də verir, amma xərçəng kimi canının qəsdinə durmuş öz dərdinə əlac eləyə bilmir.

– Allah mərdimazara lənət eləsin, ara... – deyib, Armen başını aşağı saldı.

– Aa-min!..

Hamımız bir xeyli susduq. Vəfadar siqaret yandırıb ciyərinə çəkdi...

Lap körpəlikdən valideynləriylə Azərbaycandan köçüb Moskvaya gələn Vəfadar üçün bəlkə də, nə bəlkə, yüz faiz nağıla bənzəyən bu əhvalata bir az sonra qayıdacam. İndi isə məclisi şuxlandırmaq, heç olmasa əvvəlki məcrasına yönəltmək lazım idi. Vəfadar elə bil ürəyimi oxudu:

– Ay canım, – dedi, – gəlin içək, içək xoş təsadüfün şərəfinə! Bu ki əladı!

Qədəhlər yenə doldu. Amma bu dəfə qədəhlərin cingiltisi eşıdilmədi...

Armen içəndən sonra yenə bir dilim limon götürüb ağzına qoydu, üzr istəyib masamızdan uzaqlaşanda qulağıma pıçıldadı:

– Marqodan xəbərin var? – deyə soruşdu. Çaşıb qaldım. Marqonu məndən niyə soruşurdu ki?! ... Əvvəlcə çiyinlərimi çəkdim. Özümü nə qədər bilməməzliyə qoydumsa da alınmadı. Sifətim tutuldu. – Ara, məndən nəsə gizlədirsən ha?

– Nəyi gizlədəcəm ki?..

Baxışlarındakı qeyri müəyyənlikdən, tərəddüddən başa düşdüm ki, eşitdiyi, bildiyi nəsə var və o “nəsə”ni dəqiqləşdirmək istəyir. Nə eşitmək istəyirdi məndən? Marqo ilə mənim aramda olan eşq macarasından xəbəri ola bilməzdi. Çünki, Marqonu Bakıda qoyub Rastova getdiyi vaxtdan bir daha ora qayıtmamışdı. Bəlkə uşaq barədə öyrənmək istəyir? Marqo, abort elətdirsə heç vaxt uşağı olmayacağını biləndə peşiman olsa da acığından mamaçaya pul verib dörd aylıq uşağını götüzdürmüşdü. Yox, yox, bütün məhlədəkilər kimi Rafiq də

Marqonun uşağı götüzdürməyini bilirdi və yəqin ki, ona ucundan-qulağından deməmiş olmazdı. Bir də ki, gör neçə illər keçib? Bəlkə Rastovda, ya da Krasnodarda qızın atasını görüb, Marqonun Bakıda, o köçhaköçdə, o qaçaqaçda evdən getdiyini, bir daha evə qayıtmadığını eşıdıb? Bunları bilməsəydi, "Marqodan xəbərin var " deyə soruşmazdı axı?.. Bayaqdan orda-burdan söhbət eləyib içini boşaldanda da hiss edirdim ki, məqsədi başqadır; ola bilsin ağzımı arayır, ürəyimi yumşaldıb həqiqəti məndən öyrənmək istəyirdi.

Mədətgil heç nə anlamadan gərgin vəziyyətdə bizə baxır, bu müəmmalı təfsilatların nəylə başa çatacağını intizarla gözləyirdilər.

Deyəcəm. Burda nə var ki?!.. Qoy rahatlansın. İndi onun məndən eşidəcəyinə necə reaksiya verməsini daha yaxşı görmək üçün burnunun ucunda durub sakitcə :

– Bakıdadı Marqo, – dedim.

Armenin kostyumu kimi qaralmış sifətində bütün əzələlərinin necə gərildiyini görsəydin! Gözlərində qəzəb dolu ifadə qırmızıya çaldı. Bığlarını çeynədi. İri burnunun pərləri bir az da genəldi. Dodaqaltı nəsə dedi, deyəsən ermәniycə söyürdü. Sonra dişini dişinə sıxa-sıxa bağırdı:

– Qan-cığğ !..

Başa düşmədim? Onu yandıran nəydiki? Armen Marqonu bu qədər sevirmiş bəyəm? Sevirdisə, niyə qarnı burnunda qoyub aradan çıxmışdı?.. Yox, bu başqa şeydi, başqa...

– Haa... deməli, Bakıda "döydürür" ?!...

Onun hər şeydən xəbəri vardı – Marqonun Bakıda qaldığını da bilirmiş, uşağı tələf etdiyini də, atasının pinəçi Zakir olduğunu, bəlkə mənimlə yatdığını da... Onu haldan çıxaran təkcə bunlar idimi?.. Bilmirəm. Marqonun məsumluğundan, saf sevgisindən xaincəsinə istigadə edib bakirəliyini əlindən alan, yağlı dil töküb gözəl gələcək vəd edən Armen, aldanmış qızın çıxış yolu tapmayanda məcbur olub onun dalınca dünyanın o başına da gedəcəyinə əmin imiş. Ancaq o, yanılmışdı. Marqo

elə həmən axşam vücudunu ona təslim edəndən sonra Armenin ehtiras düşkünü olduğunu başa düşüb öz saf məhəbbətini də baltalamışdı.

– Neobrezannıy xoşlamadı ?! Qəh-bəəə!

Axırıncı kəlməni bağıranda yaxşı ki, orkestr gec susdu, zal dondu, hamı çaşqınlıqla gah musiqini yarımçıq kəsmiş orkestrə, gah da bizim səmtə baxdı. Ayaq üstə olduğumdan maraq dolu nəzərləri bizə tuşlanmış izdihama baxdıqca qıpqırmızı qızardım, onun da yerinə xəcalət çəkdim. Yaşlı inzibatçı qaçaraq zalın ortasında əsəbini cilovlaya bilməyən Armenə yaxınlaşdı. Mən onu sakitləşdirərək başa saldım ki, hər şey yaxşıdır, narahat olmayın... sadəcə tutması var, kantujennidir, vəssalam! Söhbətin nədən, kimdən getdiyinin fərqinə varmadan yerlərindən dik atılan Mədətlə Vəfadar mənim heç nə olmayıbmış kimi sakit dayandığımı görüb əsəblərini güclə cilovladılar. Armen vəziyyəti bu hala gətirib çıxardığına görə, gec də olsa, özünü toxdatdı, əlini ürəyinin üstünə qoyaraq peşimançılıq hissiylə bütün zaldan üzr istədisə də hamı təəssüflə başlarını yelləyərək çəp-çəp ona tərəf baxmaqda davam etdilər. Restoranın inzibatçısı əliylə orkestrə işarə edəndən sonra musiqi çalındı və elə bil od üstünə sərin su səpələndi...

Armenin nə hallara düşdüyünü görəndə fikirləşdim ki, nə yaxşı əsir düşən zaman Marqo barədə məndən heç nə soruşmamışdı, yoxsa, hər şey tamamilə başqa cürə ola bilərdi. Yəqin ki, o vaxt bu barədə məlumatı yox imiş, hər şeyi sonradan öyrənib, yoxsa...

Bax belə. O bir az sakitləşib özünü ələ almaq istədi, yarı rusca, yarı erməniycə dodağının altında mızıldandı, bir əlini havada yelləyib məndən aralandı, öz masalarına yaxınlaşıb dostlarına nəsə dedi, qızlardan birinin qolundan tutub vestibülə tərəf tələsdi...

Günah işlətmiş uşaq kimi masaya yaxınlaşıb üzr istədim. Mənim pərt olduğumu görən Mədət :

– Lənət şeytana, – dedi, – hər şeydən ötəri özünü üzmə. Bir də ki, sənin nə günahın var?...

Mən:

– Gərək belə olmayaydı, – dedim. – Hər şey korlandı...

Vəfadar isə marağını gizlədə bilmədi:

– Qardaş, deyəsən, o əsirlik məsələsindən başqa aranızda bölə bilmədiyiniz nəsə olubmuş?!

Mədətin də bic-bic gülməyi məni lap utandırdı.

– Əşi, elə şey deyil, – cavab verdim.

– Qadınlar, qadınlar... – Mədət mənalı bir görkəm aldı. – Onlar həm quran, həm də uçurandır.

Vəfadar da şairanə görkəm alıb onun sözlərinə qüvvət verdi:

– Biri mələk, biri iblis...

– Yox, şair, – Mədət düzəliş verdi. – Kiminçin mələkdir, kiminçin iblis – belə daha poetikdir, hə?...

Hər ikimiz Mədətin yaxşı filosof, daha doğrusu şairanə filosof olduğunu vurğuladıq, o da bundan qürur hissi keçirib təşəkkür etdi. Elə bil qırışığımız da bir az açıldı.

Kabab soyumuşdu. Könlümü almaq üçün nəzakət xatirinə məclisi davam etdirsələr də qanımız it qanına döndüyündən çox oturmadıq, hesabı verib çıxdıq.

Hər an cazibəsindən qurtulmağa çalışdığım keçmişim yenə də yaxamdan bərk-bərk yapışıb əl çəkmirdi...

## Şəhər bakirəliyini itirmişdi

...Qatar platformada dayananda vaqondan birinci düşən mən oldum: tamarzısı olduğum Bakının on iki il əvvəlki ətrini duymaq, neft qoxulu küləyini içimə çəkmək arzusu o qədər təzə idi ki, Biləcəridən qatarın sürətini azaltmış maşinisti ürəyimdə o ki var söyərək tamburda, qapını qucaqlayaraq bu anı gözləyirdim.

Bu da sovet əsarətindən yenicə qurtulmuş, elə qurtuluşuyla da yeni bəlalara düşmüş, nəfəs alıb özünə gəlməsinə imkanı olmayam Bakı !

İki sutqalıq yol boyu düşündüklərimin nə qədər yanlış olduğunu o saniyə anladım. Nə vaxtdı Rusiya qəzetlərinin, ara-sıra televiziya kanallarının, müxtəlif yollarla Azərbaycanı tərk edənlərin dediklərindən belə çıxırdı ki, indi bütün respublika silahla yatıb, silahla durur. Hər yerdə müharibə gedir, insanlar qırılır... Arxa cəbhədə zavod və fabriklər döyüşçülər üçün silah-sürsat, ərzaq, isti pal-paltar hazırlayır. Bu belə də olmalıdır. Məcburən müharibəyə cəlb edilmiş, halal torpaqları düşmən tapdağı altında olan, vətəndaşları doğma ev-eşiyindən didərgin salınmış ölkədə belə də olmalıdır! Düşünürdüm ki, əli silah tutan kişilərin hamısı cəbhədə döyüşür. Hamının başı müharibəyə qarışdığından şəhər unudulub. Bu mehriban, işıqlı, insanları gülərüz şəhəri istəsəydim də, boz, solğun, küçələri bomboş təsəvvürümə gətirə bilmirdim. Ancaq müharibə gedən ölkələrin, şəhərlərin xronikaları filmlərdə gördüyüm kimi gözümün qarşısında canlandıqca vücudumu bürüyən dəhşətli hiss yaxamdan əl çəkmirdi; ağacları qurumuş baxımsız parklar, döşəməsini ot basmış meydanlar, adamsız, səs-küysüz küçələr... qəlbimi yandırıb yaxırdı.

Dedim axı, fikrimdə yanılmışdım!

... Səhər təzəcə açılhaaçıldaydı. Vağzal meydanı qarışqa yuvası kimi qaynayırdı. Platformada arabalara bərkidilmiş primitiv satış köşklərini o yan-bu yana sürüklüyərək su, pivə, siqaret, peraşki, cürəbəcürə şirin qoğallar təklif edən cavan oğlanları görəndə vağzal binasının üstündə iri qırmızı hərflərlə yazılmış "BAKI" sözünü görməsəydim qatara səhv mindiyimi düşünərdim. Bu azmış kimi, bir yandan da bığıburma kişilər vaqondan düşənlərin üstünə şığıyaraq dışqırırdılar:

– "Taksi var, taksi... Vasmoya ... "

–" Razin... Əhmədli... Yasamal... "

– "Bərdəyə mikroavtobusla... Gəncə... Tərtər... "

– “Masallı, Astara, Lənkəran... Bir saata çıxıram.. ”

Və son vaxtlar onsuz da dəmiryolunda baş verən terror aktlarıyla əlaqədar az-az gələn qatarların “göydəndüşmə” sərnişinlərini əldən buraxmamaq üçün taksi sürücüləri kor-koranə əllərini havada yelləyərək, kimə gəldi yaxınlaşır, hara gedəcəyini soruşaraq dil tökür, bəziləri heç sövdələşməmiş az qala düşənlərin baqajlarını əllərindən alırdılar. Aləm bir-birnə dəymişdi. Qiymətdə razılaşmayanları şirin dil ilə elə rahatlayırdılar ki. İlk baxışdan köhnə Bakını xatırladan, uşaqlığımdan alışdığım mənzərə bir az keyfimi açdı da. Bəli, sonra biləcəm ki, köhnə Bakını yada salan təkcə xatirələr qalmışdı...

Arabir hansı qoşun növünə mənsub olmasını ayırd etməkdə çətinlik çəkdiyim silahlı adamlar görünürdü: saqqallı, başlarında üstünə üçrəngli bayrağın çəpəki rəmzi tikilmiş qara biret, sovet zabitlərinə xas xaki rəngli sahə forması, türk istehsalı qara brezent uzunboğaz çəkmələr bir-birinə uyuşmadığı kimi, çiyinlərindən etinasız salladıqları Kalaşnikov avtomatı, uzaqdan diqqəti cəlb edən kirin yağlı parıltısı onların günlərlə burda qaldıqlarından xəbər verirdi. Həmin avtomatlılar yükləri çox olan, daha diqqət çəkən sərnişinlərə yaxınlaşıb sənədlərini tələb edir, bəzisi isə adi etik qaydalara belə məhəl qoymadan baqajları dağıdır, ya da tam yoxlanmaq üçün alt mərtəbədəki otağa getmələrini əmr edirdilər. (Dağıstan milisləri bundan da pis, lap yırtıcı kimi davranırdılar bizimlə). Ürək bulandıran, əsəb yaradan mübahisəli vəziyyət olsa belə, müharibə gedən ölkədə hərbiçilərin ayıq-sayıq olmasına kimsə irad tuta bilməz. Az bir zamanda etdiyim müşahidələrdən ən qəribəsi hərbiçilərdən fərqli olaraq, iki-bir, üç-bir gəzişən milislərin heç nəyə məhəl qoymadan veyillənməsiydi. Məncə, komendant saatı olmadığı halda hərbiçilər cəbhə bölgəsində döyüşməli, milislər isə arxa cəbhədə daha ayıq-sayıq olmalı, daha bunlar kimi işlərini yola verməməlidi. Onlara döyüş bölgəsində daha çox ehtiyac vardı məncə. Düşdüyüm mühitə bir az bələd olandan sonra başa düşdüm ki, yeni qurulan hökumətin köhnələrə tam etibarı

olmadığından sovetlərə xidmət göstərən bəzi milislərə yad kimi baxıb öz işlərindən “kənarlaşdırmışdı”. Sanki, onların əsl vəzifəsi elə vağzalın ətrafında şıdrığı alver eləyən alverçilərə “nəzarət” etməkmiş... Ürəyimdə isə “bu qədər kişi niyə döyüşmür axı ?”deyə fikirləşdim.

Metroya getmək üçün xeyli cəhd etdim. Yüküm bircə idman çantası olmasaydı bu izdihamı necə yarıb keçəcəyimi fikirləşəndə dəhşətə gəldim. Vağzalın qənşəri köhnə şərq bazarlarını xatırladırdı. Platformadan düz metronun girəcəyinə qədər səpələnmiş səliqəsiz, qarmaqarışıq piştaxtalar arxasında dayanmış alverçilər dağılmış asvaltın üstünə düzülmüş taxta, karton yeşiklərin üzərinə qalaqladıqları meyvə-tərəvəz, göy-göyərtidən tutmuş pendir, kolbasa, hisə verilmiş balıq, təndir çörəyi, ucuz pal-paltara qədər hər şeyi müştərilərə satmağa çalışırdılar. Üst-üstə yığılmış “Bakuş”, “Albeni... karobkaları, qaçaqmalçılıq yoluyla İrandan gətirilən çərəzlər, karamellər, bizim çənəmizi yara eləyən “Cırtdan” saqqızından fərqli olan, içindən Van-Damın, Bryus-Linin, Şvartsneqerin, xarici avtomobillərin, gözəl pozalarda çəkilmiş qız şəkillərinin çıxdığı cürəbəcürə türk saqqızları nəinki uşaqlara, uşaqlığı kasad sovet dönəmində keçmiş yaşlılara da “gəl-gəl” deyirdi. Yöndəmsiz, pərakəndə cərgələr əyri-üyrü olduğundan alıcılar az qala biri birini tapdalaya-tapdalaya, ya yığılmış malların üstündən adlayıb başqa cərgəyə keçir, ya da alacağı malı o yan bu yana çevirən, yöndəmsiz dayanmış müştəriyə sürtünərək yolunu davam edirdilər. Əslində belə qarışıq bazarda alandan çox satanların olduğu nəzərə çarpırdı. Hələ səhər açılmadığından elə bir canlanma hiss olunmasa da basırıq idi. Alverçilərin ləhcələrindən başa düşmək olurdu ki, burada hansı bölgədən desən adam var.

İlahi, bu şəhərin yuxusu ərşə çəkilib, nədi?!

Vağzalın divarları, pilləkənləri boyu, artıq satılması mümkün olmayan, çoxdan çürümüş mer-meyvələr, zibillə dolu sellofan torbalar, əzik-üzük yeşiklər qalaqlanmışdı. Ətrafı bürü-

yən çürüntü iyi, bu mənzərəni tamamlayan eşşək milçəklərinin – mozalanların vızılısı, ürək bulandıran nəcis qoxusu antisanitariyadan xəbər verirdi. Bir anlığa təsəvvürümə gətirdim ki, günorta vaxtı, istilər düşəndən sonra burdakı vəziyyət necə olacaq. Dəhşət!.. Bu tullantıların neçə gündür yığılıb qalmasını alverçilərin ayağı altından süzülərək ətrafa axan çirkab sulardan yaranmış gölməçələrdən bilmək olurdu. Qadınların, kişilərin geyimlərini nəzərə almasam, buranı– Əfqanıstanda əsgərlikdə olarkən gördüyüm tozlu-torpaqlı, haylı-küylü Kabil bazarına bənzədərdim. Bu ikrah hissi yaradan, iyrənc bir mənzərəydi.

Bu mənzərəylə heç cürə uyuşmayan, təzad yaradan başqa bir şey də vardı ki, içimdən nəyisə qoparırdı, siyirib atırdı. Bir neçə yerdə quraşdırılmış səsgücləndiricilərin qulaq pərdələrini belə silkələyən guppultusu, istər-istəməz beynlərə hakim kəsilən, tez-tez bir-birini əvəz edən bayağı ara mahnılarının divarlara dəyib əks-səda verən uğultusu səhərin bu alatoranında eybəcər bir ab-həva yaradırdı. Qulağının biri bir mahnını eşidirkən o birisinə başqa mahnı dolurdu. Elə bil müğənnilər bir-biriylə bəhsə girmişdilər, döyüşürdülər. Amma bu döyüş söz döyüşüydü, qılınc döyüşü yox!.. Özü də harda, harda, mənim yazıq şəhərimin düz göbəyində.

Nəhayət qulaq batırıcı səs-küy, burnuma dolmuş o müdhiş qoxu yox oldu; səhərin gözü açılmamış qaynayan insan axını məni metronun düz girişinə gətirmişdi...

Beş dəqiqə dayanıb dərindən nəfəs aldım. Tanrı səsimi eşitmişdi – o basırıqdan beşcə dəqiqə gec qurtulsaydım, axşamdan yediklərim ödümlə birlikdə ağzıma gələcəkdi. Dərindən nəfəs alıb mazutlu, duzlu havadan uddum ki, bir az toxtayım.

Ətrafa göz gəzdirdim. Elə bil yad bir planetdəyəm. Nədənsə hər şey bomboz, solğun görünürdü gözümə. Metronun qabağında yarpaqları tökülmüş bir neçə ağac vardı. Qurumuş budaqları küçələrdən küləyin yığıb gətirdiyi sellofan torbaların, qəzet kağızlarının qırıqlarıyla "bəzənmişdi "– bayramdan sonra

lazımsız şey kimi atılmış, ütülmüş yeni il yolkasına bənzəyirdi ağaclar...

Şəhər bakirəliyini itirmışdi!

Bir balaca özümə gələndən sonra hara gedəcəyimi götür-qoy etdim. Əslində gəlməyimin əsas səbəbini yaxşı bilirdim. Öz vicdani borcumu verməliydim! “Burdakıların nəyi məndən əskikdir ki ?!Mən kimdən artığam axı?!”– deyib gəlmişəm. Bir də, bir də Əjdərin verdiyi ünvan...

Əjdər, evlərində kirayədə qaldığım Əsmər xalanın kiçik oğludur. Bakıda oxuduğum illərdə düz iki il onların Yasamaldakı həyət evində otaq kirayələmişəm. Əsmər xala, ağır xəstəlikdən qurtulub ömrünü dörd övladına bağışlamış ərindən sonra uşaqlarını tək başına ayağa qaldırmaq üçün həyətindəki balaca otağı kirayəyə vermək məcburiyyətində qalmışdı. Əlindən tuturdu özü demişkən. Həm də universitetin yataqxanasında növbətçi işləyirdi. Bir həftə o, o biri həftə də Haykanuş arvad.

O vaxtlar bədən tərbiyəsi instutunda oxuyurdum. Yataqxana olmadığından universitetin dördüncü kursunda oxuyan kəndçimiz Araz komendantla dil tapıb məni də öz otaqlarına düzəltmişdi. Elə gəlib gedirdim ki, hamı məni oranın tələbəsi bilsin. Başımı soxmağa yer düzəltmiş komendantı ələ vermək olmazdı. Bir də ki, səhər gedib gecə gəlirdim; dərsdən sonra məşqlər, yarışlar bekar qalmağa imkan vermirdi. Sərbəst güləş üzrə respublika çempionu idim. Az-çox tanınırdım da.

Əjdərlə keçən il Saratovda görüşdük. Təsadüfə bir bax. On bir ildən sonra uzaq Rusiyada məni tanımışdı Əjdər. Axı o, məni ilk dəfə görəndə altıncı sinifdə oxuyurdu?

Unutmamışdım Əsmər xalanın yaxşılıqlarını. Mənə ana kimi nəvaziş göstərirdi. Elə isinişmişdim ki ona, hətta anamdan sonra atasız olduğumu unutduran yeganə insan vardısa, o da Əsmər xalaydı. Aradabir ev yeməklərinə – uşaqlarına nə bişirərdi məni də qonaq edərdı. Paltarlarımı özü yuyub ütülüyər, “qız-gəlin içinə çıxırsan “ deyib öz oğlu kimi qayğımı çəkərdi.

Heç rəhmətlik anam da mənim corablarımı ütüləməzdi, amma Əsmər xala ütülüyərdi...

Əjdəri yaşadığım evə apardım. Dedim, nə qədər lazımdır qal mənim yanımda. Qaldı.

Beş-on günün söhbətidir. Dostumun ad günüydü. Tanışlıq üçün Əjdəri də ora aparmışdım. Yaxşıca yeyib-içdik, şənləndik. Necə oldusa söhbət Qarabağdan düşdü. Həmişə söhbət Qarabağdan düşəndə – əslində Qarabağ yaddan çıxmırdı – mən əsəbiləşərdim ki, gör nə qədərik burda, yığışıb gedəyin, birdəfəlik həll edəyin bu məsələni! Bəziləri susar, bəziləri də "bu oyundur, kim başlayıb, o da qurtaracaq" deyirdi. Mən onları başa düşürdüm. Axı çoxları atalarının puluna arxalanıb min bir oyunla bura qaçıblar ki, davaya getməsinlər, ölməsinlər. Bir şeyi başa düşmürdüm: axı həmişə belə olmayacaq, torpaqlar azad olacaq, qaçqınlar öz yurd-yuvasına qayıdacaq, bax, onda beləəri necə baxacaq şəhid balasının gözlərinə?! Baxa bilsələr, onda şərəfli ölümün nə qədər gözəl olduğunu anlayacaqlar.

O gün həyatımda ikinci dəfəydi iski içirdim. (İlki dəfə əsgərlikdə içmişdim). Sağlıq deyib söz verdim ki, uzağı bir həftəyə Azərbaycana dönəcəm. Döyüşməyə gedəcəm! Heç kimdən səs çıxmadı. Özümü özümünkülər arasında nə qədər qərib hiss etdim həmən axşam...

Ad günündən evə dönəndə sözümün nə qədər ciddi olduğunu bilən Əjdər dedi:

– Rüfət qardaş, bir söz demək istəyirəm, bilmirəm, acığın tutmaz ki, mənə?

Əvvəl elə bildim pul-zad istəyəcək, utanır. Əlimi çiyninə qoyub dedim.

– Ayıb deyil? Biz ki, qardaşıq?...

Bir xeyli susdu. Pul məsələsinə oxşamırdı. Nədənsə baxışlarını məndən gizlədirdi.

– Utanıram deməyə, vallah...

Bu dəfə də danışmasaydı özümü ələ ala bilməyəcəkdim.

– Bilirsən... onda mən... görmüşdüm sizi...

“Sizi” deyəndə özümü itirdim. “Kimi görmüşdü? Harda?” Yaddaşımı qurcaladım. ”Lənətə gələsən, niyə içdim axı? Heç nə yadıma gəlmir...” Sanki, yaddaşımla çarpışmağımdan əzab çəkdiyimi hiss edib məni bu bəladan qurtarmaq istədi. Güclə eşidilən səslə pıçıldadı:

– Haykanuş xalanın qızıyla... səni, bizdə...

İlahi, bu ana qədər özümü necə də rahat hiss edir, elə bilirdim ki, həyatımda özümə belə bağışlamadığım o axmaq hərəkətimə görə heç vaxt əzab çəkməyəcəm. O vaxt altıncı sinifdə oxuyan uşağın yaddaşında qalan axmağlığıma görə indi necə xəcalət çəkdiyimi təsvir edə bilmirəm.

Deyəsən yadıma düşdü. Hə, Haykanuş arvadın bir qızı vardı. Bəzən anası xəstələnəndə, ya da ki, vacib işləri olanda anasını əvəz eləyərdi. Əvvəllər onu heç görməmişdim. Bəlkə də görmüşdüm, amma fikir verməmişdim. Ümumiyyətlə, cavanlığımdan tanımadığım qızlarla ünsiyyət qurmaq mənim üçün çox çətin idi. İpə-sapa yatmayan kənd uşağı, böyük, tanış olmayan haylı-küylü şəhər məni bir az da sıxırdı. Bəlkə də xasiyətim ağırdır, ona görə. Bir az da zəhimliyəm – dostlarım belə deyir. Deyirdilər ki, o qədər qaş-qabaqlısan ki, hansı qız sənə yaxın durar? Səni görən oğlanlar belə söz deməyə qorxurlar, o ki qala qız ola..

Amma, nədənsə Marqo məndən qorxmamışdı, qaçmamışdı. Elə məni ovsunlayan da bu imiş...

Dediyim kimi, mən Marqo ilə görüşürdüm. Bəzən yataqxanada, bəzən də qardaşı və atası işdə olanda evlərinə gedirdim. Son vaxtlar isə kinoteatrdan başqa görüş yerimiz yox idi. Marqonun güclü ehtirası qarşısında dayana bilmirdim – mən də əriyirdim. Dəli kimi istəyirdik bir-birimizi, sevmirdik a, istəyirdik və ikimizə də elə gəlirdi ki, bu hisslərdən başqa özgə heç bir hiss yoxdur. Heç bir hiss!...

Əjdər deyən günü səhər dərsə getməyə hazırlaşıdım. Əsmər xala məni yola salanda tapşırdı ki, uşaqları iki günlük rayona aparacam, darvazanın da açarlarını götür, yoxsa küçədə qalar-

san. İnstituta gedib üç-dörd saatdan sonra nə fikirləşdimsə evə qayıtdım. Evdə olmadıqlarına əmin olmaq üçün. Yox idilər. Sanki şeytan girmişdi qəlbimə. Sevindim. Avtomatdan Marqoya zəng vurdum ki, görüşək. Evə gətirdim onu – Əsmər xalanın evinə. Səhəri birgə açdıq. O qədər bəxtəvər idik ki! İlk dəfə Marqoyla bütün gecəni bir yerdə olmuşduq. Səhərisi gün Marqonu yola salandan sonra başa düşdüm ki, mən xəyanət etmişəm – Əsmər xalanın toxunulmaz, bakirə qalasına, ismətli ocağına xəyanət etmişəm. Və sən demə bunu duymuşdular. Mən yaddaşıma düyünlənib qalmış keçmiş günahımı qurcaladıqca Əydərin üzünə baxmaq belə istəmirdim. Utanırdım. Əjdər söhbətinə davam etdi:

– Sən özünü üzmə... belə... axı mənim evdə olduğumu bilsəydin gətirməzdin onu, düzdür? Axı, sən hardan biləydin ki, xalam qızı da gedəcək, maşında yer olmadığından məni aparmayacaqlar. Nə biləydin ki ?

O sual vermirdi, sanki var gücüylə sillələyirdi sifətimi. ”Bilsəydim? Yox, Əjdər, bunu etməli deyildim! Açarı etibar edilən evi murdarlamağa haqqım yox idi. Olmamalıydı“. Nə qədər sadəlövh insan imiş bu Əjdər?!.. Bəlkə məni içimi didib dağıdan bu iztirablardan qurtarmaq üçün deyirdi bunları? Bəlkə də... Amma bir şeyi başa düşmürdü. Mən öz evim bildiyim ocağı murdarlamışdım. Və o, indiyə kimi hamıdan gizlətdiyi mənim vaxtı ötmüş xətamın üstünü açırdı. Ya da bilərəkdən mənə əzab verirdi. Bir tərəfdən də Əjdərə olan hörmətim birəbeş artdı, çünki, məni o vaxt ifşa etməmişdi.

– Düzdür... əlbəttə düzdür, – dedim. – Bağışla... Bağışla sən Allah!

Sanki onun da, mənim də çiyinlərimizdən ağır daş götürdülər.

– Bilirsən, – deyə məni sakitləşdirdi. – Bunları yadına salmaqda məqsədim səni günahlandırmaq deyil. Əsla! – bir az susdu. Xəfifcə gülümsəyib sual dolu baxışlarını düz gözlərimin içinə zillədi.

– Sən onu, Marqonu... doğrudan sevirdin ?

Nə eşitmək istədiyini duymasam da çiyinlərimi tərpətdim. Tərəddüdlə:

– Buna sevgi demək olarsa, – dedim. – Başa düşdün, sevgi demək olarsa...

Doğrusu, o çılğın vaxtlarımda oxuduğum kitablarda da, hind filmlərində gördüyüm sevgi epizodlarında da hər şey başqa cür idi, romantik və nağılvari – Leyli və Məcnun, Romeo və Cülyetta kimi– arada məsafə, pərdə, özü də qalın bir pədə var idi ki, onu götürmək, qəzəblərə tuş gəlmək, ömrü boyu ağır məzəmmətlərə qatlaşıb peşimançılıqla yaşamaq demək idi. Səni üzmək üçün cavabı bilərəkdən gecikdirilən sevgi məktubları, cavab məktubunun bir küncündə dodaq boyasının ən qırmızısıyla basılmış dodaq yeri, sonra yad gözlərdən uzaq bir küncə çəkilərək həmin cansız, qırmızı boyalı dodağı günlərlə öpmək, qatlanmış kağızın arasına "Krasnaya Moskva" ətiriylə hopdurulmuş quru bənövşə çiçəyi – bunların hamısı vardı və hamısı da pərdənin o biri üzündəydi. Bu reallığın içində Aliyə də vardı. Biz bir-birimizi dəlicəsinə sevirdik. Bir gün görüşməsəydik, elə bilərdik ki, havamız çatışmır, dünya başımıza fırlanır. O həmişə yanımdaydı, ürəyimdəydi, lap hind filmlərindəki kimi. Hətta Bakıda oxuduğum illərdə də o mənimləydi.

Marqo isə ağır pərdələri çoxdan qırıb atmışdı və kənddə böyümüş, hələ də hind filmlərinin təsirindən çıxmayan bir oğlan uşağını ancaq təxəyyülündə canlandırdığı istəyinə qovuşdurmuşdu. O mənim nəfəs-nəfəsə, can-cana olduğum ilk qadınım idi. Marqo mənə sevişməyi öyrətmişdi, ancaq sevişməyi. Bizim münasibətlərimiz hədəqəsindən çıxsa da belə ürəyimdə özünə ömürlük yer tutmuş Aliyənin yerini ala bilmirdi, onu kimsə əvəz edə bilməzdi...

O, həyatıma mələk şəklində gəlmişdi... və gözləmədiyim halda xəyanətiylə bütün varlığımı viran edən iblisə döndü. Ən azından mən elə bilirdim. Sonralar, çox sonralar Arazla

təsadüfi görüşümüz zamanı dərk etdim ki, elə mələyi iblisə özüm döndərmişəmmiş...

Söhbət başlayandan mənə çatdıracağı əsas məsələnin üstünə gəldiyinə görə dərindən nəfəs alıb dedi:

– Marqo... Bakıdadı.

– Nəə?...

Bilmədim mən yanlış eşitdim, yoxsa Əjdər nəyisə qarışdırırdı. Təəccübümdən, çaşqınlığımdan sifətimdəki ifadəni anlayandan sonra bir də təkrar etdi. Və bu iki kəlməni o qədər asan dedi ki, guya elə belə də olmalıydı. “Məni dolamısan?” demək istədim. Axı Avropayla Asiyanın yenidən birləşəcəyinə, lap Petrosyanın Amerika prezidenti seçilməsinə də inanardım, amma... amma Marqonun Bakıda qalmasına heç vaxt!.. Heç vaxt! Bu necə ola bilərdi?.. (İlahi, mən nə qədər sadəlövhəmmiş?!)

Əjdər ürəyimdən keçənləri oxuyurmuş kimi əlini ərklə çiynimə qoyub gülümsədi.

– Fikrindən dönməmisənsə, Bakıya gedəndə onu tap. Mütləq tap, – deyib, otaqdan çıxdı və bir neçə dəqiqədən sonra əlində bir parça kağızla qayıtdı. – O indi də səni sevir.

Yəqin ki, sənədlərinin arasında saxlamaqdan qat kəsmiş kağızda bir ünvan yazılmışdı: Nizami– 105. Vəssalam.

## Marqo məni Bakıda yox, Yerevanda tanısaydı, nə olardı?

... İndi, metronun girişində cibimdən çıxarıb baxdığım Əjdərin verdiyi həmən kağız parçasıydı.

Daha metroya minməkdən vaz keçdim. Piyada getmək rahat olar. Yadıma saldım ki haradasa buralarda olmalıdır. Çantamı çiynimə keçirib üzü dənizə tərəf irəlilədim. İki-üç küçə keçib, sağa buruldum. Artıq dan yeri çoxdan sökülmüşdü. Bomboz binaların arasından, gözə çarpan dərəcədə zibilli

səkilərdə, gah görünən, gah da itib-batan payız günəşinin canı qızdırmayan şüaları parıldamağa başlayırdı. Maşınlar işıqfora məhəl qoymadan şütüdüyündən yolu çətinliklə kecdim.

Bakıda payız ayları çox da soyuq olmur, amma nədənsə üşüdüm. Çantamdan əsl bu havanın malı olan gödəkçəmi çıxarıb geyindim. Sanki gözlərim heç nə görmür, qulağım eşitmir, yol boyu tələsik, gah da yüngül addımlarla kağızda yazılan ünvana doğru gedərək Marqo barədə fikirləşirdim. Axı Əjdər də əməlli danışmadı – necə olub ki, bu faciələrin yaşandığı bir şəhərdə erməni qızı azad-xürrəm yaşayır, işləyir?.. Bir tərəfdən də özümə gülürdüm. Bura Bakıdır e! Bu şəhərdə yüz illərdi ki, müxtəlif millətlər xoşbəxt yaşayıb, işləyib, ev-eşik qurub; yəhudi, gürcü, erməni, rus... özlərini burada heç vaxt qərib hiss etməyiblər, can deyib can eşidiblər. Toylarında, vaylarında da bir olublar. Heç biri bu torpağın çörəyinə təpik atmayıb. Amma, öz aramızdı, bu ermənilər həmişə nifaq salıblar da?!...

Neçə il davam edən hakimiyyət davaları, mənəm-mənəmlik, addım başı xəyanət, gerçəkliklə barışmamaq, bölgələrə bölünmə azarına tutulanların arxadan vurduğu zərbələr, kommunist rejimi törəmələrinin az müddətdə "demokrat"a çevrilmələri, xalqın başına gətirilən dəhşətli faciələrdən ibrət dərsi almadan hegemonluğunu saxlamaq arzusu – siyasi provokatorların, əqidə alverçilərinin düşünülmüş planları əsasında həyata keçirildikcə, onsuz da var-dövləti, ev-eşiyi, kəndi əlindən alınmış xalqın gözündən düşdükcə mümkünsüzləşirdi. Partiya oyunlarının qurbanlarına çevrilmiş minlərlə insan nəyə, kimə inandığını bilmirdi. Bir tərəfdən düşmənimiz amansızcasına torpaqlarımızı talan edir, insanlar qırılır, kəndlər, şəhərlər dağıdılır, bir tərəfdən də səriştəsiz siyasətçilər boşboğazlıq edərək laxlamış hakimiyyəti əllərindən buraxmırdılar. Xalqın qeyrəti imtahana çəkilmişdi və onu bu imtahandan onu "kəsmək" istəyirdilər. Müharibə getməyən rayonlar belə iflic vəziyyətə düşmüş, könüllülər vuruşur, döyüşməyən əlacsız insanlar

bütün ümüdlərini doğrultmaq üçün paytaxta axışmışdılar. Ermənistandan, işğal olmuş Qarabağ torpağından qovulmuş azərbaycanlıların kasıb təbəqəsi çadır şəhərciklərində, imkanlıları isə Bakıdaydılar. Bakı "zəbt" edilmişdi. "Gəlmələr" özləri ilə dərd-sərindən başqa, əyalət mədəniyyətini, adət-ənənələrini, yaşam tərzini də gətirmişdilər və bu hər addımda hiss olurdu. Bakı tanınmaz olmuş, simasını dəyişmişdi...

Xəzər tərəfdən axıb gələn mazut qoxulu sərin, tozlu səhər mehi, bayaqkı nisbi sakitliyi pozaraq ikibir-üçbir ötən avtomobillərin siqnal səslərinə məhəl qoymadan yorğun şəhəirin küçələrini süpürə-süpürə gəzinirdi. Bu qoxu – bu veyil, asta küləyin gətirdiyi qoxu – mənə nə qədər tanış idi!

Binaların alt mərtəbələrində, zirzəmilərində yerləşən dükanlar, balaca kafelər bir-bir açılırdı. Bəzisinin qapısı üstündə, bəzisinin də divarına pərçim edilmiş, yarı rusca, yarı ingiliscə yazılan al-əlvan reklam lövhələri küçələrin yorğun simasına vurulan qəfil siilləyə bənzəyirdi.

Gözlərim bozarmış lövhəyə dirəndi: Nizami– 105. Əjdərin verdiyi ünvanda mağaza yerləşirdi və vitrinində qoyulmuş mallardan aydın idu ki, burada ancaq qadın paltarları satılır. Şüşə qapının üstündə iş rejimi yazılmışdı. Düzmü gəlmişəm? Saata baxdım: 9-55-i göstərirdi, deməli açılmasına hələ beş dəqiqə qalır. Bir az da var-gəl etdim. Gözlərimlə möcüzə axtarırmış kimi küçənin gah o başına, gah da mərkəz istiqamətindəki binaların tinindən çıxan adamlara baxırdım. Havadan neft qoxusu gəlirdi. Aradabir bu qoxu yanımdan tək-tük ötüb keçən qadınların vurduğu ətirlərin qoxusuyla qarışaraq məndə anlaşılmaz təəssürüt yaradırdı. Birdən ayaqlarım yerə mıxlandı. Qollarım süstləşdi. Tez tutmasaydım çiynimdəki çanta yerə düşəcəkdi."Odur! Vallah, odur! Əjdər düz demişdi."

Tindən dönən iki qadın deyə– gülə mağazaya tərəf gəlirdi. Azca uca olan və pırpız sarışın saçlı qadın sağ əlini havada oynadaraq nəsə deyir, o biri də onun dediklərini təsdiqləyirmiş kimi başını tərpədirdi. "Bu Marqo idu. Bəstə boylu, bir az da

dolu bədəni gözəl göstərirdi onu. Heç dəyişməyib, əvvəlki təravətini saxlayıb zalım qızı. Bir-iki addım da yaxınlaşsa, alt dodağının düz ucunda, sol tərəfdə balaca qara xalını da görsəm, tam əmin olacam... Gülümsəyəndə nar giləsi boyda batıq olurdu yanağında... Hə, gülümsədi. Bu qədər oxşarlıq ola bilməzdi axı?!... ”

– Aaa, a qardaş, icazə ver keçək dəə...

Bunu deyən sarışın saçlı qadın idi. Deyəsən özümü itirdiyimdən mağazanın qapısına tərəf yolu kəsmişdim. Ayaqlarımı güclə yerdən ayırdım. Kənara çəkilsəm də gözüm onun qara, işıqlı gözlərində, xurmayi rəngli saçlarında, dodağının ucundakı xalında dolanırdı.

Ağız büzərək, iri, qara çantasından açarları çıxardan sarışın saçlı qadın göz altı, qəzəblə məni süzərək mağazanın qapısını açmağa başladı.

– Ba-ğış-layın,– deyib, bir addım aralana bildim. Maddımmaddım rəfiqəsini süzdüyümdənmi qadının acıqlı-acıqlı danışmağı mənə yaman toxundusa da heç nə demədim. Acıdil qadınlara baş qoşmaqdan zəndeyi-zəhləm gedir. Başımın salamat olmağına çalışdım həmişə. Bir də ki, ona baş qoşmağa halım da yox idi, çünki bütün diqqətim Marqoya cəmlənmişdi.

“Tanımadı. Bəlkə, Əjdər məni aldadıb? Niyə aldatsın axı?.. Bəlkə zarafat eləyib? Nə zarafat, belə də zarafat olar? Bir də, onun mənimlə nə zarafatı? Bəlkə, bəlkə o gecənin intiqamını alırdı məndən?! Axı soruşmuşdu ki, fikrində ciddisən? Müharibədi, hər şey ola bilər. Fikirləşib ki, bir də necə, harda görüşərik?”

Şübhələr beynimi didib parçalayırdı. Axmaq sualların hardan ağlıma gəldiyini düşünürdüm ki, adımı eşitdim.

– Rü-fəət?...

İstədim kimsə məni vargücüylə sillələsin, yuxudan ayılım və bir də o tanış, ehtiraslı, titrək səsi eşidim. Yerimdəcə donub qaldığımı görüb ikinci dəfə adımı təkrar edəndə bütün şübhələrimə sərin su çiləndi. Rüfət olduğumu təsdiqləyirəmmiş kimi

bir kəlmə də demədən, gülümsəyib başımı yellədim. Gör neçə il keçib, amma tanıdı.

Sarışın saçlı qadın qapını açmışdısa da şübhəli nəzərlərini məndən yayındırmadan rəfiqəsini hayladı:

– Ay qız, Məryəm, gəlmirsən?

Məryəm deyə çağırdığı Marqo idi. ”Deməli Məryəm olmusan?” Əjdər bu barədə heç nə deməmişdi. Uzaq illərin yaddaşından qopub gələn bu tanış səsin cazibəsindən çıxmadan gözlərindəki, sifətindəki hissləri oxumaq istədim. Adımı çağıranda səsindəki titrəyiş nə idi? Bu, illərdi görmədiyi, həsrətində olduğu, itirdiyi sevgisini tapan birisinin sevinməyinə oxşamırdı. Mən elə bilirdim sevindiyindən üstümə atılacaq, qucaqlayıb boynuma sarılacaq, dodaqlarımdan öpəcək, hə, niyə də yox?! “Dəliyəm vallah. Keçdi o vaxtlar, Rüfət, keçdi. ”

Rəfiqəsiylə deyib-gülən bayaqkı qız elə bil qeybə çəkilmişdi, gözlərində müdhiş bir qorxu vardi. Bu, tini dönərkən, qəflətən düz gicgahına tapança dirənmiş birisinin stresdən keçirdiyi qorxuya bənzəyirdi. Düşdüyü şokdan üzülüşə bilmirdi. Sanki, onu dəhşətli cinayət üstündə yaxalamışdım. Rəngi qaçdı. Ora-bura baxaraq əli ilə rəfiqəsinə işarə etdi ki, indi gəlirəm.

Udqundu. Bunu hiss etməmək mümkün deyildi. Bir anda hər şey dəyişə bilərdi. Başa düşdüm ki, onu ələ verəcəyimdən təlaşlanır, qorxurdu.

Birdən hər şey tərsinə olsaydı? Mən onu deyil, Marqo məni Yerevanın mərkəzində görüb tanısaydı necə olardı, hə, necə olardı? Bunu təsəvvürümə gətirəndə alnıma soyuq tər gəldi. Bir anlığa özümü düşmənin arxa cəbhəsində – Yerevanda hiss etdim; gözləri qanla dolmuş izdiham onun bircə kəlməsiylə üzərimə gəlir. Yaralı, yırtıcı dəstəsi əllərinə düşmüş qəniməti bir leş kimi parçalamağa hazırdır. ”Öldürün onu! O türkdür !... Turk-es!... Turk-es! Düşmənimiz türk-dür!... Türk!... ” Və havada yellənən dəyənəkləri, üzərimə selbələnən daş-kəsək parçalarını, sifətimi hədəfə çevirmiş yumruqları görürəm. Bir

neçə saniyədən sonra başıçönük izdihamın tapdağı altında asvaltla bir oluram... İlahi, bunu düşünmək belə dəhşətdir! O da öz aqibətini beləmi düşünürmüş ?

Belə vəziyyətdə Allahdan da kömək ummaq ən böyük axmaqlıq olardı !

Əjdər onun Bakıda olduğunu deyəndə necə inanmamışdımsa, indi də, güzgüdə özümü gördüyüm kimi ona baxırdımsa da inana bilmirdim.

Dinmək istədim. Nə deyəcəyimi duyubmuş kimi şəhadət barmağını ərklə dodağıma dayadı ki, "sus". Barmaqları titrəyirdi. Susdum. Əslində heç danışmırdım ki? Nədən, necə başlayım? Adını necə çağırım? İndiki şəraitdə onu Məryəm deyə çağırmaq özgə planetdən gəlmiş, dilinə, xasiyyətinə bələd olmadığım bir məxluqla ünsiyyət qurmaq kimi çətin idi mənə. Bəs, Allah göstərməsin, Marqo deyə çağırsam necə?!...

Heç də məni qınamayın: bildiklərim, eşitdiklərim bir yana qalsın, mənim üçün Vətənimi tərk etdiyim on iki məşəqqətli illərimin içində ağrısıyla, acısıyla ürəyimi göynədən çox şeylər olduğunu özümdən başqa bir kimsənin bilmədiyi, həmin dövrün içində, lakin məndən kənarda nələrin baş verdiyini, yaşanılan müsibətləri tam çılpaqlığıyla dərk etmədiyimdən ona düşmən kimi yox, o uzaq yay səhəri, yataqxanada, gizlincə otağıma gəlib öz hisslərini, bütün varlığını mənə təslim etmiş şıltaq, şıltaq olduğu qədər də ehtiraslı, eyni zamanda sadəlövh qız kimi baxırdım.

Yavaş-yavaş özümü ələ almağa çalışırdım. İndi beynimdə olan bütün fikirləri dağıdaraq gənclik illərimin bir parçası olan şirin xatirəmə qayıtmaq necə də yerinə düşərdi. Nəyin bahasına olursa-olsun, hər şeyi unutmaq istədim – ölkədə olan vəziyyəti, onun kimliyini, düşmənçilikləri, lənətə gəlmiş müharibəni, bir sözlə heç olmasa bir anlığa hər şeyi unudub o qayğısız, şirin anlara dönmək istədim. "Lənətə gəlsin, niyə belə oldu axı, niyə ?! Hara gedir axı bu xəstə, qoca dünya?!"

Nə qədər çətin və ağır olsa da, bəlkə onu Məryəm kimi qəbul etməli, duyğularına, hisslərinə bələd olmalı, sirli dünyasına girib yenidən tanımalıydım. Getdikcə lap başımı itirir, nəyin düz, nəyin səhv olduğunu, düşdüyüm şəraitə uyğun vəziyyətdən necə çıxacağımı götür-qoy edirdim ki, yenə həmişə olduğu kimi ilk cəsarətli gedişi o etdi. Bilmirəm, sifətimdəki ifadədənmi, yoxsa məni daha yaxşı tanıdığındanmı ürəkləndi, sirrini aşkar etməyəcəyimə tam əmin olduğundan əllərimi ovucunda sıxaraq özünə tərəf çəkdi. Lap ilk görüşümüzdəki kimi...

Onun ürəyinin tıppıltısını...

## ... damarlarında axan qanın səsini eşidirdim.

... Arazın atası kədimizdə kolxoz sədri, rayonda da beş kişidən elə beşincisiydi. Niyə beşincisi? Çünki, o dörd nəfər lap yuxarılarda otururdu və daha çox hörmət sahibləriydi, böyük idi. Böyüklər Karlovo-Varada, "Qızıl-qum"da, bəd ayaqda Truskovetsdə dincələndə Arazın atasıkimilər Soçidə, Yesentukidə, Kislovodskidə "müaliçə" olunurdular. Böyüklər köhnə "İnturist"də, "Novbahar"da, "Karvansaray"da qızlarla eyş-işrət məclisləri quranda, Arazın atası, kasıbyana "Cənub", "Xəzri", "Muğan" mehmanxanalarında "baz"lıq edirdi... Ona görə yox ki, sədrimizin pulu az idi, yoox, ona görə ki, sədrimiz öz yerin bilirdi, böyüklərlə, özü də elə vəziyyətdə üz-üzə gəlmək, az qala yatanda da pijamasının cibində gəzdirdiyi partbiletını əldən çıxarmaq istəmirdi. O zamanlar partbileti təhvil verməк isə özxoşuna Əzrayılın əlindən tutub "oppalara " getmək kimi bir şeydi. Oppaların giriş qapısı da, çıxışı da "politbüro"daydı. Sədrimiz isə çox ağıllı, qabağı görən adam olduğundan nə qədər ki, canında su vardı, qurub-yaratmaq əzmiylə yaşayırdı – hələ "oppaya" getmək yox, deputat mandatı alıb Kremlin Qurultaylar sarayında oturmaq istəyirdi. Elə

ona görə də “iyurmi beş il idi külüng vururdu kolxozda” özü demişkən.

Sədrimiz hardan düşdü yadıma ?...

Həə, deyirəm axı, mən, Bədən tərbiyəsi institutuna qəbul olanda yataqxanada yer, otaq kirayələməyə pul olmadığından sədrimizin oğlu Araz sağolmuş, komendata “bax-gör” edib mənə öz otağında yer almışdı. Elə dediyim o yerlərin adını da ilk dəfə Arazdan eşitmişdim. Danışardı ki, bir neçə dəfə nazirliyə hesabat aparanda, anası şübhələnməsin deyə, atası onu da özüylə götürübmüş. Şəhərdə qohumları olmadığından həmişə Bakıya gələndə mehmanxanada, bir-iki günlüyə tutduğu otaqda gecələyən sədr yenə də, həmişə olduğu kimi ”Muğan” mehmanxanasının ikinci mərtəbəsində yer alar, gündüz vaxtı Arazı bulvarda gəzdirəndən, “Mirvari” restoranında balıq kababı yedizdirəndən sonra, əldən-ayaqdan düşmüş uşağı nömrəyə gətirər, Araz da yuxuya gedən kimi kişi otaqdan çıxarmış. Qonşu otaqda bir-iki “xala”yla yeyib-içib, sonra kef eləməsini gecələr tez-tez ayılıb sidiyə gedən Araz atasının yatağının heç açılmamasından yox, qonşu otaqda çırıldayan çarpayının, ”xala”ların və atasının əcaib nəriltisindən bilirmiş. Xalalar “davay, davay, yeşyo davay.. ” dedikcə atası fısıldayaraq “ caan, saa quzu kəsiimm!” deyib bağırırmış. Hətta bir dəfə, gecənin bir aləmində, yarıyuxulu tualetə gedəndə qapını səhv salıb qonşu otağa girən Araz, açılma divanda sarışın arvadı ayaqları göydə, həmişə kostyumda, qalstukda görməyə vərdiş elədiyi həmən ayaqları göydə olan arvadın ağ paçaları arasına pərçim olmuş atasının tüklü dalını görəndə qorxudan heç səsini çıxarmayıb geri dönərək yatağına girib, yuxusu qaçdığındanmı, yoxsa atasının zəhmindənmi tualetə getmədən yerində qovrula-qovrula səhəri açmışdı. Araz atasının gizli eşq macaralarından hali olsa da, rayona qayıdandan sonra qısqanc anası nə illah eləsəydi ondan bir kəlmə də söz qopara bilməzdi. Bizə isə belə şeylərdən ağızdolusu danışmağı sevirdi. Bilmirəm niyə, bir növ öyünürdü bununla. Bax beləcə, mehmanxanada

“hesabatla işləməkdən” yuxusuz qalan sədr rayona qayıdanbaşı bütün yolu xoruldaya-xoruldaya yatarmış. Elə Araz da...

Tələbəlik illərində Araz, tez-tez ərklə, “gəlsənə bir-iki xalaşka götürüb gedək bazdığa” deyib məni də özünə qoşmaq istəyirdi. Razı olmayanda, “pul-para mənlikdi haa... onun fikrin eləmə” deyirdi. Doğrusu ürəyimdən keçirdi, lap yaxşıca keçirdi, bəzən sino gedirdim ki, bircə dəfə qızla olum, daa, mehmanxana fahişəsiylə yox ee, “nastayaşşi” qıznan. Kəndçi olanda noolar, onun-bunun artığına, yüziynən gəzib min oyundan çıxanlara tamahım düşmürdü, iyrənirdim. Elələrinə qalsaydı, gündə o qədər “xala-mala” göz-qaş atıb, qarşımda dalın burcudur ki?!.. Dostum da olsa, onun hesabına kef çəkməyi özümə sığışdırmırdım, həm də öz aramızdı, Arazdan utanırdım bir az... Onu isə heç vaxt qınamırdım, pulu-parası olsa da, o ucuz sovet mehmanxanalarına çəkib aparan, yəqin ki, uşaqlıqdan yaddaşına hopan, heç vaxt qulaqlarından getməyən qadınların şit qəhqəhələri, bir də ki, nədənsə ancaq mehmanxanada eşitdiyi sirlərlə dolu nərilti idi... Atasının nəriltisi.

Mən birinci kursun yay sesiyasını, Araz da dördüncü kursu bitirdi. Atası onu Kislovodskaya göndərdi ki, “qoy uşağın gözü-könlü açılsın”. (Yazıq uşaq lap sınıxmışdı ha oxumaqdan!) İmtahanlar qurtardıqca yataqxanamız da boşalırdı. Üçüncü otaq yoldaşım neftçalalı Rasim idi – cazmen Rasim. Yox əşi, onun cazdan-zaddan heç xəbəri də yox idi, sadəcə Vaqif Mustafazadəyə elə oxşayırdı, elə bil bir almanı iki bolübsən, xüsusiylə də bığları. Ona “cazmen” deyəndə, deyəsən “caz”ı “baz” kimi başa düşdüyündən xoşhallanırdı.

Hə, bu gün də cazmen Rasimi Neftçalaya yola salandan sonra tək-tənha qaldım.

Avtovağzaldan qayıdan kimi köynəyimi bədənimə yapışdıran qətran kimi tərdən canımı qurtarmaq üçün yuyunub sərinlənmək istədim.

Bürküsü nəfəs kəsən bir yay günüydü, adamın lap cızdağı çıxırdı istidən.

Atamın ölümündən sonra çaya, dənizə nifrət edirdim, daha doğrusu qorxurdum sudan. İndi normal insanlar, bu bürküdə, dənizin duzlu suyunda sərinləşən bir vaxtda mən sükuta qərq olmuş yataqxana divarları arasında qalmışdım. İki gündən sonra başlayacaq çempionata hazırlaşdığımdan günlərlə “Spartak”-da məşqlərdə olur, qalan boş vaxtımı da Sabir bağında keçirərdim. Cavanlar bulvarda avaralananda mən bu sakit bağın mərhəmliyində rahat olurdum. Uca yaşıl çinarlar, köhnə qala divarları, “İsmailiyyə” sarayı, fəvvarə... bir də tənha, bu millətin necə tarac olacağını düşünən Sabir məni gerçəklikdən qoparıb uzaqlara, lap uzaqlara aparırdı... Onsuz da komendantın bərk-bərk tapşırığına əməl edib yataqxanaya həmişə gec gəlirdim.

Bu gün isə bazar günüydü və mən boş-bekar idim. Rasimi yola salıb yataqxanaya çatan kimi “toyluq” paltarımı çıxarıb dolabdan asdım, balaqlarını kəsdiyim köhnə cins şalvarı əynimə keçirib dəsmal, sabun götürərək duş otağına düşdüm. Tələbə “duşevoy”u birinci mərtəbədəydi və bizim tərəfdən ora getmək üçün mütləq növbətçinin foyeyə baxan pəncərəsinin qarşısından keçməliydim. Onsuz da yataqxananın boş olduğunu və bu gün ya Əsmər xalanın ya da o adını bilmədiyim erməni arvadın növbətçi olacağını bilirdim. Bazar günləri komendant axşamlar görükərdi.

“Ay bəri bax.. ” mahnısını zümzümə edə-edə dəsmalı gah sağ, gah da sol çiynimə döyəcləyərək postun qarşısından keçəndə, dəmir dama-dama çərçivəyə salınmış bir lay iri şüşənin o üzündən sanki eşitməyim deyə, əlləriylə ağzını qapamış bir qızın mənə baxıb güldüyünü gördüm. ”Bu kimdi görəsən? Nəyə gülür ki... ” fikirləşərək səsimi bir az boğdum, dəsmalla tüklü sinəmi örtüb irişdim. Naməlum növbətçi yəqin təzəydi, məni tanımadı və bu boş qalmış yataqxanada səsi başına düşən “başdan xarab”ı görmək üçün sifətini şüşəyə dayayıb gülümsünürdü. Bəlkə çırıq cins şalvarıma rişxənd edirdi? Birdən

sifətim ciddi görkəm aldı və gözəlçə əliylə qaçan dodağını bir yerə yığdı ki, “bağışla”.

Bu şəhər qızları qəribədi e. Bax, məsəlçün, bizim kənddə hansı qız yarıçılpaq oğlanla təsadüfən rastlaşsa, ağzını açıb onu marıtdayar? Heç kim! Bir dəfə halallıca nişanlım Aliyə bizə gəlmişdi, mən də bostanda arxın suyunu qoşurdum. Avqustun əvvəlləri olduğundan təbii ki, qurşaqdan yuxarı çılpaq idim. İlahi, o məni görəndə ikiəlli sifətini örtüb elə götürüldü ki, anam nə qədər çağırdı, geri dönmədi...

“Mən bunu indiyəcən niyə görməmişdim? Amma, yaman gözəldi ha. Yeməlidi. Kimdi görəsən?”

Fikirləşə-fikirləşə duş otağına girdim. İlk dəfəydi duş otağı belə yazıq, belə tənha gəldi mənə. Saatlarla növbə gözlədiyimiz, nəmişlikdən divarının künclərini gömgöy kif basmış “duşevoy” insan hənirinə həsrət qalmışdı. Su şırnağı sükutu pozdu.

“ Bax, indi o gözəlçə də burda olsaydı. Bir yerdə, suyun altında... Nə olardıı.” Nədənsə Arazın “bazdıq” təklifləri yadıma düşdü. Guya, yerə düşən qələmini əyilib götürmək istəyən, gözucu da olsa onun ağappaq döşlərinə baxdığımı görməyincə qələmi qaldırmayan tələbə yoldaşım Tünzalənin qaşaltı baxışlarını xatırladım. Göbəkkəsdim Aliyəni düşündüm. Bir anlığa onların da necə duş qəbul etmələrini təsəvvür elədim. Kəndimizdəki iydə kollarının iyi dəydi burnuma...

Adətən duşun altında on-on beş dəqiqə yuyunardım. Yarım saatdan çox idi suyun altında min cür xəyallar qurur, axmaq fantaziyalarımla baş-başa qalmışdım.

Suya, sabuna sitəm eləyirdim...

Nəhayət, dəsmalla qurulanıb cırıq şalvarı əynimə keçirib çıxdım. Növbətçinin yanından ötəndə yenə də qızın sehirli baxışlarıyla rastlaşdım. Nəyə görəsə barmağını dodaqlarının arasında oynadıb başını yellədir, bic-bic gülümsəyirdi. Mən də cavabında gülümsədim. Qaşlarını çatdımı?

Otağa girən kimi dəsmalı çarpayının sürahisinə sərdim. Ağcaqanad, milçək doluşmasın deyə açıq pəncərənin taxta çərçivəsinə vurulmuş ikiqat tənzif onsuz da boğuq havanı bir az da ağırlaşdırırdı. Suyun bədənimə hopdurduğu nəmlik bürkünün təsirindən yavaş-yavaş yox olurdu. Bir az dincəlmək üçün uzanıb, bayaqkı xülyalarımın təsiri altında gözlərimi yummuşdum ki, qapı astadan döyüldü. "Kimdi?". Cavab gəlmədi. Yadıma düşdü ki, əynimdə bu cırıq cunsidən savayı heç nə yoxdu. Cəld ayağa qalxıb paltar dolabının yarı açıq qapısının üstünə atdığım idman köynəyimi götürmək istədim, ayağım bayaqdan otağın ortasında qalmış qantelə ilişdi. Havada yellənən əlimi paltar dolabının qapısına çatdırdımsa da, dolab şaraqqıltıyla yerə dəydi – yerindən qopmuş qapı əlimdə qalmışdı. Bu əcaib səsdən sonra otağın qapısının cırıldayıb açılması bir oldu. Dolabın qırıq qapısıyla birgə çevrilib baxanda otağın qapısı ağzında bayaqkı naməlum gözəlçənin dayandığını gördüm. Otaqdakı "zəlzələ"dən sonra düşdüyüm gülünc vəziyyətdə edə bilmədiyim dəvəti belə gözləmədən içəri girib qapını örtdü.

Qız indi elə qaqqıltıyla güldü ki, dedim divarlar silkələnəcək. Onsuz da əsəbimdən zəncir çeynəyirdim, bu isə gülür?! Dişlərimlə dilimi sıxdım ki, bir qələt çıxartmayım. Özümü ələ almağı bacardım. O daha gülmürdü, elə bil şəklimi çəkir, daha doğrusu gözləriylə "yeyirdi" məni. Qopmuş qapını divara söykədim. Nəm mələfəni çarpayının sürahisindən qapıb guya abır-həya gözləyirmiş kimi sinəmə tutdum. Qəfil qonaq yaman çaşdırmışdı məni.

– Bu– buyurun, – deyib oturmaq üçün tabureti göstərdim. – Kim lazımdır?

Nə axmaq sual oldu? Yəni bizdən başqa bu binada kimsə var idi? Lap olsa da bir-iki nəfər.

– Çay... içirsiz... içərsən... içirsən?

Bu istidə çay hardan ağlıma gəldi, dilim nədən topuq vurdu, anlamadım. Elə bil oğurluqda yaxalanmışdım. Qızın

baxışlarındakı cazibə, iri gözlərindəki alov, dar köynəyindən az qala pırtlayıb adamın gözünə girən ağ yupyumru döşləri, ətli dodağının ucundakı qara xal “gəl, ye məni, ye məni... “ deyə tüğyan edirdi. Bu bir yuxuydumu, yoxsa duşun altındakı xəyallarım gerçəkləşirdi?

Gözümü hara zillədiyimi duyub sinəsini bir az da qabartdı. O niyə belə edirdi axı, heç nə başa düşmürdüm. Özümü itirmişdim, bir yandan da maraq, axmaq bir maraq məni didib-parçalayırdı. Lənət sənə kor şeytan, bu nə işdi düşdüm?! Çalışdıqca baxışlarımı onun sinəsindən yayındırmaq istədim, vallah bacarmadım. Nə edəcəyimi bilmirdim, o da bir söz demirdi ki, sakitləşib özümə gəlim.

Mənim çaşqınlığım onu məmnun edirdi deyəsən. Heç oturmağı təklif etdiyim oturacağa da baxmadı. Gözləri, o ilahi gözləri bütün əzalarımda “gəzdikcə”, onsuz da bürkünün təsirindən dartılmış dərimi, gərilmiş əzələlərimi, bir nöqtədə donub qalmış bəbəklərimi idarəolunmaz edir, vücudumu titrədir, dodaqlarımın suyu quruyurdu. Birdən, ozümdən ixtiyarsız aşağıdan yuxarı, lap tüklərimin ucuna qədər bədənim silkələndi, heç bir an keçməmiş ildırım vurmuş tənha ağac kimi alışıb – yanmağa başladım. Amma bu ildırım toxunuşu o qədər də acınacaqlı, faciəvi təsir bağışlamırdı, əksinə, getdikcə xoşuma gəlirdi. Bu hiss o qədər təzə və bihuşediciydi ki, gözlərim xumarlandı.

İncə barmaqlarını tüklü sinəmdə, dodağını dodağımda, döşlərini ovucumun içində hiss etdim... Qəribə bir istilik gəldi bədənimə – heç vaxt duymadığım, hiss etmədiyim bir istilik. Özümü karvandan ayrı düşüb sonsuz səhrada azmış yolçu kimi hiss etdim. Dodaqları susuzluqdan çatlamış, qızmar günəşin atəşində yanan bir yolçu. Nabələd səhrada nə axtardığımı da bilmədən, qovrula-qovrula harasa gedirəm, gedirəm...

Budur, əl çatacaq qədər yaxınlıqda, xurma ağaçının altında çeşmə qaynadığını görürəm. Əlimlə, ayağımla qum təpəsini yara-yara o quyuya yaxınlaşıram... Bayaqdan ilğım sandığım

çeşmədəki göz yaşı kimi axan su üzümə, sinəmə, dodaqlarıma toxunduqca , özümü yepyenicə doğulmuş körpə qədər qayğısız və xoşbəxt hiss etdim. Necə də xoşbəxtəmm indi!

Birdən ayıldım: bu nə ilğım, nə də röya imiş; çeşmə suyu kimi dadlı, şirin, bir anda ürəyimə toxtaqlıq gətirən naməlum qızın nəm dodaqlarıydı. Qızılgül tamı verən dodaq boyası nəfəsimə qarışmışdı. Məni əfsunlayan təkcə bu idimi ?Bəs dimdik dayanan döşlərini tüklü sinəmdə oynatdıqca bədənimdən keçən cərəyan şırnağında yanmağım?...

Həyatım boyu, ilk süd dişim çıxana qədər acgözlüklə süd əmdiyim anamın illərcə yastığımı əvəz edən nənəmin yumşaq döşlərindən bahəm qadın sinəsini bu qədər yaxından görmədiyimdən bir toxunuşla vicudumun titrəməsini duyanda ürəyim yerindən çıxacaqdı. Çünki bu toxunuş o təmasdan deyildi, başqaydı, təzəydi... Ətri də təzəydi, süd tamı vermirdi, ürəyim də yerində qərarsızdı – çırpınırdı... Qalın dodaqları dodaqlarımı maqnit kimi çəkdikcə bədənimdəki bütün əzalarım oyanırdı.

Birdən hansısa qüvvə ağlımı hisslərimə ram eləyən çağrılmamış qonağın əlindən çıxmaq, qaçmaq, hələ ki, bir qələt, yungül təcavüz, bəlkə də cinayət eləməmiş özümü bu ehtiras məngənəsinə salmış iblisdən yaxa qurtarmağa çalışır. Qollarının arasından sıyrılıb geri çəkilirəm. ”Yoox, bu qəbahətdi... günahdı... rəzillikdi!.. ”

Nənəmin :“Şeytan insana hakim olmaq istəyəndə gözünə ən şirin nemət kimi görünər” deməsi beynimdə ildırım kimi çaxdı və keçdi.

İçimdən gələn səsləri eşidirmiş kimi beynimi donduran qətiyyətsizlikdən, ya ürəyimi sıxan qorxudanmı alnımı bürüyən soyuq tər dənələrini asta-asta, yumşaq barmaqlarıyla silib qulağımın ucunda pıçıldadı:

– Qorx-maa, mən... mən qız de-yi-ləm... Çoxdaan qız deyiləm...

Keyləşmiş barmaqlarımı ovucunun içində sıxaraq məni sinəsinə yapışdırdı.

– Heç ... qadınla olmamısan?

"Söz tapdı da soruşmağa, bəxtəvərin qızı, harda olacaqdım ki, qadınla, kənddə? İlahi, bu nə cəzadır verirsən mənə ?!"

Qulağımın ucunda da asılıb qalan, cingildəyən bu sözlər sinirlənmiş, qıc olmuş əzələlərimin keyini açdı, damarlarımı yumşaltdı elə bil, beynimə mıxlanmış qəbahət zəncirini qırdı...

Daha qorxmurdum, sadəcə utanırdım, utanırdım ki, aşağıda, su şırnağının altında xəyal etdiklərim hara, öz ayağıyla otağına gəlmiş ehtiras mələyinin qarşısındakı fərsizliyim, acizliyim hara? "Hələ bir fikirləşirsən də... Bu ki yağlı əppəkdi, göydən düşüb düz ovcunun içinə?!" Bir vaxtlar Arazın bazlıq təkliflərinə naz eləyib razılaşmadığıma görə özümə nifrət eləməyə başladım!

Tüklü qollarımla belini qamarlayıb sinəmə sıxdım. "Ahh.. " eləyəndə ilıq nəfəsini dodaqlarımda hiss etdim. Bir neçə saniyə keçmədi ki, onun ürəyinin guppultusunu, öz damarlarımda axan qanın səsini aydınca eşidirdim...

Ayaqları azca yerdən üzülmüş qızı qucağıma alıb dəmir çarpayıya uzatmağımla, çırıq cins şalvarımın pəncərədəki tənzifin üstünə yapışmağı bir oldu...

Bu gün bakirə oğlanlığımla vidalaşdım.

Neçə ay hay-küydən bezikmiş boş yataqxanada, nəhayət ki, dəmir çarpayımın cırıltısı sükut içində təzəcə mürgüləməyə başlayan divarların yuxusunu dağıdırdı...

...Həmişə fikirləşərdim ki, görəsən, yataqxanadakı yatağımda səhərəcən o yan-bu yana çevrildikcə cır-cır cırıldayan köhnə dəmir çarpayının səsi mənə nəyi xatırladır? İndi öz hənirtimə qarışmış, iri saat kəfkirinin hökmlü çıqqıltısına oxşar səslər qulaqlarımda guruldadıqca yadıma düşdü. Yadıma düşdü ki, uşaqkən, alt mərtəbədə nənəmin yumşaq, sallaq döşləri arasında mürgüləyərkən ata-anamın yuxarıdakı yataq otağından eşidərdim bu səsi. O gün ki, atamı Kürün dəli suları aparmışdıdı, o cırıltı da "xırp" kəsilmişdi. Əvəzində, yorğan altında balıncını sinəsinə sıxıb sızıldayan anamın hıçqırıqları qalmışdı...

***

– Xoş gördük... Rüfət!

– Xoş gördük. – Handan-hana dilləndim. – Deməli... Məryəm?

– Hə, – pıçıldadı. – Sonra... sonra hər şeyi başa salaram... Sən sus... Yalvarıram... – Özünü bir az ələ alıb əlavə etdi.– Burda gözlə, indi gəlirəm... Bu dəqiqə. – Tələsik mağazaya girdi.

Onsuz da ağzım kilidlənmişdi. Nəsə deməyə heyim yox idi.

Daima özünə inamlı, qətiyyətli qız kimi tanıdığım Marqonu – Məryəmi, bu qədər kövrək, ürkək görməmişdim. Məni yaxşı tanıyırdı. Bilirdi ki, dediyimdən ölsəm də dönən deyiləm. Onu da yaxşı bilirdi ki, əlimdə onu ifşa etmək şansı olsa belə beş qoluzorluya cavab verəcək gücü olan azəri kişisi belə alçaq hərəkət etməyəcək!

Bayaqdan altdan-altdan gözünü bizdən çəkməyən sarışın saçlı qadınla danışırdı: yəqin ki, “köhnə tanışımdı, ya da uşaqlıq dostumdu, uzaqdan gəlb-filan”deyib nəsə uydururdu. Yaman qızdı Marqo. Çoxbilmiş... Çantasından nəyisə çıxarıb iri masanın üstünə qoydu. Sonda onunla öpüşüb qayıtdı.

– Gedək mənim evimə, – dedi. – Burdadı, yaxında.

“Deməli ev-eşiyi də varmış... Necə? Axmağam vallah. İndiyəcən subay qalmaz ki? Yəqin ərə gedib... ” Suallar içində burulub qalmışdım. Nədən başlamalı, nəyi soruşmağı qərara gəlmək iqtidarında deyildim. Heç özüm də bilmirdim ki, məni belə narahat edən nədir – Marqonun Məryəm olmasımı, yoxsa, bir tərəfdə ölüm-dirim müharibəsi gedərkən, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmadığı halda Bakının düz mərkəzində erməni qızının yaşamasımı?! Mənim bu şəhərdə tanıdığım təkcə Marqo idi. Bəs deyirdilər Azərbaycanda erməni qalmayıb? Deməli qalıb. (Sonradan öyrəndim ki, sən demə, ancaq Bakıda iyirmi min erməni qadın yaşayır. )

Evə çatana kimi heç birimiz dinmədik. Sanki o qədər danışıb əldən düşmüşdük ki, söz tapa bilmirdik. Ürəyimizdə danışırdıq, götür-qoy edirdik. İkimiz də çox uzaqdaydıq.

Üç mərtəbəli evin iknci mərtəbəsindəki soyuq mərmər pilləkənlə üzbəüz mənzilin qapısnı açdı. Yarıqaranlıq dəhlizə daxil olduq. "Xoş gəlmisən!" deyib, işığı yandırdı, tələsik qapını qıfılladı. Guya çox ağırmış kimi gödəkçəmi əynimdən çıxarmağa kömək etdi. Asilqandan çantamı, gödəkçəmi asanda sonra məni arxadan bərk-bərk qucaqladı.

– Gözləmirdin? – Nəhayət soruşdum.

– Bilsəydin, bilsəydin bu anı necə arzulamışam, Rüfətcan! – birnəfəsə dedi. – Əgər bilsəydin...

Sinəmdə çarpazlamış əllərinin hərarətin, boynumu isidən nəfəsini duydum, çırpınan ürəyinin səsini eşitdim. Bu həlim vəhdətindən vücudum silkələndi. Beləcə, bax beləcə tərpənmədən, nəfəs almadan saatlarla durmağıma razıydım, təki onun isti ovucunu sinəmdə hiss edim... Vaqon bələdçisinin samovar qaynatmaq üçün yandırdığı daş kömürün paltarlarıma hopmuş yüngül qoxusuna məhəl qoymadan zərif barmaqlarını köynəyimin düymələri arasından keçirib tüklü sinəmdə gəzdirdi, gəzdirdi...

Beləcə yaşamağa dəyər.

Beləcə ölümü də hiss etməzsən.

Beləcə susub dayandıq. Ölüb, təzədən dirildik.

## ...qızını zorlayıb, sonra da quvaldla başını əzib xəşilə döndəriblər..

Bir otaqlı geniş mənzil çox işıqlı və rahatıydı. Açıq rəngli divar kağızı vurulmuş divarın yarısını tutmuş oymalarla işlənmiş, çox köhnə olduqundan lakı azca solmuş, rəflərin demək olar ki, tibbi ensklopediya cildləri kiplənmiş aşağı gözündən başqa hamısında dünya ədəbiyyatının nadir nümunələriylə dolu qədimi kitab şkafı, həyətə açılan iri

pəncərənin qarşısında qoyulmuş qara miz, otağın bir başında ağır divan və kreslolar vardı. Köhnə televizorun üzü nədənsə divara çevrilmişdi. İşləmirdi yəqin.

Ağır qəhvəyi rəngli pərdələri aralayıb pəncərəni açdı. Təzəcə çıxmış payız günəşinin zəif şüaları bunu gözləyirmiş kimi otağa doldu.

– Soyuq deyil ki? – soruşdu. “Yox” dedim.

Küçədəki qorxu yoxa çıxmışdı və əvəzində bu böyük şəhərdə indiyə kimi tapa bilmədiyi arxa, qətiyyətli dosta olan inam işığı yanırdı gözlərində. Bir tərəfdən sirli, qapalı ömür sürməyi özünə əbədi sirdaş etmiş, daima qorxu və vahimə içində yaşamağa məhkum olmuş bu qadına yazığım gəldi. Hansı sirrlərin açılması gözləyirdi məni, nə, kim məcbur edib ki, anasını, atasını, qardaşını, qohum-əqrabasını atıb qarşısına səd qoymaq mümkün olmayan nəhəng selin axınının əksinə üzmüşdü Marqo?! Elə onu da bu dəqiqə sakitləşdirən, bəlkə də bu sirri, müəmmanı içindən bayıra atmaqdan ötəri əlinə düşmüş fürsət idi. Rahatlanmaq, azad olmaq istəyirdi.

Mənə elə gəldi ki, elə əvvəlki zamanlardır, elə burda yaşayırammış, Marqo da məni hər gün görürmüş. Beş dəqiqə bundan əvvəl çörək almaq üçün mağazaya düşüb qayıtmışam.

– Yuyunursan? Yol gəlmisən. Bu dəqiqə duşu hazırlayım, – deyib, razılığımı almağa ehtiyac duymadığından hamam otağına keçdi. Başa düşürdüm ki, hələ də özünə gəlməyən, danışmaq, keçmiş ünsiyyəti bərpa etmək üçün hər şeyə hazır olan Məryəmin zamana ehtiyacı var idi. Susmağımsa onu dəli edirdi. Çantamdan üzqırxanımı, təzə alt paltarlarımı bir də köynək çıxardıb hamam otağına keçdim. Məryəm ütülü hamam dəsmalını, şampunu, sabunu göstərib çıxmaq istəyəndə:

– Heç işlənmib... Bu evdə kişi olmasa da, kişi şampunu var.– Köynəyi əlimdən aldı,– Ütüləyərəm, – dedi.

“Bu evdə kişi olmasa da...” Səsi titrəyirdi. “Deməli ərdə deyil”. O qədər yanıqlı səsləndi bu son cümlə ki, özümü saxlaya bilmədim. Qapının arasındaca onu qollarımın arasına

alıb sinəmə sıxdım. Dodaqlarımı dodağına toxundurdum. Öpmək, öpmək istədim. Məryəm güclə sıyrılıb qaçdı. Qollarımın arasından belə asanlıqla çıxmaq əslində mümkün deyildi – mən belə istədim. Hisslərimi cilovlamalıydım. Niyə belə edirəm axı?

Duşdan çıxıb otağa girəndə ütülənmiş köynəyimi mənə uzadaraq "Həmişə təmizlikdə! " deyib stolu göstərdi – süfrə hazır idi. Kənarları xırda naxışlarla işlənmiş süfrə salınmış masanın üstündə pendir, qızardılmış toyuq budu, göyərti, xırda doğranmış pomidor-xiyar və təndir çörəyi iştahı olmayanı da həvəsə gətirirdi. Məryəm salfetləri üçkünc qatlayıb qabına qoydu. Vanna otağındakı bayaqkı hərəkətimə görə utandım. O da qızararaq gözaltı gülümsədi.

Hamamdan çıxarkən "həmişə təmizlikdə!"deyib əynimə ütülü köynək geydirən, gülər üzlə masa arxasına dəvət edib isti ev yeməklərinə qonaq edən, qayğıma qalan əsl qadın nəvazişini son dəfə nə vaxt görmüşdüm? Nə qədər istədim yadıma salam, yaddaşım məni çox uzaqlara, lap uzaqlara apardı... Subaylığın sultanlığını deyəsən çox yaşamışdım axı?...

– Sağ ol! – deyib, ütülü köynəyimi əynimə geyinib oturdum. Əvvəlcə salat və toyuqdan mənim nimçəmə, bir tikə də öz nimçəsinə çəkdi, sonra üz-üzə əyləşib əllərini stolun kənarında çarpazlaşdırdı, eynilə birinci sinif şagirdi kimi. Baxışlarını üzümdən çəkmədən necə iştahayla yeməyimə tamaşa elədi, baxdı... Mən də gözlərimi ondan çəkmirdim. Suallar... Onlara alacağım cavablar maraq dünyamı sakitləşdirmək üçün səbirsizliklə gözlədiyim məlhəm kimi rahatlıq gətirəcəyinə əmin olmasam da birdən-birə Marqo-Məryəmin gözlərinin dərinliyində illərin yığılıb qalmış kədərindən xəbər verən işırtıları gördüm. Bunu donmuş baxışlarımda duyurmuş kimi başını bir az da mənə yaxınlaşdırib soruşdu:

– İnana bilmirsən, hə?

Tikəmi udub dedim:

-Nəyə?...

Sözümü yarımçıq kəsdi:

– Necə oldu ki, mən qaldım? – Dalısını deyə bilmədi. Kövrəldi. Ayağa durub üzü divara çevrilmiş televizora yaxınlaşdı, barmaqlarını üstündə gəzdirdi, pəncərəni örtdü, sonra divana yaxınlaşdı, başını cütlədiyi dizlərinin üstünə əyib oturdu. Danışacağı dəhşətlərin, çəkdiyi iztirabların izləri təptəzə idi, ağrılar getməmişdi. – Bilirsən nələr oldu? Rüfət, sən görsəydin... burda olsaydın...

Məryəmin illərdi yaddaşından həmişəlik silməyə çalışdığı acı xatirələrini oyatmışdım gəlişimlə. Qaysaq bağlayan yarasını qoparmış, üstünə duz səpmişdim deyəsən. Hansısa köhnə tanışına qəfil rast gəlsəydi belə çaşqın görünməzdi bəlkə. Məhz mənimlə görüşəcəyinə hələ də inanmırdı. İnana bilmirdi mənim kimi. Gizlincə sevinirdi.

-Bunları yaşamaq gərəkdi, Rüfət, yaşamaq! – Barmaqlarını əsəbindənmi, yoxsa yaddaşını nizama salmaq istədiyindənmi övucunun içində övuşdurur, sonra bir az toxdayıb çənəsini ovcuclarının arasında sıxırdı. – Hər şey Sumqayıtdan başladı... Əslində... bu çoxdan başlamışdı. Görən, duyan yox idi bəlkə... Ancaq Sumqayıt... Bilirdin də, xalamgil Sumqayıtda yaşayırdı. O axşam xalaoğlu Suren al-qan içində bizə gəldi. İlahı, yadıma düşəndə dəli oluram, Rüfət !

Qəhər boğurdu onu. Danışdıqca tez-tez burnunu çəkə-çəkə nəfəs alır, tikəsi qalıbmış kimi boğazını arıtlayır, əlinin dalıyla göz yaşını silib hıçqırırdı. Heç vaxt onu belə köməksiz və yalqız görməmişdim. Bu mənim tanıdığım Marqo deyildi... Qalxıb divanda oturan Məryəmə yaxınlaşdım. Qolumu çiyninə sarıyıb başını sinəmə sıxdım. Məni yanında görüb ürəkləndi. Hıçqırıq azaldı.

-Eşitmişdim...

– Eşit-miş-dim... – Sözümü təkrarlayaraq üzünü sinəmdən qaldırıb gözlərimin içinə elə baxdı ki, sanki bütün olanlara bais mənəmmiş. Səsi daha çox zəif bağırtıya bənzəyirdi. – Hardan

eşitmişdin, televizordan? Eşitmək yox, onu görmək, yaşamaq lazım idi, Rufətcan, yaşamaq!

Bu ittihamı mənə yer elədi. O illərdə Vətəndən uzaqda olduğuma görə özümü bir az müqəssir də sandım. Axı mən bəziləri kimi el-obamı darda qoyub qaçmamışdım? Sovetin dövründən Saratovda yaşayırdım. Onda hamımız bir vətənin övladları deyildikmi? Mənim də alnlma belə yazılıbmış. Sevgimi itirdim, institutu bitirə bilməsəm də əsgərliyə getdim, kişi kimi xidmət etdim. Qayıtmadım daha. Qaçdım buralardan. İtkilərimlə barışa bilmədim. Gücüm çatmadı– acıları, ağrıları daşımağa gücüm çatmadı. Böyük zavodların birində işləyirdim... Zavodun, şəhərin, həm də vilayətin fəxrı idim. İdman nailiyyətlərim vardı.

– Sakit ol, Məryəm, sakit... sss... – deyə pıçıldadım. – Özünü ələ al, İstəyirsən heç danışma... hə?– Sakitləşdirməyə çalışdım. O isə sakitləşmədi. Bu fürsəti gözləyirmiş. Onu boğan, kabus kimi izləyən acı xatirələrini burada, indi yerbəyer etmək, ürəyini tamam boşaltmaq, azad, azad olmaq, ağ bir göyərçin kimi mavi səmalarda qayğısız, xoşbəxt qanad çalmaq istəyirdi. Başqa heç nə!

Bu mümkün idimi?!...

– Rüfət, xalam oğlu Sumqayıtdan "Ermənikənd"ə qədər piyada gəlmişdi. Bizə dedikləri dəhşət idi, Rüfət, dəhşət! Dedi ki... atasını Yerevandan gələnlər dördüncü mərtəbədən tullayıblar... Xalamla qızını zorlayıb... sonra quvaldla başlarını əzib xəşilə döndəriblər... Yazıq uşaq çörək almağdan qayıdanda görüb bünları... Qonşuların köməyilə qaça bilmişdi...

Məryəm yaşadıqlarını kino lentinə köçürdüyü ardıcıllıqla nəql edir, birdən naşı kinomexanikin səhlənkarlığından lent qırılır, işıqlar yanır, yenə lent bərpa olur, qaranlıq çökür, film davam edirdi....

Danışırdı ki, Sumqayıtdan əsən küləyin qarşısını alsaydılar Bakıda yanvar faciəsi də olmazdı məncə. Çox çətin və ağır zaman idi. Qarışıqlıq idi. Necə deyərlər "it yiyəsini tanımırdı".

Mənə elə gəlidi ki, Məryəm hansısa bir sirri məndən gizlədir. Ya da o sirri açmaq üçün həmin gizlin, mənə məlum olmayan məqamlara hər şeyi əvvəldən axıra kimi xırdalayaraq gəlmək istəyir. Nəydi Məryəmin sirri? Ümumiyyətlə, Məryəmin məndən gizlədəcəyi nə ola bilərdi?

– Bilirsən, Rüfət, bəlkə mən də gedərdim hamı kimi, – dedi. – Unudardım doğulduğum şəhəri, dostları, hər şeyi... unudardım. – Ah çəkib ayağa durdu, mizin yanında var-gəl etdi, pəncərəyə yaxınlaşdı. – Əgər o gün olmasaydı.

Mən başımı tərpədərək "hansı gün?" deyə soruşdum.

– Atam Yerevandan xəbər almışdı ki, Bakıda böyük qırğın olacaq, tez evlərinizi satıb qaçın... Anamgil təlaş içində tələm-tələsik evi satdılar ki, heç kim şübhələnməsin. Pulu Krasnodarda yaşayan dayımgilə göndərdilər. Evi alan gəncəliydi və biz köçmək üçün bir ay möhlət istəmişdik. Rüfət, inan, əgər o gəncəli kişisi də atam kimi bilsəydi ki, bir-iki aya Bakıda nələr olacaq, heç qara qəpik də verməzdi atama... Mən dedim ki, getmək istəmirəm. Sonra gələrəm demişdim ki, atam: "Sonra?... Sonra, leşin gələcək "– dedi. – Bu oğraşlar bizi it kimi qıracaqlar, başa düşürsən, it kimi!.. "

Mən başa düşmürdüm, nələr olacağını ağlıma da gətirə bilmirdim. Mən tərsəm axı, sözümün üstündə durmuşdum. Səhərisi gün yataq otağında atamla anamın möhkəmcə dartışdığını eşitdim. Qapını bağlamışdılar ki, söhbətlərini eşitməyək. Qardaşım hələ yatırd. Onsuz da işə getmirdi. Son vaxtlar vəziyyət elə gərginləşmişdi ki, şəhərin küçələri qır tiyanı kimi qaynayırdı. Mitinqlər davam etdikcə küçəyə çıxmaq, işə getmək nəinki bizdən, elə azərbaycanlılardan da qəhrəmanlıq tələb edirdi. Ona görə oturub hər şeyin necə qurtaracağını, daha doğrusu, sonumuzu gözləyirdik. İmkanlı ermənilər dostlarının köməyilə təyyarəyə bilet alıb aradan çıxmışdılar... Hə, söhbət məndən gedirdi. Qapıya yaxınlaşıb qulaq asdım. Atam elə hey təkrarlayırdı: "Qancuğun da atası oğraşa oxşayır. Qan çəkir ha!

Qanı it qanıdı, ha... ” Əvvəl başa düşmədim. ”Niyə öz qanına it qanı desin ki ?”

Həyətə çıxıb tut ağacının altında oturdum. Bilmirəm niyə ağladım... Rüfətcan, sonra anamdan öyrəndim: sən demə mən, mən Aramın yox, Zakirin qızıyammış! Anam bic doğubmuş məni. Aram – mənim atalığımmış. Anamı çox sevdiyindən xəyanətini də bağışlayıb, mən doğulmamış onu arvad edib özünə... Bu xəbər ildırım kimi başımda çaxdı. Aramdan iyrənirdim. Ağlıma gətirə bilmirdim ki, kişi olan kəs hər gün üz-üzə gəldiyi birisinin belindən gələnin “bic”inə necə yiyə dura, necə başına papaq qoyub gəzə bilərdi? Bilirsən Rüfət, yaxşı ki mən kişi olmamışam. Elə əsəbiləşmişdim, bu gen dünyada canımı qoymağa yer tapmırdım, nə edəcəyimi, hara gedəcəyimi bilmirdim...

Mən qəfil soruşdum:

– Zakiri... atanı tanıyırsan?

Başını aşağı-yuxarı tərpətdi yəni “ hə”, sonra dilləndi:

– Evimizin tinindəki sapojnik Zakir... Yadındadı?.. Türmədə öldü sonra...

– Türməyə niyə düşüb ki?

– Bilmirəm, – deyib xəcalətindən başını sinəsinə tərəf əydi.

Getsəydi, heç vaxt görüşmək qismət olmasaydı bu sirr, qəmli hekayət barədə bilməyəcək, onu həmişə tanıdığım kimi şən, özündən razı, şıltaq qız kimi xatırlayacaqdım. İndicə, məni illər boyu düşündürən bir suala da cavab tapmışdım: azərbaycanlı uşaqları rus məktəblərində oxumağa meyilli olduğu halda, Marqo-Məryəm tanıdığım və eşitdiyim, bəlkə də yeganə erməni idi ki, Azərbaycan məktəbini bitirib, yaşıdları “çuşka” deyib çağırsaydılar da, dilimizi də bizim kimi bilirdi, sanki, bu günkü aqibətini qabaqcadan bilib, özünü sirli boxcanın açılacağı günə hazırlayıbmış qızcığaz. Bir də yəqin etdim ki, Aramın acığından deməsinə baxmayaraq, onun qanı heç də “it” qanı deyildi.

– Əsmər xala yadındadır?

– Onu yaddan çıxarmaq olar?!-dedim. ”Sənin ünvanını mənə Əsmər xalanın oğlu verib” əlavə etmək istədim, amma susdum. – Nə olub ki?

– Allaha şükür, sağ-salamatdır Əsmər xala. Qocalıb bir az. Vaxtın olsa baş çəkərsən... – Yenə lent qırıldı... Ah çəkib ayağa durdu. – Bir çay dəmləyim, – dedi, – boğazım qurudu. – Mətbəxə keçib çaydanı suyla doldurdu, qazı yandırıb ustünə qoydu. Mən yaxşı eşidim deyə bərkdən, mətbəxin açıq qapısından otağa boylanaraq söhbətinə davam etdi. – O gün evdən qaçdım. Əsmər xalagilə getdim... Yeganə güvənəcəyim ailə idi. Anamgil necə oldu bilmədim. Bir ay keçmişdi, yanvar faciəsi baş verdi... Təsəvvür edirsən, Bakının küçələrində tanklar şütüyür, güllələr yağış kimi yağırdı. O gecə... Əsmər xalanın böyük oğlu “XI qızıl ordu “ meydanından yaralıları Respublika xəstəxanasına daşıyanda özü də ağır güllə yarası almışdı. Yazıq oğlanın bir ayağı şikəst olub... Dəyərsən onlara, mütləq...

Qəfədan fit çalan kimi qazı keçirdi, dəm çaydanına iki qaşıq quru çay atıb dəmə qoydu. Mətbəxdəki divara vurulmuş dolabdan iki armudu stəkan və nəlbəki götürüb yudu. Sonra dəm çaydanıyla stəkanları, kəllə qənd doğranmış qəndqabını podnosa qoyub otağa qayıtdı. Bir neçə saniyə keçmədi ki, otaq təzə dəmlənmiş kəkotulu çayın ətriylə doldu...

Məryəm, Əsmər xalanın köməyilə “yeraz” olduğundan, guya, qaçqın düşərkən valideynlərini, sənədlərini itirdiyindən, hansısa məmurun köməyilə sənədlərinin qaydaya salınmasından, hətta, imkanlı bir bakılı xanımın onu qızlığa götürməsindən də danışdı. Sonra dəhlizə keçib asta-asta çantasında eşələndi, axtardığını tapa bilmədiyi üçün əsəbi halda otağa qayıtdı, çantanı çevirərək içindəkilərini mizin ustünə boşaltdı: bir neçə dodaq pomadası, arxası güzgülü köhnə daraq, kosmetika dəsti, solfetka, yanmış soğan rəngində metro jetonları, tərə qarşı dezodorant, bir də pasport. Pasportu sevincək götürüb araladı, şəkil olan səhifəsini açıb mənə göstərdi. Şəkil Məryəmin idi. Oxudum: “ Murtuzova Məryəm Zakir qızı. ”

Özünü yaxşı tanımasa da, bir atalıq qayğısı görməsə də adını üstündə saxlamışdı. Mənə göstərəndə üzünə baxdım: gözləri fərəhdən parlayırdı. Başımı razılıq əlaməti olaraq tərpətdim ki, düz eləmisən. Bunu gözləyirmiş kimi gülümsədi. Gülümsəmək ona necə də yaraşırdı. Marqo güləndə əsl Marqo idi – əvvəlki Marqo.

– Bu, – dedi, – lap gözlənilməz oldu... Qaçqınlara yardım paylanırdı. Xəcalət çəkə-çəkə dayanıb növbəmi gözləyirdim. İndi də yadıma düşəndə bədənim titrəyir... O vaxtlar, elə indi də, izdiham içində olanda, elə bilirdim bax, bu dəqiqə məni kimsə tanıyacaq, "Marqoo, erməni qancığının doğduğu... Ay camaat, ay müsəlmanlar, bu qancığı tanıyıram... ermənidir... " deyəcək, sonra da saçımdan tutub sürüyəcəklər şəhər boyu. Şəhərdə belə hallar baş verdiyindən, o məmur da mənə qəfil yaxınlaşanda bilirsən necə qorxmuşdum? Ürəyim qırılıb ayağımın altına düşmüşdü sanki....

"Qızım, bir qoca, xəstə qadın var, ona qulluq edərsən? Əlbəttə, sənə yaxşı məvacib vermək şərtiylə... Əlacsız xəstədir, baxanı yoxdur " deyəndən sonra ürəyim yerinə gəlmişdi. Bu ki mənimçin göydəndüşmə idi ?! Razılaşdım. – Bax,– deyib, əllərini havada yelləyərək otağı göstərdi, – bu evə gətirdi məni. Qadın çox ağır yataq xəstəsiydi. Amma gözəl insan idi. Cəmi altı ay baxa bildim ona.

– Bəs sonra?...

– Öldü. Həkimlər düzgün müalicə etməyiblərmiş...

Əzizini yenicə dəfn edib qayıdan adam kimi kövrəlib susdu.

Stulu altına çəkib oturdu. Bayaqdan soyuyub qalan toyuq budunu nimçənin içində çəngəllə o yan– bu yana çevirdi, sonra toyuq budunu rahat buraxıb mənə döndü. Yorğun baxışlarında bir qədər rahatlıq duydum. Daha o qorxu da yox idi, harasa çəkilib getmişdi. Dərdini danışıb ürəyini boşaltdıqca yüngülləşdiyini hiss etdiyindən özü də sevinirdi.

– Ölməmişdən iki gün qabaq öyrəndim ki, məni qulluğa götürən məmur, sən demə onun oğluymyş. Təsəvvür edirsən?

– Özü demişdi?

– Yox, oğlu... Altı ayda o qadına elə isinişmişdim ki... Aralarında nə baş vermişdi bilmirəm. Ağır xəstəliyindən əziyyət çəksə də bir dəfə də oğlundan şıkayət-filan etməz, daha doğrusu övladının olduğunu, özü də elə bir vəzifədə işlədiyini dilinə gətirməzdi. Qürurlu qadın idi rəhmətlik!... Oqlunun dediyinə görə hələ dünyasını dəyişməmiş anasının son arzusunu yerinə yetirmişdi; məni qızlığa götürüb, evi də adıma keçirmişdi... Bax belə... Rüfət-can, be-ləə...

Bayaqdan fikir verməmişdim – otaqda saat yox idi. Pəncərədən də gündüzün işıqlı siması görünmürdü, deməli axşamdır. Gör neçə saat keçmişdi. O danışır, mənsə qulaq asırdım. Dəqiq desəm, sanki yarımçıq qalmış kitabın ən maraqlı hadisələrlə dolu, lakin cırılıb atılmış bir neçə səhifəsini sonralar hardansa taparaq yerinə yapışdirır, təzədən oxuyurdum elə bil. Oxuduqca hansısa səhifənin çatışmadığını hiss edir, geri qayıdır, cümlənin bitmədiyini gördükcə o itmiş, çatışmayan səhifənin harda olduğunu, tapacağıma əmin olmaynda nədən bəhs edəcəyini özlüyümdə götür-qoy edirdim. ”Atası Zakirimiş... Nə olsun ki? Buna görəmi qalmışdı? Axı Zakiri heç tanımırdı... ” Məntiqini anlamaq istədiyim hərəkətin içində gizlənən nəsə vardı. Qaranlıq otaqda qara pişik axtaran, həmən pişiyin fosfor saçan gözlərinin nə vaxt parıldayacağını, “miya-oo” deyib tükürpədici səslə qəfil üstümə atılacağı anı gözləyən insan kimi Məryəmin bəlkə də haqq qazandırdığım, rəğbət bəslədiyim bu addımına inanmağım gəlmirdi. Pişik isə zülmət kimi qaranlıq otaqda divarın küncünə qısılıb sakitcə mürgüləyirdi...

Birdən:

– Rüfətcan, – dedi, – mənə inanmırsan? – Gözlərimin içindən də o yana, lap dərinliyə baxaraq verdiyi qəfil suala cavab axtarırmış kimi gözlərini qıydı, diqqətini məchul bir nöqtədə cəmləndirib rentqen aparatında o məchulun şəklini çəkib diaqnoz qoyacaq həkimsayağı baxdı. Deyəsən səmimiyyətinə inandığımı, lakin nədənsə tərəddüd etdiyimi oxuyan həkim heç

rentqenə də ehtiyac olmadan o dərinlikdə yazılan “şübhə” diaqnozunu təsdiqləyərək, yüngülcə təəssüf hissiylə qımışdı. – Bilmirəm inanarsan, ya yox... indi özümü çox rahat hiss edirəm. Çox rahat.

Alnımda soyuq tər damcıları hiss etdim. O bürkülü yay günündə sevgi macarası axtaran, dünya vecinə olmayan Marqodan əsər-əlamət belə yox idi. Bu başqa Marqo idi – Məryəm idi. Sanki qocalmışdı da... Ürəyini boşaltdığı üçün içində yığıb topladığı nifrət qızdırma verən kor çiban kimi partlamışdı, ürəyi sustalıb sakitləşmişdi. Hansı iztirablar keçirtdiyini dərk etmək üçün O olmaq mümkün idimi? Bir, beş, yüz pis, qəddar, əqidəsi, vicdanı pozuq kişiyə görə bütün xalqına bu qədər nifrət etmək nə qədər düzgündür? Bəlkə bir, beş, yüz deyildi onun bildikləri, çox idi, ona görə? Kəlmə başı “əfsuslar olsun, əfsuslar olsun” demək istəyən, lakin dilinə gətirməsə də ömrü boyu məftun olduğu, uşağından qocasına kimi şən, mehriban, yeyib-içən xalqına, əvvəllər görmədiyi, eşitmədiyi qəddarlıqlarına görə bəslədiyi nifrətində təəssüf dolu ağrı sezilmirdimi?

– Rüfət, bilirsən indi mən kiməm? – sualına özü də cavab verdi. – Mən, uşaqlığını, gəncliyini, sevgisini, adını, həmişəlik yaddaşından silən, uydurma həyat tarixçəsiylə, yalanlarıyla özünü ovudan, geridə dilə gətirəcəyi xatirəsi belə qalmayan bədbəxt bir qadınam. Hansı millətə mənsub olduğumu da, keçmişimi onlar əlimdən aldılar, Rüfət, onlar... Bu təkcə mənimmi faciəmdi? Axı mənim günahım nədi, hə?... Güclə unutmağa çalışdığım keçmişimdən, mənim unutmaq istədiyim gəncliyimdən qonaq gələn şirin xatirəm... təkcə sənsən. Gəlişinlə həyatımı işıqlandırdın, özümə qaytardın məni... Bunu çox görmə mənə...

Yaşadığı son illərin təqvimində nə yaz, nə də yay mövsümü varmış. İniltili yalvarışında payızın sızağı, qışın şaxtası düyülurdu. Bir də qəmli melodiya-fırtına qopmuş dənizin sinfoniyası...

O indi ağlamırdı... Hıçqırırdı...

Əlimi bayaqdan süzülmüş çaya uzatdım. Soyumuşdu.

## ... sarsıntıydı o hasarın adı...

Bütün gecəni özümü bir noxud dəni üstündə yatan şəhzadə kimi hiss etdim; yuxum ərşə çəkilmişdi. Təkcə ona görə yox ki, gün boyu bu dörd divar arasında eşitdiklərimdən sarsılmışdım, yuxum qaçmışdı – yox. Həm də ona görə ki, gedəcəyim başqa yer olmadığından Məryəmin bir otaqlı mənzilində, açılma divanda, bir dəst yorğan-döşəyi onunla ikilikdə bölüşürdük. Belə gecənin asudəliyini, sərbəstliyini əvvəllər nə qədər arzulasaydıq da, indiki fürsət əlimizə tək-tük hallarda düşərdi, indi, hadisələrin araya gətirdiyi ağırlığından təsirləndiyimizdən bir-birinə yad adamlar kimi arxa-arxaya uzanaraq, məzar səssizliyində kimin bu sükutu birinci pozacağını götür-qoy edirdim. Aramızda barmaq qalınlıqda örtüyün olmasına baxmayaraq elə bil hansısa gözəgörünməz qüvvə bu sərhəd xəttində daşdan hasar çəkmişdi. Sarsıntıydı o hasarın adı.

O dəvə yunundan toxunmuş odeyalın küncünü çənəsinin altına yığaraq gözlərini yummuşdusa da yatmadığına əmin idim. Zənnim məni aldatmırdısa Məryəm yuxuya gedəndə zəif, lap uzaqlardan gələn fit səsinə bənzər qəribə səs çıxarardı. Sanki qızın səs telləri "mi" notuna köklənirdi. Üzü divara hərəkətsiz uzansa da mənim kimi yuxusunu tapa bilmirdi. Arasıra küçədən şütüyən avtomobillərin boz tavanda görünüb tez də yox olan işıq seli də fikirlərimi pərən-pərən salmışdı.

Özümü güclə saxlayırdım. Bu tabut kimi darısqal yataqda vurnuxmaq, azca çevrilib ona toxunmaq, nəfəsini, qoxusunu duymaq, əvvəlki kimi sinəmə sıxmaq... istəyi hər saniyə baş qaldırsa da buna cəsarət etmirdim. Aramızdakı məsafə yaxın olduğu qədər də əlçatmaz olmuşdu. Əslində bu belə deyildi. Yəqin o da mənim kimi düşünür, mənim nə edəcəyimi gözləyirdi. Kim? Yanımda uzanıb cınqırını belə çıxarmayan,

məni tərəddüd içində boğan, daş kimi quruyub qalmağıma səbəb kimdi? Marqo, yoxsa Məryəm?!.. Deyəsən dəli olacam.

Qəfil havadan asılan sükut qırıldı. Birinci dəfə idi mənim barəmdə nəyisə öyrənmək istədi. Bəlkə də bir gün, əgər mənimlə qarşılaşarsa, məhz bu sualı verəcəyinə şübhə etmirdim.

– Evlənmədin heç?

–... ... ...

– Yatmısan?

– Yox..

– Bir söz de.

– Alınmadı məndə.

– Hə... Niyə xəbərsiz getdin?

– Bilmirəm...

– O qədər gözlədim ki... Dedim bu sondu, qaçışdı.

– Yox, özümü axtarırdım.

– Tapdın?

– Yox, itirdim. Heç yoxmuşam kimi.

– Heç kəsi sevmədin. Sevə bilmədin deməli.

– Yat...

– Yata bilmirəm.

– ... ...

– Yadındadır?...

–... ....

## Biz sevginin yox, ehtirasın qurbanıydıq

Marqo məni yataqxanada çox görübmüş. Həmişə gözləriylə yola salıb, gözləriylə də qarşılayıbmış. Özü belə deyirdi. Deyirdi ki, görən kimi vurulmuşdum sənə; boy-buxunlu, göyçək, muskullu, zəhimli, hə, zəhmli olduğuna görə lap xoşum gəlirdi səndən. Kişinin gərək hökmü ola deyirdi.

Ara-sıra yataqxanada görüşürdük. Bir gün də komendant Mirzəli kişi mənə xəbərdarlıq elədi ki, "qələt"indən xəbərim

var haa, özünü yığışdır. Mirzəli kişinin bir sözünü iki eləmək olmazdı. Mən də özümü yığışdırdım, daha doğrusu şələ-şüləmi yığışdırıb yataqxanadan çıxdım.

Sağ olsun Əsmər xala, mənə həyan çıxdı. Evlərinə apardı. Yoxsa, tədris ilinin ortasında Bakıda başını altına soxmağa dam tapmaq müşkül iş idi. Ayı 20 manatdan otaq kirayə etdim və qərara gəldim ki, bu məsələyə son qoyum. Son vaxtlar dərslərdən yayınır, fikrim-zikrim onun yanında olurdu. Özüm də bilmirdim hansı yolu seçim...

"Gənclik"də görüşüb məsələni həll eləməliydik. Qəti qərara gəlmişdim ki, birdəfəlik bu əlaqələrə son qoyum. Elə bil duyuq düşmüşdü, qaçırdı məndən. Nəhayət tutuşduq. Marqo mənə ağız açmağa imkan vermədən elə hey romantik sevgidən danışır, danışır, mənim başımda isə başqa yellər əsirdi. Güclə fikrimi cəmləyib dedim:

– Mənim... Başa düş, mənim nişanlım, göbəkkəsdim var. Aliyə...

– ... ... ... ...

– Sən ki bunu başa düşməlisən?!

– ... ... ... ...

– Xahiş edirəm... yalvarıram, unudaq hər şeyi getsin. Mən gərək bunu etməyəydim!

Özümdə təpər tapıb içimi boşaldandan sonra mənə elə gəlirdi ki, o əsəbiləşəcək, məni lənətləyəcək, nə bilim daha nələr deyəcək və sonra da sarsılıb ağlayacaq. Amma belə olmadı – o nə ağladı, nə də bir kəlmə də xətrimə dəyəcək, məni sındıracaq söz dedi.

– Sənin günahın deyil bu. – Nəhayət ki, dindi. – Bu mənim, mən axmağın seçimidir. Özümlə bacara bilmirəm... Bilirsən, sən başqasan.

– Necəyəm ki?

– Bilmirəm, necə deyim ki, başa düşəsən. Tanıdığım kişilərə bənzəmirsən. Heç kimə bənzəmirsən.

– Tanıdığın çox kişi varki?

– Əlbəttə.
– Neçəsi?
– Nofəl, Rafik... sapojnik Zakir, Lətif müəllim, Armen, Bəxtiyar...
İlahi, bunlar kimdi görəsən? Necə də utanmadan sakit-sakit sadalayır tanıdığı kişiləri? Yəni doğrudanmı bu kişilərin hər biriylə yatıb?
Elə bildim sifətimə tüpürdülər.
– Saxla görüm. Dolamısan mənii?
– Yoox...
– Sadaladığın kişilərin hamısıyla...
– Ay dəli... – deyib qəhqəhə çəkib sözümü yarımçıq qoydu. Başa düşmədim məni lağa qoyur, yoxsa əsəbindən belə gülür. Güclə özünü saxlayıb gözlərimin içinə baxdı. Sonra da heyfslənərək mənə dikəlmiş nəm baxışlarını aşağı dikdi. – Bunlar qonşularım, dostlarımdı...
– Yaxşı... bəs oo?..
– Kim – o?
– Səni... səni...
"Lənət sənə kor şeytan, səni zorlayan, nə bilim, üzünü açan..." demək istədim. Boğazım qurumuşdu, ürəyimdə fikirləşdiyimi dilimə gətirə bilmirdim. Sifətinin allanmasından başa düşdüm ki, nə soruşacağımı duydu. İndiyə kimi bir dəfə də olsun bu barədə danışmamışdıq. Düzdür, bir neçə dəfə özü istəmişdi ki, söhbəti açsın, mən razı olmamışdım. "Axı nəyimə gərəkdi onun kim olduğu? Bu onun öz seçimidir"– deyə fikirləşmişdim. Bəs indi? Yoxsa qısqanırdım onu?! Kimi, Marqonu? Axmaq uşaq, söz tapdın da!
Gizlədə bilmədiyim marağımı gözlərimdən oxuyurdu. Sadə bir kənd uşağı üçün gənc qadının heç kəsə məlum olmayan gizli eşq macaraları, intim həyatı barədə bilmək, əlbət ki, iyrənc olduğu qədər maraqlıydı. Kim nə deyir desin, hər kəs "eh, nəyimə gərəkdi " desə də özgə həyatıyla, xüsusən də gizli həyatıyla maraqlanır, başqasının həyatındakı ən xırda detalları

da bilməyə cəhd edir, amma bunu özgələrinə etiraf etməyə cəsarəti çatmır.

Marqo yəqin ilk dəfəydi yad kişiyə bu barədə danışırdı. Əvvəlcə qızara-qızara söhbətə başlamasından, başını aşağı salıb qırmızı laklı dırnaqlarını ilk dəfə görürmüş kimi o yan-bu yana çevirib baxmasından, arada da əllərini qoşalayıb ətəyinin ucunu dartıb baldırının arasına yığmasından hiss edirdim ki, həyacan keçirir. Münasibətlərimizin bir neçə aydı davam etməsinə baxmayaraq, acı taleyini yada saldıqca sadəlövhcəsinə aldandığından, alçaldığından utanırdı, necə olmasa, mən onunçin yad kişiydim axı.

Marqo, özü demişkən, billur qab kimi daşlara dəyib çilik-çilik olmuş – bitməmiş sevgi hekayəsini danışırdı:

– Onun adı Armen idi. Qonşumuz... On yaş məndən böyük. Boylu-buxunlu, səliqəli geyinən, yaraşıqlı olduğundan məhləmizdəki oğlanlardan fərqlənirdi. Gözünü məndən çəkmirdi, mən də biganə deyildim, xoşum gəlirdi ondan... Mən səkkizilliyi bitirən gün onun ad günüydü. Anam "Kubinka"dan aldığı fransız köynəyini və qalstuku mənə verib dedi ki, sən get təbrik elə, biz də bir azdan gələcəyik. Ona vurulduğumu anam çoxdan hiss etmişdi, tez hədiyyələri götürüb Armengilə qaçdım. Bütün qonşular onların həyətinə yığışmışdı. Məhləmizdə həmişə ailə bayramlarını birlikdə qeyd edirdik deyə, həm də anası yataq xəstəsi olduğundan süfrəni qonşu arvadlar açmışdı; kimi bir qazan dolma, cürəbəcürə salatlar, kimi balıq basdırması, kimi spirtli içkilər, Mədrəsə kəndindən gətirilmiş küp çaxırı, kimi də meyvə-tərəvəz gətirib düzmüşdülər masanın üstünə. Armenin atası ölənə kimi "Azərittifaq"da işlədiyi dövrdə "Vneştorq"dan çırpışdırdığı bir toyun adamına bəs edəcək bahalı servizlər, çini qablar, "Boqema"dan billur qab-qacaqlar da süfrəyə yaraşıq verirdi....

Hədiyyələrim onun çox xoşuna gəlmişdi, elə mən də... Hədiyyəyə görə minnətdarlıq etməyi bəhanə edib məni öpdü,

özü də dodaqlarımdan. Demək olar ki, hər gün onunla rastlaşmağıma baxmayaraq ona bu qədər yaxın olmamışdım.

Son zəng olduğundan bayramsayağı geyinmişdim. Armenə elə gəlmişdi ki, onunçun bəzənib-düzənmişəm. Onun da məndən xoşu gəldiyini dəfələrlə demişdi. Demişdi ki, tez ol, məktəbi qurtar, alacam səni. Aramızda on yaş fərqin olmasına fikir verməzdim. Kişi böyük olsa yaxşıdı; ağıllı, müdrik, dünyagörüşlü, həm də pul qazanan...

Hə, ziyafət çox maraqlı keçirdi. Yaşlılar, cavanlarla üz-üzə oturmuşdular. Hamı yeyib-içir, “Soni” maqnitafonunda Zeynəb Xanlarovanın kasetini oxudub rəqs edir, azca ara sakitləşən kimi məzəli əhvalatlar danışıb gülüşürdülər. Anasının çarpayısını da qoymuşdular lap qapının ağzına ki, heç olmazsa baxıb arvadın gözü-könlü açılsın, xəstəliyini unutsun. Doğrudan da, arvadın gözləri gülürdü o gün.

Armen özünü çox xoşbaxt hiss edirdi. Küp çaxırından içib kefləndiyindən özünü bir az da sərbəst aparırdı. Fürsət düşən kimi mənə göz-qaş edir, bu gur məclisdən aralanmağımı işarə edirdi, özü də həyətin o biri başında tikilmiş təzə qarajı göstərirdi. Bu göz vurmalar bir-iki dəfə təkrar oldu. Özümü görməməzliyə vurur, qəti qərara gələ bilmirdim. Cavanlar şıdrığı rəqs edirdilər, mən də durub onlara qoşulmaq istəyirdim ki, gözüm rəqs edənlərin arasında Armeni axtarmağa başladı, darıxdım elə bil onunçun. O qeyb olmuşdu. Birdən yadıma qaraj düşdü. ”Yəqin məni gözləyir, qoy gözləsin” deyə fikirləşdim. Ətrafa baxdım, aləm bir-birinə qarışmışdı. Armenin yoxluğunu duyan yox idisə, deməli məni də itirib axtaran olmayacaq. Anam Armenin anasının yanında oturub şirin-şirin söhbət edirdi. Atam qonşularla içirdi.

Bilmirəm, yadımda deyil, nəyi bəhanə edib qaraja tərəf getdim, bir də gördüm ki, qarajın qapısından içəri girmişəm. İçəri azca qaranlıq idi. Balaca pəncərədən düşən zəif işıq da təzə suvanmış qarajı işıqlandıra bilmirdi. Səsimi çıxarmadan nəyisə axtarırammış kimi gözlərimi qarajın boz suvaqlı

divarlarında gəzdirirdim ki, pəncərənin altından bir iri, ağır əl baldırımdan yapışdı. Qorxudan diksinib qışqırmaq istədiyimi hiss etdiyindən "sss" deyib məni özünə sarı çəkdi. Necə güclüymüş! Gözüm qaranlığa öyrəşdikcə başa düşdüm ki, bu sakit guşə onun yayın istisində tənhalığa qapandığı yeridir; pəncərənin aşağı hissəsində quraşdırılmış köhnə çarpayı, nimdaş döşəyin ustünə sərilmiş, bir az çırklənmiş ağ döşəkağı və balıncdan savayı burada heç nə yox idi. Bir də məni bərk-bərk qucaqlayan Armen. O köynəyini soyunmuşdu, nəfəsindən şərab qoxusu, qoltuğunun altından tər iyi gəlirdi. Bilirsən, bəlkə də mənə güləcəksən, amma o vaxtdan məni dəli eləyən kişidən gələn təzə tər iyidi. Birdən nəsə fikirləşib ayağa durdu, qapıya yaxınlaşıb cəftəni bağladı, çarpayıya yaxınlaşıb əllərimdən tutub bərk-bərk sıxdı. Dodağını qulağıma yaxınlaşdırıb pıçıldadı:

– Sənsiz yaşaya bilmirəm, bilirsən?

– Hə, – dedim.

– Marqo... sevirəm səni. Sən mənim olmalısan, ancaq mənim, başa düşürsən?

İçdiyim şərabın məstliyi, məni dəli eləyən kişi qoxusu, sevgi dolu gözəl sözlər içimdən ildırım kimi keçdi. Ətrafdakılar heç vecimə deyildi. O məni sevirdi axı. Bu gün ilk dəfə geyindiyim narıncı sarafanımı toy gecəsində gəlinlik paltarımı soyunurammış kimi əynimdən çıxardım. Armen mənim belə tez qərar verdiyimə inanmadığı qədər də sevinib şalvarının zəncirbəndini açdı və...

...Və o gün qarnıma dolmuş ağridan bütün gecəni yata bilmədim...

...Və o gün ağlımı başımdan alan şirin sevgi etiraflarını da son dəfə eşitdim...

...Və atəşli sevgimizin yanmasıyla sönüb külə dönməsi bir oldu. Bitdi sevgi... Sonralar mənə olan biganəliyindən, soyuqluğundan qəti dərk etdim ki, həqiqətən də son zəng üçün

tikdirdiyim narıncı sarafanım elə mənim gəlinlik paltarım imiş!..

O susdu. Gözlərinin içinə baxa bilmədim. Nədənsə mən xəcalət çəkirdim, o yox. Könlünü oxşamaq, ya da toxtaması üçün nəsə deməliydim yəqin. Bədbaxt qızdı Marqo. Bunu deyə bilməzdim. Onu üzdüyüm üçün "bağışla" dedim. Söhbət bitdi. İkmimzdə susduq.

İndi yarızarafat, yarıciddi söhbətin bu həddə gəlib çatacağını da gözləmirdim. Əsəblərim yerində oynayırdı. Məni uşaq kimi ələ saldığını zənn edib səsimi yüksəltmişdim də. Bir tərəfdən də soyuqqanlılıqla düşündüm ki, elə belə olsa yaxşıdır. Məndən zəhləsi getsə, aramız dəysə, aralışarıq... Çünki Marqoya bağlanandan sonra nə kənd, nə də Aliyə yadıma düşürdü. Özünə yaman bağlamışdı məni – maqnit kimi çəkirdi...

Buna tam əmin idim ki, Aliyə ilə Marqonun arasında dünyalar qədər fərq vardı. İnsanı evinə, ailəsinə bağlayan, arzular, məhz arzular qanadında uçuran, çətinliyə, ağrı-acıya tab gətirməyi öyrədən, özgəni özününküləşdirən, səni başqalaşdıran bir müqəddəs hiss var ki, onsuz yaşamaq ömrü boyu mənasız həyat sürmək, sürünmək, sözün əsl mənasında illəri yola vermək kimi bir şeydir. Bu müqəddəs hiss təkrarsızdı, fərdidi, özününküdü, başqa heç kimin. Çünki, hər bir insan təkrarsız olduğu kimi sevgi də təkrarsızdı. Kamil insan bu müqəddəs hissin – sevginin qurbanına çevrilə bilməsə ən sonda, bəlkə də elə başlanğıcda sevgisini qurban verəcək! Bu insanın ən böyük faciəsidir – sevgisini qurban vermək !

Kim ki deyir dəfələrlə sevmək olar və ilaxır, mən buna inanmıram. Yüz il, lap min il yaşasan da bir dəfə sevə bilərsən, əsl sevgini yaşaya bilərsən. Bax buna xoşbəxtlik deyirlər! Qalanları özünü aldatmaqdı, ötərgi hissdi, ilğımdı, bəlkə də şəhvətdi.

Aliyə yanımda olmayanda da onu yanımda, içimdə hiss edirəm, onunla danışıram, dərdləşirəm. Marqoya qarşı bunu hiss etmirdim, əmin idim ki, Marqo da məni sevə bilməzdi,

Armeni sevdiyi kimi sevə bilməzdi, o həyatıma təsadüfən girdiyi kimi də nə vaxtsa çıxıb gedəcəkdi. Çünki, o qurban verdiyi müqəddəs sevgisini həmişəlik itirdiyindən ehtirasına güvənərək, özündən, həyatdan gizlincə intiqam alırdı. Nə olursa olsun, onsuz da hər ikimiz yaxşı başa düşürdük ki, aramızda yaşananlardan nə qədər məmnun olsaydıq da biz sevginin yox, ehtirasın qurbanı idik. Ötərgi, bəlkə də dəli bir ehtirasın...

Bu söhbətdən sonra xeyli vaxt görüşmədik. Sonra Minskdə yarışa qatıldım, ordan qayıdıb kəndə, yay tətilinə getdim.

Anam yaman incimişdi. Demişdi ki, şəhər səni dəyişdirib, belə getsə bizi tamam yaddan çıxaracaqsan! Düz deyirdi anam.

Aliyə bir az da dərinə gedib elə hey deyinirdi ki, deyəsən şəhərdəki gözəlçələr ağlını başından alıblar. Hə də, sənin kimi oğlanı kim çıxardar əlindən?! Elə olmasaydı tez-tez gələrdin kəndə. Əlbəttə, mən hara, qısa yubkalılar hara?!. Mən cəhənnəm, yazıq ananı da gözü yolda qoymusan...

– Ay qız, – dedim, – başın xarabdı, nədi, nə qısa yubka, nə gözəlçə, vallah, turnir, yarış... bir yandan da dərslər göz açmağa macal vermir. Heç səni yaddan çıxarmaq olar? Görürsən ki, imkan tapan kimi cummuşam yanına...

Bir az arxayın idim ki, Marqo ilə aramız soyuqdu və Bakıya can atmayacam. Qəribədi, aramız soyumasaydı necə, qaçacaqdın onun qucağına? Gicbəsərəm vallah, gic-bə-sər! Bu yayı bütünlüklə Aliyənin yanında olacam. ”Qurban olum kənd həyatına! Nəyi əskikdi ki, şəhərdən?! Bulvar yoxdu, əvəzində gül kimi iydəlik var...Həmişə kefim kök olanda, belə düşünürdüm. Onun könlünü almaq üçün göz vurub dedim:

– Gedək iydəliyə?

Nə demək istədiyimi çox yaxşı bilsə də nazlanaraq soruşdu:

– Nə var ki, iydəlikdə?

– Nə tez unutmusan, ay qız, yadında?...

Anamın məktəbdə olduğunu bilirdik. Bu boyda həyətdə, bəlkə də bütün kənddə ikimiz idik, çünki, ilin bu vaxtında kolxozun işi başdan aşırdı, deməli camaat da böyüklü-kiçikli

“keçici qırmızı bayraq “ uğrunda tər tökməkçin ya pambıq tarlasındaydı, ya da üzüm bağında.

– Əliuzunluq etsən, bax halına.

– Ay qız, yeməcəm ki səni. Getdik?!

Əl-ələ yapışıb evin dalına –iydəliyə qaçdıq. Bizim həyətin o başında qonşumuz Əlimərdan kişinin həyətindən çəpər kimi ayıran iydə ağacları o qədər sıx idi ki, yad gözlərdən qorunmaqçin yerə qədər sallanan budaqlarını əlimizlə aralayıb təndir kimi alışıb yanan Günəşin qarşısına çətir çəkmiş ağacların kölgəsində gizləndik. Lap gizlənpaç oynayan uşaqlar kimi iydə salxımlarının arasından ətrafa boylandıq. Tam sakitlik olduğuna əmin olanda sanki böyük bir iş görmüşü kmiş kimi bir-birimizə baxıb fərəhləndik. Sakitcə nəfəs alıb oturduq. Başımız bu uşaqsayaq əyləncəyə necə qarışmışdısa Aliyə başını nə vaxt sinəmə söykədiyindən xəbərim olmamışdı. Elə bil çəkinirdi, utanırdı, ona görə üzünü, illah da gözlərini gizlədirdi məndən.

Üzümə baxmadığından ürəkləndim, saçlarını oxşadım, boynunu sığallayıb ona sarı əyildim. Gözlərini bərk-bərk yumdu. Yanaqlarından, gözlərindən öpdum. Qız yayın bu cirhacırında payız yarpağı kimi əsirdi. Aliyə dodaqlarını dodağıma toxunduranda dişlərinin şaqqıltısını eşitdim. Soyuqdan yox, qorxudan, təhlükədən vahimələnən adamlar kimi titrədirdi Aliyə. O da çevrilib bu vahimədən xilas olmaq üçün məni bərk-bərk qucaqladı, bədənimin bütün odunu, alovunu ona bəxş etməyə hazır idim, təki, sakitləşsin, toxtasın...

İndicə başa düşdüm ki, keçirdiyim hisslər əvvəlkilərdən fərqlidi, təzədi və bunu Aliyə də duymuşdu, ona görə özünü çox narahat hiss edirdi. Əvvəllər ona toxunanda belə sanki əlçatmaz bir müqəddəsliyə əl uzadırdım, ilk dəfə oğurluq edənlərin səksəkəsini, qorxu hisslərini yaşayardım, çəkinərdim. Bəs indi niyə bu qədər arxayıncasına ona toxunur, dodaqlarını əmir, döşlərini əlləyirdim? Yoxsa, keçən səfər onu opərkən xoşallandığındanmı belə arxayınam? Məncə yox, yox, bir də

yox! Axar su kimi pak olan Aliyə mənə inanırdı, məni yaxşı tanıyırdı, bütünlüklə mənə tabe olsa da, hər hansı xəta törətməyəcəyimə arxayın idi demək. Bir tərəfdən də fikirləşirdim ki, o kənddəki Rüfəti yaxşı tanıyırdı – bütün günü səhərdən axşama kimi bir yerdə olan, ondan ayrılmayan, başqa duyğularla, arzularla, hisslərlə yaşayan Rüfəti. O Rüfəti ki, ona toxunanda, saçlarını sığallayanda, hətta, zarafata salıb "mütləq altı uşağımız olacaq" deyəndə belə, ağlından heç bir axmaq fikir də keçməzdi, sadəcə başını aşağı salıb qızara-qızara qımışardı. Bu gün isə... nədənsə ona məhrəm olduqca, bu iydəlikdə, bu səssizlikdə, bu gözəl isti yay günündə qollarımın arasında Aliyəni yox, ehtiraslı Marqonu təsəvvür edirdim ki...

...Bu da çox çəkmədi; bilmirəm, qulağına qəfil səs gəldi, yoxsa yuxudaymış kimi qəfil ayıldı – qollarımın arasından sıçrayaraq iydə budaqlarının altından çıxıb küçə qapısına tərəf götürüldü. Qulaq verdim, hə, deyəsən tarladan evə qayıdan Bikə xala onu haylayırdı...

***

...Qəmgin şəhər oyanışına ümidsiz mürgüdöymədən diksinən qoca kimi qəfil açılan səhərin işığından məmnun görünürdü. Yenicə doğan günəşin ılıq şəfəqləri şəhərin qırlı, kirəmidli damlarında, daş döşəməsini sovet tanklarının zəhmli tırtılları belə dağıda bilməyən köhnə Bakı küçələrində oynadıqca gecədən üşüyən Xəzərin də üzünə utancaq bir gülüş qonurdu.

Məryəmlə görüşüb evdən çıxdım. Bütün xoş və acı xatirələrimin əlindən qaçıb əynimə döyüş paltarı geyəcəyim ilk səhərin sərin havasını ciyərimə çəkdim... Özüm də hiss etmədən yeni bir aləmə – həm maraqlı, həm də ziddiyətli, mənə tanış olmayan bir aləmə doğru gedirdim.

Sovet imperiyasının süqutu bütün keçmiş "qardaş" respublikalardakı kimi burda da gözəgörünməz bir boşluq yaratmışdı; könüllü, daha doğrusu cəbhəçilərin real hakim qüvvəyə

çevrildiyinə tam əmin olduğunu görən kommunistlərin qorxudan bircə gecənin içində əqidələrindən(əgər həqiqətən əqidələri vardısa) dönməsi, hələ də yeni yaranmış dövlətin ayaq üstə necə duracağına inamın az olmasına baxmayaraq keçmiş quruluşa nifrət bəsləyən çoxluğun heç bir qorxu və təzyiqlərə baxmayaraq yeni azad bir dünya yaratmaq uğrunda mübarizə aparması da bu boşluğu doldura bilmirdi, çünki, belə tez əqidəsindən dönən kommunistlər öz postlarını itirdikcə, cəbhəçilərə sadiqlik pərdəsi altında gizlənmələrinə baxmayaraq, yeni quruluşa kömək etmək əvəzinə gözləmə, mövqeyi tutur, "bəlkə də qaytardılar" sevdasıyla yaşayırdılar.

Zaman, çaşqın dövran bəylərin dövranıydı; çəkməçi, çayçı, icra başçısı, müəllim, bənna, milis... hamı bəy idi, bəy! "Bəy" deyə müraciət etməyənlərə çəpəki baxıb "bizdən deyil" duşunənlərin kinindən qorunmaq üçün, yaraşdı-yaraşmadı, hamı bir-birini beləcə çağırırdı. Ancaq, heç də hamının sifətindən, üst-başından bəylik tökülmürdü, tökülə də bilməzdi. Çünki, bu bəylik biz başa düşən bəylikdən deyildi – bu titul idi, quruca titul! Dövründən asılı olmayaraq bığı burma, şiş papaqlı, at belində, nökər-nayıbı, ilxı-sürüsü, varı-dövləti olan bəylər həmişə olub, var və olacaq– titulsuz da olacaq. Belə titulsuz bəylər kölgədə qalmağı daha çox xoşlayırdılar və əsl bəylərin bir balaca büdrəmələri kifayət idi ki, onlar gizli sevdalarına qovuşsun, yenidən at oynadıb cövlan etsinlər, məzlum, fağır millətə qan uddursunlar. "Yoldaş"ların "Bəy" olmasına isə böyük zaman gərək idi, çox böyük zaman. Vaxt isə gözləmirdi, öz atını amansızcasına çapırdı bu məmləkətdə.

Bir acı həqiqəti deyəcəm: illərlə əsl əqidə uğrunda mübarizə aparan, meydanlarda, cəbhədə vicdanla, şərəflə vuruşan yüzlərlə, minlərlə bəy titulunu daşıyan Azərbaycan oğulları böyük və keşməkeşli yol keçib müstəqilliyinə qovuşandan sonra, daha çayçı-bəy, fəhlə-bəy, müəllim-bəy olmaq istəmirdilər, çünki bu bəylərin də kokü-soyu şura hökumətinin suyunu içib, çörəyini yemişdi və bu çörəyin dadı-tamı çoxlarının

damağında qalmaqdaydı. Açıq və gizli təmənna, tələb vardı hər kəsin içində. Kimi nazir, kimi icra başçısı, kimi rəis, kimi də məktəb direktoru olmaq istəyirdi. Olurdu da. Kreslolar tükəndikcə narazılıqlar çoxalırdı. Möhürləri əlindən alınan köhnələrin gizli düşmən mövqedə durması, möhürü təhvil alan bəxti gətirmiş bəyin səriştəsizliyi qalmaqallara, məhkəmə dartışmalarına yol açırdı. Müharibəyə cəlb olunmuş, ilk addımlarını atan bir dövlətdə ellıklə ayağa qalxıb torpaqları azad etmək əvəzinə, çoxlarının başı mənasız və yersiz intriqalara, vətəndaş toqquşmalarına qarışmışdı. İddialar qarşıdurmaya, tələblər parçalanmağa aparırdı bəyləri... Vuruşanlar isə iddiasızlar idi – sadəcə, torpağını təcavüz etmiş xain düşməndən azad etmək amalıyla vuruşan iddiasızlar!...

Mən çox şeyi bilmirdim, çox qaranlıqlara saçacaq işığın fərqində də deyildim, çünki pərdəarxası siyasi oyunlar mahir "aktyorların ifasında " o qədər ustalıqla, həm də o qədər gizli, gizli olduğu qədər eybəcər formada elə baş verəcəkdi ki, insanlar düşdükləri gülünc vəziyyətə görə hansı siyasi partiyanı, hansı lideri, ya da naşı, səriştəsiz iqtidarı günahlandlrmaqda çətinlik çəkdiyini anlsayacaq, hamı gözləmədiyi, daha doğrusu arzulamadığı anarxiyanın doğduğu xaosda bataqlıqdakı kimi boğulacaqdı.

Döyüş bölgələrində baş verən uğursuzluğa barmaqarası baxan iqtidar guya, xain, satqın axtarışında baş sındırarkən, ə slində Domokl qılıncı kimi başının üstünü alan fəlakətdən – onu gözləyən dövlət çevrilişindən qorunmaq, qurduqları hökuməti nəyin bahasına olursa-olsun ayaqda saxlamaqla məşğul olacaq – sanki Respublika ancaq Bakıdan ibarət imiş kimi. Əslində o, bir-birinin ardınca zəbt edilən torpaqlarla birgə Bakıya yaxın rayonların da çoxunda öz hakimiyyətini, gücünü itirəcək; iqtidarı təmsil edən güc, icra, məhkəmə, yerli idarəetmə orqanları silah gücünə devriləcək, başıpozuq, heç kimlə hesablaşmayan üsyankar dəstələr milis şöbələrinə basqın edərək silahları ələ keçirib, vəzifəli şəxsləri təhqir edərək işdən

uzaqlaşdıracaq, bazar və dükanları qarət etməkdən belə çəkinməyəcəklər. Bəzi rayonlarda isə onlara danoslar verən yerliləri vəzifələrə təyin etdikdən sonra onları öz bildikləri kimi idarə edərək camaatı iqtidarla qarşı-qarşıya qoymağa, öz aləmində dövlət çevrilişinə nail olacaqlar da. Hərc-mərclik o yerə gəlib çatacaqdı ki, xalqın seçdiyi hökumət nümayəndələri Bakıdan qırağa çıxanda belə ehtiyatlı tərpənəcək. Əslində gözlənilən bu təlatümün qarşısını almağa cəhdlər olsa da, iş-işdən keçdiyi iki dəfə iki qədər sadəydi. Amma fəlakətin qaçılmaz olduğunu, bu qarmaqarışıqlığda əqidəsinə, silahdaşlarına arxa çevirib öz ambisiyalarına qul olan həmvətənlərim barədə məlumatı olmayan biri kimi ətrafımda nələrin baş verdiyindən, təbii ki, xəbərsizdim və bunları sonra biləcəkdim. Həm də ona əmin olacaqdım ki, hansısa gözəgörüməz qüvvələr ciddi-cəhdlə öz niyyətinə çatmaq üçün yaranmış şəraitdən məharətlə istifadə edir. Amma indi hər şeydən xəbərsiz, beynimdə xülyalar quru-qura coşqun, sahilsiz dənizi xatırladan azadlıq hərəkatında bir damla olmaq istəyirdim. Dənizdə bir damla...

Belə bir zaman kəsiyində Bakıdaydım və... Milli Məclisin qarşısında keçirilən mitinqdə bir dəstə könüllüyə qoşulub cəbhəyə yola düşdüm. Ağızları köpüklənə-köpüklənə bir-birini əvəz edərək milli dəyərlərdən danışan natiqləri alqışlayan minlərlə kişi iştirak edən mitinqdən nədənsə cəmi on altı nəfər cəbhəyə gedirdi. Biz meydandan uzaqlaşdıqca uzaqlaşır, başıbəlalı mitinq isə hələ də davam edirdi. Avtobusun açıq pəncərəsindən baxa-baxa "kaş ki, burdakıların hamısı cəbhəyə gedəydi "deyə fikirləşəndə nədənsə üzümə çırpılan ilıq küləyi qınadım.

## Cəhənnəmdə doğan Günəş

... Qulaqlarıma əridliş qurğuşun tökmüşdülər elə bil. Beynimin içində nəsə vurnuxur, gərilir, amma bu "nəsə"nin səsi eşidilmir. Deyəsən gicgahımdakı ağrıdan gözlərimi aça

bilmədim. Yoxsa bu ağrı deyildi? Sanki ağır avtomabil qəzası keçirəndən sonra qipsə qoyulmuşam; dərim dartınır, tarmalaşdıqca da gicişirdı, qaşınmaq üçün heç olmasa ikicə barmağa ehtiyacı vardı ki, süstləşsin, toxtasın. Amma nə lənətə gəlmiş barmaqlarımın, nə də ki, başqa əzalarımın harda olduğunu hiss edirəm... Qaxaca dönmüş qətran göz qapaqlarımı kipriklərimə yapışdırıb. Getdikcə, yavaş-yavaş burnumun dəliklərində, quruyub çatlamış dodaqlarımda onun tamını duyuram. Keylik, süstlük qollarımı tərpətməyə imkan vermir. Doğrusu, qorxudan onların olub-olmaması barədə fikirləşmirəm. Fikirləşmirəm ona görə ki özümü əlsiz-ayaqsız təsəvvür edə bilmirəm, etmək istəmirəm. ”Yarəbbim, əgər günahlarıma görə məni cəzalandırırsansa, bağışla məni. Bağışla...” Özümü hiss etmirəm, sanki iflic olmuşam.

İstədim ayaqlarımı hərəkətə gətirim. ”Mənim qıçlarım harda, qollarım harda?..” Yazıq ayaqlarım, qurumuşdu, tərpənmirdi. ”Qurumuşdu?.. Yoxdu bəlkə?.. Bəlkə ölmüşəm?... Yoox, belə də ölmək olaar? Ö-ölü öz-özüylə danışar məgər? Bəs bu qoxu, bu tanış qoxu nədi belə? Onu burnumun dəliklərində, dodağımda, hətta ağzımın içində hiss edirəm. Anlaya bilməsəm də çox tanış bir qoxu olduğunu duyuram. Duyuram, deməli ölməmişəm! Heç olmasa barmağımı, bircə barmağımı tərpədə biləm... ”

Çiyinlərimdən məni basan ağırlıq getdikcə döş qəfəsimi ciyərlərimə sarı sıxır. Nəfəs almağım çətinləşdikcə ağrılarım şiddətlənir... Ağrı varsa, deməli, yaşayıram. Axı ağrı-acısız yaşamaq mümkün deyil bu məmləkətdə.

Birdən boğuq, xırıltılı səs qurğuşunlu qulaqlarımda cingildədi. Səs hardan gəlirdi?

-Aa– naaa...

Sanki dərin quyunun dibində kimsə imdad diləyirdi. Səs getdikcə boğulur, qırılır, uzaqlaşır.

-A-aa... aa...

Xeylı gözlədim. Sanki teleqraf tellərini qəfil kəsdilər. Daha səs gəlmədi.

“Tapdım!..” Bayaqdan məni vahiməyə salan, anlaya bilmədiyimdən yaddaşımı, dünyanın bütün qoxularını lənətlədikdən sonra anladım ki bu, nəm torpağa qarışmış qan qoxusudur! Torpaq və Qan! Deməli qulaqlarıma dolan, gözlərimi qapayan, burnumu tıxaca döndərən laxtalanmış qan imiş?! Kimin qanı? Öz qanımda boğuluram bəlkə?

Yaddaşımı nizama salıb harda olduğumu düşündükcə taqətimi də toplayıb var gücümlə vücuduma hakim kəsilməyə başladım. ”Ölməmişəmsə, deməli hələ canımda su qalıb. Qalxa bilərəm yəqin!.. IIIIhhhh... Qalx !.. Bir az da... həə, bir aazz ... sa-ğaa... həə... so-laa... Görən, bu üstümdəki nədi belə?!.. Nə yaman ağırmış... ”

Əzgin, heysiz qollarımı güclə sinəmin tuşunda birləşdirib ölü kimi ağırlaşmış bədənimi qaldırmağa çalışdım. ”Yaa.. Allah!... ” Üstümdəki yükün nədənsə, daş-kəsək, torpaq olduğuna əmin idim– başqa nə ola bilərdi ki?!

Sağ tərəfimdən nəsə sürüşüb düşdü. Handan hana, sağ çiynimi azca azad etdikdən sonra əlimin üstüylə gözlərimi bağlayan qan laxtasını ovdum. Kipriklərimin arasından batmaqda olan solğun payız Günəşinin zəif şəfəqləri bəbəklərimə sancıldı. Zülmətdən qurtulmuş gözlərim qəfil işıqdan diksinib qapandı. Bu bir anlıq oldu. Təzədən gözlərimi açanda harda olduğumu, çiynimdən atdığım yükün çınqıl, daş-kəsək olmadığını aydınca dərk etməyə başlayanda bütün bədənim silkələndi, az qala ödüm ağzıma gəldi.

Bu, qanlı-qadalı müharibənin altı ayında gördüyüm ən dəhşətli mənzərəydi! Özümü bir-birinin, daha doğrusu mənim üstümə qalaqlanmış meyitlərin arasında görəndə tüklərim ürpəşdi, dünya başıma fırlandı. Havaya qarışmış dağlanmış ət iyindən sulandıqca göynəyən, həlqəsindən çıxmış gözlərimi ovucumun içiylə ovduqdan sonra parça-parça olmuş bədən hissələrinin arasında, heç olmasa sağ qalan, döyüş yoldaşlarımı

axtarmağa başladım. Yasəmən rəngində dumana bürünmüş yüksəklik boğucu boz tüstü qalxan dərin çuxurdan elə vahiməli görünürdü ki, sanki qaynar tiyanın ağzı indicə qapanacaq... ”Qrad”ın partlayışından yaranmış bu yarğandan çıxmaq üçün xeyli əlləşdim; hələ də tüstüləyən soyumamış torpağı keyləşmiş barmaqlarımla eşərək yuxarı dırmandım, nəhayət geniş yarğanın kənarına yetişib ağzıüstə yerə sərildim.

Dörd-beş saat əvvəl tutduğumuz yüksəkliyin ətrafı “Qrad” atəşindən dəlik-dəlik olmuşdu. Qarşı tərəfdəki kənddən açılan ardı-arası kəsilməyən atəşdən qorunub, kömək gələnə kimi, heç olmasa bir sutka mövqeyimizi möhkəmləndirmək üçün qazdığımız “qəbir”lər, gör neçə döyüş yoldaşımın son mənzilinə çevrilmişdi?! Dəli Aydın, Yavuz, “Qartal”, Əlibəy, Qasım, Tapdıq, “Bozqurd”, bələdçimiz Mübariz... Kimini paltarından, kimini qolundakı yaşıl şüşəli kompaslı saatından, kimisini də çapığından tanımaq olurdu. Bu tükürpədən mənzərəni ürəyinə daş bağlamış insan belə gözucu izləmək iqtidarında deyildi. Mən ixtiyarsız gözlərimi yumdum, çünki belə etməsəydim ürəyim dayanacaqdı... Yox, bu dəhşətli ölüm meydanını təsvir etməkdə acizlik çəkirəm!

Bir azdan möcüzə nəticəsində sağ qalanlar bir-bir görünməyə başladı; beş nəfər, ölümün pəncəsindən qurtulmuş beş döyüşçü!..

Atəş kəsilmişdi – yəqin hamımızın qırıldığını güman edib daha atmırdılar. Buradan sağ-salamat qurtulmaq həqiqətən də möcüzəydi. Bizlərdən kiminsə anası namaz üstündəymiş! Atəş kəsildiyindən ölülərimizi rahatca torpağa tapşırmaq üçün imkan yaranmışdı. Belə vəziyyətdə yüksəklikdə yubanmaq, ləngimək olmazdı. Həlak olanları arxa cəbhəyə daşımaq mümkün deyildi. Söz verilən kömək isə gəlmək bilmirdi ki, bilmirdi.

Hər qarışı qanla yuyulan, hər an ölümə qoynunu açan bu torpağın meşələri, çölləri, dərə-təpələri maral, ceyran üzünə,

qırqovul, bildirçin, kəklik hətta sərçə civiltisinə həsrət qalmışdı. İndi onların yerinə buralarda tüğyan eləyən özündən müştəbeh, arxayın, heç top səsinə, güllə yağışına da məhəl qoymadan isti qan iyinə yığışan qarğa-quzğunlar başımız üstündə dövrə vururdu. Onlara aman vermək olmazdı.

Vahid, hava ələlbət qaralmamış həlak olan uşaqları dəfn etməyi məsləhət gördü. Ürək ağrısı və göz yaşlarıyla döyüş yoldaşlarımızı torpağa tapşırdıq. Güllə atmasaq da papağımızı çıxarıb döyüş yoldaşlarımıza son ehtiramımızı bildirdik. Belə adsız yüksəkliklərdə görəsən neçə qəhrəman oğullarımız yatır?!

Qulağımız olan rabitəçi Tapdıq, gözümüz olan bələdçi Mübariz həlak olduğundan ətrafla əlaqə tamam kəsilmiş, hansı istiqamətdə gedəcəyimizi də dərk edə bilmirdik. Gümanımız bir Yaradana qalırdı.

Gecə düşən kimi salamat qalmış bir neçə darağ patronu, silahımızı götürüb dərəyə endik, qayalıq boyu axan dağ çayında əl-üzümüzü yuduq, balaca rahatlaşandan sonra kor-koranə yola düşdük. Arientiri itirmişdik. Yol bizi dalınca aparırdı.

Özüylə dağların soyuğunu, sızağını gətirən bu dəlisov çayın qayalardan qopan daş parçalarına çırpınaraq atılıb düşən ləpələri köpüklənə-köpüklənə axdıqca gözlərimizdən tökülən sərsəm yuxunu qovub yox edir... İçimizə dolan acılar isə ağır yükə dönüb belimizi bükür, addımlarımızı karıxdırırdı...

Gözlənilməz itkilərdən sonra həyatın nə qədər dözülməz olduğunu hər birimiz yaxşı dərk edirdik. Heç kəs danışmırdı. Dərdimizi dağlara desəydin yerindən oynardı, bəlkə heç dözməzdi bu dərdə, əriyərdi dağlar. Biz dağdan da möhkəm idik, daş bağladığımız ürəyimizdə daşıyırdıq bu dərdi, ürəyimizdə...

Bələdçimiz olmadığından, kor-koranə getdiyimiz yolun harda bitəcəyini güman etmək belə mümkünsüzdü. Sağ qalanların hamısı buralara nabələd idi. Nabələd adam isə lap

günün günorta çağı da kor kimi olur. Yollar isə adamla danışmır.

Hava qaraldıqca soyuq iliyimə işləyir. Yadıma nəsə şirin bir xatirə, ürək qızdıran bir söz salmaq istəyirəm. Başım bu dağlar kimi dumanlıdır, heç nə yadıma düşmür... Birdə ki, nəyi yada salaydım axı? Ha eşələndim, ha vurnuxdum, dağınıq xatirələrimin içində ürəyimi göynədən ağrı-acıdan, göz yaşlarından savayı bir şey tapmadım.

Gözlərim qarşısında itirdiyim yoldaldaşlarımın yaddaşıma hopub qalmış sifət cizgiləri görünür. Sanki çiyin-çiyinə addımlayırıq. Bir neçə gün əvvəlki söhbətimiz yadıma düşdükcə Əlibəyin kəlməbaşı işlətdiyi "cigərüü yeyim" deməsini lap apaydınca eşidirəm.

– "Cigərüü yeyim, bağışla... qorumadım özümü. "

– Sənə min dəfə demişdim, dəlilik eləmə!... "dava-dava" oynamırsan e, burdakı güllələr doğruçudur, sən öl-mən ölüm qanmır.

– Cigərüü yeyim, bir güllə maa neyniyəcək ha?!...

– Axmaq-axmaq danışma! Sənin ölən vaxtın deyil. Sənin tay-tuşun texnikumda, institutda oxuyur, qız sevir, görüşə gedir, sənsə gör nədən danışırsan.

– Mən də oxuyurdum daa, ciyərüü yeyim, Politexdə, ikinci kursda. İstədiyim qız da var. Çox dedilər: " Dava sənlik döyül". Dözəmmədim. Qeyrətim götürmədi... İnstitut cəhənnəm, qoy dava qurtarsın, ciyərüü yeyim, bir toy çaldıracam ki, səsi göyləri titrətsin!"

Yaşını bilməyən, özünü tanımayan hər kim olsaydı Əlibəyə yeniyetmə, cavan deməzdi. Bircə il yarım nə imiş ki, onu bu qədər böyütmüşdü, yaşlandırmışdı?! Danışanda da ahıl kişilər kimi "qocafəndi" danışırdı. Əvvəllər bu barədə düşünməsəm də, indi, Əlibəyi torpağa tapşırandan sonra, yenə də o deputatlar yığılıb iclas keçirdiyi binanın qarşısındakı mitinq, ora qışqırmaqçün yığışıb on-onb eş adamı döyüşə yola salandan sonra hələ də çoxu bir əlində siqaret, bir əli havada nəyisə tələb

edən millət gözümün qabağından ötüb keçdi... Şəhərin küçələrində şıdrığı al-ver edən demokratik ölkənin azad vətəndaşlarının bağırtısını eşitdim; döyüşə, Vətəni azad etməyə səsləyən çağırışlarını yox, "Gəl mala!... Şok endirim!... İkisini alana biri havayı!..." bağırtısını və başa düşdüm ki, Bakıyla Qarabağın arasında iki dünya qədər məsafə varmış. Bu məsafəni qət etmək üçün hələ lazım olan heç bir nəqliyyat vasitəsi icad edilməyib.

– Sənin nə yaşın vardı ki?!... Lənətə gəlsin belə müharibə!

– Kimnən danışırsan, ay Rüfət?

Vahidin qəfil sualı məni xəyaldan ayırdı.

– Heç... – deyib dayandım. – Əlibəy düşdü yadıma. Uşağın heç bığı da əməllicə çıxmamışdı. Lap sütül oğlan idi... Torpağı nurla dolsun!

Qəhər məni boğurdu, lap zar-zar ağlamaq istəyirəm. Vahid kövrəldiyimi hiss etdi və ağır əlini çiynimə qoyub:

– Gəl, – dedi , – bir az oturaq. Uşaqlar da yorğundu...

Silah-sursatımızı qayaya söykəyib şaqqıldayıb axan çayın rütubətini canına çəkmiş sal daşların üstündə çiyin-çiyinə söykənib oturduq. Sanki, sağ qaldığımız üçün utanırdıq, göz-gözə gəlmək istəmirdik. Hamının üzündən kədər yağırdı.

Soyuq, aclıq da bir tərəfdən öz işini görürdü. Bir balaca qızınmaq, heç olmasa, nəm çəkmiş paltarlarımızı elə üstümüzdəcə qurutmaq üçün ətrafdan ağac kötüyü, çör-çöp toplayıb tonqal qalamaq olardı, amma, harda qərar tutduğumuza tam əmin olmadığımızdan risk eləmədik. Əllərimizi əllərimizə sürtüşdürməklə kifayətlənirdik.

Gecənin zülmətində, çay qırağı ayağımızı yara eləyən daşlarının üstüylə nə qədər yol getmişdik, bir Allah bilir. Yorulub əldən düşmüşdüyümüzdən heç olmasa səhər açılana kimi bir az mürgü döymək, gözümüzün acısını almaq pis olmazdı...

Buna nə mürgüləmək, nə çimir vurmaq demək olmazdı. Nə qədər istəsəm də gözlərimi yumub yuxunu öldürə bilmirəm ki, bilmirəm.

O gün – Şahbazın Gəncədən qayıtdığı gün – eşitdiklərimlə dünənki hadisənin bir əlaqəsi olduğunu düşünur, qəlbimi didib parçalayan şübhələri, qara fikirləri özümdən uzaqlaşdırmağa çalışırdım. Şahbazın görüb eşitdiklərindən belə çıxırdı ki, arxa cəbhədə – Bakıda, Gəncədə, ətraf rayonlarda yaman hərc-mərclik yaranıb; heç bir təmənna güdmədən, qeyrətlə döyüşən, canından keçən oğullara kömək etmək əvəzinə, hərə bir partiya yaratmaqla məşquldur, bəzi rayonlarda hədə-qorxuyla, silah gücünə rəhbər işçiləri devirir, mənəm-mənəmlik, xaos baş alıb gedir, hakimiyyət çevrilişi hazırlanır, bir sözlə, hərənin ağzından bir avaz eşidilir. Demək belə çıxırdı ki, arxa cəbhədə hegemonluq edənlərin adamları ön cəbhəyə də daraşıb, ara qızışdırmaq, narazıçılıq yaratmaq, qardaşı-qardaşla üz-üzə qoymaq üçün dəridən-qabığdan çıxırlar. Ön cəbhədə istədiklərinə nail olmaq üçün döyüş bölgələrində hərc-mərclik yaratmaq ən asan yol idi axı?! Həm də ən iyrənc! Murdar siyasətin azğın qulları öz əqidəsinə analarını da qurban verər, nəinki torpağını!

(Bu millət nə vaxta qədər rayon-rayon, kənd-kənd, küçə-küçə bölünəcək, ilahi ?!... )

Bizə kömək gələcəyinə söz vermişdilər, amma gəlmədi. Ona görə də itkimiz çox oldu. Sanki bizi bilərəkdən ölümün cənginə vermişdilər. Niyə ?! Bəlkə Bozqurda görə? Son vaxtlar ştabdakı polkovniklə sözü düz gəlmirdi. Lənətə gəlsin bu iyrənc siyasət! Bəlkə bilmədiyimiz çox şeylər vardı?

Bilmirəm. Bircə onu bilirəm ki, gecənin sükutunu pozan bu balaca dağ çayı lap cəhənnəmin Qıl körpüsünə, biz isə kor yolçulara bənzəyirik. Hara aparacaqdı bu yol bizi?!

... Dərə boyu çökmüş ağ duman üstünə qüssə ələnmiş uca dağların arxasında doğan yaz Günəşini bizdən ciddi-cəhdlə gizləyirdi.

Cəbrayıl kişiylə Cavid kəşfiyata çıxıb yol-irizi öyrənmək üçün gözdən itib dumana qarışan vaxtdan bir saat keçirdi. Onlar qayıdana kimi toparlanmaq lazım idi. Kimi gərnəşir, kimi üzünə soyuq su çiləyirdi. Mən silahımı götürüb qalxmaq istəyəndə addım səsləri eşitdim. Qulaq verdim. Duman seyrəldikcə ağır addım səsləri yaxınlaşırdı. Nəhayət Cavid göründü, sonra da Cəbrayıl kişi. ”Nəhayət gəlib çıxdılar. Bəs silahları hanı bunların? Deyəsən axı qonaqlarımız da var?”...

Duman seyrəldikcə hər şey aydın oldu: onları əsir götürüblər.

Avtomatlarını Cavidlə Cəbrayıl kişiyə tuşlamış erməni döyüşçülərindən biri rusca üstümüzə bağırdı:

– Silahları atın!...

Müqavimət göstərməyin yeri yox idi. Getdikcə çoxalan erməni döyüşçüləri bizi dövrəyə aldılar. Beş dəqiqə keçmədi hamımiz hədəfə döndük. Belə çıxırdı ki, öz ayağımızla düşmən mövqeyinə gəlib çıxmışıq?! Öz torpağımızda azmışdıq.

Tankist gödəkçəsi geymiş, qoluna narıncı lent düyünləmiş iki saqqalı cavan silahlarımızı toplayıb dumanda yox oldu.

Avtomatın qundağıyla kürəyimizə, qolumuza döyəcləyərək bizi qabaqlarına qatıb qərb istiqamətində apardılar. Kefləri kök ermənilər gülə-gülə, gah erməniycə, gah da rusca bizi təhqir edir, söyüş söyürdülər. Dişimiz bağırsağımızı kəsirdi.

Günəş diksindikcə duman seyrəlib yox oldu. Dağlar göründü. Elə bil yad nəfəslərdən boğulurdu dağlar. Bizim kimi.

Qəribədir, bizdən fərqli olaraq ayağımızın altındakı bu torpaqda onlar özünü daha inamlı, daha xoşbəxt hiss edirdi.

Geniş taladakı uçuq fermaya çatanda dayandılar. Bizi cərgəyə düzdülər. Kimisə gözləyirdilər elə bil.

Diqqətlə ətrafı nəzərdən keçirdim; bura fermadan çox yığcam, səyyar hərbi bazaya oxşayırdı; bir neçə top, “Qrad”, iki tank, uçuq binanın sağında qurulmuş iri çadır vardı. Təzəcə yuyulmuş əsgər paltarları ipdən asılmışdı. Soyutma ət, qovrulmuş soğan iyi gələn səyyar mətbəx qazanları buxarlanırdı ...

İlk baxışdan yaşlı görünən iki zabit çadırdan çıxan kimi döyüşçülərdən biri onların qarşısında təzim etdi, sonra nisbətən yaşlı zabitin qulağına nəsə pıçıldadı. O da gülümsünüb saqqalını qaşıdı, əvvəlcə ermənicə, sonra da rusca bağırdı:

– Ara, nə utanmaz adamsız... Öz ayağınızla gəlmisiz ki, Suren, öldür bizi, haa?! Ara, bəsdi də, bəsdi... Sizdə necə deyirlər, hə, keçinin əcəli çatanda özünü çobanın çomağına sürtər. Neujeli başa düşmürsüz ki, bu sondu?!

Cavidgili əsir götürməsəydilər, təsadüfən üz-üzə gəlsəydik, məncə, onlarla bacarardıq. Bayaq gözucu saymışdım – cəmisi on dörd nəfər idilər.

– Sən də qanmırsan? Ara, sən ki, cavansan, yerlisən?!

O istehzayla bir-bir bizi süzüb Cavidin qarşısında dayandı.

Cavid qızarmış gözlərini zabitin gözlərinə zilləyib acıqla:

– Qanmaz özünsən!-dedi.

Söz onun ağzından çıxar-çıxmaz zabit təpiklə qasığından elə vurdu ki, Cavidin “ııııııyy... ” eləyib ikiqat olmasıyla saqqallıların avtomatları döyüş vəziyyətinə gətirməsi bir oldu.

– Tvoyu mat!... – deyib, qəzəbindən erməniycə də bir neçə söyüş döşədi. Dili başa düşməsək də səsinin tonundan pis söyüş olduğu bilinirdi. – Yaxşılıq başa düşmur da bu müsəlman. Ara, sənun arvadun yoxdu? Nə var burda, ged evina, eşiyina, gir arvadin qucağına... Ha, burda nə var?!.. Dalisan?...

Dəliqanlı Cavid də özünə görə deyildi, balam. Nifrət dolu baxışlarını kinayə ilə onu süzən zabitin düz gözünün içində oynatdı. Qəzəblə zabitin üstünə şığıyanda yaxında dayanmış silahlı erməni avtomatın qundağıyla onun sinəsindən vurdu. Qəfil zərbədən geriyə səndərləyən Cavid:

-Öz arvadından xəbərin var? – bağırdı.

Hamımızı heyrət bürüdü. Yəqin ki, zabit sağ əlini havaya qaldırıb “dur” komandası verməsəydi halımızın necə olacağı məlum idi. Suren dişlərini qıcıdaraq ağrıdan zarıldayan Cavidin saqqalından tutub yuxarı qaldırdı. ” Zıpa balası zıpa, hələ bir

hürürsən da?!” deyib, üzünü yekəpər, bədheybət bir erməniyə tutub ağzını büzdü :

– Bu gədə heç xoşuma gəlmir, ha...

– İndi başa salaram!...– Əsl cəllada oxşayan həmən yekəpər, deyəsən komandirinin nəyə işarə etdiyini anladı. Sinəsini irəli verib xüsusi bir jestlə yoğun, tüklü boynunu şıqqıldadaraq qollarını havada oynatdı, Cavidin bir addımlığında dayanıb bərk-bərk çiyinlərindən yapışdı. Gözlənilmədən kəllə vurub onun burnunu partlatdı. Zərbə o qədər güclü idi ki, qığırdaqların şaqqıltısını eşitdik. Bir anda Cavidin sifəti al qırmızı qana bulaşdı. O, dayanmadan, ayı pəncəsinə bənzər yumruğuyla sifətinə zərbələr endirir, Cavid də şıddətli ağrılardan qovrulurdu.

Suren özündən razı halda aralanıb çadıra tərəf getmək istəyəndə Cavidin bu bədheybətin əlindən salamat qurtarmayacağına əmin oldum. Onun bu iztirabına dözə bilmirdim. Özümdən ixtyarsız qışqırdım:

-Bəsdi !... Bəsdi!...

Bərəlmiş gözlərini qan tutmuş bədheybət mənə sarı çönüb ”İndi sənin də payını verərəm” deyirmiş kimi baxdı. Zabit də çevrilib səsin hansı tərəfdən gəldiyini aydınlaşdırmaq üçün göz gəzdirdi. Şəhadət barmağını irəli uzadıb dedi:

– Burda komandanı mən verirəm! Bağırma! ...

Sonra Cavidi şi-lküt eləyən yekəpər erməniyə üzünü turşutdu, bayaqdan dinib-danışmayan zabitə azərbaycanca dedi:

-Ara, Armen-can, bu Vahanda heç insaf yoxmuş haa? Ara, adam “qonşusunu”, yaxın qonşusunu belə incidər ?! Ha-ha-ha! Xaça and olsun, bir tarafdan da duz eleyir, bu türklərin qanı bizə halaldı da. Düz demirəm? – Səsindəki istehza, iyrənc təkəbbür aydınca duyulurdu. Vahan dediyi o zalımın gözlərini döyməyindən başa düşdüm ki, o azərbaycan dilini bilmir, deməli zabit sadəcə onlara deyib bizə eşitdirir. Bir qədər dayanıb baxandan sonra rusca əlavə etdi. – Onu aparın fermanın dalına.

Vahan əldən düşmüş Cavidin sırıqlısının boynundan tutaraq uçuq fermanın arxasına apardı. İki erməni də qasığını qaşıya-qaşıya onun dalınca getdi.

Bu anda zaman dayandı bizimçin. "Onu niyə apardılar, gülləməyə? Yazığın başına nə oyun açacaqlar orda?" Yerimizdəcə donub, hər an açılacaq güllə səsini gözləyirdik. Xeyli keçdi, amma güllə səsi eşidilmədi...

Bu müsibətə dözə bilmirdim. İçimdə bir tərəddüd olsa da, artıq nə baş verəcəyini belə düşünmədən zabitin üstünə yeridim.

– Sən, – dedim, – sən vəhşisən! Düşmən də olsaq, biz qafqazlıyıq axı?! Bir vaxt can verən erməni uşağını ölümdən qurtaranda bilsəydim ki, o da böyüyüb sənin kimi olacaq... axx, onu bu əllərimlə boğardım onda! Bax, bu əllərimlə!...

Hələ də güllə açılmadığından fermanın dalında nələr baş verdiyini təsəvvürümə belə gətirə bilmirdim. Amma hamımız hiss edirdik ki, nəsə iyrənc iş tuturlar, yoxsa atəş çoxdan açılmalıydı.

Suren tapancasını çıxaran kimi onu gicgahıma dirəyib bağırdı:

-Kəs səsini, sukin sın!...

Mən isə susmur, qeyri-iradi, illər öncə Bakının "Ermənikənd " məhəlləsində al qana bulaşmış oğlanı necə xəstəxanaya çatdırdığımı, gecəni sübhə kimi başının üstündə oyaq qaldığımı danışırdım. Elə bil intuisiyam gözlənilməz nəyinsə baş verəcəyinə işarə edirdi, lakin vəziyyətin hansı istiqamətdə dəyişəcəyindən asılı olmayaraq, "onsuz da axırı ölümdü, nə olacaq-olacaq", deyə fikirləşərək nəfəs almadan tanımadığım erməni uşağını necə xilas etdiyimdən bəhs edirdim. Təki Cavidə bir şey etməsinlər...

Bu dəm, bayaqdan susaraq heç bir olaya baş qoşmayan ikinci zabit Surenə yaxınlaşıb qolundan tutdu. Pistoleti güclə əlindən alıb onu sakitləşdirdi. Mənə baxdı. Sanki illərcə

axtardığı adamı tapıbmış kimi gözləri parıldadı, dodağı qaçdı. Şirin Bakı ləhcəsiylə soruşdu:

– Kim idi o uşaq, ara, tanıyırdın onu?

Özümü itirdim. Deyəsən, mənim yalan, yoxsa düz danışdığımı yoxlayırdı. Bayaq, Suren ona müraciət edəndə adını demişdi: Armen. Nə olsunki? Bizdə Məmməd çox olan təki olarda da iki nəfərdən biri Armen deyildimi? Bəs niyə birdənbirə maraqlanırdı? Armen barəsində Marqodan eşitdiyim məlumatlar olmasaydı, ikibaşlı sualından narahat olardım, elə başa düşərdim ki, o, uşağı bıçaqlayan Karapetin, ya da onu tanıyanlardan biridir. Yox, Karapet belə mülayim soruşmazdı. Bəlkə heç soruşmazdı da. Təsəvvür edirsən, illərlə dustaq həyatı keçirəsən, indi də, bu şəraitdə biləsən ki, bıçaqladığın gədə ölməyib, özü də onu xilas eləyən durub səninlə üz-üzə, hələ bununla lovğalanır da... Yox, Karapetin yerinə kim olsa sorğusualsız təpəmə bir güllə vurar, vəssalam! Bəlkə Marqoya evlənmək vəd edib yoldan çıxaran, zorlayan, sonra da aldadıb Rastova qaçan Armen indi mənimlə üzbəüz dayanıb?! Odurmu? Bəs qardaşının adı nə idi?

İlahi, kömək ol! Bəlkə də bu sualın cavabından bizim taleyimiz asılı idi?! Bəlkə də yox. Təki onun adını düz deyə biləydim. Yadına sal, Rüfət, hə, yadına sal!...

– Ara, səninləyəm ha. Adı nəydi?...

Yadıma düşəndə uşaq kimi sevinsəm də bunu biruzə vermədim. Sakitcə:

– Ra-fik...– dedim. – Hə, Rafik idi.

Zabit əlini çiynimə qoyub məni başdan ayağa süzdü.

O da bizim kimi yuxusuz, yorğun görünürdü. Marqo onu başqa cür təsvir etmişdi. Yəqin illər öz işini görmüşdü, ya da lənətə gəlmiş müharibə. Məndən beş-altı yaş böyük olsa da, işığı solmuş gözlərinin altı tuluqlanmış, yeldən, şaxtadan çatlamış cod dərisi, papağının altından qıvrılan saçlarına, illərlə qırxılmayan saqqalına düşən dən onu çox yaşlı göstərirdi. Sakitcə:

-Rafik mənim qardaşımdı, – dedi.

Daha bir kəlmə də demədi, Surenin qoluna girib çadıra tərəf apardı. Əl-qol ata-ata nəsə götür-qoy edir, danışıqlarını başa düşməsək də, hərəkətindən hiss olurdu ki, Suren onunla razılaşmır. Xeyli vaxt ötdü. Suren, nəhayət, bayaqdan bizə nəzarət edən saqqallılardan birini hayladı. Qaça-qaça ona yaxınlaşan döyüşçüyə göstəriş verdi. Bir azca keçmişdi ki, həmən döyüşçü bizi tərs-tərs süzüb gözdən itdi.

Ürəyimizdən qara qanlar axırdı. ”Bu saat bizi güllələyəcəklər, boş yerə danışdım bu əhvalatı” deyə fikirləşdim. Bir tərəfdən Caviddən soraq gəlmirdi, o bir tərəfdən də zabitlərin bu cürə səssizliyi şübhələrimizi üst-üstə yığırdı. O gədə niyə bizə tərs-tərs baxıb keçdi? Əslində hər biri bzi diri-diri didib parçalamağa hazır idi. Amma duruşlarında, baxışlarında bu arzularının puç olduğu aydın sezilirdi. Ola bilsin ki, kiminləsə bizi dəyişəcəkdilər, yoxsa bizimlə məzələnməzdilər, çoxdan o dünyalıq etmişdilər. Son vaxtlar ədalətsiz dəyişmələr tez-tez baş verirdi; bir azərbaycanlıya on, on beş erməni dəyişirdilər. Bu nə qədər ədalətsiz və məntiqsiz olsa da mən bu cür dəyiş-döyüşə özlüyümdə belə məna verib toxtamışdım: deməli onlar da dərk eləyirlər ki, bizim bir nəfərimiz on erməniyə dəyər!...

Uçuq ferma binasının tinindən sırıqlısını geyinə-geyinə birinci, o yekəpər çıxdı, sonra ust-başı toz-torpağa bulaşmış Cavidi sürüyə-sürüyə gətirən iki nəfər göründü. Onu divarın dibinə söykəyib bizə sarı baxıb qımışdılar. Ona yaxınlaşmaq istədik, qoymadılar.

Sifəti eybəcər hala düşmüş Cavid elə halsız və pərişan görünürdü ki... Diqqətlə baxanda sinəsində quru mal peyininə qarışmış nəm otların izi hiss oludu. Başını qaldırıb bir dəfə də bizə tərəf baxmadı.

Bəs indi nə baş verirdi? İki döyüşçü səyyar mətbəxə yaxınlaşdı. Biri çömçəylə iri qulplu qazana parça-parça ət çəkir, o birisi də yeşikdən çörək çıxarıb doğrayaraq padnosa yığırdı. Beş-on dəqiqə keçmədi ki, qazan da, podnos da bizim

qarşımızda, təzə göyərməsinə baxmayaraq ayaq altında tapdaq olmuş otun üstündə göründü.

Qazanı gətirən istehzayla baxıb, rusca :

– Bağışlayın, – dedi,– çəngəl-bıçağımız yoxdu. Əllə yeməli olacaqsız. – Sonda dilucu əlavə etdi.– Nuş ...

Bayaq bizə tərs-tərs baxan erməni də əlində bir butulka və iki stəkan bizə yaxınlaşdı: “Zoğal arağıdı. Komandir göndərib” – deyib, çörək podnosunun yanına qoydu.

Əvvəlcə “süfrə”yə heç birimiz yaxın durmaq istəmirdik. Aclıq nə qədər güc gəlsə də, belə “qonaqpərvərliyin” nəylə nəticələnəcəyini fikirləşirdik. Müharibədən bəhs edən hansısa film yadıma düşdü. Faşıstlər günlərlə ac qalmış sovet əsirlərini güllələməmişdən qabaq guya humanizmlik göstərib yedizdirib-içizdirirdilər. Və bu onlara xüsusi zövq verirdi.

Suren “UAZ” a minib gedəndən sonra əllərini ovuşdura-ovuşdura çadırdan çıxan Armen bizə yaxınlaşıb butulkanın ağzını açdı, stakanları yarıyacan doldurdu.

– Yeyin... Ara, qorxmayın, kim istəsə içə bilər... – deyib, arağı başına çəkdi. Qazandan iri bir tikə götürüb dişinə çəkdi. Yeyə-yeyə başı ilə işarə etdi ki, yaxın gəlin. – Cöngə ətidi, öz malınız kimi yeyin.

Şahbaza işarə etdim ki, ətdən, çörəkdən Cavidə aparsın. O cəld qazana yaxınlaşıb bir tikə ət götürdü, qoydu yarım çörəyin üstünə və Cavidə tərəf getdi. Həm də fürsətdən istifadə edib öyrənərdi yazığın başına nə oyun gətiriblər. Duyuq düşən nəzarətçı tez Şahbazın qabağını kəsdi, yeməyi ondan alıb Cavidin qucağına qoydu.

Uşaqlar bir-bir qazan ətrafına toplaşdı. Vahid nə fikirləşdisə ac qarına çappa stəkandakı arağı birnəfəsə uddu. Armen yenə araq süzsə də, daha heç kəs içmədi. Hamı yeyirdi. Təsəvvür edirsən, əllərimiz, üst-başımız it günündə, düşmən süfrəsində “ziyafət”də.

Mən elə hey fikirləşirdim ki, yəqin qarnımızı doydururlar ki, taqətimiz olsun, əsirlər dəyişdiriləncən ayaqda olaq. Deməli, bayaq o bir zabitlə də bunu müzakirə edirlərmiş.

Göz altı Cavidi süzürdüm; yeməyə gözünün ucuyla da baxmadı. Başını sinəsinə söykəyib durmuşdu. Sındırmışdılar onu...

Armen son tikəsini udub başını mənə sarı əyəndə bütün düşündüklərim alt-üst oldu.

– Ara, sabax bayramdı, Stepanakertdən maşın gəlməyəcək. Baxtiniz var, klyanus!... Rafik canı...

Artıq bilirdim ki, bu iki zabitdən başqa heç biri bizim dilimizi başa düşmür. Deməli, döyüşçülər nə Bakı, nə də Qarabağ ermənisiydilər. Elə Armenin də arxayın-arxayın danışmağı buna sübut idi. Ağlında nə vardı, bilmirdim. Amma yeganə qardaşını ölümdən qurtardığıma görə bizə nəsə yaxşılıq edəcəyinə əmin idim – gözlərindən oxuyurdum bunu!

Astadan mənə dedi ki, axşam düşəndə gəldiyiniz yolla qaçmağınıza bir saat vaxtınız olacaq. Uspet eliyərsiz? Axşam məndən başqa hamı kəndə gedəcək. Bayrama. Mənim siqnalımı gözləyin, ara.

Sonra keşikçiyə əmr elədi ki, bizi tövləyə salsın. Vahidlə Cəbrayıl kişi Cavidin qoluna girib bizimlə ifunət qoxuyan tövləyə girdi. Sınıq-salxaq taxta qapı arxamızca bağlanandan sonra hamımız Cavidi dövrəyə aldıq.

Köhnə fermanın bu hissəsindən nə vaxtsa tualet kimi istifadə etdikləri tin-bucağa atılmış əzik-üzük qəzet parçalarından, kəskin sidik qoxusundan hiss olurdu. ”Görəsən məzələnmir ki, mənimlə? Düşdüyümüz vəziyyətdən istifadə edib dolamır ki, bizi?” İyrənc qoxu ödümüzü qarışdırsa da, yediyimiz tikələr boğazımızda ilişib qalsa da əgər Armenin dedikləri düz idisə buna da dözmək olardı. Ağır-ağır nəfəs alıb ermənilərin kəndə gedəcəyi anı gözləməkdən başqa çarəmiz qalmamışdı.

Cavid bir küncə qısılıb susurdu. Gözlərini bizdən gizlədir, ufuldayırdı.

Neçə saat keçmişdi, Allah bilir. Bayaqdan, üst-üstə pərçim edilmiş taxtaların arasından ətrafı nəzərdən keçirən Şahbaz qəfil bizə sarı çönüb pıçıldadı:

– Yığışırlar deyəsən... Köçürlər elə bil.

Tez qapıya yaxınlaşdım. Doğrudan da yığışırdılar. Deyəsən çox əziz bayram idi bu bayram, hətta əsirlərinin olduğunu da unutmuşdular. Yarım saat keçmişdi ki, bayaqkı hay-küydən əsər-əlamət qalmadı. İnanmayacaqsınız, elə mən də inanmazdım. Armenin verdiyi sözə əməl edəcəyinə ümid etsəm də, "ara, vaxtdi" deyib qapıya yaxınlaşana qədər şübhələrim bu ümidimi üstələyirdi.

Taxta qapı cırıldayıb açılanda axşamın soyuq mehi üst-başımıza hopmuş nəcis iyini qovmağa başladı...

O, qapının böyründə uzanıb xoruldayan cavan əsgərə baxa-baxa bizi tələsdirir, silahlarımızın yerini göstərir, nəsə dodağının altında danışırdı. Hiss edirdim ki, fikrində qəti də olsa, narahatdır. Bəlkə də özünü bağışlaya bilmirdi.

Şahbaz tez-tələsik hamının silahını çiyinlərinə keçirdi. Vahidlə mən Cavidin qoluna girib gəldiyimiz yolla çaya tərəf üz tutduq.

Armen aqibətinin necə olacağını fikirləşə-fikirləşə arxamızca baxıb astadan dedi:

– Bakıda görüşərik, ara...

"Sən bunun iştahasına bir bax?! " deyə fikirləşirdimsə də özümün Bakını görəcəyimə şübhə edirdim.

Təşviş, qorxu, inamsızlıq yaxamızdan hələ də əl çəkməmişdi. Bəlkə bu bir oyun idi? Bizim əlacsızlığımızdan istifadə edib aldadırdı bizi, bayram-zad da yoxdu, hamısı hardasa gizlənib, məzələnirlər bizimlə? Heç avtomatlara da düz-əməlli fikir vermədik. Maqazinlərin boşaldıblar yəqin. Bax, indicə gizləndikləri dəlmədeşikdən çlxacaqlar, şaqqanaq çəkə-çəkə hammımızı it kimi qıracaqlar...

Çayın kənarına çatana kimi saniyəbəsaniyə arxadan üstümüzə yağacağ güllə yağışını gözləyirdim...

***

“ Necə sakit payız axşamıydı, ilahi?! “

Cavid getdikcə ağırlaşırdı, yoxsa, biz yorulub əldən düşmüşdük? Onun sifətindəki qüssə də məni bir yandan üzürdü. Yol – məşəqqətlə dolu bu yol nə qədər üzücü və sonsuzmuş. Əzabı, iztirabı tapdaq edib asudəliyə qovuşmaq üçün atılan hər addım isə inanılmaz cəsarət tələb edirdi.

Qaranlıqda soyuq dağ çayının ən sısqa yerinə çatıb o taya keçdik. Buz kimi su sümüklərimizi də gizildədirdi. Taqətdən düşsək də meşəyə çatana qədər hərəkət etməliydik. Vahid tövşüyür, mən öskürməyə başladım. Bu vaxt Cavid güclə eşidilən səslə dedi:

– Məni burda qoyun, gedin.

Danışdığına görə hamımız sevindik. Bir anlığa dayanıb ona baxdıq: donuq baxışlarına yığılmış məyusluqdan özgə bir şey görünmürdü.

-Axmaq-axmaq danışma. Çatırıq...

-Hara?

-Meşəyə, – dedim. – Meşəyə çatıb dincələrik.

Nə dediyimi anlamayan adam kimi gözlərini döyüb susdu.

Meşənin dərinliyinə girən kimi Cavidi qovaq ağacına söykəyib, biz də nəm otun üstünə leş kimi sərələndik...

***

“Görəsən, yuxudan şirin nəsə var?”

“Şokolad!”

“Başqa?”

“Bal. ”

“Heç bal kimi yuxu görmüsən?!

”O qədər... ”

“Başqa...

“Qadın”.

“Qadın?”
“Hə, qadın. O, həm baldı, həm şəkərdi, həm də şokolad!”
“Yaman dedin! İndi bir qadının qucağında olmaq üçün hər şeydən keçərdim!”
“İndicə yuxuma gəlmişdi o gözəlçə, diksindirdi yuxumu... ”
“ Deməli, yuxu hər şeydən şirindi?”
“Ölüm! Ən şirin yuxu ölümdür! İnsan öləndə rahatlanar, öləndə...”

Yuxudan küt bir səsə diksinib ayıldım. Meşənin soyuğu canıma hopub bədənimi keyitmişdi. Qaranlıqda heç nə görə bilmədim. Təkcə biri-birinə sığınmış qoca ağacların çılpaq budaqları xışıldayırdı. Təlaş içində uşaqları hayladım. Birinci Cəbrayıl kişi hövlnak cavab verdi, sonra Vahidlə Şahbaz hay verdi, amma Caviddən səs çıxmadı. Bir də çağırdım. Yerində yox idi. Onu axtarmağa başladıq.

Dərənin dibindən Cəbrayılın xırıltılı, həyacanlı səsi onsuz da biz-biz duran tüklərimi tərpətdi.

– Cavid ?!..

Hamımız səsə tərəf döndük. Özünü vurmuşdu Cavid.

Axı bu necə olub, ac, susuz yuxu bizi necə aparıb ki, onun silah götürdüyünü, özünü vurduğunu görməmişdik?!

Bir-birimizi qınadıq, söyüşdük...

Cavid isə çəkdiyi iztirablardan qurtulduğu üçün rahatlanmışdı. Açıq qalmış gözləri hələ təzə-təzə yarpaqlarını tökən sıx budaqların arasından göydəki təkəm-seyrək ulduzlara sarı dikəlmişdi. Sanki, intizarla bu cəhənnəmdə Günəşin havaxt doğacağını gözləyirdi. O bir daha nə gecələr parlayan soyuq ulduzları, nə də yandırıb-yaxan Günəşi görəcəkdi – Cəbrayıl kişi əlini sifətinə sarı uzadıb onun hədəqəsindən çıxmış gözlərini qapadı...

Yadımızda qala biləcək yer tapdıq. Avtomat süngüsüylə soyuq, yumşaq torpaqda “bu sonuncu olsun!” deyib qəbir qazmağa başladıq. Bilmirəm qəbir qazmağa öyrənmişdik, yoxsa

soyuğun təsirindən idimi, Cavidin son mənzilini yaman tez hazırladıq. Vahid yasin oxudu.

Onu torpağa tapşıranda artıq dan yeri sökülmüşdü. Min illər belə Günəş buralarda torpağın üzünü öz hərarətiylə isitsə, qovursa belə onun istisi Cavidə çatmayacaqdı.

Yenə duman üstümüzə çökdü...

## Tanış qoxu

... İtlər hürüşdü, ancaq itlər. Başqa heç bir səs.

Birinci, dərəyə qovuşan üstü kol-koslu, çay daşından hörülmüş divar göründü, sonra həyətində qollu-budaqlı meyvə ağacları olan ikimərtəbəli daş ev, sonra hər iki tərəfini qollu-budaqlı nəhəng ağaclar əhatə edən və elə beş-on addımlıqdan sonra da ağacların qoynunda itib-batan çınqıllı küçə...

"Nəhayət ki!" Görəsən yorucu, üzücü yolumuz bu dərədə bitəcəkdimi?

Gizləndiyimiz yerdən kəndə sarı xeyli baxdıq; bu vaxt kənd oyaq olmalıydı axı?! Sahibsiz qalmış itlərin uzun-uzadı zingildəməsindən savayı nə heyvan-qara, nə də bir insan həniri gəlirdi. Deyəsən kənd köçmüşdü.

Hamımız yorğun olsaq da Şahbaz cavan, həm də diribaş olduğuna görə kəşfiyata göndərdik. Silahını qapıb dərəyə endi. Artıq möcüzəyə-filana inanmırdıq. Yazıq Şahbazı arxadan izlədikcə hamımızın nə halətdə olduğumuzu təxmin etdim: sərxoş adam kimi ləngər vura-vura dərəni keçib daş hasarın üstündən həyətə aşdı.

Gözləmək! Nə yorucu və dəhşətli şeymiş gözləmək?! Başqa əlacımız da yox idi, gözləməliydik. Heç bilmirəm yeriydi, ya yox, amma bu təlaşlı vəziyyətimiz kəndçimiz Əfruz arvadı saldı yadıma.

Mən uşaq olanda danışırdılar ki, Əfruz arvadın cüvəllağı bir oğlu varmış Nəbi adında. Nəbi sovetin dövründə, hardasa altımışıncı illərdə gedir Rusiyaya. Orda nə qələt eləyirsə iyirmi

beş il iş verirlər Nəbiyə. Yazıq arvad da bundan bixəbər, canını dişinə sıxıb gözləyir, qırx manat pensiyayla bilmir öz hayına qalsın, yoxsa Nəbinin yetimçələrinin...

Yetimlərini dolandırmaq üçün üzünə üz tutub kəndin dükanından, “selpo”nun avtolavkasından xırda-xuruş götürüb deyərmiş ki, vallah, Nəbi qayıdan kimi verəcək borcu. Hamı da elə bilir ki, Nəbi Rusyətə pul qazanmağa gedib. Bir il belə, beş il belə. Borc borc üstünə yığılır, qalır Əfruzun boynunda.

Hə, bir gün kənd soveti, selponun müdüri, sovxozun partkomu gəlir Əfruz arvadın evinə. Xoş-beş, hal-əhval tutandan sonra soruşurlar ki, ay Əfruz bacı, oğlun gələnə oxşamır, nə qədər gözləmək olar axı? Hököməti ələ salmısan?! Bilməmiş olmazsan, bəlkə başında bir qəzyə-filan var, bizə də de, bilək də?...

Əfruz arvadın öz dərdi özünə bəs idi. Oğlunun sanki gedər-gəlməzə getməsi onu vaxtından tez qocaltmışdı, amma buna baxmayaraq heç kəsin yanında özünü sındırmazdı. Elə hökumət adamlarının da yanında heç halını pozmadan cavab verib ki, a başuza dönüm, yəni hökümət o günə qalıb, o günə düşüb ki, yetimçə Nəbinin beş-on manatına göz dikə? Bir də, dünya dağılmıb haa, gələr daa... Qayıdıb gələr, inşallah, hamının borcun da qaytarar... Səbriniz olsun, başuza dönüm. “Nə qəzyə bazlıqdır, uşağa iyirmi beş il iş kəsiblər, beş il də səsdən məhrum ediblər, yazıq balamı...” Bax, bircə bunu deməyə dili gəlmirdi – udurdu içinə.

Yalan-doğru deyirdilər ki, Əfruz arvad öldü, “selpo” da ləğv oldu, amma Nəbi gəlib çıxmadı ki, çıxmadı. Allaha dua etdim ki, Şahbazın da gəlişi Nəbinin qayıtmasına dönməyəydi.

... Şahbaz hasarın üstündən bizə tərəf əl edənə kimi elə bil zaman nəfəsini içində boğub saxlamışdı. Nəhayət ki, dərindən nəfəs alıb özümüzə gəldik.

Kəndi gecəylə boşaltmışdılar: pəyələrdə heyvan-qaranın ılıq nəfəsi hələ hiss olurdu. Birinci, ikinci, üçüncü həyətə girdik. Tələm-tələsik yığışdıqlarından evlərdən ancaq vacib

şeylərin götürüldüyü ilk baxışdan hiss oludu. Amma, yeməyə, ürək toxdadan, mədəmizi aldadan heç nə tapa bilmirdik. Özümüzü Daniel Defonun qəhrəmanları kimi hiss etməyə başlamışdıq. Sanki bu adadan qurtuluş yox idi – labirintə düşüb qalmışdıq, hara getsəydik yenə qayıdıb eyni məkana gələcəkdik. Bu halsızlığın, aclığın xoşa gəlməyən təzahürü idi. Bir yandan da boşalmış evlərdə buranı təzəcə tərk etmiş sakinlərin iyini hiss edir, qarabasmalar yorğun gözlərimizin solmuş işığına kədər qatırdı. Özümə ürək-dirək verdim: "Təki ağlımızı itirməyəydik..."

Nəhayət, nə oldusa, yosma evin kəllə otağına girən Şahbaz sevinərək uşaq kimi bağırdı:

– Qovurğaaa!... Uşaqlar, gör nə qədər qorğa var burda?!...

Onun bağırtısını eşidən Vahid qonşu evin həyatindən hasarı elə oppandı ki, elə bil neçə günün it yorğunu deyildi. Şahbaz divara söykənmiş köhnə mizin altından çıxardığı torbanı sinəsinə sıxıb heykəl kimi dayanmışdı. Hamımız sanki bayram süfrəsinə yığışırdıq. Beş kiloluq düyü kisəsini mizin üstünə qoydu, ağzımız aralı qovurğaya elə baxdıq, elə baxdıq, elə bil bir kisə qızıl tapmışdıq. Həqiqətən də Şahbazın tapdığı qorğa bu dəqiqə qızıldan da qiymətliydi! İnsan itirdiyi ən əhəmiyyətsiz bir şeyi də tapanda uşaq kimi sevinir. Ona vacib olanı axtaranda buna nail olursa lap çox sevinir mən bilən. Bir də var heç nə itirməmisən, heç nə də axtarmırsan, amma təsadüfən elə şey rastına çıxır ki, elə bilirsən hər an onun həsrətini çəkmisən, onu arzulamısan. Sən belə halla rastlaşmısan, ya yox, deyə bilmərəm, amma Əfqanıstanda başıma gələn bir hadisə çox maraqlı və gözlənilməz olmuşdu mənimçin.

***

1982 ci ilin qışın hansı ayı idi yadımdan çıxıb, Əfqanıstanın şimalında bir aulu çalmalılardan təmizləmək əmri almışdıq. Biz əvvəllər elə bilirdik ki, bu çalmalı dediyimiz düşmənlər

partizan kimi bir-bir, iki-bir yayılıb aullara və onları məhv edib sıradan çıxarmaq çox asan olmalıdır. Artıq Əfqanıstanla dərindən tanış olandan sonra dərk elədik ki, yox balam, bizimlə vuruşan bütün aullar düşmənlərdən ibarətdir və bunların əli silah tutan balaca uşaqları da çalmalıdır ki, var... Hə, həmən aula çatanda dəstəmizin komandiri möhkəm-möhkəm tapşırmışdı ki, daxmalara girəndə içəridə lap uşaq, əldən düşmüş qoca da görsəniz ehtiyatlı olaq və nəbadə bir şeyə toxunaq; yerli camaat onların lazımsız əşyasına da kafir əlinin dəyməsinə təcavüz kimi baxdığından belə halları bağışlamırlar. Mən yarızarafat-yarıciddi dedim ki, mən müsəlmanam, kafir deyiləm. Komandirimiz "kafir"liyi özünə götürüb mənə tərs-tərs baxdı, sonra da kinayəylə gülüb cavab verdi:

– Bu sənin alnında yazılmayıb. Müsəlman olduğunu bildirən yeganə yerini səni öldürüb şalvarını çıxarandan sonra biləcəklər. Ha-ha-ha! Başa düşdün, onların gözündə sovetin formasını geyən hər kəs kafirdi, axmaq!

Əlbəttə, bunu heç ağlıma gətirməmişdim. "Baş üstə!" deyib girdik aula. Daxmalar, onları əhatə edən əyri-üyrü hasarlar ağımtıl, bir az sarıya çalan gilli palçıqdan kəsilmiş çiy kərpiclə hörülmüşdü. Boz qaya daşlarıyla döşənmiş dar və biyöndəm küçələr – yoluq toyuğun dalınca qaçan qırmızı xoruzu nəzərə almasaq – bomboş idi. Bizim gələcəyimizdən xəbər tutan camaatın kəndi yenicə, həm də tələm-tələsik tərk etdiyi bəzi həyətlərdə atılmış ev əşyalarıyla yüklü arabaların ilişib qalmasından məlum idi. Bu cür səssizlik aldadıcı ola bilərdi. Təhlükənin qaşla göz arasında olduğunu bir an da yaddan çıxarmaq olmazdı.

Biz döyüşə hazır vəziyyətdə üç-üç bölüşüb daxmalara girir, otaqları yoxlayır, boş olduğuna əmin olandan sonra küçəyə çixib komandirə raport verirdik. İki evi yoxlayıb üçüncüsünə girəndə bütün otağı bürümüş çox tanış ətir burnuma dolub məni məst elədi. Bir anlığa yerimdəcə donub gözlərimi yumdum, bu xoş qoxunu doyunca ciyərimə çəkdim. Andrey mənə

baxıb əvvəlcə təəccübləndi, ona tanış olmayan qoxunu duyunca burnunu çəkməyə başladı, bu xoş ətirin hardan gəldiyini öyrənmək üçün yarıqaranlıq otağa göz gəzdirdi, bir şey tapmayanda yenidən mənə baxıb maraqla soruşdu:

-Bu nədiki belə?...

Onun sualı məni düşdüyüm sehirli ətir dünyasından ayırdı, gözlərimi açıb otağa göz gəzdirdim; divarın içində hörülmüş rəflərdə rəngbərəng qədimi çini kasalar, mis qab-qacaq səliqəylə düzülmüşdü. Lap küncdə iç-içə qoyulmuş qar kimi ağ kasanın içində sanki qaranlıq otaqda doğan aya bənzər bir cüt sapsarı heyvaya gözüm sataşanda onun cazibəsindən qaça bilmədim, ixtiyarsız otağın küncünə atıldım. Bizdən sonra otağa girən, Andreylə məni məst eləmiş qoxudan bixəbər olan leytenant Kostalevski rəfə toxunduğumu görüb cingiltili səslə elə bağırdı ki, əlim havadan asılı qaldı.

– Toxunma!

Onun otağa qəfil girişiylə bağırması bir anda olduğundan quruyub yerimdəcə qalmışdım.

– Heyva...– deyə pıçıldadım, sanki, əlimi tərpətsəydim rəfdəki heyva qumbara kimi partlayacaqdı. – Yoldaş leytenant, bu heyvadı ... qorxmayın...

Boynuma alım ki, mən də yaman qorxmuşdum – “qumbara”dan yox e, zabitin qəfil çıxardığı qulaqbatırıcı səsindən. Onun çığırtısına dəstənin komandiriylə bir neçə əsgər də qaçıb gəlmişdi. Əsəbi halda bir də yadımıza saldı ki, heç nəyə əl vurmaq olmaz, heyvadı-nədi, bilmirəm, zəhərli ola bilər...

Komandir səriştəli hərbiçi kimi düz ehtimal edir, hər şeyə məntiqlə yanaşırdı. Düşmənə etibar etmək axmaqlıq idi.

Komandir yığışmaq əmri verəndən sonra hamı bir-bir daxmadan həyətə çıxdı. Mən bilərəkdən axıra qalmışdım və komandirin ciddi göstərişini bir anlıq unudaraq heç düşünmədən rəfə yaxınlaşıb heyvanın birini götürdüm. ”Belə gözəli zəhərləməkmi olar?Axmaq adam, sən hardan bilirsən

heyva nədir?!”deyib şaraqqıltıyla heyvanın sapsarı yanağından bir yekə dişdəm götürdüm. Heç saniyə keçmədi heyvanın ətirli şirəsi dişlərimin arasından süzülüb dilimin üstünə axdı. Sanki həyatımda ilk dəfəydi heyva yeyirdim, özü də belə iştahayla!...

***

– Nə gözlərinizi döyürsüz? – deyib, Vahid qovurğadan bir ovuc götürüb yeməyə başladı. – Yeyin də... Həə...

Uşaqlar buna bənd imiş. Ovuclar bir-bir kisəyə girib-çıxırdı. Yediyimizi yedik, qalan qovurğanı da ata malı kimi bölüb ciblərimizə doldurduq. Bu qorğanın “göydən düşmə “ olduğunu desək də, buğdanı bulaq suyunda yuyub qurudan, onu həvəslə, bayram əhval-ruhiyyəsiylə sacın içində qovuran naməlum qadının canına sağlıqlar diləyib evdən çıxdıq.

Həyatımda ikinci dəfəydi atılmış, yiyəsiz kəndin küçəsiylə addımlayır, amma ilk dəfəydi məcburən evini tərk etməyin nə qədər dəhşətli olduğunu duyurdum. Sahiblərini bir daha görmə-yəcəklərinə əmin olub boş küçə boyu zingildəyə-zingildəyə veyillənən itlər bizi görəndən sonra bir az sakitləşdilər.

Vahidə baxdım. Ara-sıra cibindəki qovurğadan ağzına atır, yəqin ki, adamı vahiməyə salan bu səssizliyin aldadıcı olduğundan ehtiyat edərək tez-tez ora-bura baxırdı. Ona dedim ki, heç kəs evini könüllü boşaltmaz, onları məcbur ediblər yəqin. Elədirsə, demək ermənilər gec-tez bu kəndə də girəcək, uzaqlaşmaq lazımdır burdan.

Çınqıl döşənmiş əyri-üyrü yolla gəlib axırıncı evin daş hasarının tininə çatanda hamımız yerimizdəcə quruyub qaldıq. Doqqazın böyründə, iri çay daşının üstündə qoca kişiylə qarı oturub, gözlərini də dikiblər yola sarı. (Bu yeri artıq sizə danışmışam. Amma bəzi məqamlar var ki, burda deməliydim. Ona görə təkrar xatırladım o müdhiş anı) Vallah, heyrətdən yerimizdən tərpənə bilmirdik; hamı qaçıb canın qurtarıb, onlarsa geyimli-keçimli, elə bil toya, ya da qonaqlığa getmək

üçün hazırlaşıb, kimisə səbirsizliklə gözləyirdilər. Bizi görəndə heç təəccüblənmədilər. Əvvəlcə salam verib təlaşla soruşdum:

– Ağsaqqal, kənddə heç kim yoxdu, hamı qaçıb, siz kimi gözləyirsiz? Bu dəqiqə ermənilər kəndə “Qrad” yağdıracaq, durun gedək burdan...

Kişi halını pozmadan bizə baxdı. Ağır-ağır dilləndi:

– Bizimki buracanmış... Sən kefini pozma, oğul.

– Ata, – bunu Vahid dedi, – kəndi kim boşaltdı ki? Axı camaata qoşulub niyə getmədiz?

Qoca başını qaldırıb təəssüflə dindi:

-Ay oğul, bu müşkildən Allah da baş açmaz. Biri elə deyir, biri də belə. Kimə inanasan, a başına dönüm? İndi hərə öz canının hayındadı.

Vahid təkidlə qocanın qolundan yapışdı.

– Dur, – dedi, – dur, gedək burdan. Qurban olum, dur!

Kimə deyirsən, inadkar qoca qarısına bir az da sıxılıb təmkinlə cavab verdi:

– Oğlum söz verib, indilər gələr. Dünən çıxıb Bakıdan. Gəlib bizi aparacaq.

Yalvarıb-yaxardıq ki, yollar bağlıdı, ay bəxtəvər, aləm qarışıb biri-birinə, it yiyəsin tanımır, bura heç vertolyot da uçmur, oğlun necə gələcək, nəylə gələcək?!...

Pəhlavan cüssəli, öz aramızda “Əydaha” deyə çağırdığımız Vahidə elə bil güc gəldi, cəld arvadı qucağına alıb, bu inadkar, nurani kişinin körpə uşaq kimi necə sadəlövh olduğuna acıya-acıya :

– Mən, – dedi, – ananı qucağımda lap Bakıya qədər aparacam! Daşı tök ətəyindən, ata! Dur, səni and verirəm Allaha, dur, dur !

Kişi əsasını zəhmlə yerə vurub Vahidin qucağına körpə kimi sığınan qarıya tərs-tərs elə baxdı ki, yazıq arvad, bir göz qırpımında onun qolları arasından sıyrılıb kişinin böyründə qısılaraq yumağa döndü.

– Ay sizə qurban olum, siz öz halınıza yanın. Bizim bir ayağımız burdadı, biri də gorda. Cavansız, yazıqsız, qaçın, canınızı qurtarın! Bax, bu evin tinindən dərəylə düşün. Gedin günçıxana sarı. Gedin! ...

İndi dünya görmüş kişi özünü, qarısını unudaraq bizim halımıza yanırdı, bizə yazığı gəlirdi. Kişi nə işarə elədisə, üzündən nur tökülən qadın bayaqdan nəzərimizdən yayınmayan, tanış qoxu gələn boxçanı hasarın üstündən götürüb Vahidə uzatdı.

– Götür oğul, – dedi. – Sizin qismətiniz imiş. Dünən özüm bişirmişəm, çörəkdi, təndir çörəyi.

Nə qədər etiraz etdiyimizə baxmayaraq çörək boxçasını götürməyimizi təkid edib dedi:

– Bəlkə də bu ömrümə yazılası ən böyük savabdı, ay oğul! Halal xoşunuz...

Ağsaqqal da suyu qurumuş gözlərini bizə dikib gülümsündü. Mənə elə gəldi ki, o kövrəlmişdi, yamanca kövrəlmişdi. Çünki, səsində bayaqdan hiss etmədiyimiz həlimlik vardı.

-Bizdən narahat olmayın, – dedi. – Oğlum da mütləq gələcək! Deyibsə, deməli gələcək...

Əlacımız qalmamışdı. Hər saniyənin, dəqiqənin bir hökmü vardı. Burda qalmaq olmazdı. Necə olursa olsun kəndi tərk etməliydik. Öz dediyinə inanmasa da, inadından dönməyən qocanı qarısıyla orada qoyub gündoğana sarı getdik. Qocalardan nigaran qala-qala.

Bu tərk edilmiş kəndin atılmış itləri qarşıdan gələn fəlakəti hiss etsələr belə, arxamızca baxa-baxa, nə vaxtsa dönəcək sahiblərini gözləyirmiş kimi qocaların ayağına qısıldılar. Bütün varlığıyla torpağına bağlı olan qocanın məğrur duruşu, arxamızca baxıb, sanki baxışlarıyla səssiz-sədasız vida etməsi, mənə hansısa filmdəki batmaqda olan gəminin qürurlu kapitanını xatırlatdı...

Dərədən axan sısqa bulaqda yuyunub qovurğanın yanğısını öldürmək üçün doyunca sudan içdik. Boxçanı açanda çörəyin

ətri bütün dərəni bürüdü. Hərəmiz bir qismət kəsib yavanlıq etdik.

Yaz Günəşı nə illah edirdisə bədənimizi qızdıra bilmirdi...

Narahat meşə yolu bitmək bilmirdi. Biz təngənəfəs olmuşduqsa da, bir an belə dayanmır, qocanın göstərdiyi istiqamətdə addımlayırdıq. Bir saatdan sonra meşənin seyrək yerindəki talaya çatmışdıq ki, yeri-göyü lərzəyə gətirən "Qrad"ın uğultusuna dönüb geriyə baxdıq: qocalara və sahibsiz itlərə əmanət qalmış kənd alov içində yanırdı...

Bu anda mənim ağlıma da gəlməzdi ki, az vaxt keçəcək, neçə-neçə kəndlər, şəhərlər yanıb kül olacaq, minlərlə insan döğma ocağından didərgin düşəcək, uyuşmadıqları, ilk günlər, "bəlkə bu da müvəqqəti çətinlikdi" deyərək sığınacaq tapdıqları yurd-yuvada beş-on günlük qalacaqlarına əmin olduqlarından iynə üstündə oturarmuş kimi hələ uzun illər narahat sürgün həyatına öyrəşə-öyrəşə vərdişkar olacaq, beləcə bu faciənin məchul sonucunu gözləməkdə gözlərinə qara su gələcəkdi. Və bunu hələ heç kim bilmirdi...

## Nə heyfislənir, nə də qürurlanırdım...

Hərbi hospitaldan çıxanda hara gedəcəyimi götür-qoy etdikcə neçə vaxtdı məni bərk narahat edən olay yenidən beynimdə dolanmağa başladı. Axı nəyə görə döyüşən dəstənin birdən-birə qeyb olduğu heç kimi narahat etməmişdi?! Qərargahdan verilən əmrə görə üç tərəfdən düşmən nəzarətində olan, kömək gələcəyini əmin edib, tükənmiş silsh-sürsatla adsız yüksəkliyi tutmaqda məqsəd nə idi? Kimisə aradan götürmək üçün bir dəstəni güdaza vermək kimə lazım idi axı, kimə?!...

Qəlbimi didib parçalayan suallar cavabsız qaldıqca, nizamsız orduya, qaragüruhçuluğa, hay-küylü, kor-koranə həmlələr edən səriştəsiz komandanlığa da nifrət edirdim. Siyasətdən uzaq da olsam dərk edirdim ki, müharibələrdə əl-ayaq açmış

siyasi fahişələr döyüşçünü qələbədən çox məğlubiyyətə aparar. Tək müharibə zamanımı?

Yenə də, lap ölməmişdimsə də, məqsədli gəlişimdən nə heyfislənir, nə də qürur duyurdum. Buna haqqım olmasa da ilk dəfəydi illərlə, əsrlərlə başımıza gətirilən faciələrdən dərs almadığımıza, bir əqidə, bir amal uğrunda birgə mübarizə aparmadığımıza, "kor-kor, gör-gör" olan düşmənlərimizi yaxşı tanımadığımıza görə millətimi qınadım və ilk dəfə döyüşdə həlak olan yoldaşlarıma həsəd apardım.

Bəlkə də mənim gördüklərim müharibənin bir üzüydü? Ayın görünməyən üzü kimi o da sifətini gizlətmişdi. Hamıdanmı gizlətmişdi?!...

## Kəndimizə gedən yol qəbirstanlıqdan keçir.

Bu kəndə kim gəlsə birinci ölülərlə görüşər, bu dünyanın nə qədər fani olduğunu dərk edər, sonra dirilərə baş çəkər. Qayıdan başı da eləcə. Bəlkə də dədə-babalarımız bilərəkdən belə etmişlər ki, dünyadan köçənlər unudulmasın, həmişə göz qabağında olsun. Gələnə "xoşgəldin", gedənə "uğur" diləsin gündoğana baxan qəbir daşları. Bu da bir hikmətdi bəlkə. Niyə görə əvvəllər bunu dərk eləmirdim?

Son dəfə səni nə vaxt görmüşəm, ana?! Bu yollara baxmaqdan, unutqan oğlunu gözləməkdən yorulmadınmı? Yorğunsan, görürəm, gözlərindəki su da quruyub. Bilsən, bilsən sənin bircə kəlmə sözünə, ılıq nəfəsinə necə möhtacam?!.

Ana, bilirsən, sən arzularını da özünlə apardın. Sənə söz verdiyim kimi ali təhsilimi başa vura bilmədim. Sənə yaxşı oğul ola bilmədim. Aliyə də mənimlə deyil. Atdı məni Aliyə, ana, atdı, Sərdarın əmisi oğluna qoşulub qaçdı. Məni o havayıyeyən vələdüznaya dəyişdi. Sevgi dediklərin xülya imiş. Dediyin eşq-məhəbbət elə sevdiyin Füzulinin qəzəllərindəymiş. Bəlkə Füzuli özü də eşqin nə olduğunu yaxşı dərk etməyib, ana. Heç vətən sevgisini də! Ata yurdumuz boş qalıb. İndi

orda, Allah bilir, bəlkə də göyərçinlər yurd-yuva salıb, ya da uçub dağılıb. Ayaqlarım getmir ora. Bu qəbristanlıqdan o yana nə varsa mənə yaddı, özgədi. Bütün xatirələrimi sizinlə dəfn etdim, ana! Ölümlərdən keçdim, qərib ellərə düşdüm. Bax, səninlə, nənəmlə vidalaşıb yenə gedirəm. Bu dəfə həmişəlik gedirəm. Yaman üzdü məni buralar, daha çəkmir özünə. Çəkəcək bir şey qalmayıb buralarda.

Nənəmlə darıxmazsan yəqin. Aranızda atam yerləşən qədər boş yer var. Bunu kəndin çoxbilənləri eləyib, bilirəm. Bəlkə də mənimçin saxlayıblarmış. Atama quruca torpaq da qismət olmadı, heç olmasa mənə yer eləyiblər. Bilirsən, ikicə ay əvvəl mən də öləcəkdim. Ələ gələn bir yerim qalsaydı gətirib aranıza döşəyəcəkdilər yəqin ki. Ölsəydim, doyunca görərdiz, bir daha ayrılmazdıq. Ana, istəməzdin məni görmək?! Axı, həmişə yanında olmağımı arzulayardın?! Yox, sən bircə şey arzulayardın, tək bircə şey, yadındadır?..

## Anamın ölməyini istəmədiyimdən evlənmirdim...

... Ata yurdunda ikimiz qalmışdıq, ikimiz.

Nənəm atamın – əziz-xələf oğlunun xiffətin çəkə-çəkə ömrünü bizə bağışlayanda on dörd yaş yarımlıq idim. İlin quyruq donan vaxtında kənd elliynən arvadı torpağa tapşırdı...

Evin başı papaqlısı məniydim. Anam dərs deyir, mən isə məktəbdən evə gələndən sonra dərslərimi hazırlayır, axşamacan evin irili-xırdalı hər işini görürdüm: üzüm bağları budananda quru yoğun budaqlarından şələləyib həyətə gətirir, doğrayıb samanlığa yığır, iki cüt qoyunun, on-on beş toyuqcücənin yemini, otunu alafını tədarük edir, maşın sürməyi yaxşı bildiyimdən həftədə bir dəfə qonşumuz “bığ Mürşüd”ün saqqızını oğurlayıb “Jiquli”siylə rayon mərkəzinə bazarlığa gedirdim. Ta o vaxtacan ki, vaxt yetişdi, orta məktəbi bitirib Bakıya getdim, imtahan verib idman məktəbinə qəbul oldum.

Anamın necə sevindiyini görəndə həm qürrələndim, bir tərəfdən də məyus oldum ki, arvad bu boyda mülkdə tək-tənha qalacaq ...

İndiki kimi yadımdadır məni yola salmağı. Çamadanımı rahlayıb qapının ağzına qoyanda məni bərk-bərk qucaqlayıb gözlərimdən, alnımdan, yanaqlarımdan öpüb dedi:

– Qurbanın olum, Rüfət, məni başıaşağı eləmə el içində. Şəhər insanları tez dəyişdirir. Burda görmədiklərini görəcəksən şəhərdə, bilmədiklərini biləcəksən... Çalış, mənliyini itirməyəsən, məqsədinin dalınca gedib ona çatasan. Çaşsan, yolunu azsan şəhər bataqlıq kimi səni içinə elə çəkər ki, məhv olarsan! Qurbanın olum, məndən də narahat getmə. Aliyə yanımdadı, qoymaz darıxmağa. Sən də tez-tez gəl, qadan ürəyimə! Ata yurdunu boş qoyma.

Sonra da Aliyəni çağirmışdı bizə ki, əməlli başlı görüşüb ayrılaq. Onda anamın xəbəri yoxuydu ki, gecəni səhərəcən Aliyəylə evin dalındakı iydə ağacının altında o ki var söhbət etmişik.

Arxamca atdığı su cadar-cadar olmuş torpağa səpələnib "cızz" eləyəndə Bığ Mürşüdun "Jiquli"si də tozanaq qaldırıb kənddən çıxdı Bakıya sarı...

Aliyə atamın dayısı Kərəmin qız nəvəsiydi. Mən də, Aliyə də evin yeganə övladlarıydiq. İkimiz də aramızda üç ay fərqlə eyni ildə dünyaya gəldiyimizdən bizi göbəkkəsdi etmişdilər, yəni ki, adaxlı. Biz anadan olandan bir növ "ər-arvad" möhürünü daşıyırdıq üstümüzdə. Bu köhnə adət bütün kənd camaatına sirayət etsə də, qonşu uşaqları, lap ağlı kəsənlər də, bizim bir yerdə oynamağımıza, danışıb-gülməyimizə bənd idilər, bizi lağa qoyur, "adaxlılara baxın, necə baş-başa veriblər?" deyib, utandırardılar. Amma böyüdükcə, qulaqlarımız bu kinayə və rişğəndlərə öyrəşdikcə daha pərt olmur, bunları bir zarafat kimi qəbul edir, bəzən lap xoşhallanırdıq da. "Qoy nə deyirlər desinlər!" Bütün kəndin dilindəydik. Anası da həmişə onun qarasına deyinib deyərdi ki, bu qız evə-eşiyə yığışmır, havaxt

axtarsan, Rüfətin burnunun ucundadı. Yazıq uşağa da göz verir, işıq vermir haa.

Aliyə, sözün əsl mənasında gözlərimin qarşısındaca böyü-yürdü. Özüm necə boy atdığımdan, onu vurub keçdiyimdən xəbərim yoxmuş kimi Aliyənin günü-gündən arpa dəni boyda artmasına, sinəsinin necə böyüməsinə, baldırlarının ətə-qana dolmasına heyrət edirdim. Elə də olurdu ki, qızı ilk dəfə görürəmmiş kimi aşağıdan yuxarı süzüb ağzımın suyunu güclə yığışdırırdım. Qız da bunu hiss etdiyindən məni görəndə ya-naqları qıpqırmızı qızarar, haldan-hala düşərdi. Ürəyimdən keçənləri gözlərimdə oxuyardı. Məncə o da balaca adaxlısının sürətli kişiləşmə prosesinə təəccüblənir, daha beş-on yaşımızda olduğu kimi mənə yaxın durmur, bir növ ehtiyatlanırdı.

Yazda göy qutabıyçin əkin sahəsindən quşəppəyi, əməkö-məci, turşəng, cincilim, payızda da süpürgə yığmağa gedəndə uşaqlardan aralanıb “Şeytan “dərəsi boyunca üzüaşağı, qol-boyun olub dığırlananda da, onu öpmək ağlımın ucundan belə keçməzdi. Keçməzdi deyəndə, lap yaxşıca keçərdi, ürəyim də istəyirdi, amma ona toxunanda bədənim gizildəsəydi də özümü saxlayardım, dözərdim.

Bunlar uşaqlıqda olub, uşaqlıqda. Onda, əməlli-başlı öpüş-məyi də kinolarda görmüşdüm. Marqo mənim dodaqlarımı ətli dodaqlarının arasına alandan sonra bu hissin nə olduğunu anla-mışdım. Marqo sevişməyi öyrətmişdi mənə. Və mən bundan xoşlanırdım. Hər dəfə də onunla sevişəndə ürəyimdə fikirləşir-dim ki, kəndə gedən kimi doyunca Aliyənin dodaqlarından öpəcəm, mütləq öpəcəm!

Qalan şeyləri bircə gün üçün saxlayırdım – o gün üçün ki, dədə-baba qaydasıyla toy çaldırıb onu evimizə gətirəcəkdim, heç kəsdən ehtiyat etmədən halallıca arvadımı sığallamaq, öp-mək, qoynuna girib yatmaq mənə ömürlük səadət gətirəcəkdi. Toy gecəsinə kimi zina etmək haramdı axı?!...

Belə düşünsəm də, böyüdükcə özümü saxlaya bilmirdim və Aliyəni ilk dəfə həyətimizdəki iydə ağacının altında öpmək

istədim. Məni sinəmdən itələdi ki, dəlisən, görüb-eləyən olar, biyabır olarıq.

– Burda nə var ki? – dedim. – Görsünlər də... Nişanlım deyilsən?

– Nişanlınam... amma ol-maz! – deyib qəhvəyi hörüyünün ucuyla burnuma, yanaqlarıma sığal çəkdi. Elə bil acıq verirdi ki, yan, yaxıl, partla.

– İstiyirəm axı?– təkidlə dedim – bircə dəfə, heç olmasa, bir dəfə. – Sağ əlimi boynunda gəzdirdim, sonra bir az aşağı sürüşdürüb nazik yay köynəyinin üstüylə barmaqlarımı məmələrinin giləsinə toxundurdum; gözləri qapandı, ürəyi sanki döşünün giləsində döyünməyə başladı. Bütün əzalarım gərginləşib qıc oldu. Onun dodaqları, yanaqları qızardı. Sol əlimlə belindən yapışıb özümə tərəf sıxıb dodaqlarını opməyə başladım. Bu bir neçə saniyə çəkdi. Bihal olmuş Aliyə sanki yuxudan ayıldı. Böyük cinayət işlətmişəmmiş kimi üzümə elə baxdı ki. O vaxt ağlımdan keçənləri həyata keçirsəydim indi özümü dünyanın ən gicbəsər adamı sayardımmı?

– Neynirsən, – dedi, – utanmaz !– durub evlərinə sarı qaçdı.

Sonralar hər məni görəndə üsulluca, gizlin-gizlin dilinin ucuyla dodaqlarını yalayanda bilirdim ki, öpüşməyimiz çox xoşuna gəlib Aliyənin.

Özümü-sözümü qanandan, evdə bir əgər-əskik olanda anam da, nənəm də nəyisə vaxtında, abırlı-başlı ərsəyə çatdırmayanda, ya da hansısa işin qulpunda yapışmağa təpərləri olmayanda eşitdiyim bu olardı:

– Bircə bu vələduzna tez böyüyüb kişi olaydı, arvad alaydı, canımız rahatlanaydı, – nənəm deyinərdi.

Bunu da anam deyərdi:

– Ay yeri, göyü yaradan! Təki birdənəmin toyun görüm, qapıma gəlin gətirim, day dərdim olmaz... O günü görsəm rahat ölləm, vallah, ruhum da inciməz !

Bilmirdim anamın özünə belə vaxtsız ölüm arzulamağı bezdiyi tənhalıqdan idi, yoxsa gəlin, nəvə həsrətindən. Axı hər

bir ana "bircə o günü görsəm" kəlməsini dilinə gətirir? Arzular sonradan şaxələnir, çoxalır? "Bircə nəvəmi qucağıma alım, bircə nəvə toyunda oynayım, bircə... bircə..." Görəsən mənim də anam bunları xəyal edirdi? Əminəm ki, hə. Axı nəvə baladan da şirindir?! Və mən də bu arzuların qanadında uçurdum, tezliklə onların arzularını gerçəyə çevirmək, evlənmək, oğul-uşaq sahibi olmaq istəyirdim. Üzlərinə "hələ çox cavanam" desəm də, o günü özüm onlardan da betər, səbirsizlklə gözləyirdim.

Mən anamın narahat ürəyindən keçənləri onun işıqlı, ümid dolu gözlərində axtarıb arayırdım, amma dilindən qopan ismarıcları, Tanrıya çatdıracağı, ondan umacağı bircə şeyi görürdüm-mənim toyumu görüb, əl-ayağını rahatca uzadıb ölmək. Axı niyə həmən gün? Belə də arzu olar bəyəm? Özü də bunu Allahdan elə sidqi-ürəklə, elə yanğıyla istəyirdi, mənə elə gəlirdi ki, o gün evləndim ha, Aliyəni də doqqazdan içəri saldım ha, Allah da o saat onun arzusunu yerinə yetirəcək! Bu da məni dəli eləyirdi.

Mən nə anamın ölməyini, nə də qapımızda çalınacaq yeganə toyun yasa dönməyini istəyirdim...

Mənə qulaq verən kim idi ki?!

İnstitutun üçüncü kursundaydım kənddən xəbər gəldi ki, bəs anam keçinib. İnanmağım gəlmirdi, dəli olmuşdum. Nə vaxt bilet aldım, ha vaxt rayona çatdım, bilmədim. Arvad xəstə deyildi, birdən-birə nə olmuşdu ona? "Axı bu necə olur? Bəs deyirdin toyumu görüb öləcəksən? Bəs Tanrıya yalvarıb umduğun nəydi? Niyə sənin səsinə hay verməyib, niyə?!... "

Bir neçə aydan sonra, bu vaxtsız əcəlin əsl səbəbini Arazla görüşəndə biləcəkdim...

Anamın solmuş çöhrəsində donub qalmış təbəssümü görəndə başa düşdüm ki, yazıq arvad son məqamda da karıxmayıb, qəzəblənmib, yəqin ki, dilucu: "Axı niyə belə elədin... Səndən bir şey diləmişdim axı, cəmi bir şey. Mən ki, hələ oğul toyu

görməmişdim?” deyib, amma Tanrıdan son təbəssümünü də əsirgəmib.

Məşədi Xudayarın yanıqlı avazıyla anamı nənəmin boyründəcə torpağa tapşırdıq. Yeddi gün, qırxına qədər isə hər cümə axşamı bizə yığışan ağsaqqallar mənə təskinlik verir, kənd arvadları da dünyadan nakam getmiş anamın paltarlarını ortalığa sərib mərsiyə deyir, həm anama, həm də ölüb itmiş əzizlərini ağlayırdılar.

Camaat el borcunu verib dağılışandan sonra mənə gümanlı ata yurdum, elə anam, nənəm yatan torpaq kimi lal və soyuq gəldi. Bu evi ev eləmək, ocağını tüstüsüz qoymamaq məndən asılı idi. Bir də Aliyədən. Gözlərim onu gəzir, ürəyim onu istəyirdi. Düşünürdüm ki, o qədər insanın arasında məni başa düşən, mənə ürəkdən yanan, təkcə Aliyədir. Ağrılarıma məlhəm qoyacaq, dərdimə şərik çıxacaq Aliyə. O isə elə hey gözümdən yayınır, məndən qaçırdı.

Anamın qəfil ölümü məni elə sarsıtmışdı ki, heç bir şeyin fərqində deyildim. Aliyənin mənə qarşı soyuqluğuna da əhəmiyyət vermirdim o vaxt. Fikirləşirdim ki, baxma, indi də uşaq deyil ki, ortalıqdan əl çəkməsin? El-obadan utanır, özünü ağır tutur. Anam, nənəm sağ olsaydı başqa məsələ. Görən nə deyər, deməz ki, gəlin gəlməmiş özünü ər evindəki kimi aparır?! Belə yaxşıdır...

Anamın qırxını verib Bakıya qayıtmamış Aliyəylə görüşmək istədim. Ürəyim doluydu. Son vaxtlar mənə qarşı olan soyuqluğun səbəbini bilmək istəyirdim. Qapılarına çatanda anası Bikə xalayla rastlaşdım. Aliyəni soruşanda, arvad əvvəlcə özünü itirdi, sonra ağzını kəlağayısının ucuyla yaşmaqlayıb, “rayondadı” dedi. Tez-tez əmisigilə getdiyindən xəbərdar idim. Soruşdum:

– Gec qayıdar? Xeyirdi inşallah?!

Bikə xala:

– Şərə lənət! – dedi. – Bir-iki günə dönər, sağlıq olsa... Vacib sözün vardı?

“Bu arvad mənlə heç danışmaq istəmir, sözü elə bil kəlbətinlə dartıb çıxardırsan. Noldu birdən-birə bu camaata? Anam öləndən beş-altı dəfə qapımıza gəlməyi bir yana dursun, doqqazının ağzında da üzümə baxmır, cavan qız kimi ağzını yaşmaqlayır?!”

Sözlü adama oxşuyurdu Bikə xala. Bunu anlamağa dərin ağıl gərək deyildi. Bəs niyə, bir günah sahibi kimi çəkinir məndən?!

– Nəsə olub? – Biixtiyar soruşdum.

Arvad bu sualdan qaçmaq istədisə də bacarmadı: – Yooxx, – dedi. Elə bil ağzından qaçıracağı, məndən ciddi-cəhdlə gizlətdiyi hansısa sözü dilinin altına qatladı. Sonra da nəhayət, ilk dəfə düz gözümə baxdı. – Nə olacaq ki?...

Mənə elə gəldi ki, o “ daha nə olacaq ki?!” demək istəyirdi. O anda nə biləydim ki, doğrudan da beləymiş, zənnim məni aldatmayıbmış.

Xüdahafizləşib evə döndüm. Pal-paltarımı idman çantasına yığıb dilxor halda avtovağzala tələsdim. Arxamca su atan, uğur diləyən kimsə yoxuydu. İlk dəfə həqiqətən anamın yoxluğunu hiss etdim.

Gör neçə illər keçib, amma indi də bir şeyə mat qalmışam: Allah anamın arzusunu ürəyində qoymağa tələsirmiş. Mən toyu yubatdıqca o da səbirsizləşirdi elə bil. Bəlkə də arvada yazığı gəldiyindən, sinəsinə vurulacaq dağın acısını çəkməsin, o müsibəti görməsin deyə tələsirdi Tanrı?! Elə ona görə də arzusunu ürəyində, gözlərini yolda qoymuşdu.

Allah arvada bircə il də möhlət versəydi bütün kənd onun ölümündə günahı Aliyənin üstünə atacaqdı...

***

... Hə, anacan, vaxtdı, mən gedirəm. Çox da narahat olma, ana, bu da mənim alın yazımdı – pozulmayan ilahi bir yazı. Bilirəm, sənin ruhun indi buralarda dolanır, mənim yanımdadı. Mümkünsə bağışla məni. Bağışla...

Nənəmlə anamın soyuq başdaşılarına sarılıb doyunca öpdüm.

Hava qaralırdı. Yola çıxıb maşınlara əl elədim. "QAZ-24"ün yaşlı sürücüsünə qulaq yoldaşı olub Bakıya sarı yola düşdüm...

***

...Qapını Əsmər xala açdı. Əvvəlcə karıxdı, tanıya bilmədi. Hardan tanısın. Məni bu gündə doğma anam da tanimazdı yəqin. Gülümsəyib: "Rüfətəm", dedim. Gözləri dolanda özümü saxlaya bilməyib onu qucaqladım ki, mənim də kövrəldiyimi görməsin.

– Keç içəri, – dedi, – başuva dönüm! Qayutdun demək... Sağ-salamatsan. Şükürlər olsun qurban olduğuma! Məryəm deyəndə inanmırdım...

– Hər şey elə gözlənilməz oldu ki. Getməmişdən qabaq sizi görəcəkdim. Alınmadı. Əjdərin salamını çatdıra bilmədim onda.

– Ay sənə qurban olum, Rüfət! Elədiyündən haliyəm. Allah köməyün olsun! Uşaq tez-tez zəng eləyir. Yaxşıdı Allaha şükür! Elə səni soruşur, səndən danışır. Danış görüm necəsən?

– Çox sağ olun, Əsmər xala! Siz sağ olun.

Əsmər xala qocalmışdı. Sifətindəki qırışlar çoxalmış, saçları ağappaq idi. İri gözlü eynək də taxmışdı. Təkcə, söhbət eləyə-eləyə süfrəyə çay, mürəbbə düzməyindən bilinirdi ki, əvvəlki diribaşlığı hələ canındadı. Buna çox sevindim.

İsti ev çayı özü də mürəbbə ilə! Sanki yüz il idi mürəbbəli çay içməmişdim. Əsmər xala iştahla necə çay içdiyimə baxıb uşaq kimi sevinirdi.

– Bəs uşaqları neyləmisən? – Zarafatla soruşdum.

– Qızları verdim getdi də... – Gulumsədi. Bir az ara verib dərindən ah çəkdi. Kövrəldi. – Sahil də ki...

– Nolub ki, Sahilə?

– Eşitməmiş olmazsan... İnvalid oldu yazıq balam...

Başımıla “hə” dedim. Eynəyini çıxarıb gözlərini ovcunda saxladığı dəsmalla sildi.

– Bəs indi hardadır?

– Dörd divar arasında qala bilmir, darıxır balam. Kastilnən də məhlə-küçəyə utanır çıxmaya. Sən də məni bağışla, bacısının yoldaşı arada maşınla gəlib aparır Mərdəkana. İndi ordadu...

– Allah rəhm eləsin! Mənim salamımı yetirərsən. Vaxt tapsam, gələcəm.

– Sağ ol, dərdün alım!

Bir stəkan da çay içib durdum. Əsmər xalanı bərk-bərk qucaqlayıb öpdüm.

Qapıdan çıxanda arxamca bir çarp su atdı. Lap anam kimi...

Döyüşə gedəndə pullarımı Məryəmə vermişdim. Üstümdə olsaydı birbaşa vağzala gedər, lap birinci qatara bilet alıb buradan uzaqlaşardım, elə gəldiyim kimi, heç kimdən xəbərsiz-ətərsiz.

Gəlməyimi bilmədiyindən evinə getmədim. Bir az şəhərdə veyilləndim, bərbərxanaya girb üzümü təraş etdirdim, ayaqüstü qəlyanaltı edib, sonra da avtobusla Məryəmin işlədiyi mağazaya yaxın dayanacaqda düşdüm. Hərbi paltarda olduğuma baxmayaraq sürücü məndən yol pulu istədi. Əsəblərimi cilovlaya bilməyib bir-iki kəlmə yağlı söz deyəcəyimi hiss edən sürücü, udquna-udquna nəsə deyib qapını göstərdi. Bu camaatın biganəliyi məni öldürürdü. Heç cürə başa düşə bilmirdim ki, səni, sənin arvadını, qızını, ev-eşiyini, hər saniyə ölümlə üz-üzə gələrək sənə çörək verən torpağını qoruyan əsgərin formasına bəzi adamlar niyə hörmətsizlik edirlər?! Guya beş-on qəpik-quruşu almasan planın dolmayacaq? Üstümdə pul olmadığından (məgər görmürdülər ki, pul qazanmaqdan yox, davadan gəlirəm?) nə məni rayondan Bakıya gətirən kişi, nə saçımı, üzümü qırxan bərbər məndən pul istəmədi. Daha doğrusu, heç pulun adını da çəkmədi. Amma, qəlyanaltı

etdiyim kafenin bufetçisi bir porsiya sosiska, yarım təndir çörəyi və çayı elə minnətlə mənə verdi ki, vallah hər tikə deşə-deşə keçdi boğazımdan. Düzdür, sonradan üzrxahlıq edib dedi ki, bağışla sən yaradan, neylim axı, mənim də iki oğlum döyüşür, indi durum car çəkim, koxaya xəbər edim ki, mən də varam? Hərə bir köhnə formanı keçirdib əyninə, gəlir kafeyə, yeyib-içir, pul verməməkləri cəhənnəm, hələ bir təhqir də eləyir, nə var-nə var cəbhədə olub, bəlkə də heç oralardan xəbəri yoxdu e?! Gəl indi ayırd elə görüm hansı döyüşçüdü, hansı aferist! Bezdiriblər...

Bilmədim o kişi düz danışırdı, yoxsa yox, ( Allahtərəfi, əsl döyuşçü ilə yalandan forma geyib fırıldaqçılıq edəni ayırd etmək o qədər də çətin bir iş deyildi məncə) amma hərc-mərclik olan, yenicə qurulmiş bir dövlətdə belə hallar tez-tez baş verirdi, hətta silahla mağazalara, bazarlara basqın edənlər də olurdu. Yaxşı başa düşürdüm ki, müharibə də getsə, xidmətə görə, insafən, haqq ödəməlisən. Kafedən çıxanda ağlıma gələn bu oldu ki, Məryəmgilə çatan kimi pul götürüb onun borcunu mütləq qaytaracam. Amma yaranmış boşluqlardan yaxşıca yararlananlar da az deyil; ədalətsizlik tüğyan edir, insaf yox olur, vicdan tapdanırsa, torpağını qorumaq əvəzinə cibini düşünüb müqəddəs olan hər şeyə tüpürülürsə, əgər kafe və restoranlar, şadlıq evləri, mağazalar, market və super marketlər şıdrığı alver edib canını şəhid etmiş döyüşçünün yarı-ac, yarı-tox övladına acı-qıcı verirsə, o da atasının mənasız ölümünə görə yanırsa – bu həmən millət üçün böyük fəlakətin başlanğıcıdır!...

Bəlkə bir az əsəbi, bir az narazı olduğumdan bu fikirlər məni çox narahat edirdi, bilmirəm. Beynimi yora-yora addımlayırdım ki, bir də gördüm mağazanın qarşısındayam.

Məryəm məni görəndə gözlərinə inanmadı.

– Allah, sənə çox şükür! – deyə üstümə atıldı. Mağazada olan üç-dörd alıcı, bir də o sarışın qız Məryəmin səsinə çevrilib baxanda özümü itirdim. Yavaşca dedim:

– Ay qız, ayıbdı, baxırlar...

– Olsun, – dedi,– heç vecimə deyil! Qayıtdın...

– Hə...

Məni təzə paltar geyinmiş uşaq kimi o yan-bu yana fırladı, başdan ayağa süzdü. Heyrətini gizlətmədən gah mənə, gah da rəfiqəsinə baxıb dedi:

– Forma səni tutur, vallah!

– Hə. – Təsdiqləyib təəssüflə əlavə etdim.– Kaş ki vaxtında bu paltarı hamı geysəydi...

Nə demək istədiyimi başa düşmədi, bəlkə də özünü eşitməməzliyə vurdu. Onsuz da bir şey almayan alıcıları tələm-tələsik yola salıb dedi ki, bağlayırıq.

– Mən qayıdıram, – dedim.

Təəccübləndi. Guya, hara gedəcəyimi bilmirmiş kimi soruşdu:

– Hara?... Həə...

– Əvvəlcə sizə... Bircə bu formanı əynimdən çıxarım?! Sonra da Moskvaya getməliyəm, əgər bilet tapsam, lap günü bu gün...

“Sizə” deməyim ürəyincə olmadısa da, incikliyini biruzə vermədi.

– Bilet?... Problem deyil bilet, – deyib rəfiqəsinə baxdı. – Hə, Gülnar?...

Sarışın saçlı Gülnar xanım da başını tərpədib gülümsündü. Adını ilk dəfə eşitdiyimdən bir də salam verdim.

– Qatara yox, təyyarəyə təşkil edərəm. – Gülnar xanım dilləndi. – Düzdür, reysləri azaldıblar indi. Özün yaxşı bilirsən vəziyyəti... Amma düzələr. Sənədlərini ver, bir saata bilet əlindədir.

– Lap əla olar ki?! – dedim.

Məryəm gözlərini məndən çəkmirdi. Elə bil ürəyimin içindəkiləri oxumaq istəyirdi. Yəqin ki, döyüşdən qayıdandan sonra əhvalımın dəyişməyinə nəyin səbəb olduğunu arayıb-axtarır, amma soruşmağa cəsarət etmirdi. Aramızdakı gözə

görünməyən qalın divar hələ də dağılmamışdı. Bu divarın nə qədər qalın, möhkəm olduğunu hansımızınsa bir toxunuşundan bilmək olardı. Tək bir toxunuş ki, təməli nə qədər dözümlü olsa belə, uçub dağılacaq, yerlə yeksan olacaqdı. Və buna heç birimizin cəsarəti çatmırdı. Heç birimiz keçmişə qayıtmaq istəmirdik.

– Niyə belə tələsik?...

– Getmək lazımdır, Məryəm.

Gülnar xanım telefonla harasa zəng etdi. Bir neçə saniyədən sonra onun şirin səsi mağazaya yayıldı:

– Salam Nina can... Hə... Yaxşıyam, gülüm... Bir işim düşüb sənə. Hə, başqa nə istəyəcəm ki səndən? Moskvaya. Mümkünsə bu günə. Yox? Bəs? – Telefonun dəstəyini ovucuyla tutub mənə tərəf döndü, pıçıltıyla soruşdu. – Sabaha bir yer var, olar? Bu gün uçmurlar...– Mən “ hə” deyən kimi təzədən dəstəyi dodağına yaxınlaşdırdı: – Nina can, olar. Bron elə. Cox sağ ol, canım!. Ceyhun gəlib götürəcək.

Dəstəyi asdı. Sanki, bu günə biletin olmamasından o daha çox sevindi və gözlənilməz bir təklif etdi:

– Məryəm, bu dəqiqə mağazanı bağlayırıq, özümüz də gedirik Mərdəkana!...

Məryəm bu təklifdən çaş-baş qaldığından maraqla soruşdu:

-Mərdəkanda nə işimiz var, ay qız?

-Ay dəli, orda bir yer tanıyıram ki! Uff... Bomba! Bu günün dadını çıxardarıq...

Bu qadın məni getdikcə heyrətə gətirirdi. Açığı, onu ilk dəfə görəndə acıdil, həm də adama yovuşmaz olduğunu zənn etmişdim. Bir az çəkinmişdim də. Nə olmuşdu birdən-birə?

Xeyli keçəndən sonra başa düşdüm ki, rəfiqəsinin gizli sevgisindən agah imiş. Elə ona görə də mənim tələsik getməyimə, azca da olsa mane olduğuna sevinirdi. Heç olmasa bircə gecəni – vida gecəsini bizə bəxş etməyinə görə.

– Tez olun, yığışın, – deyib yenə harasa zəng etdi. Əvvəlcə zənginə cavab verən olmadı. Əsəbi-əsəbi bir də zəng etdi. Telefonun o başında səsi eşidəndə rəngi açıldı.

– Alo, – dedi, – Ceyhun, salam... Bekarsan? Bizi Mərdəkana apara bilərsənmi? Hə, hə, işdəyəm, gəl...

Qəfil çıxan qonaqlıq söhbəti məni elə çaşdırdı ki, az qala yuyunub üst-başımı dəyişdirməyi unutmuşdum. Mənim sağ-salamat qayıtmağımı qeyd eləmək istəyən xanımların sözünü yerə sala bilməsəm də hərbi formada ziyafətə getmək istəmirdim.

Dedim:

– İki gözəl xanımın əhatəsində, özü də bu kökdə? Heç olmasa, yüngülcə ...

Məryəm nə demək istədiyimi bilib sözümü kəsdi.

– Sən, – dedi, – belə də gözəl və cazibəlisən!

Gülümsəyib nəvazişlə qoluma girdi. Daha rəfiqəsinin yanında özünü sıxmırdı, daha cəsarətli olmuşdu. İndi o, Məryəmdən çox Marqoya bənzəyirdi, əvvəlki Marqoya.

Gülnar da pafosla əlavə etdi:

– Məgər günahdı? Qoy bizim də yanımızda əsl kişi olduğunu görsünlər! Supersən, vallah!

İki qadınla söz güləşdirmək mənimçin çətin oldu və tez də təslim oldum.

Ceyhun Cülnarın əmisi oğluymuş. Xanımlar geyimimi müzakirə edib məni təzəcə razı salmışdılar ki, o da gəlib çıxdı. Gülərüz, söhbətcil oğlana oxşayırdı. Maşını saxlayan kimi bizə əl eləyib salamlaşdı. Cülnar mağazanı bağlayan kimi düz mağazanın qarşısında saxladığı "NİVA"ya doluşub yola düşdük.

Zənnimdə yanılmamışdım. Ceyhun maşın sürə-sürə, gah xanımlara kompliment deyir, gah siyasətdən danışır, gah da cəbhədəki vəziyyətlə maraqlanırdı. Ara-sıra ona cavab versəm də demək olardı ki, suallarına özü də cavab verirdi. Hiss olunurdu ki, ya olanlardan halıydı, ya da yaşının az olmasına

baxmayaraq müharibədə iştirak edib. Yolumuz onsuz da uzun olduğundan, aeroportdan o yana bərbad yollara belə fikir vermədən, maraqlı söhbətlərlə yorucu yolçuluğu başa vurmağa az qalmışdıq. Bu qədər məlumatlı olmasının səbəbini soruşanda onun yerinə Gülnar cavab verdi:

– Daşaltıda olub Ceyhun...

Onun bu barədə danışmadığından başa düşdüm ki, hansısa acı xatirələr ürəyini sıxır. Bayaqdan dilotu yemiş Ceyhun susurdu.

Gülnar söhbətinə davam etdi:

– Ölüm xəbəri gələndə əmim infarkdan keçinmişdi. Təsəvvür edirsən, biz Gəncədə, Bakıda bütün balnısaları, "morq"ları gəzib Ceyhunun meyidini axtarırdıq. Hələ ümidimiz üzülməmişdi, çünki hərbi qospitalın gözətçisinin dediyindən bir " KamAz" meyid gətiriblərmiş, "morq"da yer olmadığından xəstəxanalara paylayıblar. Dəhşət idi, döyüşdə həlak olanları yük maşınına qalaqlayıblarmış! Əmimin də, onun da "üçü"nu verəndən sonra Ceyhunu şəhər xəstəxanasının dəhlizində tapdıq, yaralı... Ölənlər siyahısında olduğundan həkimlər də fikir verməyib. Dəhlizi yuyub-yığışdıran xadimə meyitlərin içində onun zarımağını eşidib, növbətçi həkimə xəbər verəndən sonra ağrıkəsici iynələri döşəyiblər canına ki, cərrah gələnə kimi dözsün, ölməsin ...

Mən dedim:

– Deməli, sən ikinci həyatını yaşayırsan?!

– Hə, – dedi Ceyhun. – İkinci dəfə öləndə, üçümü vermək lazım olmayacaq!

Hamımız gülüşdük.

Maşının salonundakı güzgüyə gözüm sataşdı; Məryəm həsrətli baxışları üzümdə gəzirdi.

Gulnarın "bomba" dediyi yeri Ceyhun yaxşı tanıyırmış. Dənizin sahilində, ləpədöyəndə, qayalıqlar arasındakı xudmani bir kafenin qarşısında maşını saxladı və düşdük. Külək əsməsə

də dənizdən gələn sərin havanı doyunca ciyərimə çəkdim. Hardan biləydim ki, bu Xəzərlə mənim son görüşümdü.

Kafe qənbər daşından tikilmişdi. İlk baxışdan lap qədim qalanı xatırladırdı. Daş döşəmələrin ətrafında qızılgül kolları, zanbaqlar, al-əlvan güllər əkilmişdi. Biz maşından düşən kimi, Gülnar xanımla Ceyhunu tanıyan kafenin sahibi bizə yaxınlaşıb görüşdü, bəlkə hərbiçi olduğumu görüb bir balaca özünü "yığışdırdı", məcburən gülümsəyib içəri dəvət etdi. Əlini havada yelləyib barın qarşısında dayanmış ofisiantı çağırdı.

Çox səliqəli və zövqlə tərtib edilmiş interyer adamın ürəyini açır. Divar boyu Səttar Bəhlulzadənin çəkdiyi gözəl mənzərələrindən reproduksiyalar asılmışdı. Qiymətli ağaclardan düzəldilmiş masalar, oturacaqlar da zala isti bir rahatlıq gətirərək ümumi mənzərənin qədimiliyini tamamlayırdı. Həzin, tanış musiqi də zövq oxşayırdı.

Üç-dörd masa artıq tutulmuşdu. Ofisiant oğlan bizi balaca, şəbəkəli pəncərənin qarşısındakı masaya dəvət etdi. Biz əyləşən kimi Ceyhun ərklə ofisianta dedi:

– Rizvançik, özün bilirsən də. Həmişəki kimi, gətir, nəyin var...

Ofisiant əvvəlcə duruxdu, sonra da mənə işarə edib ehtiyatla soruşdu ki, içki də olacaq? Mən içmədiyimi bildirdim. Xanımlar təəccüblə bir-birinə baxıb nədənsə qımışdılar. Gülnar xanım sifarişin dalınca mətbəxə tərəf yollanan ofisiantın arxasınca boylanıb :

– Bax aa, – dedi, – əziz qonağımızı sabah Moskvaya yola salırıq. Elə elə ki, bizdən narazı getməsin.

Oğlan, "baş üstə" deyərək gözdən itdi. Xanımlar yenə də qımışdılar. Beş-on dəqiqə keçməmiş cürəbəcürə soyuq qəlyanaltılar, təndir çörəyi, şirələr süfrəyə düzüldü. Çoxdan idi belə ləziz yeməklərin ətri burnuma dəymirdi. Oğlanın cəldliyinə mat qalmışdım; bir göz qırpımında masanın üstünə təamlarlı düzür, qəlyanaltılardan nimçələrə çəkir, badələrə şirə süzə-süzə altdan-altdan onu izlədiyimi görüb gözlərini oynadırdı ki, yəni,

necədi? Başımla razılığımı bildirib nimçəmə çəkdiyi salatdan yeməyə başladım. Mən yedikcə elə hiss edirdim ki, hamının gözü məndədir. Gözaltı masanı nəzərdən keçirir, zənnimdə yanıldığıma əmin olandan sonra rahatlanırdım.

Ceyhun məclisin "gülü" idi. Söhbət edir, bizi darıxmağa qoymurdu. Əslində, gözəl qadınların əhatəsində, eləcə də güləruz işçiləri olan bu rahat kafedə darıxıram demək insafsızlıq olardı. Yenə də, Ceyhunun duzlu-məzəli lətifələrinin öz yeri vardı. O elə zarafatlar edirdi ki, sanki, yüz ilin tanışlarıydıq.

Məryəm şirə süzülmüş badəni sağlıq deyirmiş kimi qaldırdı. Üzümə baxıb titrək səslə dedi:

– Rüfət, sənə yaxşı yol! Harda olursan ol, amma, çalış xoşbaxt olasan. Sən buna layiqsən!

Bu sevdiyi insanı həmişəlik itirdiyinə əmin olan bir qadının səmimi arzusuydu. Qəhər boğdusa da, ancaq , şirəni içərkən dodaqlarının titrədiyini gördüm. Təkcə mənmi gördüm?

– Təşəkkür edirəm, – deyib Ceyhuna, Gülnara baxdım. – Sizə də minnətdaram. Məni tək qoymadınız. Heç vaxt bu günü unutmaram!

Çöhrəsindən gülüş əskik olmayan ofisiant oğlan isti qutab gətirib ortaya qoydu və soruşdu ki, kabablları nə vaxt qoydurum manqala?

– Tələsmə, – dedi Gülnar xanım. – Bizi qovursan, Rizvançik? Hələ burdayıq.

Oğlan başını tərpəib qəfil gəldiyi kimi də gözdən itdi.

Ceyhun:

– Buranın qutabına söz ola bilməz! – deyib, hərənin nimçəsinə iki qutab çəkdi.

O düz deyirdi...

Pəh-pəhlə qutabın son tikəsini udmuşdum ki, kafenin sağ küncündəki masanın arxasında oturub yeyib-içənlərdən kimsə ucadan, haqq-hesab vemək üçün onlara qulluq edən qızı çağırdı. Ümumiyyətlə ora-bura baxmaq xasiyyətimə zidd olduğundan, bayaqdan heç fikir vermədiyim hay-küylü masa

arxasından gələn səs qulağımda cingildədi. Qeyr ixtiyari səsə döndüm. Arxası bizə tərəf olduğundan üzünü görməsəm də bu səs mənə o qədər tanış gəldi ki. Kimin səsi idi? Qulaqlarıma mismarlanmış o səsi bir də, bir də eşitdim. Səbrim tükənir, səsin sahibini görmək istəyi məni hövsələdən çıxarırdı. Görəsən o idimi?

Nəhayət, bəstəboy ofisiant qızla hesablaşıb durdular. Bir orta yaşlı kişi, iki qadın və məndən bir az yaşlı olan, xeyli kök, bir az da qarın sallamış üzünü görmək istədiyim səs sahibi masadan aralandılar. Çıxışa yaxınlaşanda onun qızarmış, ətli sifətini görən kimi tanıdım.

Ceyhun yenə də lətifə danışır, xanımlar da diqqətlə qulaq asırdılar. Mən isə heç nə eşitmir, heç nə anlamırdım. Xəyalım başqa yerdə gəzirdi, çox-çox uzaqlarda...

## ... qaynar çay qasığına dağılanda gözünü qızdan çəkib qışqırdı.

... Biz üç dost idik: mən, Sərdar və Araz.

Nədənsə, sinif yoldaşlarımla, başqa həmyaşıdlarımla bir yerdə olanda darıxırdım. Yaşıma görə onlardan çox fərqlənirdim; boyum hamını ötüb keçmiş, yeddinci sinifdən tük basmış üzümü Şaiq müəllimin təkidiylə, yekə kişilər kimi qırxmağa başlamışdım. Buna görə utanırdım da. Yaşıdlarımın yanında yaşlı kimi göründüyümdən böyüklərin yanında özümü daha rahat hiss edirdim. Sərdar bir yaş, Araz isə üç il böyük olsalar da, mənim həmişə yanlarında olmağımı istəyirdilər. Güvənirdilər mənə.

Araz kolxoz sədri Qəşəm kişinin, Sərdar isə “uçotçik” Mirbalanın oğluydu. Gözləri badam ləpəsinə bənzədiyindən hamı “özbək” deyə çağırırdı Sərdarı. İmkanları bizimkindən qat-qat çox olduğundan nə üst-başlarına, nə də qarınlarına korluq vermirdilər. Ona görə də, nənəm demişkən, ikisi də “löpüş-

toppuş" idi, yəni, bərkdə vuran əlləri yox idi. Atalarına görə onlara "gözün üstə qaşın var" deməyə kim cürət edərdi?! Buna baxmayaraq, boylu-buxunlu, möhkəm bədənli, qol gücünə beşinə cavab verən dostun olmasının ziyandan çox xeyri olacağını fikirləşib məni yanlarından uzağa buraxmırdılar. Sərdarın əmisi oğlu Rasim yay tətillərində kəndə gələndə, hamımızdan böyük olsa da bizimlə fırlanardı. Rasimin atası, yəni Sərdarın kiçik əmisi Gülbala müəllim rayon maliyyə şöbəsinin müdiriydi. Elə ona görə də, kolxoz sədrimiz Qəşəm kişinin nəvazişlə çağırdığı "Rasim bala" əmisigilin ikimərtəbəli topdağıtmaz evində yox, Arazgildə qalardı. Axı Qəşəm kişi dura-dura rayon maliyə şöbəsi müdirinin oğlu əmisi də olsa, "uçotçikin" evində niyə qonaq olmalıydı? El-oba qınamazdı sədri? İnsafən, heç "uçotçik" Mirbala da bundan inciməzdi; kişilərin bir-birindən işi keçir axı.

Rasim kəndə ongünlüyə də gələndə özüylə o qədər pal-paltar gətirərdi ki, sanki, bir illik səyahətə çıxıb. Kənd uşaqlarının cəmi bir-iki dəyişiyi olduğundan, bəzən bir gündə iki dəfə üst-başını dəyişən, "dədəm bunu Moskvadan alıb, bunu "Vneştorqdan" götürüb, nə bilim, bu İtalyanskidi, bu Amerikanskidi..." deyib, səhədən axşamacan günün altında pambıq tarlasında analarına kömək eləyən, üst-başı it kökündə olan həmyaşıdlarına yuxarıdan aşağı baxaraq lovğalanan Rasimə onlar həsədlə baxardılar. Çoxları paxıllıq da edərdi. Niyə də etməsinlər axı...

Əvvəllər mənimlə o qədər də araları olmazdı bu vələdüznaların: bir halda ki, mənəm-mənəm deyənlərin uşqlarından həm geyimə, həm imkana, həm də səviyyəyə (səviyyəyə ha) görə fərqlənirdim – burda nə vardı ki?! Kolxoz sədrinin, "uşotçikin", özü də rayon maliyə şöbəsnin qardaşı oğluyla oturub-durmağın nə olduğun kim də bilməsə sən yaxşı bilməlisən. Nə isə, bu barədə danışmağa belə dəyməzdi, əgər... Qonşu kənddəki futbol yarışı olmasaydı. Bax, hər şey ondan sonra dəyişdi.

***

Bizim tərəflərin təkcə yazı gözəl olur. Çünki yayı cəhənnəm istisində bişirik, payızda başımıza gün döyə-döyə pambıq tarlasında qul kimi işləyir, qışı da ki, lilin-lıqqanın içində. Bax, alça gülləyən yazın gözəl bir günüydü.

Bizdən on üç kilometrlikdə yerləşən "Qızıl bayraq" kolxozunda futbol yarışı keçirirdik. Kəndimizin komandasında onilliyi qurtaran da var idi, aşağı sinif uşaqları da. Tərs kimi, həmən il uşaqların çoxu əsgərliyə getdiyindən oyunçumuz çatmırdı, top dalıyca on-on beş dəqiqədən artıq qaçan kimi tövşüyən, ətli bədənini tər basan Arazı müdafiədə oynadırdıq. Boyum hündür olduğundan qapıçı mən idim, Sərdar isə hücumda oynayırdı.

Rasim də bizimlə getmişdi, amma tamaşaçı kimi. Bəlkə də oynayardı, bilmirəm, amma forması yox idi, həm də təzə paltarını bulamaq istəmirdi. Xarici firmaların istehsalı olan idman formalarını yaşıdlarına acıq vermək üçün geyinib hər gün millətin arasına çıxan Rasim elə bil bilərəkdən bu gün kostyum geyinib çıxmışdı ortalığa.

Qonşu kəndin uşaqları əla oynayırdı. Bizimkilər bir-birini başa düşmür, top ötürməkdə gecikirdilər. Demək olar ki, bütün oyun bizim qapının ağzında keçirdi. Rəqib qapıya cəmi iki-üç dəfə hücuma keçdilər, vəssalam!

Bütün məsuliyyət mənim üstümdə idi. Uşaqlar məni çətin vəziyyətə salmışdı. Müdafiə zəif olduğundan, nə qədər çalışdımsa da dörd top buraxdım.

Oyun qurtardı. "Qızıl bayraq"ın uşaqları qələbənin dadını çıxardır, bizi əsəbiləşdirir, bilərəkdən qıcıqlandırırdılar:

– Oyunçulara bir bax!.

– Yarısı əggərri toğludu, yarısı da ki, quyruqlu şişək. Ha-ha !... "

– Nənəm süzdən yaxşı oynuyur.

Torpaq güclü olar, deyiblər. Qorxmasaq da bizim cınqırımız çıxmırdı. Kəndimizin uşaqlarına bələd idim; futbolda zəif olsalar da, bir-ikisini çıxsaq, qol döyüşündə qabağımıza çıxan ya bir olardı, ya iki. Dava salmağın yeri deyildi deyə baş qoşmadıq. Xəcalət çəkə-çəkə stadionun kənarındakı bulaqda yuyunduq, paltarlarımızı dəyişib yola düşmək istəyirdik ki, kimsə arxadan eyhamla dedi:

-Kolxozun quzusun, qaymağın yeyib piylənmək deyil ee, futbol oynamaq!...

Heç özüm də bilmədim niyə hamı Araza baxdı – kinayəli söz yaman tutmuşdu onu. Hələ də özünə gəlməyən Araz bir dəstə uşağın bizə sarı yaxınlaşdığını gördükcə sarısını yddu. Onların arasında sözün sahibini axtarırmış kimi gözlərini oynatdı. Sərdar onu sakitləşdirdi: ”Baş qoşma” dedi, guya ki, Araz bu saat kimisə vurub yıxacaqdı.

Yaşda hamımızdan böyük olan Qasım irəli çıxıb təmkinlə dedi:

– Uşaqlar, qurtarın getsin, biri udar, biri uduzar... Oyundu da. Halal xoşunuz!...

Yox, canım, onlar açıq-aşkar “qan-qan” deyirdilər. Adı “Qızıl bayraq” olsa da qırmızı bayrağa həsrət, pambıq planını həmişə kəsirlə yerinə yetirən bu kolxozun bizə qısqanclığı açıq-aşkar hiss olunurdu. Biz tanımasaq da, yəqin, onların arasında kolxoz sədrinin, ya da partkomun uşağı, yaxın qohumu var idi və qonaq olmağımıza baxmayaraq, söz yox, onlar bizim gözümüzün odunu almaq istəyirdi. Udmaqları bir yana qalsın, istəyirdilər dava salıb bizi döysünlər. Yox, buna imkan vermək oğraşlıq olardı. ”Ay siz öləsiz!“

Namiq, Qasım, Teymuraz ürəyimi oxudular. Bir göz qırpımında elə vur-çatlasın düşdü ki, gəl görəsən. Aləm qarışdı, tozanaq qopdu. Əlimizə yaxşı bəhanə düşmüşdü. Özləri başladığı intriqaya biz nöqtə qoymalıydıq, uduzduğumuzun hayıfını qol gücünə çıxmalıydıq. Kənardan baxan olsaydı, yəqin anlamazdı ki, küllükdə eşənək atan toyuqlar kimi göyə qalxmış

toz-torpağın içində kim-kimi söyür, kim-kimi təpikləyir, yumruqlayır. Əvvəldən qaraladığım üç yekəpər oğlanı göz açmağa qoymadım, lap kinolardakı kimi, əzişdirib xəşıl kimi bir-birinə qarışdırdım. Ən dözümlüsü bağıra-bağıra məndən aman istəyəndə, nəhayət əl çəkdim. ”İndi gücümüzə bələd olduz, axmaqlar!... ”

Üst-başımız cırıq-cırıq olmuş, sir-sifətimiz tanınmaz olmuş, uşaqlardan bir neçəsinin dişi qırılmış, mənimlə Teymurazın sifəti partlamışdısa da əsas oydu ki, biz qalib gəlmişdik!

Şil-küt olmuş yerlilər, bulaqda yuyunub onsuz da ələ gəlməyən üst başımızı sahmana salmağımıza baxıb, deyəsən peşimançılıq çəkirdilər. Birdən gözüm Rasimə sataşdı; paltarı tərtəmiz – gül kimiydi, deməli, arvad kimi kənardan bizə baxırmış, oğraş!

O gündən zəndi-zəhləm gedirdi Rasimdən.

Bu davadan sonra eşitmişdim ki, öz aralarında məni özlərinə ən yaxın dost seçən Arazla Sərdar atalarına da onları necə müdafiə etdiyimdən söz açıblarmış. Hətta Arazın atası “vneştorq”dan bir “Vranqler” də almışdı mənə. ( Buna da min şükür!) Bilirdim ki, Amerika firmasının istehsalı olan belə malları tək-tük kişinin uşağı geyirdi, ona görə də kənddə utanardım onu əynimə taxmağa. Bir-iki dəfə rayona gedəndə geyib əzizləyirdim cins şalvarımı. Bir dəfə tində durub mırtdaşırdıq. Araz dirəndi ki, kənddə niyə geymirsən, şalvarı, bəyənmədin? Mən cavab verənəcən Rasim ədəbazlıqla deyəsən ki, o nə bilir cins şalvar nədi? Yəqin tumarlayıb saxlayır ki, bəyliyində geyə. Bunu zarafat bilib dinmədim. Qudurmuş köpəyoğlu, dinmədiyimdən istifadə edib bir az da lovğalandı, özünü dünyagörmüş kimi göstərib əlavə etdi:

– Bizik da, 200-300 manatı cır-cındıra veririk ki, moddu. Amerikada o zibili ya kovboylar, yəni çobanlar, ya da türemşiklər geyir. Hi-hi-hi...

“Çobanlar”ı elə rişğəndlə, elə ikrah hissiylə dedi ki, elə bil babası Mirqəfər ömrü boyu gərmənin içində yaşamıb. Yəni

ondan da xəbərsizdi ki, dədəsi də “Narxoz”u həmən gərmənin hesabına qurtarıb adam olub? Onu dəqiq bilmirəm nə vaxt əlim qalxdı, yumruğum çənəsinə ilişdi, bir də gördüm üstüm-başım al qırmızı qandı – Rasimin qanı. Uşaqlar əl-ayağa düşüb su gətirdilər, qonağın ağzının qanını yuyub təmizlədilər; həm də tənbeh elədilər ki, günah özündədi, dilini gərək dinc saxlayaydı. Aqibət-xeyir Rasim də peşiman görünürdü. Mən isə o gündən cins şalvarı mal nobatından özgə yerə geymədim.

Daha mənim yanımda lovğalanmırdılar, yəni ki, mənə yuxarıdan aşağı baxmır, əksinə, hələ bir az çəkinirdilər də. Nədənsə bu mənə ləzzət edirdi.

***

Araz onilliyi bitirib instituta qəbul oldu. Yay tətilinə gələndə bizə Bakıdan, şəhər qızlarından ağız dolusu danışardı. Şəhər həyatı onu dəyişdirmişdi, vallah! Sərdar demişkən, “jivoylaşmışdı” bir az...

Bizi harda axtarsaydın ya klubun yanında, ya da kəndin kənarıyla axan Kürün sahilindəki dəyirmanda tapardın. Kluba əsasən təzə kino-zad gələndə, bir də şahmat oynamağa görə gedərdik. Son vaxtlar təzə kino da gəlmirdi.

Elə ki, avaraçılıq bizi yorurdu qaçırdıq köhnə dəyirmana. Dəyirmançı Kamandar dayı züryətsiz bir kişiydi deyən, ömrünü-gününü burda keçirir, camaatın dənini üyüdəndən sonra bekarçılıq üzməsin deyə qədimi samavara od atıb qalayır, kəklikotulu çay dəmləyib kitab oxuyar, hava tam qaralandan sonra evə, arvadı Gülxarın yanına gedirdi.

Köhnə dəyirman həm də bizim üçün bir növ ədəbiyyat kabineti olmuşdu. Kişi saatlarla Nizamidən, Füzulidən, Nəsimidən... deyərdi, yorulmazdı. Elə məni də ona bağlayan deyəsən, poeziya idi.

Hə, bir də ki, Aliyə. Aliyə həm də Kamandar kişinin bacısı qızıydı. Ona görə ara-sıra anasının biş-düşündən gətirərdi qoca

dayısına. Sonralar bildim ki, Kamandar kişidən çox, məni görməyə gəlirmiş köhnə dəyirmana. Onsuz da bütün kəndin "məmə" yeyənindən "pəpə" deyəninə kimi hamı bilirdi ki, biz göbəkkəsdiyik. Ona görə də Alıyəylə qol-boyun olmağa fürsət düşən kimi dostlarım bizdən aralanar, biz də özümüzü verərdik dəyirmanın dalına, doyunca söhbət edərdik.

Kamandar kişi bizi görəndə uşaq kimi sevinirdi. Ona görə yox ki, sədrin oğlu da bizimlə idi, ( dərinə getsən, Kamandar kişi sədir-mədir hərləmirdi), ona görə ki, ömrü boyu mütaliəylə məşğul olmuş bu qocanın bizim kimi diqqətcil dinləyiciləri vardı. Allaha and olsun, kişinin səsində elə həzinlik vardı, onu dinlədikcə yorulmurdun. Sanki, bulaq qaynayırdı. Səməndər Rzayevin ecazkar, təkrarolunmaz səsiydi elə bil!

Mən Kamandar kişiyə isinişəndən sonra bir dəfə də olsun ədəbiyyat kitabımı açmadım.

İyulun qızmar istisi baş çatdadırdı. Dördümüz – mən, Sərdar, Araz və Rasim köhnə dəyirmanın kəndarında gorunəndə üst-başı, üzü unlu Kamandar kişinin çöhrəsində təbəssüm döğdu. Onun da bizə mehr salmasını sübut edən bu xoş təbəssüm Kürqırağı sıralanmış söyüdlərin arasında itib-batan balaca dəyirmanın həndəvərinə hopan həlim sərinlik qədər doğma idi.

Hal-əhval tutub görüşdük. "Oturun, mənim balalarım. Lap vaxtında gəlib çıxduz. Çayım da hazırdı" deyib, ağacın altındakı taxta mizi göstərdi. Rasimi ilk dəfə görürdü deyən soruşdu:

– Bu Allah saxlamış kimin nəvəsidi?

Hamını belə soruşardı. Deyərdi ki, ömrü-günü dəyirmanda keçdiyindən cavanları yaxşı tanımır, yaddaşım da zaylayıb, bəlkə babasını tanıyaram.

– Mirqəfərin nəvəsidi, – dedim.– Sərdarın əmioğlusu, Gülbala müəllimin oğlu, Moskvada oxuyur, kanikula gəlib.

– Həə ?! Allah saxlasın.

"Allah saxlasın"ı xala xətrin qalmasın dedi. Gülbala müəllimin adını çəkəndə nə yadına düşdüsə, iri, qabarlı

barmaqlarıni unlu sifətində elə gəzdirdi ki, sanki, üzündən yoxa çıxan təbəssümün kinə çevrildiyini, damarlarının gərilməsini bizdən gizlətmək istəyirdi. Və bunu məndən başqa heç kəs hiss etmədi, çünki, Sərdar Kürə sarı baxır, Araz özünü ev sahibi kimi apardığından ərk eləyib dəyirmanın daxilindəki kamoddan stəkanları gətirib mizin üstünə düzürdü. Rasim də utandığından başını aşağı dikib, Kamandar kişinin sifətinə baxmırdı.

Köhnə samovar pıqqapaqla qaynayırdı...

Araz çay süzdü. Çoxdan klubun balansından silinmiş, bəzisinin ayaqları məftillə burağaclanmış köhnə stulları altımıza çəkib oturduq.

– Aliyə də indiyə gələr, – deyib, nəlbəkisindəki qaynar çayı üfürə-üfürə altdan-altdan məni süzdü. Kişinin üzünə baxa bilmədim, utanıb başımı saldım aşağı. – Daa nə utanırsan, ay evi tikilmiş! Yekə kişisən, uşaq döyülsən haa?!

Araz Bakıya gedəndən birinci dəfəydi kəndə gəlirdi. Üzümü belə erkən qırxmağıma görə utandığımı görüb elə hey deyirdi ki, şəhər qızları sənin kimi iri cüssəli, tüklü-müklü oğlanlardan ötrü sino gedir. Səkkizincini bitirmişdimsə də eyhamını başa düşürdüm. Onsuz da ağsaqqalların əksəriyyəti məni “ balaca kişi” deyə cağırırdılar. Mən də erkən kişi olmağımla şellənirdim.

Araz çox utandığımı görüb araya söz qatdı:

– Kamandar dayı, Nizami böyük şairdi, Nəsimi?..

Kişi bığlarını eşdi, bir papiros yandırıb cavab verdi:

– Hər ikisi dahidi, oğul, dahi! Onların fəlsəfəsini dərk etmək üçün bir ömür bəs etməz. Heç iki ömür də...

– Vaxtın xeyir, dayıcan!

Aliyənin səssiz-küysüz gəlməsini heç kim hiss etmədi. Kamandar kişi onu öpəndə özümdən ixtiyarsız qızın gözlərinə baxdım. Onun parlıldayan gözləri mənə zillənmişdi. Bir anlığa özümü Kamandar dayının yerində hiss etdim. İçimdən qəribə bir isti keçdi. Hər gün bir yerdə olmağımıza baxmayaraq heç vaxt onu öpmək ağlımdan belə keçməmişdi.

Gözlərimi ona zillədiyimdənmi, yoxsa Rasim baxışlarıyla onu “ yediyindən”mi duyuq düşən Aliyənin yanaqları qızardı. Ani olaraq Rasimə baxdım. Yarıaçıq dodaqlarından bildim ki, o da mənim kimi fikirləşir, oğraş! Nə edəcəyimi bilmədən ağlıma gələn bu oldu; guya qənd götürürəm deyə əlimi süfrəyə uzatdım, bilərəkdən onun stəkanına toxundum. Qaynar çay onun qasığına dağılanda gözlərini qızdan çəkib elə bağırdı ki!

Aliyə iki ovucunu ağzına tutaraq özünü gülməkdən güclə saxladı. Hirsim soyumurdu.

Araz, işin nə yerdə olduğunu dodağımı çeynədiyimdən anladı. Hələ də özüylə məşqul olan Rasimi kənara çəkib nə dedisə, Rasim aşağıdan yuxarı məni süzüb dişlərini qıcıtdı, yəni, “ borc olsun!”

Heç nə duymayan Kamandar dayı onu sakitləşdirdi:

-Dəmli çay yandırmaz bala, qorxma.

Rasim də özünü sındırmadı, bir az ufuldayıb, yalandan gülümsədi də.

Həmin gün özümə söz verdim ki, Rasim məndən böyük də olsa, onu it balası kimi çırpacam, yağlı cəmdəyindən döymə düzəldəcəm. ”Nə olsun ki, şəhərlisən, Moskvada oxuyursan?! Mənim si.... ə ki! Göstərərəm özgəsinin adaxlısına tamah salmağı, şorgöz köpəyin oğlu!”

Bəlkə də mən deyənlər onun ürəyindən keçmirdi. Amma, dostumun dostu da olsa mənlə göbəkkəsmə olduğunu bilirdi axı?! Sərdar, Araz Aliyəni görəndə niyə elə baxmırdı? Oğraş-oğraş qızı marıttamağına bir bax!

Xasiyyətimə bələd idilər. Əlimdən çıxa biləcək xətadan uzaq olmaq üçün xüdahafizləşib bizi Kamandar kişinin yanında qoyaraq kəndə döndülər.

Qısqanclığım günü-gündən artırdı. O gündən sonra Aliyəni oğlanlar duran tinin həndəvərində dolaşmasına, dostlarımla bir yerdə olanda mənə yaxınlaşmasına, hətta Kamandar dayısının yanına getməsinə də qadağa qoydum. İnsafən, o da mənimlə razılaşmışdı. Düzdü, anama şikayət eləmişdi ki, Rüfət yaman

qısqanc olub. Anam da deyibmiş ki, ürəyinə salma qızım, kişilər qısqanc olar. Qısqanırsa, deməli sevir!

... Onilliyi qurtarıb Bakıya oxumağa gedəndən sonra Sərdarı, Rasimi ancaq yay tətillərində görürdüm. Sərdar Kirovabadda zootexniklik oxuyurdu, Rasim də ki, Moskvada.

Rasim Moskvalı olandan sonra əməlli-başlı qudurmuşdu. Kəndə gələndə "darıxdırıcıdı buralar", deyib iki-üç gündən artıq qalmır, Moskvada çəkdiyi keflərdən lovğalıqla danışır, hamımıza yuxarıdan aşağı baxıb ağız büzürdü:

-Kənd mənlik deyil, uşaqlar. Burda da adam yaşayar? Nə diskoteka var, nə də ki, kayflıq bir şey! Peyin iyindən də beyin çalxalanır. Fuu...

Onda deyirlər e, qınından çıxıb, qınını bəyənməyən! Mən deyərdim zatı qırıq.

Belə deyəndə zootexniklik oxuyan Sərdar sözü özünə götürəndə, onu daha da əsəbiləşdirmək üçün əlavə edərdi:

-Ay özbəy, sən də sənət tapdın da özünə. Ömrün boyu burnunla pox eşəcəksən?!.

Allah tərəfi, Sərdar bunu şit zarafat bilsə də əmisi oğluna heç-zad deməzdi. Mən isə onun yerinə hirslənirdim ki, nə olsun əmioğlu olanda, yəni, kişi də belə təhqirə dözər?! Allahımdan istəyirdim ki, mənə bir söz desin, sataşsın, köhə haqq-hesabımı çürüdüm onunla. Onsuz da onun yağlı sifətini görəndə ovucumun içi gicişirdi. Rasim də axmaq deyildi ha, yadından çıxara bilməzdi olanları, ona görə məndən uzaq gəzirdi.

İllər ötdükcə aramızdakı məsafə də böyüyürdü. Bəzən yay tətilində də görüşə bilmirdik. Arazla Bakıda bir yerdə olsaq da, bir-birimizi axşamdan-axşama görərdik, yarışlar, məşqlər başımı elə qarışdırırdı ki, arada vaxt tapanda da bir neçə günlüyə kəndə gələr, anamı, Aliyəni görüb geri dönərdim.

Şəhərdə boş vaxtımı Marqo ilə keçirdirdim. Bilirdim ki, Aliyə yanımda olsaydı, bəlkə də Marqoya heç gözümün ucuyla da baxmazdım. O isə çox uzaqda idi.

Araz da məni danlayırdı ki, əl çək bu qancıqdan, Aliyənin qulağına çatsa bilirsən nə olar?!

Mən deyəndə ki, sən gündə min oyundan çıxırsan, mənə olmaz? Onda Araz şəhadət barmağını gicgahına döyəcləyib cavab verərdi:

– Ay axmaq, mənimki sevgi deyil, elə-belə, dilxoşduqdu. Sənsə əl çəkmirsən onun dalından. Eşitmişəm dərsə də getmirsən son zamanlar. Vallah, bunun axırı pis olacaq. Qovacaqlar institutdan. Heç çempionluğuna da baxmazlar, başa düşdün?! Anan eşitsə ürəyi partlayar yazığın.

Mən onun dediklərini qulaqardına vurur, paxıllıq etdiyini guman edirdim. Çünki, bizi bir yerdə görəndə ağzı sulana-sulana Marqonu necə süzdüyünü çox görmüşdüm.

Atasının dostları, pulu çox olduğundan diplomunu alan kimi Arazı Bakıda işə düzəltmişdi. Hər şənbə dədəsinin sürücüsü gəlib onu rayona aparırdı.

Son vaxtlar Arazdan eşidirdim ki, Rasim də təhsilini başa vurub qayıdandan sonra tez-tez kəndə gəlir. Nədənsə, kənddən iyrənən, onu bəyənməyən Rasimin kəndə ayaq açması məni narahat edirdi. Bu Rasim heç vaxt mənim xoşuma gəlməyib, heç vaxt.

Anam rəhmətə gedəndə qırx gün kənddə oldum, dəfn günündən ta qırxını verənəcən Araz da, Sərdar da tez-tez məni yoluxur, dərdimə şərik olub təsəlli verirdilər. O oğraş Rasim isə təkcə anamın üçü günü gəlib ağızucu başsağlığı vermişdi.

***

... Qayıtdığım üç ay vardı, amma ürəyim yaman narahat idi. Bir yandan hüzürə görə dərslərdən qalmağım məni davamiyyətdə geri salmışdı, o biri yandan da imtahanlar başlayırdı. Gecəmi gündüzümə qatıb imtahanlara hazırlaşırdım. Kəndə getməyə imkan yox idi.

Nəhayət, birinci imtahandan sınıq-salxaq “yaxşı” alıb “Gənclik” də hava alırdım ki, təsadüfən Arazla rastlaşdım. Məni görən kimi deyindi ki, gəlib-getmirsən, qaçırsan hamıdan. İmtahan verdiymi dedim. Eşidəndə ki, birincidən dörd almışam, çox sevindi, məni kafeyə dəvət etdi. Razılaşdım.

Şəhərin dağlıq hissəsində yerləşən yay kafesi nədənsə bizim köhnə dəyirmanı xatırlatdı mənə. Burnuma da oranın ətri gəldi. Əsən sərin mehin oynatdığı salxım söyüdlərin arasında düzülmüş stollardan birinin arxasında əyləşdik. Araz yaman səxavətli olmuşdu – balıq kababı, konyak sifariş verdi. Mənim içmədiyimi bilə-bilə anamın qəbrinə and verdi ki, əlli qram vurum. Zarafatla:

– Ölməzsən, – dedi, – əlli qramla. Mən tək içməyəcəm ki?!

– Yaxşı,– dedim. – Sənin xətrinə...

Balıq kababından nuş eləyib əlli qramı da qurtum-qurtum vururdum ki, Araz tək içməsin. Neçə illərdi onu tanıyırdım, amma onu bu qədər içdiyini görməmişdim. Əməlli başlı keflənmişdi Araz. Bayaqdan balıq kababını, ayda bir dəfə gəlib yeyib-içdiyi bu balaca kafeni ağız dolusu tərifləyərək diqqətini qabağındakı nimçədən ayırmayan Araz nəhayət ki, marağını gizlətmədən köhnə söhbətə qayıtdı :

– O qızla üzülüşdün?

Özümü bilməməzliyə qoydum:

– Hansı qızla?

Gözlərini qıyıb tərs-tərs üzümə baxdı.

– Əə, məni dolamısan? O qancığı deyirəm də...

– Başın xarabdı, vallah! Mən nə hayda, sən nə hayda. Bilirsən neçə kəsirim var?Vallah, adım da yadımnan çıxıb.

– O da yadından çıxsaydı yaxşı olardı.

Bunu öz-özüylə danışırmış kimi mızıldadı, sonra da şəstlə adımı yadıma saldı. – Adın Rüfətdi, Rü-fət!...

Məni də gülmək tutdu.

– Zarafatın heç yeridi? – dedim.

– Mən zarafat-zad eləmirəm. Sən doğurdan, adını da, kimliyini də unutmusan. Ə, gör nə günə salıb e səni, özündən xəbərin var? Bir güzgüdə sifətinə baxsana, a bədbəxt!

Hələ indi, ilk dəfə düz onun gözlərinin içinə baxdım. Belə kinayə ilə heç vaxt danışmazdı mənimlə. Nəsə deyəcəyi vardı, amma ürək eləmirdi, tərəddüd edirdi Araz.

Birdən üzümə diqqətlə baxıb soruşdu:

– Bu yaxınlarda kəndə getmisən?

Sualına sualla cavab verdim:

– Bəs sən? Nolub ki, kənddə?

Bayaqdan onun təlaşını hiss etmişdim. Mənimlə ciddi söhbət eləmək istədiyini deyəndə içimdə nəsə qırılmışdı. ”Kənddə nə olub ki, mənim xəbərim yoxdu? “

– Bu yaxında, – dedi, – beş gün olar, Qələndər gəlmişdi, məni aparmağa...

– Hə?

– Hə də. Necə deyim? Deməli, bilmirsən.

– Nəyi? Nolub axı? Ə, ürəyimi partlatma, sən qağoon canı!..

İçdiyim bir-iki qurtum zəhirmara qalmış konyakın təsiri vurdu beynimə. Araz deyəsən söhbəti başlamağına peşıman olmuşdu. Bir az tərəddüd edib susdu. Nəyi bilmədiyimi başa salmağı təkid etdim. Araz:

– Mən elə bilirdim, – dedi, – xəbərin var?

– Nədən? Bağrımı çatdatdun ee...

– Aliyə...

Əlimdən çəngəl düşdü. Aliyənin adını eşitcək ayaqlarım tutuldu, yerimdən qalxa bilmədim. ”Yəqin özünü yandırıb, yox, Kürə atıb... Bircə il də dözə bilmədi. Mən bilirdim, bilirdim ki, dözməyəcək, mənsiz yaşaya bilməyəcək!”

Qulaqlarım tutuldu, gözlərim qapandı, dilim dişlərimin arasında qıfıllandı. Arazın dodaqları tərpəndikcə, gözlərimlə dediklərini duymaq istəyir, nə edəcəyimi, daha nə eşidəcəyimi anlamadan öz-özlüyümdə Aliyəni qınayır, dünyaya, insanlara

lənət oxuyurdum ki, Arazın pıçıltıya oxşar son kəlməsini apaydın eşitdim: ”... Qaçıb. ”

Heç nə anlamadığımdan boğula-boğula soruşdum:

– Kim? Kim qaçıb?!

Araz, dediklərini eşitmədiyimi indi başa düşdü. Necə sarsıntı keçirdiyimi görüb qorxa-qorxa məni sakitləşdirməyə başladı:

– Özünü ələ al, ay Rüfət, – dedi. – Olacağa çarə yoxdu.

Nə olacağa?! Kim qaçıb, başa sal!

Günahkar kimi başını aşağı saldı. Dili topuq vura-vura dilləndi:

-Bayağdan keşiş üstünə hürürəm? Aliyə da... Aliyə Ra... Rasimə qoşulub qaçıb.

Arazın yaxasından tutub silkələdim ki, yalan deyirsən, ola bilməz! Aliyə özün öldürər, ancaq qoşulub qaçmaz! Özü də kimə, kimə, Rasimə?!

Araz qağasının canına, Allaha, pirlərə and içib aman eləyəndən sonra ki, o da qulaq günahkarıdı, yaxamı burax, ondan əl çəkdim.

Hirsli başda ağıl olmaz, deyərlər. Bir az özümə gəldimsə də hirsimi cilovlaya bilmirdim. Aliyənin adını eşidəndən ağlıma hər şey gəlirdi, bircə qoşulub qaçmaqdan savayı. Axı bu necə ola bilərdi? Aliyə mənə necə xəyanət edə bilərdi? Bu sualların əsarətində aciz qaldıqca elədiyim ən kiçik səhvlərimi, onu, o oğraşa qoşulub qaçmağa vadar edə biləcək səbəbi, uzun illərin sevgisinə tüpürməyin məntiqini aramaq üçün yaddaşımı nizama salır, zərrə qədər də əsas tapmırdım ki, Araz yenə məni fkrimdən ayırdı:

– Bilirsən, Rüfət, son vaxtlar kəndə getmirdin, ona görə çox şeyi bilmirsən.

– Nəyi bilmirəm, nəyi?!

Mən boğulurdum, havam çatmırdı. Fikirlərim nizama düşmür, eşitdiyimin doğru olduğuna inanmaq belə istəmirdim.

– Səni o qəhbəylə görüb...

Sözü ağzında qaldı. İstehza ilə qəh-qəhə çəkdim:
– Aliyəə?! Harda, necə görə bilərdi axı?!
– Yox, – deyib başını buladı. – Öz-bəy, eey, Sərdar...
– Sər-daar?
– Hıı...
– Axı?..
Sərdarın Gəncədə oxuduğunu hamı bilir, onun Bakıda nə azarı varmış?! Bizi harda görə bilərmiş?! Elə bil ürəyimdəkini oxudu Araz.
– Özbəy, – dedi, – "Semaşka"da görüb. Atası əməliyyat olanda iki həftə yanında qalıb. Səni də hər gün onunla birgə, qol-boyun görübmüş. Deyirdi ki, xəcalət çəkdiyimdən yaxınlaşmadım. Sonra da ki, dili dinc durmub, danışıb Rasimə.
– Hə...
– Hə də, Rasimə də elə bu lazım imiş də, axır vaxtlar Aliyədən çox xoşu gəlirmiş. Belə deyirlər. Düşüb əlinə fürsət. Aliyənin əmisigillə qonşudu axı Rasim, rayonda. Hə, Rasim anasına danışıb, o da sözgəlişi eşitdirib əmisi arvadına. Vəssalam! Sənin torbanı tikiblər də! Anan yazıq, kənddə gəzən bu söhbətləri eşidəndən sonra ürəyi dözməyib, infarkt keçirib...
İndi başa düşdüm, başa düşdüm ki, Bikə xala mənimlə niyə soyuq danışırdı, niyə anamın hüzüründə yad kimi iştirak edirdi. Aliyənin də məndən min cürə bəhanə gətirib uzaqlaşmasının səbəbi buymuş!
Sən bir Sərdara bax! Adını da dost qoyub, əclaf oğlu əclaf! İşəyim sənin kimi dostun zatına!
Arazın baxışlarından peşimançılıq və məyusluq yağırdı. Mənim hər şeydən xəbərdar olduğumu sanıb qəbahət işlətmədiyinə əmin olduğundan, Aliyənin dedi-qoduya inanıb mənə bir söz demədən, gizlicə etdiyi izdivacı bağışlamadığımdan düşdüyüm vəziyyətimə acıyırdı da.
Kaş mənimlə üzbəüz durub deyəydi ki, sən alçaqsan, xainsən, mənə xəyanət etmisən! Deyəydi... Ürəyini boşaldaydı kaş! Mən də hər şeyi ona başa salaydım. Axı nəyi başa

salacaqdım? Hə, deyərdim ki, Rasimin səndə gözü olmayıb, sevməyib, sadəcə mənimlə ədavəti vardı, mənim ürəyimi parçalamaq, intiqam almaq istəyib. Necə başa düşməmisən bunu axı, necə aldana bilmisən? Bəlkə onun var-dövlətinə aldanmısan?! Mənim nəyim var axı, nəyim?! Mən də onunla düz gəlmirdim, vuracaqdım onu. Burda olmadığımdan istifadə edib, oğraş balası, səni aldadıb, aldadıb səni, Aliyə! İnanardı... Bağışlayardı məni...”

– Öldürəcəm! – Bunu elə bərkdən bağırdım ki, kafedə oturanların hamısı bizə tərəf çevrildi.– İkisini də öldürəcəm alçaqların!

Araz hesabı verib məni kafedən uzaqlaşdırdı...

...Yaşı çox olmasa da buxağı sallanmış, yekə qarnı köynəyinin düymələrini tarıma çəkmiş, daz başı yağlı kökəyə bənzəyən kişi on səkkiz-on doqquz yaşlarında, nazik, dar köynəyindən döşləri görünən, qalın dodaqlarının boyası gözə girən qızın qoluna girib qulağına nəsə dedi. Qız da incə barmaqlarını onun şişman qarnında gəzdirib gülümsədi. Masa arxasından birgə duran, ondan azca yaşlı kişi yanındakı qızı müşaiyət edib zaldan çıxandan sonra o, qızı bir də qucaqlayıb həyətə keçdi.

Həddən artıq dəyişməsinə baxmayaraq onu tanımamaq mümkün deyildi.

Məzəli lətifələrə ara verməyən Ceyhundan, ona ləzzətlə qulaq asıb gülümsəyən xanımlardan üzr istəyib durdum.

– İndi qayıdıram, – deyib, onun arxasınca həyətə şığıdım.

– Ra-sim !..

“Mersedes-Benz” markalı avtomobilə doğru tələsən daz kişi adını eşidcək qanrılıb dala baxdı. Bəlkə də hərbi formada məni tanımadığından yanındakı qıza gülümsəyərək dedi ki, maşına minsin. O biri kişiylə qız artıq qabaq tərəfdə oturmuşdu. Pəncərəni açıb başını Rasimə sarı uzadanda mən əlimlə

gözləməsini işarə etdim. Kişi də mühərriki işə salıb maşını asvalta sarı döndərdi.

Təəccüblə məni süzdüyünü görüb soruşdum:

– Tanımadın?

Səsimin zəhmindən, nifrət dolu baxışlarımdan tanımışdısa da, burda, bu şəraitdə görüşməyimizə inanmadığından bir az duruxdu, udquna-udquna:

– Rü... Rü-fət ?..– deyə bildi.

Söhbətimizi dostu, həm də qızlar eşitməsin deyə, qoluma girib kənara çəkmək istəyəndə əlini dirsəyimlə itələdim. Bayaqdan su kimi içdiyi arağın qazı necə qaçmışdısa, vücudu titrəməyə başladı, boynunun damarları gah dartınır, gah da atılb düşürdü – elə bil ürəyi boynunda vururdu. Elə yazıq görkəm aldı ki!

– Sakit ol, – dedim. – Sakit... Nədi, gözləmirdin?!

İndi mən onun qolundan yapışmışdım. Ovucumun içində yumşaq əzələlərinin necə titrədiyini hiss edirdim.

– Yo-oox...

Şəhadət barmağımın ucunu göstərib bərəlmiş gözlərinin qarşısında oynatdım.

– Bu dünya balacadı Rasim, baap-ba-la-ca! Fındıq boyda.

Aramızda olub keçənlərdən kimsənin xəbər tutmamasını münasib bildi. Yay aylarını, yəqin ki, bu yaxınlarda yaşadığından qızların da maşında gözləməsindən ehyiyat edirdi. Təzəcə başladığımız, hələ mətləb üstünə çatmadığımız söhbətin çox uzanacağını anlayırdı deyən dostuna getmələrini işarə edən kimi maşın şəhərə sarı tozanaqladı.

Kafedən bir az da uzaqlaşıb dənizin ləpədöyənindəki qayalığa getdik; bura həm sakitlikdi, yoldan ötən, kafeyə gəlib-gedən görməzdi. Bayaq Ceyhunla gələndə dəniz sakit idi. İndi isə xəzri əsir, dəniz oynayırdı.

Rasimin qəfil titrəyən səsi qayalara çırpınan şıltaq ləpələrin səsinə qarışdı.

– Hələ də unutmamısan?.. İndi neyniyəcəksən, öldürəcəksən?

“Həyasız-həyasız soruşur da. Halallıca nişanlımı yoldan çıxarıb, özünə arvad eləyib, bir soruşur da, alçaq!”. Damarlarım gərildi. Yaxasından yapışıb silkələdim.

– Bilirsən, – deyib içkinin təsirindən qızarmış gözlərinə baxdım. – O gündən gözlərim hər yerdə səni axtarıb. Nə vaxtsa qarşıma çıxsan, səni öldürəcəyimə söz vermişdim. Bu həmin gündü, həmin gün-qisas günü! Oğ-raşş, danışmağa dilin də var sənin?! Sən... Sən həyatımı məhv eləmisən, alçaq! Hər şeyimi əlimdən aldın, hər şeyi.

– Günah özündədi. Gül kimi qızı cındıra dəyişən sən idin, sən! Düz demirəm?!

– Nəə?! –deyib bağırdım.– Bəlkə sən mələksən, bilmirəm?! Moskvada min bir oyundan çıxdığın bəs deyildi, indi də gül kimi arvadın ola-ola uşaqbazlıq edirsən, alçaq oğlu alçaq?! – Formamı göstərib çığırdım. – Rusiyadan gəlib sənin kimi parazitlərin yerinə vuruşuram, sənsə qarnını piylədib qızlarla kef çəkirsən?! Aliyəni aldatdığın kimi, indi kiminsə qızın, bacısın yoldan çıxardırsan?! Pulun, vəzifən var deyə hər şey olar sənə?! Səninkimilərə bu torpağın üstündə gəzmək günahdı, günah! Bəs sənin gözəlçən hanı, o hara baxır, hə?!

– Onun adını çəkmə!

– Ha-ha-haa!... Qeyrətli çıxmısan?! Arvad qədri bilənə bir bax?! Özgəsinin artığına tamah salan köpəyoğlu!

– Arvadını altından aparmamışdım ki?! Bərk saxlayaydın daa. Bir də, bunun mənası yoxdu artıq...

Yəqin ki onunçun fərqi yox idi. Bilirdi ki, əlimə keçibsə, deməli yaxasından əl çəkən deyiləm, ona görə də qoy xoruzlansın.

Lap uşaqlıq illərindəki kimi çənəsinin altından necə vurdumsa dişləri “xırç” elədi, dodaqlarını büzüb ağzına dolmuş qanı tüpürəndə qırılmış bir neçə dişi də yaş qumun üstünə düşdü. İkinci zərbəni gözləmirdi deyən gözlərini daha da

bərəltdi. Dodağının arasından qan axmağa başlayanda bir yumruq da burnuna yapışdırdım. İstəsəydim də özümü ələ ala bilmirdim. Kiminçinsə ötən illərdə itib qalmış xatirəyə dönən ən kiçik, əhəmiyyətsiz hadisə belə – əgər onunla bağlıydısa – kino lenti kimi gözlərimin önündə canlanır, məni hövsələdən çıxarırdı.

– Öldürəcəm səni, it oğlu!...

– Öldür, öldür! Sonra baxarıq sən necə yaşayacaqsan.

Qarnına, sinəsinə dəyən zərbələrdən qıvrılıb yumağa dönsə də, canı bərk imiş, dözürdü, heç dilini də saxlamırdı. İstehzayla soruşdu:

– Kafedəki həmən qəhbədi?

Mən dişlərimi qıcıtdım. O isə əlini dodağına sürtüb baxdı, ağzından gələn qanın dayanmadığını görüb:

– Əlbəttə, – deyərək, yerə tüpürdü. – Başqa kimə lazımsan ki?!

– Oğraş, öldürəcəm səni!. Öldürəcəm!.. Al... al...

Mən vurduqca barmaqlarını çiynimə qırmaq edib bərk-bərk yapışmışdı, buraxmırdı. Ürəyimdə elə deyirdim, heç olmasa bir dəfə mənə əl qaldırsın, vursun məni, daha da qızışım, hirslənim, xırd-xəşil eləyim, yoox, deyəsən bu alçağın belə bir fikri də yoxdu. Al qana bulaşmış köynəyinin yaxasından tutub arxaya itələdim ki, əl-qol atmağıma maneçilik törətməsin. Ayaqqabısının dabanı yöndəmsiz qaya parçasına ilişəndə barmaqları boşalıb çiynimdən qopdu, özünü saxlaya bilməyib arxası üstə iri sal qayaya çırpıldı.

Gözümü qan tutmuşdu. Köhnə dəyirmanda Aliyəyə necə ehtirasla baxmağını, mən öpən dodaqları indi necə öpməyini, bir yorğan altında qol-boyun olub yatmağını təsəvvür etdikcə ondan iyrənirdim.

– Həə, nə oldu?.. Duur, it oğlu it!

O isə elə bil məni eşitmir, təhqirləri, şillə və yumquqları saymazyana qəbul edirdi, bu da məni hövsələdən çıxarırdı. Yaxınlaşanda onun hərəkətsiz, üzü dənizəsarı çevrilmiş daz

başından axan qanı gördüm. İki ovucumla çənəsini tutub silkələdim.

– Dur demirəm?!

Bərəlmiş bəbəklərini gördüm: bir nöqtəyə dikilmiş, özünü dərk edən son anda gördüyü dalğalı dənizin əksi gözlərində donub qalmışdı. Hərəkətsiz vicudunu görüb bir az kənara çəkildim. "Ola bilməz? Bu necə oldu axı?.. İt oğlu, hələ söhbətimiz bitməyib!.. Dur gö-rüüm! Duur!.. "

Cansız cəsədə baxıb duruxdum. İllər boyu öldürəcəyimə söz verib axtarıb-aradığım Rasimin aciz durumuna baxdıqca ona yazığım gəldi. Bayaqdan dil boğaza qoymayan Rasim susurdu. O ölmüşdü.

"Görəsən bu əllərimlə neçə insan öldürmüşəm?"– deyə fikirləşdim. Əfqanıstanda, Qarabağda... Sayını bilmirəm. Onu bilirəm ki, müharibədə düşmənini öldürürsən. Günaha sayılmaz bu. İndi, bu dəqiqə isə mən cinayət etmişdim, cinayət! Bunu istəmirdimmi?! Bunu istəmirdimmi?! Bunu istəmirdimmi?!...

Xəzərin şıltaq ləpələri qayaya çırpındı, gilə-gilə olan damlalar onun üstünə səpələndi, qanlı sifətində süzüldü, axıb boynuna, sinəsinə töküldü. Sonra bir də, bir də...

Ürpəndim bu mənzərədən, çünki, onu yuyan damlalardan mənim də üzümə səpələnmişdi.

Sahilə yaxınlaşıb qana bulaşmış əl-üzümü yudum. Başımda min fikir dolanır, ürəyimi sakitləşdirə bilmirdim. Gah lənətə gəlmiş təyyarənin niyə bu gün uçmadığına heyfislənir, gah da, olacağa çarə yoxdu deyib özümə haqq qazandırmaq istəyirdim...

...Nə olub bu camaata? Niyə maraqla baxırlar mənə? Xoflanmışdım, yoxsa mənə elə gəlirdi?

Masaya necə yaxınlaşdığımı hiss etmədim. Məryəmin əlindəki kağız dəsmal açıq qalmış dodağındaca quruyub qaldı...

Ceyhun yerindən dik qalxıb heyrətlə üst-başımı süzdü...

Gülnar xanım iki əlini də cütləyib çənəsinə yapışdırdı...

Ofisiant oğlan isə narahatçılığını gizlədə bilməyib soruşdu:
– Sizə nəsə olub, komandir?
Cavab vermək iqtidarında deyildim. Başımı tərpətdim ki, narahat olmasın.
– Al-lah, sən qoru...
Bunu da deyəsən Məryəm pıçıldadı.
Oturdum. Mənə dikəlmiş gözlərdəki suallar cavab gözləyirdi. Mənim isə danışmağa heyim qalmamışdı. Qarışmış düşüncələrimin içindən hayqıran küt səslər, nalə qoparan Aliyənin ağ-qara silueti, bəbəklərini mavi dənizə mıxlanmış Rasimin donmuş baxışları məni məngənə kimi sıxırdı. Handan-hana, güclə eşidiləcək səslə dedim:
– Mən... mən adam öldürmüşəm.
– Nəə ?...– Məryəm hıçqırığını içində boğdu.
Kafedəkilər hiss etməsin deyə astadan təkrar etdim:
– Adam öldürmüşəm.
– Nə adam? Harda? – Soruşdu Məryəm.
– Qayalıqda...
Onları, həm də özümü sakitləşdirmək üçün hər şeyi olduğu kimi danışdım. Elə bil rahatlanır, özümə gəlirdim. Qadınlar səssiz-səmirsiz məni dinləyir, təşvişlə bir-birinə baxırdılar. Birdən Ceyhun yavaşcadan :
– Gedək burdan, – dedi. – Tez...
Çaş-baş qalmış, qorxmuş Gülnar Ceyhunun qəfil qərarına sevindi. ”Gedək!” deyib, çantasında qurcalanmağa başladı, pul kisəsini çıxardı, Rizvanı haylayıb ona iki yüz dollar uzatdı.
Ofisiant oğlan bizim tələsik durmağımıza təəccüblənsə də, gülümsəyib dedi:
– Bu dəqiqə zdaçı gətirim...
Gülnar, “xala, xətrin qalmasın” gülümsənib :
– Qoy qalsın, – dedi.

Yol boyu hamı susdu. Yol da bitmək bilmirdi, acı bağırsaq kimi uzanır, uzanırdı. Narahat baxışları elə təəssürat yaradırdı

ki, guya, hər kəs bu vəziyyətdən çıxış yolu axtarmaqla məşquldu.

Ceyhun "Niva"nı Məryəmgilin qapısında saxlayanda Gülnar ona:

– Sən gözlə, – dedi, – beş dəqiqəyə qayıdıram.

Məryəm qapını açan kimi heç ayaqqabılarını da soyunmadı, tələsik kitab rəfindən pul götürüb Gülnara verdi. Sonra Gülnar mənim pasportumu da alıb həyətə düşdü.

Qapı çırpılan kimi Məryəm mənim boynuma sarıldı. Sinəsinin tez-tez qalxıb enməsindən başa düşdüm ki, qorxub, yaman narahatdı.

– Özünü necə hiss edirsən? – Soruşdu.

– Ürəyim sıxılır.

– Onu necə tanıdın?

– Səsindən.

– Dəhşətdi! Deməli, hər şey mənə görəymiş.

–... ... ... ....

– Mənə görə, hə?...

– Qismətdi bu. Mənim qismətim.

– Hər şeyi qismətin adına yazmaq olmaz, Rüfət.

– Bəlkə də...

– Meyid orda qalıb. Bu gün də olmasa, sabah kimsə görəcək.

– Bilirəm...

– Kaş getməyəydik ora.

–... ... ...

– Onsuz da indi it yeyəsin tanımır buralarda. – Soyuqqanlılığla pıçıldadı.

–... ... ....

O mənə təsəlli verirdi. Elədiyim cinayətə bəraət qazandırırdı. Mən isə Aliyəni düşünürdüm. Düşünürdüm ki, gecəyə kimi ərini gözləyəcək, gəlib çıxmadığını görüncə kiməsə zəng vuracaq, harda olduğunu soruşacaq. Səhərəcən gözünə yuxu getməyəcək. Uşaqları varsa, atasını ondan soruşanda, yalandan

deyəcək ki, rayondadı... Birdən meyidi sabah tapsalar, ya da iki gündən sonra? Təsəvvür edirəm, Aliyə “Morq”da Rasimin meyidini görən kimi özündən gedir, ayılandan sonra vay-şüvən qoparır, qarğış yağdırır. Bəlkə heç Rasim tez-tez gəlmir evə, orda-burda gecələyir? Aliyə şübhəsiz ki, əvvəlki kimi nərmə-nazik deyil, bəlkə göbək sallayıb, şişman ev qadınına dönüb. Cavan qızları qoyub Aliyənin yanına qaçmayacaq ki Rasim?! Bəlkə, Aliyə öyrəncəlidi buna, heç arayıb axtarmayacaq d: nə vaxt gələr, gələr, özü bilər deyəcək? Ola bilər, ona qoşulub qaçdığına sonradan peşiman olubsa, bəlkə ölümünə sevinər də. Əh, bunların axı nə faydası?!...

Bu bəlkələr, cavabsız suallar məni dəli edirdi. Unutmaq lazımdı, hər şeyi unutmaq – Rasimi də, Aliyəni də, hər şeyi.

Nəhayət ılıq duş qəbul edib üstündə Rasimin qanı olan formanı çıxarıb atmaq istədim. Hamam otağına keçdim. Məryəm dəsmal və dəyişik gətirdi...

Hamamdan çıxanda arasında təyyarə bileti olan pasportumu stolun üstündə gördüm. Gülnarla Məryəm divanda oturub söhbət edirdilər. Vida gecəsi düşündüyü kimi alınmadığı üçün heyfislənən Gülnar Məryəmə təskinlik verirdi. Məni görən kimi biletə işarə edib dedi:

– Səhər yola düşürsən.

– Sağ ol, Gülnar, – deyib, minnətdarlıq etdim.– Sizdən narahat gedəcəm.

– Eh, biz öyrəncəliyik... Hər şey yaxşı olacaq, – dedi. Sonra nə fikirləşdisə soruşdu. – Kafenin işçilərindən sizi görən olmuşdu?

Bu barədə heç fikirləşməmişdim. Kafedən çıxıb qayalığa gedənəcən olanları yadıma salmağa çalışdım. Rasim maşını yola salandan sonra ətrafda heç kim yox idi, təkcə asvaltla şütüyən maşınlardan başqa. Mən qayıdanda da kafenin həndəvərində heç kimi görməmişdim. Nə bilim, bəlkə kimsə məni görmüşdü?

– Yox, – dedim. – Sakitlik idi.

Gülnar məni sakitləşdirdi:
– Heç bir qorxusu yoxdu. Ordakılar öz adamımızdı. Bir də, indi kim-kimədi, gündə birini vurub öldürürlər, heç izi-tozu da tapılmır. Başsız ölkədi...
– Demə...
– Səhər Ceyhun gəlib səni aeroporta aparacaq. Rahatca min, uç...
Sonra çantasından bir parça kağız çıxardıb mənə uzatdı ki, burda ünvan yazılıb, ən yaxın dostumuzdu Moskvada, Mədət bəy. Zəng edəcəm, səni qarşılayacaqlar. Nə problemin olsa çəkinib eləmə, de, əsirgəməz köməyini.
– Çox sağ ol.
– Gücümüz çatan budur, dəyməz, – deyib, Məryəmlə öpüşüb çıxanda bir də mənə çevrilib gülümsədi. – Salamat get. Mədətə özüm zəng edib tapşıracam səni, arxayın ol.
Bir daha təşəkkür edib sağollaşdıq. Məryəm onun arxasınca qapını bağlayıb mətbəxə keçdi.
Otaqda var-gəl edib fikirləşirdim ki, görəsən, Aliyə kimi anam da Marqo barədə eşitmişdi, yoxsa, elə Aliyənin Rasimlə him-cimini bilib ürəyi partlamışdı? Yox, Marqo söhbəti qulağına dəysəydi, arvad düz gələrdi Bakıya, mənim abrımı bükərdi ətəyimə. Lap institutdan da çıxartdırıb apardı kəndə, vallah edərdi. Demək belə çıxır ki, Aliyə mənim acığıma Rasimə qoşulub qaçıb. Sevgisiz, toysuz-filansız...

Məryəm çay gətirdi. Nə mən, nə də o həyacanı gizlədə bilmirdik. Səssiz-səmirsiz məni süfrəyə dəvət etdi. Məni ovutmaq, sakitləşdirmək istəsə də münasib söz tapmayıb susurdu. Çayımızı içib qurtaran kimi, yuyub-ütülədiyi paltarlarımı səliqəylə çantama yığdı, kitab rəfində gizlətdiyi pulumun qalanını da götürüb mənə uzatdı, "gərəyin olacaq" dedi. Sonra divanı açıb yataq saldı. İşığı keçirdim...
Yenə həmən sərhəd. Heç birimizin toxunmaq, uçurmaq istəmədiyimiz sərhəd. Arxamı ona sarı çevirsəm də dodağım

dodağının, sinəm döşlərinin hərarətini duyur, nəfəsini, ürəyinin həyacanla vurduğunu hiss edirəm. Qoynuna sarılıb bir olmaq, bütöv olmaq istəyirəm. Bəlkə də son dəfə onu istəyirəm, istəyirəm...

Bir də fikirləşirəm ki, Aliyə mənim olmadısa daha Məryəmlə, nə də Marqoyla görüşmək də qismətimə yazılmayıb mənim. Bu məşəqqətli həyatın çalın-çarpaz yolları, cığırları olsa da, nə bizim izimiz ora düşəcək, nə də səmtimiz ordan keçəcək. Çünki, eyni günə, eyni saata, eyni nömrəli vaqona aldığımız biletlər başqa-başqa istiqamətlərə gedən qatarlara imiş...

Mənə elə gəldi ki, qaranlıq çökən kimi içini kədər boğan, özgə adıyla var olan Məryəm əridi, yox oldu, öldü. Kimliyini, adını, uşaqlığını, sevgisini həmişəlik itirmiş Marqo yenidən doğuldu mənimçin. Bu dəm Məryəmin ılıq nəfəsini dodaqlarımda hiss etdim. Sanki uzun illər aramıza çökmüş qatı duman çəkildi, sərhəd uçub dağıldı. Zülmətə dönmüş otağa işıq doldu. Bu işıq ehtirasdan alışıb yanan Məryəmin gözlərindən suzulürdü. Sanki zülmətə güc gələn bu işıq, xatirələrdə yaşayan dəli bir eşq macarasının parıltısıydı...

Eşq macarasının son parıltısı...

## Bu dünyaya xoş gəldin, qardaşım.

Qapı üzümə elə çırpıldı ki!

Səhər açılar-açılmaz ölü bir sakitliyin bu cürə pozulacağını heç ağlıma da gətirməzdim.

Aramızda təkcə iri dəmir darvaza olan gül mağazasının satıcısı Diana, hövlnak, cərgəylə düzülmüş maşınların arasıyla qaçanda da buna məhəl qoymadım. Diananın iti yerişi, qıvraq hərəkəti olduğundan fikirləşmişdim ki, yəqin nəyisə maşınında unudub, dəli kimi qaçır, ona görə bazarın qarşısında nə baş verdiyini hiss etmədim.

Örtülmüş qapını açdım, ətrafa nəzər salıb anlamaq istədim, görəsən bu ağır qapı niyə bağlandı, axı içəri təzəcə girmişdim, hava da küləkli deyildi?

"Bu qız niyə avtobus dayanacağına tərəf qaçır?"

Elə bunu müşahidə edirdim ki, gül dükanının çilik-çilik olan pəncərəsindən rəngbərəng gül-çiçəklər, vazalar, suvenirlər küçəyə səpələndi. Bir-bir, iki-bir bazara gələn müştərilər gözlənilməz gül yağışına mat-məəttəl qalmışdılar. Qırılmış şüşələrdən ehtiyat edərək mağazadan uzaqlaşıb insidentin nəylə qurtaracağına tamaşa edirdilər.

İndi hər şey aydın oldu. Tanınmasınlar deyə başlarına toxunma yun parçadan qara rəngli maska keçirmiş, didilmiş dəliklərdən ancaq gözləri və dodaqları görünən yekəpər cavanlar ağır, uzunboğaz çəkmələriylə, əllərindəki beysbol dəyənəyilə qarşılarına keçən nə vardısa qırıb tökür, piştaxta arxasında, palatkalarda al-ver edən həmyerlilərimi kötəkləyirdilər. Beşcə dəqiqə keçmədi ki, banditlər bütün bazara hakim kəsildilər. Döyülənlərin ahu-zarı, zarıltısı tük ürpədirdi.

Son vaxtlzar yerli əhali belə vandalizmə, özbaşınalığa öyrəncəli olduğundan kənara çəkilib, sanki tamaşanın nə vaxt qurtaracağını gözləyirdilər. Yaxşı bilirdilər ki, ayının min oyunu bir armudun üstündədi; dükanları dağıdıb-söküb, qaralardan kimisə şil-küt edib sakitləşəcəklər, sonra da bazarda heç nə olmyıbmış kimi şıdrığı alver gedəcək.

Mədətin dediyi kimi belə vəziyyərdə, çox da qoluna güvənmə, qaçmaq da bir igidlikdi deməsi yadıma düşdü. Ayağımın altına tüpürüb Diana tərəfə götürülmək istəyirdim ki, qəflətən dükanımın sağ tinindən çıxan iki maskalının dəyənəyinə tuş gəldim. Başımı qorumaq üçün qollarımı sinəmin tarazında qabağa verdim. "Gupp... gup-gup-gup!... " Biləyimə dəyən zərbənin səsi beynimdə guruldadı. Artıq, Mədətin ağıllı məsləhətinə yer yoxuydu. Növbəti zərbə ölümcül də ola bilərdi. Məndən bir az boyca balacanın dəyənəyini göydəcə qapıb var-gücümlə ikinci banditin qolundan elə vurdum ki, əlindəki silahı

yerə düşdü. İkinci zərbəm onu yerə yıxdı. Onlara müqavimət göstərməyə kiminsə cəsarət edəcəyini gözləməyən nəinki banditlər, tamaşaçı kimi bu fəlakətin nə vaxt sona çatacağını izləyən yerlilər də mənim bu hərəkətimdən elə çaş-baş qalmışdılar ki, guya biz qafqazlılar elə döyülüb-söyülməkçin doğulmuşuq. Ay, siz öləsiz!..

Metronun ərazisində, bazara yaxın ətrafda gəzişən milislər heç nə olmayıbmış kimi baxır, xata-baladan özlərini uzaq tutmağa çalışırdılar. Lap “dəvə gördün... ” kimi.

Hövsələdən çıxan banditlər mənimlə döyüşə-döyüşə tez-tez şossenin kənarındakı ağaclığa tərəf baxır, sanki, onların bu hala düşdüyünün kiməsə xoş gəlməyəcəyini düşünüb nəyin bahasına olursa olsun məni təslim etməyə çalışırdılar.

Hələ ki ağlım üstümdəydi. Arada özümü gözlənilən hər hansı zərbədən yayındıraraq onlar baxan istiqamətə göz gəzdirirdim. Ağacların altında, yolun kənarında park olmuş çoxlu maşınlar dayanmışdı. Necə oldusa, bir anlıq, o qədər maşının arasında düz bizə baxan, yan şüşələri yarıaçıq qara “Ceep” gözümə sataşdı. Qəfil bağlanan pəncərənin arxasında, yəqin ki, bayaqdan bu mənzərəni müşahidə edən qara eynəkli adamın yox olmasıyla maşının şosseyə çıxıb şütüyən avtomobillərin arasında gözdən itməsi bir oldu.

Çoxdan idi belə əl-ayaq açmamışdım. Elə bil əlimə fürsət düşmüşdü. Bacardıqca onları yaxına buraxmırdım. Əgər bazarı xarabaya döndərib qayıdan yoldaşları köməyə gəlməsəydi.

Altı nəfər başıpozuq pəzəvəng bu kiçik qələbəmi mənə çox gördü. Aralarındakı ayı pəncəli bandit darvazadan çıxan kimi üstümə şığıdı. Bir əlinin ağırlığı beysbol dəyənəyindən də güclü oldu. Qulaqlarımda dəhşətli uğultu hiss etdim. Sinəmə, qasığıma, ayaqlarıma dəyən zərbələrin ağrısını da hiss etmirdim. Gözlərimə qan doldu, başım gicəlləndi. Aləm başıma fırlanır, gözümdə hər şey ikiləşdi, üçləşdi... Yıxıldım...

“Quru yerdə niyə uzanmısan, oğlum, xəstələnərsən axı?!... Heç canına hayıfın gəlmədi sənin... Yazıq balam, gör nə günə düşmüsən? Hansı əli qurumuş qıydı sənə?!. Dur... Soyuqdu, dur, can bala!.. Bəs başındakı qan nədi? Ağzın da, burnun da qandı ki?!. Al-la-hıımm!.. Bu nə haldı düşüb balam?!Mənim yetimimə qıyma, qoyma ölməyə!.. ”

“A-na?.. Ay ana, bu sənsən? Nə yaxşı gəldin, ana, yamanca üşüyürəm... ”

“ Can bala, azarın ürəyimə... ”

“Gəl, yaxın gəl, ana, qucaqla məni, üşüyürəm, çox üşüyürəm axı... Yadindadı, necə bağrına basıb əzizləyərdin, layla deyərdin, mışıl-mışıl yatardım qucağında, yadındadır? Qucaqla, qucaqla məni, ana!.. ”

“Qurbanın olum, əlim çatmır axı?! Mən çox uzaqdayam, çox uzaqda... ”

“Niyə gəlmək istəmirsən? Yeddi qurbanlıq” oğlun tənha qalıb, bilirsən? Gəl apar məni yanına, ana, qucaqla, başımı dizinin üstünə doyub rahat uyuyum... ”

“Yatma oğlum, yatma, anan sənə qurban!.. ”

Qeybdən gələn səslər dağların şiş qayalarıyla öpüşərək əks-səda verdiyi kimi gah yaxınlaşır, gah da yoxa çıxırdı...

Uzaq ulduzların işığı kimi soyuq və kədərli bir işartı görünür, sonra boğulur, əriyir. Sanki gizlənpaç oynayır mənimlə. Axı onu tutmağa, ardınca qaçmağa mənim taqətim nə gəzir? Yenə görünür. Yenə gizlənir, yox olur. Bircə tuta bilsəydim o işığı...

O soyuq ulduzun işığı gizləndisə, bəs, məni üşüdən nədi belə? Qurumuş dodağımdakı, sifətimdəki yaraları sızladan, göynədən nədi? O işığı tuta bilsəydim. Bircə, tuta bilsəydim...

Üzümə çırpılan soyuq su təzəcə qaysaqlanmış yaralarımı titrədəndə bayaqdan mənimlə gizlənpaç oynayan solğun işıq seli şişmiş göz qapaqlarımdan bəbəklərimə doldu. Keyləşmiş çənəmdən yapışıb başımı silkələyən bədheybətin silueti onsuz da sısqalaşan işığın qarşısını kəsmişdi. Bərəlmiş gözlərini

gözümə zilləmiş məxluqun ətli dodaqları açılıb-yumulur, nəsə soruşur, cavab almadığından əsəbləşərək kobud əllərini yaralı sifətimdə oynadırdı.

Sanki dilimi udmuşdum, bir söz deməyə, harda olduğumu soruşmağa halım qalmamışdı. Həmən bədheybət uzaqlaşdıqca işıq doğulurdu...

İliklərimə qədər hopmuş rütubət damarlarımdakı qanı dondurur. Üşütməyə başlayanda taqətimi cilovlayıb yerimdə qurcalanmaq istədim; ayaqlarım keyləşmiş, qollarım qurumuşdu...

Birdən işıq seli lap çoxaldı. Sanki, güclü projektor yandırdılar. Hər tərəf nura büründü və çox keçmədi ki, həmən bədheybətlə bir neçə adamın silueti görünər – görünməz projektor söndü. Təzə gələnlərdən biri də eynən onun kimi çənəmdən yapışdı, amma bir az həlim, ehtiyatla, lap bazarda şaftalı bəyənən kimi, başımı o üz-bu üzə çevirib diqqətlə baxdı, nəsə dedi. Sonra yanındakılara əliylə nə işarə etdəsə hərə bir tərəfə dağılışdı. Az sonra qaçhaqov düşdü, kimi çiynimdəm, kimi keyləşmiş ayaqlarımdan qaldırıb bərk bir şeyin üstünə qoydular...

Gözlərim qapanırdı. Yaralarımı oxşayan sərin meh əzələlərimi oynatdı. İçimə qorxunc bir titrəyiş doldu. Hara aparırdılar məni?!...

“Sən bilirsən cənnət hardadı?”

“Əlbəttə bilirəm”.

“Hardadı ki?... ”

“Biz olmayan yerdə... ”

“Bəs cəhənnəm?... ”

“Biz ordayıq”

“Hələ bu harasıdı. Sən bu vaxtacan cəhənnəmin astanasında olmusan. Əsl cəhənnəmə indi girəcəksən, indi... ”

“Yox! İstəmirəm, nə cənnəti, nə də ki, cəhənnəmi. İs-tə-mirəmmm! Elə bura da mənimçin yaxşıdır. Əl çəkin yaxamdan!”

“Sizin seçiminiz yoxdu axı? Özünüz heç nəyi seçə bilməzsiz. Sizi seçirlər, başa düşürsən, sizi!... ”

“Sizi, yəni kimi?”

“ İnsanları. ”

“Axı bütün insanlar eyni deyil?”

“ Hamısı eynidir. Siz hər şeyi səthi dərk edirsiniz. Ali idraka yetişməyən məxluq kimi!”

“Sayıqlama! Bir ətrafına bax, hamı eyni olsaydı nə vardı ki?! Haqsızlıq baş alıb gedir, Tanrı ipini buraxıb dünyanın. İblis ona sahib çıxıb. ”

“Yanılırsan, ay bədbaxt! Kimdi axı səndən fərqlənən?”

“Sən ki, kamilsən, bəs gözlərin niyə tutulub? Görmürsən, birinin qılıncının sağı da kəsir, solu da. Çoxları qan qusur, dərdinə əlac da tapılmır. Şərəfsizlik, eybəcərlik basıb dünyanı öz altına. ”

“İnsanın öz faciəsini nəfsiylə yaradıb. Var-dövlətlə başqalarından seçilənlərə həsəd aparanların bir dünyası var– cəhənnəm! Cənnəti də onlar təsəlli üçün uydurublar. Əgər sənə süd gölündə üzənlərin cənnətini göstərsəm öz cəhənnəminə şükr edərsən!”

“İstəmirəm, heç birini istəmirəm!... ”

... İndi mənimçin fərqi yoxdu hardayam. Özümü o qədər yüngül, rahat, qayğısız hiss edirəm, lap qu tükündən hazırlanmış döşəkdə yatdığım kimi. Bilmirəm, bəlkə də ölümdü bu? Olsun, mən ki, rahatam, çox rahat! Necə də sakitlikdi! Mənasız çırpıntılar, əlacsız ağrı-acılar, dedi-qodular, yalan və riyakarlıq, çəkişmələr, xəyanətlər, dartışmalar, müharibələr... hamısı orda qaldı, orda. Heç yuxu da görmürən – nə şirinin, nə acısın.

...Yenə süzülür o işıq – solğun və soyuq. Rəngini ayira bilmirəm; gah çəhrayıya çalır, gah sarıya, gah ağarır, gah da qaralır. Fərqi nədir ki, işıq elə işıqdı. O varsa, deməli qayıtdım – ağrilarıma, acılarıma qayıtdım. Ulduzlar kimi uzaq və soyuq işıq seli çoxaldıqca, başımın üstündə asılan iri şüşə qablardan şəffaf şlanqlara süzülən damcıları, solumda, pəncərə tərəfdə

başını sinəmə əyib gözlərimə baxan ağ papaqlı, saqqallı həkimi, əsəbi halda var-gəl edərək pəncərədən süzülən işığın qabağını kəsən orta yaşlı, ağ xalatlı kişini, sağ tərəfimdə mənə təzəcə iynə vurub işlətdiyi şiprisi və sınıq ampulaları yanındakı cavan qıza verən yaşlı tibb bacısını aydınca görməyə başlayırdım. Onlar nəsə danışırdı. Səslər astadan gəldiyi kimi o qədər qarışıq idi ki, qulaqlarıma çatmamış qırılıb havadaca itirdi. Bir də, bir də ki, telefonun o başından gələn qırıq-qırıq siqnala bənzər ürək çəkən, can üzən səslər: du, du, du...

Xəstəxanada olduğuma əmin oldum. Bura necə və niyə düşdüyümü anlaya bilmirdim. Saqqallı həkim dikəldi, bir az məndən aralanıb bayaqdan narahat və əsəbi görünən kişiyə yaxınlaşıb nəsə dedi. İynənin təsirindən gözlərim qapanırdı. Palatanın divarları yavaş-yavaş bozarır, içəridəkilər işığın zəifləyən şüasında kölgəyə dönürdülər...

***

– Şükür, axır ki, ayıldı! Mən professora xəbər verim!

– Professor gələnə kimi, onu görə bilərəm?

– Xahiş edirəm, gözləyin bir az. Çox güman ki, mənim işdən qovulmağımı istəməzsiz?!

– Siz nə danışırsız. Əlbəttə yox. Mən gözləyərəm...

Palatanın qapısı ağzında tibb bacısıyla təmiz Moskva şivəsində söhbət edən naməlum kişinin səsindəki həyacan onu görmədən belə hiss olunurdu. Kim idi mənim ayıldığıma sevinib içəri can atan? Mədət, ya da Vəfadar? Əlbəttə ki, onlar olacaq. Burada məni onlardan başqa kim tanıyır ki?! Gör nə qədər yatmışam ki, ayılmağıma belə sevinirlər. Yəni, ayılmaya da bilərdim?!

Tibb bacısının xahişinə baxmayaraq palatadan uzaqlaşmadığını, aralı qalmış qapıdan mənim çarpayıma nəzər yetirməsini siqaret çəkən adam kimi öskürməsindən bildim. Birdən yadıma düşdü ki, Mədət siqaret çəkmir, Vəfadar da ara-sıra,

məzə üçün. Həm də Mədətin, elə Vəfadarın da danışığında şirin bakı şivəsi hiss olunurdu. O isə, məncə siqaret alüdəçisiydi və təmiz moskvalı kimi danışırdı. Fikrimdə dolaşan suallar bir tərəfdən, qapı ağzında dayanan naməlum insanın kimliyini bilmək arzusu da bir tərəfdən məni həyacanlandırırdı.

Professorun palataya gəlişi bütün narahatçılığıma son qoyacaqdı. O əlindəki sənədləri diqqətlə nəzərdən keçirəndən sonra cavan tibb bacısına uzadıb bayaqdan onu gözləyən orta yaşlı kişiylə rəsmi qaydada görüşdü – görünür ondan ya ehtiyat edirdi, ya da çəkinirdi – sevincini gizlətmədən mənə yaxınlaşdı

– Bax be-ləə!...– deyib çarpayının kənarında əyləşdi. – Özünü necə hiss erdirsən?-Saqqallı professor ağır çəkili, həm də hündürboy olduğundan ehtiyatla oturmağına baxmayaraq elə bildim çarpayının sol tərəfi azca çökdü. Başını mənə tərəf əyəndə isə enli kürəkləriylə işığın qarşısını elə kəsdi ki, onun arxasınca gələn kişi görünməz oldu. O məni elə diqqətlə süzürdü ki, sanki, indicə qəbirdən xortlayıb çıxmışdım, və hansısa möcüzə nəticəsində sağ qaldığıma necə sevindiyi, onun hələ də təəccübdən parıldayan, tünd yaşılı gözlərində ap-aydınca yazılmışdı.

Professor müayinə edərkən mənə sarı əyilib dikəldikcə onun çiyinləri tarazında gah görünən, gah da itən naməlum kişinin seyrək, qonur saçı, qonur gözləri, nazik burnu nəzərimdən qaçmırdı. Deyəsən, nazik saqqal da saxlayırdı, lap o rəssamlar kimi...

Yenə də mənə gülümsünüb tibb bacısına dedi:

– Hər şey gözlədiyimizdən də yaxşıdı! Daha ağrıkəsici iynələrə ehtiyac qalmır.– Bir də mənə sarı dönüb əlavə etdi: – Ürəyin möhkəm imiş! Yoxsa... Zarafat deyil, on beş gün reanimasiyada... iyirmi gün də ki, palatada... Andrey Petroviç, beş-altı gündən sonra ölümdən qurtulmuş qəhrəmanımızı çıxarda bilərsiz. Qoy bir az da özünə gəlsin.

Axırıncı sözləri arxada dayanıb səbirsizliklə professorun durub getməsini gözləyən kişiyə deyib ayağa qalxdı. Müraciət etdiyi kişiylə sağollaşıb palatadan çıxanda titrək səs eşitdim.

– Bu dünyaya xoş gəldin, dostum!

Professor ona "Andrey Petroviç " deyə müraciət etsəydi belə, bədəninə yaxşı oturmadığından ağ xalatı qara kostyumun üstündən çiyninə atmış qonur gözlü, saçları bir az seyrək, nazik burnunu bir az da qabardan bığ və ancaq çənəsini örtən saqqal saxlamış kişi danışmasaydı, mənə elə gələrdi ki, hələ də dərin bir yuxudayam. Çünki, hərbi formada gördüyüm kimi yaddaşıma hopmuş arıq, çəlimsiz, üzündə pişik tükünə bənzər tək-tük sarı tük bitən on səkkiz yaşlı oğlandan Andrey Petroviçdə əsər-əlamət belə yox idi; kraxmallı köynəyindən, brend kostyumundan, hələ içəri girərkən palatanın divarlarına hopan dərman, tibbi spirt iyini qovan bahalı ətirinin məstedici qoxusundan hiss olunurdu ki, mənə xoşgəldin deyən yüksək təbəqənin nümayəndəsidir – elitadır! Hər şey dəyişmişdi, özgələşmişdi, yadlaşmışdı, təkcə səsindən başqa.

– Sokolov?.. Sokolov! Andrey...

Zarafat deyildi, professorun deməyindən belə çıxırdı ki, mən otuz beş gün özümdə olmamışam. Ona görə də ağzımdan çıxan ilk kəlmələr elə xırıltılı, eybəcər səsləndi ki, öz səsimdən ətim ürpəşdi, elə bildim mənim kimi hamını üşütmə tutdu. Bu lap o dünyadan gələn səsə bənzəyirdi. Andrey isə bircə kəlməmə möhtac imiş deyən, dərindən nəfəs alıb üstümə atıldı:

– Rüfət, qardaşım!...

Bilmirdim mənə tərpənmək, hərəkət etmək olar, ya yox, amma Andrey başımın altındakı yastıqla birgə boynumu qucaqlayandan sonra qollarım özümdən ixtiyarsız onun boynuna sarıldı. Heç birimiz belə görüşəcəyimizi təsəvvür etməzdik. Onun isti nəfəsində gizli bir hıçqırtı duydum, elə bil hönkür-hönkür ağlamaq istəyini içində boğurdu, gizlədirdi. Kövrəldiyini nə qədər gizlətsə də boynumdan süzülən ılıq göz yaşlarını dayandıra bilmədi.

Bütün varlığıma hakim kəsilən sevincin yaratdığı həyacandan ürəyim şiddətlə döyünməyə başladı və mən, sanki ilk dəfə sinəmdə, döş qəfəsinin altında çoxdan yuxuya getmiş bir canlının oyandığını hiss etdim: Gupp... gupp... gupp....

– Bağışla... Bağışla...

Professorun onu tanıdığına tam əmin idim və belə çıxırdı ki, otuz beş günü saatbasaat burda, mənim yanımda olub, deməli ölməməyim üçün əlindən gələni edib. Bəs məndən niyə əff diləyir? Onun günahı nəydi ki? Bəlkə uzun illər məni axtarmadığına, səssiz-soraqsız harasa itdiyinə görə özünü bağışlaya bilmirdi? Axı əlaqələrimizin birdən-birə kəsilməsinə bais olan o idi?! Yaxşı, burda olduğumu hardan bilib, necə tapıb məni?

Bu sualların cavabını onun gözlərindən oxumaq istəyindən kürəyində çalınçarpaz sıxdığım qollarımı bir az boşaldıb kurəyində, çiyinlərində, saçlarında gəzdirdim. Sonra boynuma soykənmiş başını yuxarı qaldırdim. Seyrək kipriklərində donub qalmış göz yaşını barmağımın ucuyla silib gülümsündüm. Bayaqdan bunu gözləyirmiş kimi qırışığı açıldı, məyus baxışlarında işıq yandı, dodaqları qaçanda seyrək bığları bir az da seyrəldi. Soruşdum:

– Nədənsə narahatsan?

Sualıma cavab axtarırdı ki, novbətçi tibb bacısının içəri girib xəbərdarlıq etdi:

– Andrey Petroviç, üzr istəyirəm, vaxtdır. İndi klinikada “sakit saat “ başlayır.

Tibb bacısının qəfil gəlişi cavabdan yayınmaq üçün imkan yaratdı. Növbətçiyə “bu dəqiqə çıxıram “ deyib ayağa qalxdısa da barmaqlarımı ovucundan buraxmırdı. Göz vurdum ki, hər şey yaxşıdır, darıxma.

Andrey o biri əliylə əlimin üstünə vurub çarpayıdan uzaqlaşanda sakitcə, sanki gizli söz deyirmiş kimi başını mənə sarı əyib pıçıldadı:

– Sənə istirahət lazımdı. Özünü qoru.

Andrey səhərisi gün gözəl bir xanımla gəldi. Bir zənbil mer-meyvə, iri ağ zanbaq buketiylə içəri girən kimi yanındakı xanıma məni göstərib qürurla təqdim etdi:

– Soniçka, bu da sənə danışdığım "əfqan" qardaşım!..– Sonra da mənə baxıb incik kimi burnunu salladı. – Olmadı ki, qardaşım, bax, bu olmadı, tez qalx ayağa! Heç belə gözəli görən də xəstələnər?!– Sonyanın qolundan tutub ərkyana əlavə etdi. – Tanış ol, arvadım Sonya.

İlahi, bu nə cazibə, bu nə gözəllik! Mənə elə gəldi ki, Andreydən azca hündür olan bu qadını hardasa görmüşəm, özü də lap yaxından... Yox, canım, başqa şey düşünmə. Qısa vurulmuş bəyaz saçları, iri kiprklərinin arasında parlayan mavi gözləri, balaca burnunun altında qırmızıya boyanmış badamı dodaqları, nazik belinə vurulmuş kəməri, uzun ağ ayaqları harda görə bilərdim axı?!

Yavaş-yavaş ayağa qalxıb onlara yaxınlaşdım. Bu gün bir dəfə həkimin nəzarətiylə xəstəxananın həyətindəki baxçaya düşmüşdüm. Bir balaca başgicəllənməm oldu, sonra ötüb keçdi deyən, gücümə bələd idim, ehtiyatla durdum ki, müvazinətimi itirməyim. Xəstəxana paltarında gözəl bir xanımın qarşısına çıxdığıma görə üzr istəyib əlindən öpdüm. Bu jestim Sonyanın çox xoşuna gəldi, çevrilib Andreyə baxdı, nəzakətlə gülümsədi ki, yəni, görürsən, əsl centlimendi bu "əfqan". Yəqin ki, qafqazlı kişisindən belə diqqət gözləmədiyindən təəccübünü heç gizlətmədi. Arvadının dostu barədə ilk təəssüratından qürrələnən Andrey bu fikrini təsdiqləyirmiş kimi gözlərini qırpıb başını tərpətdi.

– Çox şad oldum, Rüfət, – özümü təqdim edib oturmaq üçün yer göstərdim.

Meyvələri tibb bacısına verib, gözəl gül buketini pəncərənin tiniylə çarpayımın arasındakı tunbanın üstündəki vazaya qoyub palatadaki yeganə stulda oturan Sonya nəhayət dindi:

– Mən səni belə də təsəvvür edirdim. Andrey o qədər səndən danışıb ki?!. – Çaşqınlıqla bir Andreyə, bir də mənə baxıb qəbahət işlədibmiş kimi soruşdu. – “Sən” deməyimə incimirsiz ki?Andrey...

Onun sözünü yarımçıq kəsdim:

-Aramızda iki-uç yaş fərq olar, canım, nə incimək bazlıqdır! Təşəkkür edirəm!...

Elə bu dəqiqə, bu saniyə güzgünün qabağına qaçmaq istədim. Yəni lənətə gəlmiş otuz beş gün məni o vəziyyətə salıb ki, onun gözünə yaşlı, üzgün, dərisi qırışmış kişi kimi gorunurəm?! “Bağışla, sən allah, o mənada demədim” deməsi məni sakitləşdirdi. Dərindən nəfəs alıb ürəyimi toxtatdım, guya ki, hansısa bəladan qurtulmuşdum.

Dünən səhər özümə gələndən sonra Andreyi – Mədəti, Vəfadarı yox, – məhz Andreyi başımın üstündə görməyim, fikrimdə dolaşan cavabsız suallar məni o qədər çaşdırmışdı ki, lap başımı itirmişdim. Klinikanın bağçasında dolaşarkən bazarda Bəxtiyarla olan söhbətimiz yadıma düşmüşdü. Söhbət “Berkut”dan düşəndə, məncə, o demişdi ki, Moskvada yeganə qara “Ceep” ondadı. O gün, hə, o dava düşən gün, uzaqda, dayanacaqdan aralı ağacların altında park olmuş qara “Ceep”i görmüşdüm axı?! Sonra da yoxa çıxmışdı. Yəni... yəni, “Berkut” Andreyin özüdü?.. Özümü üzməmək üçün sualıma cavab almağa bundan əlverişli məqam ola bilməzdi ki, soruşdum:

– Andrey, “Berkut”u tanıyırsan?

O heç halını pozmadan sualıma sualla cavab verdi:

– Nədi ki?

– Heeç...

Sonya ərinin ötərgi, başdansovdu cavabından qismən təəccübləndi, əlini Andreyin dizinə qoyub başını yellədi, yəni, niyə cavab vermək istəmirsən? Andrey qaşlarını qaldırıb gülümsədi ki, istəyirsən sən de.

Sonya :

– Burdan çıxan kimi, – dedi, – sənin şərəfinə təşkil edəcəyimiz ziyafətdə "Berkut"u da görərsən. Şəxsən mən onu səninlə tanış edəcəm – söz verirəm.

Ər-arvadın müəmmalı danışığı düşüncələrimə aydınlıq gətirməsə də, elə başa düşdüm ki, Andrey "Berkut" deyil, amma onlara çox yaxın adamdı, bəlkə də ən əziz adamı. Hər halda mənə elə gəldi.

Sonya mənimlə danışanda nədənsə özünü çox qəribə aparırdı, tez-tez nəzərlərini çarpayının kənarında, yanımda oturmuş Andreyə zilləyirdi, elə bil artıq-əskik hərəkət edib-etmədiyini onun baxışlarından duymaq istəyirdi. O həddindən ziyadə cəlbedici qadın olduğundanmı, yoxsa çoxdan belə gözəl qadınla təmasda olmadığımdanmı, ha illah eləyirdim onun sehrinə düşmüş gözlərimi kənara çəkəm, bacarmırdım. Deyəsən onu da narahat edən buydu. Güclə nəzərlərimi ondan çəkib Andreyə baxanda onun qısqanc baxışlarıyla rastlaşdım. Axmaq vəziyyərdən çıxmaq üçün ilk ağlıma gələn bu oldu:

– Andryuşa, əziz dostum mənim, xəstə adama da bu qədər zülüm edərlər? Başa düşmürəm, necə olub ki, sən indiyə kimi belə gözəlliyin qarşısında əriyib yox olmamısan?!

Hər ikisi qəfil ürəyimdən gələn bu sözlərimi kompliment kimi qəbil edib gülüşdülərsə də bu Andreydən daha çox Sonyaya ləzzət elədi. Mən həqiqətən başqa gözlə baxmadığım Sonyanın gözəlliyinə heyranlığımı belə bildirdim.

Andreyin mənə qısqanmağına haqqı yox idi. Neyləyə bilərdim axı, qadın gözəlliyinin qarşısında səssiz dayanmaq hər kişinin işi deyil! Başa düşürəm, o çox məlahətlidir, boyu da Andreydən hündürdü, güləndə lap Merlin Manroya oxşayır! Hə, lənət şeytana, bayaqdan fikirləşirdim axı bu qadını harda görmüşəm? İndi yadıma düşdü, əlbəttə, kinoda.

Bir tərəfdən Andreyi qınamırdım. Kim nə deyir desin, vallahi-billahi Andreyin yerində mən olsaydım, belə gözəli evdən bayıra buraxmazdım! Hər gözdə bir nəzər var. Bir yandan da fikirləşirdim ki, qısqanc olsaydı mənimlə görüşdür-

məzdi, day, yanına salıb bura gətirməzdi. Yəqin Sonyanın xasiyyəti belədi, nə bilim, belə qəribəydi ee... Hə, bu qəribəliklərdən sonralar xəbər tutacaqdım – onu yaxından tanıyandan sonra.

Həftə boyu hər gün iki dəfə mənə baş çəkən Andrey düz altı gündən sonra yanıma gələndə professorun göstərişinə əsasən bildirdi ki, tibb bacısına tapşırmışam, səhər mənim köməkçim gəlib səni aparacaq. Biz bəzi vacib işlərlə məşqul olacağıq, ona görə səni evdə gözləyirik. Oldu?!

Mən minnətdarlıq edib hər ikisiylə əl-ələ görüşdüm. Qapıyacan yola salıb palataya döndüm. Özümü bir az rahat hiss etsəm də “Berkut”u yadımdan çıxara bilmirdim.

Pəncərənin qarşısında durub eşiyə baxdım; boz bulud topaları qucaqlaşa-qucaqlaşa göy üzünü qapadıqca havanın da əhvalı dəyişir, ağacların çılpaq budaqlarında qalmış tək-tük titrəyən saralmış yarpaqlar öz son saatlarını yaşayırdı...

Səhər duran kimi duş qəbul edib çıxanda baş tibb bacısı xəstəxanadan buraxılmağımla əlaqədar sənədləri gətirib çox nəvaziş və qayğıyla imza atdırandan, palatada mənə aid olan şəxsi əşyalarımı paketə yığıb uğur diləyəndən sonra çıxdı. Andreyin köməkçisini gözləmək çox çəkmədi. Hündürboylu, iri cüssəli, göy rəngli köynək, mavi kostyum geymiş sarışın kişi bir əlində zəncirli kostyum çantası, o biri əlində iki ədəd iri qutu içəri girdi. Ədəblə salamlaşıb gətirdiklərini çarpayının üstünə qoyub xırıltılı səslə dedi:

– Andrey Petroviç göndərib. Siz geyinin, mən aşağıda gözləyirəm.

Beli qırmızı lentlə bağlanmış bəzəkli karton qutuları açdım; nisbətən balaca qutuda qara laklı ayaqqabı və bir cüt qalın corab, o birisində isə təzəcə ütülənmiş ağ köynək, alt paltarı, cib dəsmalı, bahalı qızıl saat mənim üçün göndərilmişdi. Köhnələri çıxarıb təzə paltarlarımı geydim, sonra kostyumu

asılqanından çıxarıb əynimə taxdım – düz əynimə tikilmişdi. Qəribəydi, mənim ölçülərimi hardan bilirdilər axı?...

Cəld köhə pal-paltarı, boş qutuları iri paketə qoyub palatadan çıxdım. Uzun dəhliz boyu gözümə dəyən bir neçə həkim və tibb bacılarıyla sağollaşırdım ki, mərtəbə üzrə növbətçi olan cavan tibb bacısı məni görən kimi oturduğu masanın arxasından durub əlimdəki paketləri aldı, daima xəstəxana pijamasında gördüyü, indi bəy kimi bəzənmiş xəstəni yuxarıdan aşağı süzüb gülümsədi, qoluma girib liftə çatana kimi müşayət elədi. Hələ bu azmış kimi, liftə minib aşağı düşdü, mənim əşyalarımı düz maşına qədər apardı. Cavan qıza qayğıya görə təşəkkür edib qara "Mersedes-Benz"in arxa oturacağına yayxandım.

Sürücü – köməkçi kişi bir söz demədi, qarşıdakı güzgüdən mənə baxaraq göz vurdu. Mən də ona gülümsədim. Maşın yerindən götürüləndən beş-on dəqiqə keçməmişdi ki, o, maşını hündürmərtəbəli binanın altındakı salonun qarşısında saxladı. Əvvəlcə çevrilib mənə baxdı, üzümün tüklü olduğuna işarə edib bərbərxananı göstərdi.

– Hə, pis olmaz, – dedim.

Deyəsən çox danışmağı xoşlamayan, ya da onu başa düşməyəcəyimdən ehtiyatlanan köməkçi bircə kəlmə dedi:

– Yaxşı.

Bərbərxanadan çıxanda özümü o qədər yungül hiss etdim ki, sanki yenicə anadan olmuşam!

Belorus şossesndən Böyük dairəvi yola çıxıb daha da sürət götürən "Mersedes" yarım saatdan sonra şossedən sağa burulub qalın küknar meşəsinin içində itib-batan dar asvalt yola döndü. Əsasən, məğrur görkəmli uca şam və gümüşü küknardan ibarət sıx meşəlikdə tək-tük gözə çarpan, əsən yüngül mehin belə əlində aciz qalan ağcaqayınların çılpaq, incə budaqları titrəyir, qara xallı nazik gövdələrində oynayan ağ-boz qabıqları o yan-bu yana yellənirdi. Pəncərəni açdım: içəri dolan yumşaq payız havasını ciyərimə çəkdim...

Andreygilin bağ evi kəndin düz kənarındaydı. Bir az aşağıda meşənin qırağında ovuc kimi görünən balaca gölün düz kənarında, kohnə, taxta və şalbandan tikilmiş göy qübbəli köhnə kilsə gözə dəyirdi. Sürücünün deməyindən gölün o üzündə yaşayan qonşu kəndin cammatı da hər bazar günləri balaca qayıqlarla həmin kilsəyə gəlir, şam yandırır, dua edirlər.

Maşın qırmızı bişmiş kərpicdən tikilmiş hündür hasar boyu gedib iri yaşıl darvazanın qarşısında dayananda sürücü ratsiya ilə əlaq saxladı, bir az keçmiş qarşısında dayandığımız darvaza ağır-ağır açılmağa başladı. Yamyaşıl küknarların arasında yad nəzərlərdən ciddi-cəhdlə gizlənən, damı qırmızı kirəmidli, iki mərtəbəli ev ilə üz-üzə qalanda məni heyrət bürüdü. Bura lap nağıllardakı malikanələrə bənzəyirdi!...

Geniş, daş döşəməli, kənarları ekzotik ağac və bitkilərlə bəzədilmiş yol bizi düz bu möhtəşəm binanın qarşısındakı mərmər pilləkənlərin kəndarına aparırdı. Həyətin sağ tərəfində o faciə baş verən gün nəzərimdən qaçmayan tanış qara "Ceep"in dayandığını görəndə həyacanım artdısa da bunu biruzə verməməyə çalışdım.

Qoca bağban səbirlə bağçanın həndəvərinə tökülmüş xəzəli sellofan paketə yığırdı.

İçəri girəndə evin, hasarın tinlərində, həyətdə hərəkətsiz dayanmış qara kostyumlu, əli silahlı mühafizəçilər gözümdən yayınmadı. Nədənsə bu mənzərə mənə "Xaç atası" filmini xatırlatdı.

Maşından düşər-düşməz pilləkənlərlə aşağı tələsən Andrey göründü. Əsl bayramsayağı geyinmişdi: ağ kostyum, ağ köynək, ağ tufli. Ağ rəng ona çox yaraşırdı. Sevincindən iki əlini də havaya qaldırıb üstümə atılaraq şaqraq bir səslə dedi:

– Xoş gəlmisən, əziz dostum!

– Xoş gördük!

Qucaqlaşıb öpüşdük, sonra sol əlini qoltuğumun altından keçrib məni özünə sarı sıxdı. Sürücüyə barmağıyla işarə etdi ki, gözləsin. Hava soyuq olmasa da hələ zəif olduğumu düşünüb

tez evə qalxmağımızı məsləhət gördü. Pilləkənlə qalxarkən özümdən ixtiyarsız yuxarı baxanda ikinci mərtəbənin geniş pəncərəsi qarşısında, bəlkə də bayaqdan bizi izləyən Sonyanın pərdə arxasında gizləndiyini gördüm.

– Əzizim, özünü necə hiss edirsən, yaxşısan? – Andrey soruşdu.

– Sənin kimi dostu olan necə olmalıdır?! – deyib gülümsədim. – Əlbəttə yaxşı!...

– Hələ bu harasıdır, bir az dincəl, özünə gəl, gör biz nələr edəcəyik, uxx!...

Andrey lap uşaq kimi sevinir, özünü o qədər səmimi və sadə aparırdı ki, deməzdin bu cah-cəlal, bu var-dövlət sahibi odur. Başqası olsaydı, yəqin əynimdəki təzə paltarların mənə necə yaraşdığın deyib yada salardı ki, yəni, bunları mən aldırmışam, nə bilim, bəlkə, elə belə də deyərdi. Hətta ata öz oğluna bir təzə şey alanda bununla qürrələnir. Düzdü, o məni başdan ayağa süzüb heyranlıqla gülümsündü, amma bir kəlmə də söz demədi. Bir anlığa düşündüm ki, görəsən Arazın atasının, lap elə Arazın özünün bu boyda imkanı olsaydı özünü necə aparardı? Vallahi-billahi, qudurğanlığından adama salam da verməzdi, mən ölüm!

Evə daxil olan kimi diqqətimi çəkən geniş zalın baş tərəfində qoyulmuş iri, antikvar kəfkirli saat oldu. İşıqlı dəhlizin düz ortasında qədimi dəyirmi masa, masanın o üzündə həyətə baxan pəncərələrin qarşısında divan və kreslolar qoyulmuşdu. Pəncərəylə ikinci mərtəbəyə qalxan pilləkənin arasında içində odun qalanmış soba quraşdırılmışdı. Çırta-çırtla yanan odunları görcək yadıma kəndimizdəki odun sobamız düşdü. İlahi, dağ rayonlarından gətirilən, od qiymətinə aldığımız odunlar dəmir peçimizdə aışıb-yandıqca maşanın üstündə qızdırdığımız boyat təndir çörəyinin, partapartla qovrulan şabalıd, alma, heyva pörtləməsinin iyi gəldi burnuma!..

Pilləkənin altındakı geniş şüşəli qapı mətbəxə açılırdı – iki cavan qızın iri gümüş podnosla həmin qapıdan girib-çıxır,

yuxarı mərtəbəyə cürbəcür təamlar daşıdığını gördüyümdən bu qənaətə gəlmişdim. Qalan üç qapı isə bağlıydı.

Andrey qolumdan yapışıb məni yuxarı dəvət etdi. Yuxarı qatda, Andreyin dediyindən hələ də qapısı bağlı qalan, bir vaxtlar ancaq atasının girib-çıxdığı iş otağı, bir balaca yataq otağı və böyük ziyafət zalı vardı. Kəllə divarın qarşısındaki yaşıl məxmərli bilyard stolundan, zalın ortasında ətrafına stullar düzülmüş nəhəng açılma masadan savayı heç nə yox idi. Ağ örtük sərilmiş masanın mərkəzi tər çiçəklərlə bəzədilmiş, ətrafına o qədər naz-nemət düzülmüşdü ki!

Mənimlə nəzakətlə görüşüb "xoş gəldin" deyən Sonya bizim yuxarı qalxdığımızı gözləyirmiş kimi uzrxahlıq edərək bizdən aralandı, xidmətçi qızlara bəzi göstərişlər verib alt mərtəbəyə endi.

Gözlərimə inana bilmirdim, sanki nağıllar aləminə düşmüşdüm. Həyatımda belə təm-taraq görmədiyimdən heyrətimi gizlətməyə çalışsam da bacarmırdım, gözlərim gah ora, gah bura baxır, ürəyim çırpınırdı. Həm də fikirləşirdim ki, bu qədər imkanı olan Andrey niyə ziyafəti restoranda deyil öz bağ evində təşkil edib? Heç ona da ehtiyac yox idi, məncə, elə ikimiz olsaydıq, oturub dərdləşsəydik, olmazdımı? Bir də ki, mənim ziyafətlik halım nə gəzirdi?!

Andreyin qəfil sual yağışına tutması məni fikirdən ayırdı.

– Danış görüm, evlisənmi, neçə uşağın var? Yadındadır, deyirdin ki, dörd uşaq istəyirəm, yadındadır?! Siz qafqazlılar uşaq sevənsiz axı?!...

Könülsüz cavab verdim:

– Hə...

– Nə hə? – Cavabım onu qane etmədiyindən təəccübləndi.

– Yənii, çox uşağı xoşluyuruq biz.

– Bəs sən?

Ona necə deyəydim ki, bu barədə danışmaq, düşünmək belə istəmirəm?! Öldü mənim sevgim, arzularımı dəfn etdim, özü də çoxdan!

– Evlənməmişəm... Alınmadı mənimki...

“Sən, indiyə kimi subay? İnanmağım gəlmir!”demək istədi, amma üzümə diqətlə baxandan sonra hiss etdi ki, bu mövzu mənə çox toxunur, ona görə də söhbətin məcrasını dəyişdi.

– Bağışla. – deyib əlini çiynimə qoydu.

Hələ ki, ikimiz idik. Mədətlə köhnə ünvanında onu necə axtardığımızdan, qonşu qadının “onlar daha burda yaşamırlar” deyib bizi necə məyyus etdiyindən, İsraildə əməliyyata aparıldığından, bəlkə qayıdıb deyə, sonralar dəfələrlə həmən ünvana getdiyimdən danışdım. Axtarışlarım heç bir nəticə vermədiyindən, əlimin hər yerdən üzüldüyünü, onu həmişəlik itirdiyimi zənn etmişdim. Danışdıqca, Andreyin pərişan olduğunu hiss edirdim. Onu tapmaq, görüşmək üçün çəkdiyim əziyyətlər onu mütəəsir etmişdi. Günahkar kimi üzrxahlıq edib əllərini sıxdı.

– Bağışla, Rüfət, – dedi. – Gərək belə olmayaydı. Bir də, hər şey o qədər gözlənilməz oldu ki?!.

– Eh, Andryuşa, özünü üzmə, sənin heç bir günahın yoxdu.

O bir qədər xəyala dalıb durdu. Sonra başına gələnləri xırdalamağa başladı. Dedi ki, SSRİ dağılandan sonra atamı işdən çıxardılar. Uzun illər yüksək postlarda işləyən kişi buna dözə bilmədi, iki dəfə infarkt keçirdi, müalicə olmağına baxmayaraq o qədər fikir çəkirdi ki, ürəyi davam gətirmədi. Təsəvvür edirsən, ömrü boyu hökümətə işləyəsən, amma sonda, iynə-dərman almağa pul çatdıra bilməyəsən. Kimlərsə etdiyi cinayətlərə görə özünə haqq qazandırıb, ailəsinin gələcəyini düşünərək vicdan əzabı belə çəkmədən haram pul qazanarkən, atam, bəlkə də ömründə ilk dəfə, hamıdan fərqlənən təmizliyinin əzabını çəkir, mənasız yaşadığını anlayırdı. Yaxşı ki, onun tam əksi olan Sonyanın atası vardı, mənə əl tutdu, qaldırdı bataqlıqdan. Mərkəzdəki sən getdiyin mənzil ki var, onu satmaq istəyirdim, qoymadı.

Əfqanıstanda zarafatla ona demişdim ki, atan bizdə nazir işləsəydi, indi, Allah bilir harda kef çəkirdin, daha bu cəhənnəmdə eşələnmirdin. Belə baxanda, sən heç nazir oğluna da

oxşamırsan, vallah; zəifsən, xəstəyə oxşayırsan, elə bil detdom uşağısan, qarın dolusu çörək də yeməmisən ee...

O da cavabında demişdi ki, mənim atam təmiz kommunistdir – əsl leninçi – hökümətin verdiyi maaşdan başqa heç nədə gözü yoxdu. Düzü, mən ona inanmamışdım, çünki inana bilmirdim. O kommunistlərdən bizdə də vardı. Necə ola bilərdi, bizim katiblər, sovxoz direktorları, kolxoz sədrləri, lap məktəb direktorları da onun kimi ciblərində qırmızı partbilet gəzdirir, yeri gələndə dədəsinin canına yox, partbiletnə and içirdi, amma rüşvət də alırdı, lap o yana da keçirdi, amma Andreyin atası təmiz kommunist – Leninçi idi?! Bəs onda bizimkilər kim idi?

Uzun sözün qısası, SSRİ boyda dövlətdə sayılıb-seçilən nazir oğlunun hərbi xidmətdə, özü də Əfqanıstanda olması məni lap çaşdırmışdı onda.

Andrey qayınatasının köməyi ilə balaca sex açıb işlətməsindən, sonra Polşadan, Finlandiyadan defisit mallar gətirməsindən söhbət açdı. Dedi ki, ölkəni xaos bürüyəndə, qarşıma bir məqsəd qoydum ki, nəyin bahasına olursa-olsun, nəyə qadir olduğumu sübut etməliyəm. Atamın düşdüyü vəziyyət onun ölümündən sonra mənə dərs olmuşdu; hökümətə inamım sıfra enmişdi, hamıdan, köhnə tanışlardan, atamın dostlarından uzaq gəzirdim. Özüm, özümü təsdiq etməliydim. Necəsini isə bilmirdim. Çox düşünüb-daşınırdım, başımı itirmişdim. Və bir gün, həvəssiz divanda uzanıb baxdığım film bütün düşüncələrimi alt-üst etdi. Yaxşı xatırlamıram o filmin adını, amma orda cərəyan edən hadisələr mənə necə mübarizə aparmağın, necə yaşamağın yolunu göstərdi, gözlərimi açdı...

Getdikcə həyacanlanan Andrey, arada masaya soyuq qəlyanaltılar düzən xidmətçi qızların otağa girub-çıxdığına da məhəl qoymadan səsini ucaldırdı.

– Bax, – dedi, – bu gün, pis-yaxşı, nəyə nail olmuşamsa, elə bilirəm ki, həmən filmin davamıdır... Amma bu filmi mən çəkmişəm, mən! Ətrafım, dostlarım, var-dövlətim. Hər şeyim

var. O xəstəyəbənzər, zəif, aciz bəndəniz filmin ilk seriyasında qaldı. Mən o seriyanın bütün lentlərini yandırmışam, Rüfət, yandırmışam!...

Keçmişını xatırlamaq onu haldan-hala salsa da, ardınca əsl mətləbin üstünə gələcəyinə əmin idim. Lakin, mənim maraqla, həyacanla dinlədiyim söhbətini qəfil kəsdi, əhvalı da tamam dəyişdi, gülümsəyib bu söhbətin mənə necə təsir etdiyini öyrənirmiş kimi gözlərimin içinə baxdı. Orda nə oxuya bildi, deyə bilmərəm, amma, dəqiq nəsə oxudu, sanki məni intizarda qoymaq üçün dedi:

– Axşam səni ən yaxın dostlarıma təqdim edəcəm. Bilirsən, əslində onlar səni tanıyırlar– qiyabi. İndi də qoy görsünlər, əsl dost necə olar!

– Andrey, əziz dostum, bu təm-təraq nəyə lazım idi? Məni utandırırsan...

O sözümü yarımçıq kəsdi:

– Boş şeydi. Gəl bu barədə danışmayaq, oldu?!

Çalışırdım ki, hər sözümdə, hər hərəkətimdə ona göstərdiyi qayğısına görə minnətdarlığımı bildirim. Hər dəfə də “bu nə söhbətdi”, “məni utandırma”, “axı mən neyləmişəm səninçün?” deyib ağzımdan vururdu. Hər dəfə də ondan nəyə görə əff diləməsini soruşmaq istəyəndə , “sonra”deyib mövzudan uzaqlaşırdı.

İndi isə əmin idim, vacib deyəcəkləri vardı, ona görə sual dolu baxışlarımı ona zilləyib durdum.

Andrey masanın ətrafında var-gəl edir, guya düzülmüş nimçələr, bıçaq və çəngəllər yerində deyilmiş kimi onları tarazlayır, əlini əlinə sürtərək gəzişəndən sonra baş tərəfdə olan stulu altına çəkib əyləşdi, üzbəüz stula işarə edərək oturmağımı istədi. Başa düşdüm ki, o, indiyəcən məni incidən, narahat edən vacib suallardan hansınasa cavab verəcək, mütləq verəcək. Çünki, Andreyin sifətində bayaqki məsumluq, xoşbəxtlik hardasa gizlənmişdi, qeyb olmuşdu. Nədəndi bu gərginlik, bu

tələş? Ovucunun içiylə saqqalını ovuşdurdu, mənim üz-üzə oturmağımı gözləyirmiş kimi söhbətə başladı.

– Rüfət... o qədər deyiləsi sözüm var ki, bilmirəm hardan başlayım. – Seyrək saqqalının, qulaqlarının tərpənişindən gərgin olduğu bilinirdi. Sözlərinə qüvvət verdim ki, elə mənim də...

– Bilirsən, əgər sənə bir şey olsaydı... – O kövrəldi. – Sənə bir şey olsaydı özümü bağışlaya bilməzdim, heç vaxt bağışlamazdım...

– Hər şey yaxşıdı... Axı... sənin nə günahın var ki?

– Sözümü kəsmə... Bəlkə də indi heç yeri deyil, amma... amma bilməyin vacibdi.

Maraq məni götürdü. Təqribən söhbətin nədən gedəcəyini zənn etsəm də özümü bilməməzliyə vurdum. Soruşdum:

– Nəyi? Məndən gizlətdiyin şeylərmi var? Danış, bir az rahatlaş. Sənin bu halından heç xoşum gəlmir.

O sanki qəti qərar çıxardı, əllərini masanın kənarında çarpazlayıb düz üzümə baxdı, təmkinlə söhbətə başladı:

– Uzun söhbətdi. Hər şeyi danışacam, hər şeyi... Mənə elə gəlir ki, ilk öncə, dostunun kim olduğunu bilməyin vacibdir. Bilmirəm bunu necə qarşılayacaqsan, amma bu həqiqətdi. İstəyirsən mənə nifrət et, istəyirsən bağışla, özün bilərsən. And içirəm ki, sənin bu hala düşməyində mənim zərrə qədər də günahım yoxdu! Sonya xəstəxanada sənə bir söz vermişdi, yadında?

"Dostunun kim olduğunu bilməyin vacibdir" deyəndə dalağım sancdı. Onsuz da qəlbimi sıxan şübhələr, gözümü açıb onu ilk dəfə görəndə, professorun bu naməlum insanla ehtiyatlı davranışında, başımın üstündən əl çəkmədiyini eşidəndə, indi də qara "Ceep"i həyətində görəndə yaranmışdı. Cavab verdim:

– "Berkut"la görüşdürəcəkdin...

– Hə, Rüfət, əzizim, "Berkut" mənəm...

Elə təmkinlə, sakit dedi ki, sanki bütün Moskvanın canına vəlvələ salan bandit dəstəsinin başçısından yox, hansısa

avaradan bəhs edirdi Andrey. Daima fikrimdə dolaşan təxminlər apaydın oldusa da bir xeyli duruxdum. Belə çıxırdı ki, başıma gətirilən müsibətlərin səbəbkarı da, xilaskarı da odur. Bu necə ola bilərdi? Ürəyimdən keçənləri oxuyurmuş Andrey. Dedi:

– Çalışacam qısa şərh edim olanları. O gün Moskvada deyildim. Bilirsən, Sonya Almaniyada müalicə olunurdu, onu gətirməyə getmişdim... Bu əclaflar, – sən onları tanımırsan – əclaflar, yoxluğumda fürsət tapıb özbaşınalıq ediblər... O bazarın sahibini – Tixomiri – tanıyırsan yəqin, eşitməmiş olmazsan... – Başımla təsdiq etdim ki, hə, tanıyıram. – Hə, Tixonun qardaşı mənim adamımın maşınını partladıb, mənim adamımın oğlu da yanındaki iki nəfər qızla tikə-tikə olub. Aralarında nə düşmənçilik var bilmirəm, “Kamar”– ölən oğlanın atası – mənim gəlişimi gözləməyib, beyni qızıb, oğlunun intiqamını almaq üçün bazara basqın edib... Başa düşürsən? Onun bu özbaşınalığı, yekəbaşlığı mənim adıma, mənim reputasiyama zərbə vurub...

Andrey etirafa başlayandan, “mənim adamım”, “burda olmamışam”, “özbaçınalıq ediblər” ifadələrini eşitdikcə gözlərimin qarşısından, bir göz qırpımında pəncərənin şüşəsini bağlayıb gözdən itən, indi bu həyətdə, məhz onun həyətində dayanan qara “Ceep” gəlib keçirdi. Axı görmüşdüm onu? Başa düşürəm deyəsən; hansısa möcüzə nəticəsində sağ qaldığımdan məni tanıyan Andrey öz xətalarını kiminsə adına yazaraq inandırmaq istəyir ki, bu müsibətdə onun əli yoxdu. Necə də axmaq adamam, indiyəcən dərk etməmişəm ki, mənim üçün əldən-ayaqdan getməyin, bu qədər xərc çəkməyin bir səbəbi olmalıdır axı?! Bir tərəfdən də düşünürdüm, əgər Andrey “Berkut”dursa, niyə yalan danışıb özünə bəraət qazandırmağa çalışmalıdır?! Lap ölümcül olsam da sağ qalmışdım, nə olsun? Mən bu qərib diyarda kiməm axı, yeri gəlsə, heç itirib-axtaran da olmaz. Məni, öldürüb Moskva ətrafında hansısa bataqlığa tullamaq çətin iş imiş?! Özü də kim, kim, “Berkut! Bu ki onun

üçün su içmək qədər asandı?! Özbaşınalıq, xaos baş alıb gedən sahibsiz bir ölkədə o qədər izsiz-soraqsız itib-batanlar vardı ki?! Yurd-yuvasından aralı düşən mənimkimilər bu cür aqibətlə azmı üzləşiblər?! Yox, Andrey qarşımda bu vəziyyətə düşməyi özünə sığışdırmazdı, öldürtdürərdi, amma əyilməzdi.

Andrey:

– Moskvaya gələndə, – dedi, – hələ "Şeremetyev"də mənə hesabat verdilər ki, böyük qalmaqal baş verib. "Tixon" da itə dönüb, "bunu belə qoymayacam", deyir. Düz də eləyir. Aramızda razılaşma ola-ola "Kamar" bu razılaşmanı pozub...

Pilləkəndə dikdaban ayaqqabının tıqqıltısı eşidiləndə sözünə ara verib səsə tərəf boylandı. Mən də döndüm, bir az keçmiş Sonya zalın o biri başında göründü.

– Əzizim, – nazlana-nazlana Andreyə yaxınlaşıb əllərini onun çiyninə qoydu.– Qonağımız hələ tam sağalmayıb, sənsə onu söhbətlərinlə üzürsən. Belə olmaz axı? Dostun bizim barədə nə fikirləşər? – Bunu mənə baxaraq söylədi. Davranışında bir sünilik, səsində kimə ünvanlandığını başa düşmədiyim yüngül istehza hiss olundu. Bəlkə də mənə elə gəldi; kübar ailədən çıxmış, təkəbbürlü, ərkəsöyün qızların bu tonda danışmasına öyrəncəli olmadığımdan elə başa düşdüm? Andrey başını ona tərəf qaldirıb könülsüz gülümsəyərək dedi:

– Əzizim, narahat olmağa dəyməz. Mən "Berkut" barədə danışırdım.

Sonya incimiş uşaq kimi üzünü turşudub əllərini onun çiyninə döyəclədi.

– Yaramaz. Sən mənim sürprizimi korladın. Küsdüm səndən, uff...

– Soniçka, əzizim, bağışla, belə yaxşıdı, mən gözləyə bilməzdim, başa düşürsən?

Ərinin nəvazişindən əriyən Sonya başını yellədi ki, "hə, başa düşdüm", sonra da qapıya sarı üzünü çevirib xidmətçi qızı səslədi. Onun çağırışıyla pilləkənin başında görünən bəstəboy qızcığaz çaşqınlıqla təzim edib soruşdu:

– Eşidirəm, Sonya Markovna?
– İki fincan qəhvə gətir...
Lyuda:
– Siz ?..
– Yox, mən aşağıda içərəm. Qoy kişilər rahatca dərdləşsinlər.

Bunu deyəndə Andreyə baxdı; bu o demək idi ki, söhbətinizi davam etdirin, mən getdim.

Xidmətçi qız təzim edib aşağı düşdü, arxasınca da Sonya.

Elə bil o da mənim kimi Sonyanın otaqdan çıxmasını gözləyirdi ki, yarımçıq qalmış söhbətinə qayıtsın. Masanın ətrafına fırlanıb düz yanımdakı stulu çəkib oturdu. Sonra siqaret yandırdı. Birinci dəfəydi omu siqaret çəkən görürdüm. Təəccübləndiyimi görüb dedi ki, yavaş-yavaş tərgidirəm. Xüsusi bir zövqlə tüstünü ciyərinə çəkdi, ikinci qullabı da vurub siqareti külqabında söndürdü, "bəsdi " dedi. Söhbətini davam etdirib məni ölümcül vəziyyətdə görüb tanıdığından, anqardan "Təcili yardım " xəstəxanasına necə çatdırdığından danışdı.

Özü barədə bu qədər ətraflı danışmağına baxmayaraq hələ də inana bilmirdim ki, qarşımdakı Andrey, uzaq 1980-ci ilin yazında, kazarmanın tualetində məndən imdad diləyən o aciz, sanki xəstəlikdən zəif düşmüş arıq oğlanın özüdür. Andrey hər şeyin nöqtəsini qoydu.

– Rüfət, – dedi, – dediyim filmə baxdığım zamanlar buralarda it də yiyəsin tanımırdı. Kim nə istəyirdi onu da edirdi. Mən də risk edib bu yolu seçdim... Bilirəm, indi fikirləşirsən ki, bu can-cəsədlə bunlara necə nail oldum?! Bilirsən, Rüfət, belə işlərdə ağıllı olmaq kifayətdir... Sonyanın atasından əlli min dollar pul götürüb ətrafıma qoluzorluları, idmançıları, "əfqan"ları yığdım. Başlanğıc çox çətin oldu. Xırda reketlik edir, nüfuzumuzu, gücümüzü göstərirdik, çoxları bizdən qorxur, bizimlə razılaşırdılar. Amma sonralar, laxlayan hökumətin də bizim hərəkətlərimizə göz yumması əl-qolumuzu açdı,

özümüzü təsdiq etdikcə biznesimiz çiçəklənirdi. Əlbəttə, bəzi kriminal dairələrin xoşuna gəlməsə də biz öz sözümüzü demişdik artıq. Qarşımızda heç bir maneə yox idi, çünki hamını satın almışdım. Pulun qarşısında butun səddlər əriyirmiş, dostum, bütün səddlər!

Yenə də dilimin ucuna "mafiya" kəlməsi gəldi və mən bunu heç pıçıldamadım da. Amma Andrey mənim sözümü təkrarlayırmış kimi başını tərpətdi.

– Hə, mafiya !

Bu dəm xidmətçı qız bizə yaxınlaşdı, gətirdiyi iki fincan kofe və perojnaları qarşımızdakı desert nimçələrinə qoyub çıxdı. O kofedən bir neçə qurtum aldı, yenə siqaret yandırıb soruşdu:

– Məni bağışlaya bildinmi?

Məndən hansı cavabı gözləyirdi, bilmirdim, amma bir anlıq mən də ömür kitabımın ədalətli-ədalətsiz, acılı-şirinli, haqlı-haqsız anlarını vərəqlədikdən sonra anladım ki, Andreyin yandırıb külə döndərdiyi filmin birinci seriyasını həmişəlik unutmaq daha yaxşı olardı. Həmən seriyada mən də vardım – əhdinə sadiq qalmayıb öz sevgisinə xəyanət edib özgələrini suçlayaraq intiqam alan, həm də qəddarcasına öldürdüyü, bəlkə də günahsız bir insanı it leşi kimi dəniz sahilində qoyub qaçan əclaf... Bəli, mənim də filmim indi başlayacaqdı. Çünki ikinci seriyada bütün kartlar açılır...

– Hə, – dedim.

Andrey tüstülənən siqaretini külqabına atıb ayağa qalxdı, boynuma sarılıb məni qucaqladı.

– Dostum! – dedi. – Nə yaxşı ki, sən varsan!

– Andrey...

– Heç nə demə, xahiş edirəm, daha dinmə. Sən ki, məni bağışlaya bildin, bəsimdi. Yoxsa, yoxsa ömrüm boyu əzab çəkərdim. Buna inan.

– Bu bizim taleyimizdi, bizim...

– Bir də... onu bilmək istəyirəm – mənimləsən?

– Hə, – dedim. – Bu bir kəlmə məni hara aparacağını dərk etmədən, bəlkə də keçmişimdən qaçıb gizlənmək üçün dedim. Özgə nə deyə bilərdim.

Kofe fincanlarımız boşalana kimi heç birimiz danışmadıq. Fikirləşirdim ki, görəsən Andrey mənim barəmdə nə düşünür? Bu anda onun ürəyini oxumaq istəyi o qədər güclüydü ki! Heç nə yox, bütün bu yaşadıqlarımdan sonra belə asanlıqla onun yanında olmaq, ona xidmət etmək üçün razılığa gəlməyimə necə baxırdı? Bəlkə elə başa düşür ki, çıxılmaz vəziyyətə düşdüyümdən bu qərarı verdim, ya da ətrafından, gücündən, silahlı başkəsənlərndən ehtiyat edib ona yaxınlaşıram?.. Əşi, nə düşünür-düşünsün, mən onu bilirəm, hətta əminəm ki, onun da mənə ehtiyacı var. Mənim nəyə qadir olduğumu yaxşı bilirdi. Amma bunu birinci seriyadakı aciz, sahibsiz, qorxaq Andrey bilirdi. Bəs bu boyda meqapolisin yarısından çoxunu barmağına sarıyan, az qala bütün güc strukturlarına da təzyiq və təsir edən, xarici banklara milyonlar yatıran Andrey nə bilir, nə düşünürdü mənim barəmdə?!

Sonya, ətrafında xidmətçi qızlar zala daxil olub Andreyə bildirdi ki, tezliklə qonaqlarımız gələcək, aşağıya düşüb onları qarşılamaq lazımdı. O düz demişdi; alt mərtəbəyə enəndən heç on-on beş dəqiqə keçməzdi qapıda dayanmış mühafizəçi darvazanın qənşərində dayanan maşınlar barədə məlumat verdi.

– Şef, İsaak Romanoviç, Tamara Vasilyevna, Qennadiy Plotonoviç, Raisa Semyonovna təşrif buyurublar, buraxım?..

– Əlbəttə, əziz qonaqları gözlətmək olmaz, – deyib onları qarşılamaq üçün həyətə çıxdı. Mühafizəçi darvazaya sarı götürüldü. Məni gətirən “Mersedes” hələ də qapıdaydı. Nə sürücü, nə də bayaqdan bağçada gül-çiçəyə qulluq edən bağban gözə dəyirdi. Nədənsə, evin həndəvərində fırlanan silahlı mühafizəçilərə küçəyə çıxmağı tapşırdı. Qonaqlar bir-bir balaca qapıdan həyətə daxil olurdular. Onda başa düşdüm ki, mühafizəçilər küçədə dayanacaq maşınların və sürücülərin təhlükəsizliyini qorumaq üçün tapşırıq alıblar.

Andrey qonaqları nəvazişlə qarşılayıb hər biriylə görüşərək "xoş gəlibsiz" deyib evə dəvət edirdi. Xanımları qarşılamaq üçün Sonya da pilləkənin başında göründü. Bir azdan beş nəfər də təşrif buyurdu. Onların arasında yeganə tanıdığım adamı – saqqallı professoru görəndə sevindim, çünki, xəstəxanadan çıxanda işdə olmadığı üçün onunla xüdahafizləşməmişdim. O məni görəndə əziz bir dost kimi bağrına basıb görüşdü. Üzrxaxlıq etdim ki, bağışlasın, elə bilmişdim onu bir daha görməyəcəm. Professor qəh-qəhə çəkib güldü ki, hələ indiyəcən həkimdən, bir də prokurordan heç kim sığortalanmayıb. Hamı gülüşdü.

Qonaqlar plaş və paltolarını, (bəziləri yaşlı olduğundan, hava soyuq olmasa da qalın geyinməyi üstün tutmuşdular) xidmətçı qızlara verib yuxarı qata qalxdılar.

Nəhayət, dəvətli qonaqlar hamısı – onlar on iki nəfər idi– süfrə ətrafına yığışdı. Andreylə Sonya bir də qonaqları salamlayıb əyləşmələrini rica etdilər. Mən Andreyin yanında əyləşdim. Xidmətçi qızlar soyuq qəlyanaltılardan nimçələrə çəkir, içki süzür, qonaqları əyləndirirdilər.

Hiss olurdu ki, bütün qonaqlar bu evə, ailəyə bələd olduğundan, özlərini çox sərbəst aparırdı. Yeyib-içir, məzəli-duzlu əhvalatlar danışır, bu kampaniyada ilk dəfə olduğumdan məni də darıxmağa qoymurdular. Əvvəlcə professor mənim sağlığıma badə qaldırdı, sonra Andreyin ailəsinə xoşbəxtlik arzuladı. Biz təşəkkür edib professorun məndən ötəri çəkdiyi əziyyətə, qayğıya görə minnətdarlıq etdik.

Andrey özünü o qədər rahat hiss edirdi ki, kefi yamanca kök idi, hətta arada Sonyayla şit-şit zarafatlaşırdı da.

Onun belə içdiyini bilmirdim. Yadımdadı, bir dəfə – hələ Əfqanıstana göndərməmişdilər bizi – əsgər yoldaşımız Vano Maxaradze evlərindən "pasılka" almışdı. Demə özü bilirmiş ki, pasılkada "çaça" göndəriblər. Yeşık də o qədər ağır idi, növbətçi zabit əlindən almasın deyən, vermişdi serjantımıza ki, gizlətsin, sonra içərik. Tamahkar serjantın deyəsən pasılkanı

qaytarmaq, nə də bölmək fikri yox idi. Bir gün, iki gün gözlədik, amma nə serjantdan, nə də "çaça"dan xəbər çıxdı. Öyrəndik ki, qutunu "kaptyorka"da gizlədir, qapının da açarı cibində. Bax onda köməyimizə Andrey çatdı. "Kaptyorka"nın qapısının üstündə dar uzun şüşə vurulmuş dəlik vardı. Bizim rotada Andreydən arıq, balaca əsgər yox idi – zalım oğlu, elə bil ikilik taxtaydı. Hə, şüşəni səliqəylə çıxardıb həmən dəlikdən Andreyi saldıq içərı, vəssalam, beş dəqiqədən sonra "çaça" olan tuluq əlimizdəydi... Dalına qulaq as, "çaça"nı başqa qablara boşaldıb gizlətdik. Qarşıda may bayramı gəlirdi, onda içərik dedik. Bu hələ az imiş, ağlımıza hardan gəldi bilmirəm, serjanta yanıq verməkçin hamımız bir-bir tuluğun içinə işədik, ağzını bərk-bərk bağlayıb qoyduq yerinə. Təsəvvür edirsən, "mayovka"da serjant o biri rotaların serjantlarını, bizim zabiti "çaça"ya qonaq edirdi, biz isə əsl içkimizi bala-bala vururduq bədənə....

Bircə onu başa düşmədim, daha doğrusu heç kim anlaya bilmədi, tulyqda olan sidiyin qradusu nə qədər olmuşdu ki, serjantlar "açarlarını" itirmişdilər, biz isə onlara baxıb gizlincə gülüşürdük – ləzzət eləmişdi yaman! Bayramın səhəri "podyom"dan sonra kazarmanı başına götürmüş ifunət iyini aparmaq üçün bütün qapı-pəncərələri taybatay açdıran leytenant hələ də ayılmayan serjantın çarpayısına yaxınlaşanda burnunu tutub elə qaçmışdı ki!

Andreyi ilk və son dəfə içən görmüşdüm onda; əllicə qramdan sonra nə hallara düşdü, deyiləsi deyil, bilmədik orqanızmi zəif olduğundanmı "çaça" təsir etmişdi, yoxsa ümumiyyətlə içə bilmirdi – rəngi meyid kimi ağappaq olmuşdu vallah, dedim yəqin öləcək. İndi isə az-az da olsa içirdi, nə üzünü turşudurdu, nə də keflənirdi...

Gözləmirdim ki, mənə sağlıq demək üçün söz verələr. Çox təkiddən sonra dolu badəmi qaldırıb bütün məclis iştirakçılarına xitabən dedim:

– Hamınıza minnətdaram! – Proofessor məndən solda əyləşmişdi deyə, ona təzimlə: – Xüsusiylə sizə, professor! – Andreylə Sonyaya üzümü çevirib əlavə etdim. – Sizin mənə qarşı olan diqqətinizi, qayğı və hörmətinizi ömrüm boyu unutmaram. Çox sağ olun!

Masa geniş olduğundan ancaq yaxında əyləşənlər badələrini bir-birinə vurub cingildədirdi, əlləri çatmayanlar isə badəsini təbəssümlə havada oynadandan sonra içirdilər. Andreydən başqa məclis başlayandan nəzərini məndən çəkməyən, Sonyanın mənə bank sahibi kimi təqdim etdiyi Raisa Semyonovna da mənim yalandan içdiyimi sezmişdi.

Yumrusifət, fındıqburun, yanaqları şərabın təsirindən lalə kimi qızarmış, xüsusi aristokrat ədası ilə danışan, şübhəsiz bu cür məclislərdə daha çox diqqət çəkmək üçün tez-tez filosoflardan sitat gətirən orta yaşlı Raisa Semyonovna təəccübünü gizlətmədi :

– Bu ecazkar oğlan qafqazlılara heç oxşamır! Düzdü, Soneçka? Rus dilində elə səlist danışır ki! Həm də görünür, yüksək mədəniyyət sahibidir. Andryuşa, mən sənə həsəd aparıram. Yox, deyəsən lap paxıllıq etməyə başlayıram....

– Paxıllıq niyə? – Andrey soruşdu.

– Belə dostum olmadığına görə.

– Rüfət bu gündən mənim dostlarımın da dostudur. Hə, Rüfət?

– Əlbəttə.

Andrey mənə baxıb göz vurdu. Sonra dəsmalla əllərini silib boynumu qucaqladı, sakitcə qulağıma pıçıldadı:

– Hə, necədi, xoşuna gəlir?

Mən bir az pörtdüm deyəsən. Raisa Semyonovna da bunu duydu. Mənalı baxışlarını üzümdən çəkməyərək davam etdi:

– Bayaqdan fikir verirəm, dostun bizimlə vurur, amma içmir. Bu da bir taktikadı?.. Bravo!

– Bağışlayın, hələ...

Andrey sözümü kəsib Raisaya, həm də bütün məclisə dedi:

– Rufət onsuz da spirtli içki qəbul eləmir, həm də komadan təzəcə çıxıb, üzürlü sayın, dostlar.

Qonaqlar razılıqlarını bildirdilər. Mən isə Raisanın ürəyindən keçənləri gözlərindən oxuyurdum və məclisin səs-küyündən istifadə edərək ona tərəf əyilib yavaşca:

– Heç bir problem yoxdu, mən sizin qulluğunuzda hazır,– dedim, sonra hamının eşidəcəyi tonda soruşdum: – Siz mənə dostluq təklif edirsizsə?..

Yarızarafat-yarıciddi sualımı verəndən sonra tutuldu, yanaqları bir az da qızardı. Dəsmal götürüb pörtmüş sifətini sildi və sanki indi hiss etdi ki, hamı onun nə cavab verəcəyini gözləyir.

– Elədir ki, var! – dedi, onun fikrinə şərik olacağına əmin olmaq üçün məclisdəkilərə üzünü tutub məmnunluqla təsdiq etdi. – Niyə də yox?!

"Sizin kimi gözəl xanımla bir yerdə olmaq çox xoş olardı!"– demək istədim, lakin susdum. Əvəzində:

– Qəbul oldu, – dedim. Hamı gülüşdü.

Raisanın gözləri işıq saçdı, əlini mənə uzadıb təsdiqlədi:

– Məni utandırmayın, tanrı eşqinə!...

Bayaqdan bunun bir zarafat, bir oyun olduğunu sanan Andrey, söhbətimizin belə ciddi sona çatacağını ağlına gətirmədiyindən qımışdı, sonra da baş barmağıyla Raisa Semyonovnanı hədələyib gülümsədi:

– Ay səni yaramaz Raya, gözümüzün qabağında kişinin saqqızın necə də oğurlaya bildin, uxx! Bankın pullarını xərcləməyə yer tapdın nəhayət. Axı kimin üçün yığırsan o pulları, hə?!.

– Özünə yaraşan kişi tapa bilmir, neyləsin? – bunu başı daz qırxılmış, artistlər kimi parıltılı kostyum geymiş, şişman, amma möhkəm cüssəli Qennadiy Petroviç deyib ayağa qalxdı. Bir qədər sağa-sola baxıb bic-bic gülümsündü. – Biri elə mən. Niyə xoşuna gəlmədim, hələ də bilmirəm. Az qala ayağına pəyandaz olmuşdum. Nə isə... Raya, amma ehtiyatlı ol haa,

qafqazlılar çoxarvadlı olurlar, bir də gördün gəliblər düz banka, səninlə saçyolduya. Ha– ha-ha-ha!..

Andrey tələsik onun narahatçılığına son qoydu:

– Bax, bunu düz tapmadın. Dostum subaydı, deməli saçyoldu təhlükəsi Rayiçkanı gözləmir.

– Oy, ürəyim lap düşmüşdü... Onu da deyim ki, lap uşaqlıqdan saçyoldudan xoşum gəlib.–

Zarafatla Raisa əlavə etdi və mənə baxıb qımışdı. – Həmişə də qalib olmişam.

Hamı gülüşdü. İndi məni heç gözdən qoymayan, hər bir hərəkətimi gözaltı izləyən Raisaya diqqətlə, artıq bayaqkı kimi yox, lap müştəri gözüylə baxdım; gözü-qaşı yerində, nə çox arıq deyil, nə də kök, əsl mən deyəndi, mənə babdı, yaşı da çox olmaz, hiss olunur, çox elə kişi də görmüb. İşgüzar qadındı da, başı qarışıb kasryerasına, kişi yaddan çıxıb. Onda bu karyeradıfilandı, nəyinə gərəkdi ki, ailəsiz, uşaqsız... Arada fikirləşdim ki, görəsən belə qadınlar kişisiz necə yaşaya bilir? Yaşayırmı?

Xidmətçi qızlar yaxınlıqdakı kafedə bişirilmiş kababı süfrəyə gətirəndə, odun közünün, manqalda qızarmış ətin iyi otağı ovsunladı. Demək olar ki, hamı təzə bişmiş kababın ətrindən bihuş olub "bəhə-bəhlə" yeməyə başladılar. Yenə badələrə içkilər süzüldü, sağlıqlar deyildi, billur badələrin cingiltisi eşidildi.

Sonya xidmətçi qızın qulağına pıçıldadı, qız başını tərpədib zaldan çıxdı və bir neçə dəqiqədən sonra məşhur qaraçı mahnısının sədaları eşidildi. Məftunedici "Oçi çyornıye" romansını oxuyan müğənninin səsi getdikcə yaxınlaşırdı. Səsə tərəf döndük – pilləkənlərlə yuxarı qalxan qaraçı müğənni arxasınca da iki skripkaçı zala daxil olurdular. Qaraçı qızının məlahətli səsi hamını mat qoymuşdu. Hətta duyğulanmış məclis iştirakçıları romans bitəndən bir neçə saniyə sonra özlərinə gəlib qaraçı müğənnini ayaq üstə bərk-bərk alqışlamağa başladılar. Andrey təəccüblə Sonyaya tərəf baxdı.

– Bu da mənim sürp-ri-zim! Necədi?...– deyib gülümsündü.

– Afərin, mənim gözəlim! – Məclisi gözlənilmədən şuxlandıran qaraçı üçlüyünü nə vaxt dəvət etməsindən bixəbər olan Andrey məmnun oldu.

Mən də təşəkkür etdim. Sonra skpipkaçılar bir neçə melodiya da ifa etdilər. Musiqidən təsirlənən Raisa qəfildən pəs səslə "Ya lyublyu jenatoqo" mahnısını zümzümə eləməyə başladı və məclisdəkilər də ona qoşuldu. Saratovda rus dostlarımla keçirdiyim kiçik, lakin dolğun məclislər yadıma düşdü və belə məclislərdən mənim üçün ən yadda qalanı, xoş anlar yaşadan retro mahnıların xorla oxunması olurdu. Yenidən o anlara qaytardığı üçün Sonyaya da, Raisaya da başımı razılıqla tərpədərək təşəkkürümü bildirdim. Dostlar sərbəst olduqlqrı qədər də sərxoş idilər. Artıq heç kim yemirdi, amma badələr içkilərlə dolub-boşalırdı. Birdən kimsə musiqiçilərə tərəf qışqırdı:

– Vals! Maestro, vals!...

Skripkaçı qaraçılar tanış gələn qədim vals ifa etdilər. Qadınlar kişiləri rəqsə dəvət edirdilər. Hərə öz seçımını etmişdi, daha doğrusu bu məclisdə kişilər çoxluq təşkil etdiyindən çoxumuz tərəf müqabilsiz qalmalıydıq. Raisa Semyonovna hələ durmağa tələsmədiyindən yerdə qalan kişilərin hər birinin ondan təklif gözlədiyi aşikar hiss olurdu. Amma Raisa Semyonovna asta-asta qalxıb nazlana-nazlana məni rəqsə dəvət edəndə yerdə qalan kişilərin necə pərişan olduqlarını gördümsə də, özümü görməməzliyə vurdum. Raisanın mənə tərəf uzanmış əlindən tutub öpdüm, (bunu gözləmirdi deyəsən) sanki möcüzə baş veribmiş kimi heyranlıqla ətrafdakıları süzüb mənə yaxınlaşdı. Çoxdandı, lap çoxdandı nə belə kübar məclislərində olmuşdum, nə də rəqs etmişdim deyə qadınla təmasdan bir ara özümü itirdimsə də, lakin o mənə daha da yaxın olduqca rəqs edənlərin arasında itib-batandan sonra özümü ələ ala bildim. Ona nə vardı ki, o ki var içmişdi, kefi də ki, yerində. Sonya partnyorsuz qalan kişilərin məyus olduğuna indi fikir verdiyin-

dən xidmətçi qızları çağırdı ki, onlarla rəqs eləsinlər. Hə, bu başqa məsələ, indi hamı "cütləşmişdi".

Həzin musiqi Raisa Semyonovnanı elə cuşa gətirmişdi ki, bəzən ətrafdakıları yadından çıxararaq yoğun baldırını qılçalarımın arasında oynadaraq gözlərimin içinə baxır, özümü birtəhər hiss etdiyimi görüb ah çəkir, sonra da guya utanırmış kimi başını yana çevirirdi. O bunu bir neçə dəfə təkrar etdi və hər dəfə də yana çevriləndə məstedici ətirlə ətirlənmiş boynunu, buruq-buruq olmuş tellərinin ucunu, qulaqlarını sifətimə, illah da, bilərəkdən qulağını dodağıma elə toxundururdu ki, bütün vücudum titrəyir, az qalırdım onu elə burdaca bərk-bərk qucaqlayıb öpüşlərə qərq eləyim. O bunu hiss edirdi, yəni mənim hisslərimin bu cür oyandığını duyurdu və duyduqca da eyni hərəkətləri musiqinin tempinə uyğun təkrar edir, elə bil mənə əzab verməkdən həzz alırdı. Artıq dözə bilmədim. Demək olardı ki, musiqi də bitirdi. Bu dəm onun qulağına pıçıldadım ki, məni bağışlasın, bir az hava almaq istəyirəm. Gülümsəyib qollarını çiynimdən götürdü...

"Öyrən, Rüfət, öyrən, bu gündən tale kitabının yeni səhifələri yazılır və bu səhifələrin necə yazılması özündən asılıdır."

Ürəyim çırpınır, özümü çox narahat hiss edirəm. Rəqs bitən kimi hamı deyə-gülə yerlərində oturanda mən artıq otağı tərk edib həyətə çıxmışdım. Hava soyuq idi. Səmanın qoynunda sayrışan ulduzlar adamı özünə çəkirdi. Ağacların arasında, balaca fəvvarənin kənarında yanan fanarların işığı həyətə başqa bir gözəllik verirdi. Necə də ecazkar və şairanə bir gecəydi – sakit və işıqlı.

Addım səsləri məni məftun olduğum gecə seyrangahından ayırdı; Raisa Semyonovna yırğalana-yırğalana mənə yaxınlaşırdı. Sərxoş olduğu uzaqdan bilinirdi. Qarşımda dayanıb lap yüz ilin tanışı kimi əllərimi ovucuna aldı, özünə tərəf çəkib qucaqlamaq istəyəndə bir az büdrədi, deyəsən qapının qarşısındakı mərmər meydançada hündürdaban çəkmələri ayaqlarının sözünə baxmırdı – tez qoltuğuna girdim və bu onun

çox xoşuna gəldiyindən, “pardon” deyib nəhayət özünü tarazladı.

– Bura çox sürüşkəndi, – dedim, – ehtiyatlı olun.

– Hə... Oldu... Deyəsən çox içmişəm... hə?

“Hə, lap sonuncu əyyaş kimi” demək istədim. Bayaq rəqs edərkən mənə o qədər yaxınlaşmışdı ki, ağzından gələn turşumuş, sirkəyəbənzər iy ani olaraq burnuma dolanda da bunu ürəyimdə demişdim deyəsən, çünki, əyyaşlıq edən qadınlardan heç xoşum gəlmirdi, özü də belə gözəl xanıma əyyaşlığı heç yaraşdırmırdım, lakin təzəcə tanış olduğumuzu nəzərə alıb xətrinə dəymədim, yalandan gülümsəyib dedim:

– Məncə, elə də yox.

Mənim yanımda özünü çox arxayın hiss edirdi. Çoxdanın tanışı kimi qoltuğuma girib iki əlli qolumu bərk-bərk qucaqladı və məni evin tininə tərəf getməyə vadar etdi. Demək olardı ki, mən yox, o məni aparırdı, daha doğrusu sürükləyirdi. Pilləkənlərdən ehtiyatla həyətə düşdük. Andreyin cangüdənləri gözə dəymirdilər, elə bil hardasa gizlənmişdilər. ”Ceep” həmənki yerindəydi, onun yanından ötüşüb üstüörtülü beşbucaqlı “besedka”ya daxıl olub oturduq. Payız axşamının soyuğu yavaş-yavaş ona təsir edirdi. Heç də mövsümə uyğun olmayan parçadan tikilmiş gecə paltarında üşüdüyünü hiss etdim, pencəyimi çıxarıb çiyninə atdım ki, titrəməsin. Raisa Semyonovna elə ona toxunmağımı gözləyirmiş, qollarını açıb boynumu qucaqladı, pencək çiynindən sürüşüb düşməsin deyə kürəyindən yapışıb oturacağın söykənəcəyinə sıxdım. O qədər yaxın idik ki, bayaq duyduğum qoxu burnuma dolmamış qırmızı boyalı dodaqlarını öpməyə başladım. Qalın, pambıq kimi yumşaq dodaqlarından yenicə açılmış yasəmən ətri nəfəsimə qarışdı. İndi bütün ixtiyarı ona vermişdim...

Yəqin qonaqlar ikimizin də aradan çıxdığımızı duyublar. Tez özümü yığışdırıb onun yenicə coşan ehtiras məngənəsindən qurtulmağa çalışdım. ”İndi bizi axtarırlar”deyib ayağa qalxdım.

– Həə?...

Yuxarıdan qonaqların cingiltili gülüşləri və musiqi səsi eşidilirdi.

Yenə də qolumdan yapışıb qalxdı, barmağının ucuyla dodaqlarını silib saçlarını da qaydaya saldı. Qapıya tərəf gedəndə gözlənilmədən soruşdum:

– Qafqazlılara simpatiyanız olmadığı halda mənimlə dostluq etməkdən ehtiyat etmirsiz?

O əvvəlcə duruxdu, bir anlıq dayanıb mənə baxdı, sonra üzünə süni bir təbəssüm qondu. Dedi:

– Eh, indi mənimçin fərqi yoxdu. Bir də ki, sən başqa kişilərə oxşamırsan.

"Başqa kişilərə oxşamırsan..." Bir vaxtlar Marqo da demişdi bunu. Görəsən soruşsam ki, çox kişi tanıyırsan, o da Marqo kimi həyatında olanlardan, ilk sevgisindən danışar? Mən bunu istəyirdimmi? Birdən Raisa dilimin ucunda yığılmış suallarıma cavab verdi:

– Mən heç vaxt əsl sevgi yaşamamışam. Bilirsən, bəlkə də qorxmuşam sevməkdən.

– Niyə?

– Eh, bunu başa salmaq çox çətindir... Yaxşı, gedək yuxarı.

Mövzudan belə tez yayındığından mən də təkid etmədim. Qolumdan yapışıb evə daxil olduq.

Hamı bizə baxıb bic-bic gülümsədi, əsasən də Sonya. Hətta Raisaya yaxınlaşıb qulağına nə pıçıldadısa, hər ikisi müəmmalı-müəmmalı məni süzdü. Bu yaman xətrimə dəydi, özümdən ixtiyarsız qaşlarımı çatıb onlara tərs-tərs baxandan sonra özlərini yığışdırdılar. Amma Sonyanın baxışlarında gizli bir qısqanclıq işartısı vardı. Bunu mən çox yaxşı hiss etmişdim.

Andreylə Sonyaya minnətdarlığını bildirən qonaqlar bir-bir həyətə düşdülər. İşə salınan maşın mühərriklərinin boğuq səsi gecənin sakitliyini pozdu. Cangüdənlər də yaman əl-ayağa düşmüşdülər; kimi qapıya sarı qaçır, kimi qonaqların yan-

yörəsində fırlanır, kimi də mötəbər qonaqlar üçün maşınların qapısını açıb onların nə vaxt minəcəklərini gözləyirdilər. Öz-özlüyümdə bu axmaq işlərinin öhdəsindən məharətlə gələn mühafizəkarlara yazığım gəldi; geyim-keçimlərinə, boy-buxunlarına yaraşan sənət deyildi bu. Bu anda heç ağlıma da gətirə bilməzdim ki, bir gün gələcək özüm özümə beləcə acıyacam, hətta nifrət edəcəm.

Professor paltosunu geyinə-geyinə mənə: "Çalış, bizim tərəflərə bir daha düşməyəsən, ha..." dedi, maşının arxa tərəfində oturaraq qapını örtdü. Maşın yerindən götürüldü.

Demək olardı ki, bütün qonaqlar yola düşmüşdülər. Təkcə Raisa Semyonovna Sonya ilə kənara çəkilib söhbət edirdilər. Tələsmək nə olduğunu bilməyən qadınların söhbəti, nədənsə son məqamda, vidalaşma zamanı daha da qızışır; sanki görüş əsnasında vaxt, imkan olmayıb, bölüşəcəkləri, deyəcəkləri ayrılıq zamanı yada düşür və bu söhbətin son nöqtəsini qoymayınca bir-birindən əl çəkmirlər. Özü də belə tələm-tələsik, ayaqüstü söhbətlər çox vaxt yersiz və mənasız olur. Nə isə, üçüncü dəfə öpüşüb görüşəndən sonra Raisadan ayrılan Sonya üşüdüyünü bildirərək Andreyə yaxınlaşıb nəsə dedi. Andrey də başı ilə razılığını bildirdi və qıyqacı mənə baxdı. Sonya qollarını sinəsində bərk-bərk çarpazlayıb evə tərəf tələsdi. Bu dəm də Andrey Raisanın qoluna girərək mənə yaxınlaşdı.

– Rüfət, – dedib o biri qolunu da mənim qoluma saldı. – Raisa Semyonovna səni bir gecəlik qaçırsa etiraz etməzsən ki?! – Mənim bu gözlənilməz təklifdən duruxub qaldığımı görən Andrey aydınlıq gətirdi. – Əziz dostum, bilirsən, bəzi nüansları nəzərə almamışıq. Bu malikanənin böyüklüyünə baxma, bura az-az gəldiyimizdən gecələmək üçün lazımı şərait yoxdu. Birdə ki, mühafizəçilərin qaldığı otaqlarda qalmayacaqsan ki?! Şəhərdəki mənzilimiz də burdan çox uzaqdı. Bir sözlə, Soniçka belə məsləhət gördü ki, səni ancaq Raisa Semyonovnaya etibar edə bilərik, necədi? – Məni dümsüklədi, sonra da Raisaya sarı dönüb təkrar etdi. – Rayiçka, ancaq bir gecəlik haa...

“Deməli bayaqdan bunu müzakirə edirlərmiş? Yəni bu boyda mülkdə bir adamı yerləşdirmək belə müşkil iş imiş? Gör Raisa bu təklifdən necə məmnun görünür? Bəlkə onunla Sonyanın quramasıdır, Andreyin xəbəri yoxdu? Əşi, mənim üçün nə fərqi, birdə ki, dəmiri isti-isti döyərlər, təzə tanışlığı, dostliğu qeyd eləmək pis olmazdı” deyə fikirləşdim.

Andrey bizi maşınacan müşayət elədi, qolumdan elə bərk yapışmışdı ki, elə bil qaçacaqdım. Ay-hay!...

Mühafizəçi yazıq bayaqdan “Mitsubişi”nin qapısını açıb Raisanın gəlişini gözləyirmiş. Biz arxada əyləşəndən sonra sevinərək ah çəkdiyini də hiss etdim. Sürücü maşını işə salanda Andrey mənə göz vurub dedi:

– Sabah görüşərik. Sizə yaxşı yol! – Bunu da sürücüyə dedi. – Yolda ehtiyatlı ol.

Özlüyümdə bir şeyi götür-qoy edib təxmin etdim ki, Andrey başıma gələn bu müsibətdən sonra məni əyləndirmək üçün bağ evindəki şəraiti bəhanə edir, beləcə romantik anlar yaşamağıma imkan yaradırdı. Məncə, Raisanı da məclisinə mənimlə tanış etmək üçün dəvət etmişdi, bu qəribə, gözlənilməz tanışlıq da Raisanın lap ürəyindən olmuşdu.

Böyük Dairəvi şossedən şəhərə dönəndə hava dəyişdi, bir-bir qar yağmağa başladı. Sürücü kondisioneri və şüşəsilən fırçanı işə saldı. Raisa lap uşaq kimi sevinir, gah mənə, gah da gecə pərvanələri kimi rəqs edərək pəncərələrə qonan qar dənələrinin salondakı istinin təsirindən yavaş-yavaş əriyərək suya döndüyünə tamaşa edirdi.

– Qar – qış qaranquşlarıdır, – dedi Raisa.

– Mən qışı sevmirəm.– Könülsüz dedim.

Raisa yağan qardan gözlərini çəkib mənə sıxıldı.

Boz “Mitsubişi” yeni tikilmiş ağ on iki mərtəbəli binanın qarşısında dayananda yer tamam ağarmışdı. Sürücü ehtiyatlı adam imiş; qabaq oturacağın üstündəki çətiri götürüb cəld maşından düşdü, çətiri açandan sonra Raisa Semyonovna

oturan tərəfin qapısını açıb düşmək üçün ona əl uzatdı. Raisa xəz gödəkçəsini çiyninə atıb ehtiyatla maşından düşdü. Mən düşəndən sonra təzə yağan qarın üstündə sürüşməsin deyə onun qolumdan möhgəmcə yapışdım, çətiri sürücüdən alıb başımız üstünə tutaraq binaya tərəf tələsdik. Yəqin ki, həmişə liftə minənə kimi, bəlkə də mənzilinin qapısına qədər onu müşaiyət edən sürücü mənə arxayın olub bu dəfə maşının yanından aralanmadı, liftin qapısı açılandan sonra avtomobili işə salıb ordan uzaqlaşdı...

Moskva kimi böyük bir şəhərin tanınmış kommersiya bankının direktoru üçün bəlkə də kiçik görünə bilən, lakin nəzərə alsaq ki, qadın bu mənzildə tək-tənha yaşayır, üç otaq mənə çox geniş göründü və bu geniş boşluqda yaşamaq nə qədər cansıxıcı, darıxdırıcı olduğunu içəri girən kimi başa düşdüm: mənzildə hər şey vardı, amma heç nə yox idi elə bil; içəri isti olsa da əşyalar, mebellər, hətta ayaq altına sərilmiş bahalı xalçalar da adamın üzünə gülmürdü – soyuq idi ...

Məncə ilk qarın yağması onun əhval-ruhiyyəsini dəyişmişdi – özünü qonaqlıqdakından da gümrah və çox şən hiss edirdi. Gödəkcəsini dolabdan asıb mənə də kostyumumu soyunmağı məsləhət gördü. Dodağının altında zümzümə edə-edə hamam otağına girəndə o yuyunub çıxana kimi darıxmayım deyə qonaq otağına keçib televizoru qoşmağımı xahiş elədi.

Qonaq otağının eyvana açılan pəncərəsinin qarşısında üstündə bir neçə balaca yastıq döşənmiş ağ örtüklü iri divan, giriş qapısından soldakı divar boyu rumın mebeli, otağın düz ortasında miz və onun ətrafında stullar düzülmüşdü. Mizin üstündə pərakəndə halda səpələnmiş xarici moda jurnalları, bir neçə qovluq, hesablama maşını vardı. Adama elə gəlirdi ki, bura ev yox, hansısa ofisin qəbul otağıdı, gözləyənlər darıxdığından jurnalları vərəqləyərək vaxtını öldürüb və qəbula çağırılan kimi, tələsik, jurnalları hara gəldi atıb otağı tərk ediblər.

Boş vaxtlarını tək-tük hallarda evdə keçirən, tələskən iş adamının xüsusiyyətindən biri də səliqəsizlik və bu qarmaqarışıqlığa vərdiş etməsidir. Ürəyimdə fikirləşirdim, lap yüz faiz əmin idim ki, onun yatağı da heç yığışdırılmayıb, yorğanı yəqin yumağa dönüb, paltarları da hara gəldi atılıb...

Divar mebelinə quraşdırılmış televizoru qoşmaq istədim, pultunu tapa bilmədim. İlk dəfə gəldiyim mənzildə axtarış aparmaq mənə gülünc gəldiyindən oturub gözlədim.

Mən ilk dəfəydi bir həqiqəti dərk etdim: biz kişilər yad qadınlara diqqətlə baxanda onların ərli, yoxsa subay olduğunu ilk baxışdan, birinci söhbətdən hiss edirik deyə, belələriylə münasibət qurmaq o qədər də çətin olmur. Düzdür, bəzən ərli qadınlar daha tez tora düşürlər, əsasən ailəsində problemi, narazılığı olanlar, ərindən görmədiyi nəvaziş və diqqəti yad kişilər ona verəndə, lap mum kimi əriyirlər də. Elələri ixtiyarsız olaraq sənə tabe olmaqdan həzz almaqla yanaşı, özlərinin gizli intim fantaziyalarını da biruzə verməkdən çəkinmirlər. Ax, qadınlar, qadınlar!.. Qalın bir kitabın ilk səhifəsi belə dərk edilməmiş sirlər xəzinəsi! Adı yadımda deyil, hansısa filosof deyibmiş ki, illərlə qadın psixologiyasını araşdırdım, yenə də anlaya bilmədim :qadınlar nə istəyir? Təqribən belə deyibmiş...

Raisanın səsi məni fikirdən ayırdı; o, məni vanna otağından çağırırdı. Əvvəlcə elə bildim sərxoş olduğundan sürüşüb yıxılıb. Aman Tanrı! Tez qapısı azca aralı qalmış vanna otağına soxuldum ki, yardım edim.

Yox, nəyi deyirsən de, amma bunu gözləmirdim; kiçik nəfəsliyin qarşısına vurulmuş plastik dolabın üstündə al-əlvan şamlar yanır, onlar şöləlendikcə alovun dilimləri divarlarda, tavanda sanki rəqs edirdi. Bu adamı başqa bir aləmə aparırdı – nağıllar aləminə... İri dairəvi vannada yırğalanan rəngarəng sabun köpükləri bərq vururdu. Raisa isə görünmürdü. ”Yəni qulağıma səs düşüb? Bəs çağıran kim idi?”deyə fikirləşib qorxu və təlaş içində vannaya yaxınlaşmışdım ki, birdən köpüklər coşmuş dəniz kimi dalğalandı və Raisa su pərisi kimi şam

şöləsində rəngdən-rəngə düşən sabun köpüklərinin altından üzə çıxdı. Heyrətimi gizlətməyə macal tapmamış, bu dəniz şəhzadəsi məni özünə sarı çəkdi. Paltarlı-paltarlı onun lüt əndanına sarılıb vannaya çökəndə vannadakı suyun yarısı şappıltıyla döşəməyə dağıldı. Sərxoş və şıltaq qadının özünəməxsus dəcəlliyindən irəli gəldiyini başa düşüb onu bağışladım. Qəfildən suyla belə təmasda olmaqdan qorxumu biruzə vermədim. Axı o hardan biləydi ki, mən boyda bir nəhəngin ən qorxduğu şey sudur? Gözlərimi yandıran sabun köpüklərini duşun altında yuyunub gözlərimi açana kimi o, artıq şalvarımı soyundurmuşdu. İslanıb bədənimə yapışmış köynəyimi çıxardıb onu bərk-bərk qucaqladım. Xəstəxanadan təzəcə buraxıldığımı tamam unudaraq Raisanın coşqu "oyunlarına" baş vurmağa qərar verdim. Ağılasığmaz dərəcədə seksual improvizələriylə həyatım boyu yaddaşıma həkk olunacaq bu acğöz və ehtiraslı qadının qoynunda son ayların acısını dəfn etdim...

***

Raisa işə gecikdiyini telefonuna gələn ardıcıl zənglərdən başa düşdü. Heç tükü də tərpənmir, hərəyə bir yalan uydurararaq başından eləyirdi.

– Bank bir gün də mənsiz qalsa dünya dağılmaz ki?!

Əzgin görünüşündən başa düşdüm ki, içməsə mümkün deyil. O ağır-ağır,ləngər vura-vura çarpayıdan uzaqlaşdı, mətbəxdə soyuducuya yaxınlaşıb yarımçıq şampan şüşəsini götürdü və başına çəkdi. (Yadıma düşdü ki, gecə açdığı şampandan mənə də bir-iki qurtum şərab işirdib səhərə kimi yorulmaq bilmədən əyləndiyimizdən şüşənin işində bir az saxlamışdı – səhər başı ağrısa özünə gəlməyə kömək edər). Butulkanın içindəkini axıra kimi içib dərindən nəfəs aldı. Kipriklərimin arasından onu seyr etdiyimi duymuşdu; yaxınlaşıb burnumu ovxaladı, saçlarımı tumarlayıb sakitcə:

– Bu möhtəşəm bir gecə idi! – dedi və sinəsini irəli verib kişisayağı gərnəşib əlavə etdi. – Ay yaramaz, yamansan haa?! Bəlkə də inanmazsan, bu mənim son dörd ildə ilk sevgi macaram idi! Lap əsl nağıllardakı kimi!

...Deyəsən lap ağ eləmişdik ha!... Andreyin ciddi-cəhdlə "Raisa, ancaq bir gecə haa" deməsinə məhəl qoymayıb on gün Raisanın "qonağı" oldum. Bu qadın məni havalandırmaq həddinə çatdıracaqdı ki "Min bir gecə" nağıllarının əfsunlayıcı təravəti canımızdan çıxmamış, dəli eşq yaşayan iki sərsəm məşuqun çırpıntıları sona yetməmiş "Berkut"un adamları arxamca gəlib məni onun yanına aparanda ağlıma da gəlməzdi ki, böyük meqapolisdə Raisa ilə yollarımız bir də çətin ki birləşsin.

## "Berkut", zavallı berkut...

Moskvanın on iki kilometrliyində yerləşən kəndin kənarındakı ağcaqayın meşəsinin balaca bir talasında tikilmiş ikimərtəbəli kərpic binanın zirzəmisi "Berkut"un gizli bazasıydı. İki hektara yaxın bir ərazidə yerləşən bu binanın üst mərtəbələrində öz aralarında "döyüşçü", əks tərəfin "bandit", "başkəsən", "mafioz" adlandırdığı, gözlərini qan örtmüş qoluzorlular yaşayırdılar; otaqlarda iki-iki məskunlaşmış dəstə üzvləri üçün həm yaşamaq, həm də istirahət üçün hər cürə şərait yaradılmışdı.

İlk baxışdan istehkama bənzəyən, hündür beton plitələrlə hasarlanmış məkan yəqin ki istismara yaramayan keçmiş sovet müəssisəsinin ərazisiydi. Həyətdə qurulmuş cürbəcür idman qurğuları boyük hərbi-idman bazasını xatırladırdı. Raisanın qoynundan ayırıb bura gətirən "Ceep", hərbi hissələrin, ya da koloniyaların giriş qapısını xatırladan iri, ağır dəmir darvazadan içəri girəndə gördüyüm bu mənzərələr məni dəhşətə gətirdi. Bu, sözlə deyiləsi, yazmaqla aydınlaşdırıla biləcək iş

deyildi. Onlarla boynu yoğun bədheybət – sifətindən zəhrimar yağan, dəmir kimi möhkəm, idman paltarlarını az qala yırtıb çıxan şişman əzalı cavanlar – zombilər kimi komandirlərinin əmrinə itaət edərək dayanmadan məşq edirdilər. Adi insanın, yəni normal bədən quruluşu olan insanın təsadüfən bura düşməsini təsəvvür etdim və mənim kimi idmançının belə ürpəşdiyini siz də ağlınıza gətirsəniz, nəyi nəzərdə tutduğumu bilməmiş olmazsınız.

Yavaş-yavaş mənə aydın oldu ki, o gün bazara basqın edənlər arasında bu bədheybətlərdən heç biri olmayıb, əgər olsaydı, nə bazarda bazarlıq qalardı, nə də ki, indi mən sizinlə söhbət edərdim. Deməli bu seçmə, qadzillayabənzər adamlar xüsusi məqsədlər üçün toplanmış, hansısa dəhşətli missiyanı həyata keçirmək üçün hazırlanırdılar. Mən bu missiyanın nədən ibarət olduğunu bilmədim və heç zaman da bilməyəcəkdim, çünki bu gizli hərbi bazaya mənim ilk və son gəlişim oldu. Andrey özünün, o çılız, xəstə nazir uşağının nələrə qadir olduğunu, bəlkə də ondan çəkinib ehtiyat etməyimi qandırmaq üçün bura gətirtmiş, nəinki istənilən vaxt narazı kütləni idarə etmək, onu siyasətlə yönəltmək, heç bir standartlara cavab verməyən insan toplumunun bəstəboy, arıq Andreyin qarşısında necə də acizanə və əlacsız qaldıqlarını göstərmək istəmişdi. Bəlkə də yox?

Pulun nələrə qadir olduğunu indi anladım.

Gülməli olsa da fikrləşdim ki, görəsən bu vəhşilər qadın barədə heç düşünürlər? Ümumiyyətlə düşünürlərmi? Bir anlığa hər hansınınsa qucağında Raisa kimi zərif, gözəl bir qadını təsəvvürümə gətirmək istədim, amma nə illah etdimsə də alınmadı. Onlar gözəllik üçün doğulmayıblar, heç gözəlliyi xilas etmək üçün də.

Nə isə, Andrey məni qarşılayandan sonra demək olar ki, istədiyinə nail olmuş kimi, qürurla bu həngaməni mənə göstərdiyi üçün özündən razı halda qoluma girib gülümsədi:

– Hərənin bir missiyası var doğuluşundan, deyilmi?

Daha heç nə demədisə də onu yaxşı başa düşürdüm. Kütbeyin, qolu güclü bədheybətlər pul xətrinə onun əqidəsinə xidmət etməkdən zövq alır, daha da vəhşiləşir, kallaşır, o da "mənəm"liyini təsdiq etmək üçün yaratdığı bu eybəcərliklərlə qürur hissi keçirirdi.

Professora, məni nəyin bahasına olursa olsun ölümün pəncəsindən qurtarmağı acizanə xahiş edəndə, hər gün xəstəxanada məni yoluxanda, gözəl xanımıyla bir yerdə olanda, lap on gün qabaq evində təşkil etdiyi ziyafətdə olan Andrey bu qorxunc məxluqların arasında məndən, ola bilsin hamıdan gizlətdiyi o biri üzünü ortaya qoymuşdu. Deyəsən, illərlə görüşünə can atdığım sadəlövh və səmimi əsgər yoldaşımı uzaq əfqan dağlarının arasından sonsuzluğa uzanıb gedən, Qlebin tükürpədən bağırtısından az sonra üstünə quzğunların kölgə saldığı o yarğanın yanında qoyub gəlmişdim. İndiki Andreydə o illərin məsumluğu qeyb olmuşdu. Bir nisgil, bir təəssüf, bir acı sızıltı doldu içimə. "Zavallı dostum!"

Nədənsə yadıma Rasim düşdü. Onun məzlum-məzlum üzümə baxıb səssiz imdad diləməsi gözlərimin qarşısına gəldi. Nəsə demək istədiyi, lakin kişiliyinə sığışdırmadığı o "nəsə"ni oxuya bilərdimmi baxışlarında? Axı nəyi deyə bilmədi Rasim? Sanki həyatından bezmiş, ölümünün vaxtında yetişdiyinə sevinən birisi kimi ölümünü qəbul etmişdi. Niyə? Olub keçənləri geri döndərmək mümkün olmadığını bilə-bilə Rasimi bağışlaya bilərdim axı? Bilərdim, amma əff eləmədim, qəddarcasına, canı çıxana kimi gözlərinə baxıb durmuşdum. Mən söz verdiyim intiqamımı almışdım. Döndümü?Aliyə geriyə döndümü? Sevgi, məhəbbət necə?

Rasimin məni izləyən ruhu bir kabus kimi başımın üstündə fırlanır. Başıma gələn fəlakət və bəlalara baxıb rahatlıq tapmaq istəyir. Mən onun ruhunu – onun kimi gəbərməyimi görmək istəyən ruhunu daima yanımda hiss edirəm, daima.

İndi dünyadan bixəbər naqis kimi Andreyi qınayıram. Axı onu bu hala salan ədalətsiz, insafsız, eybəcərliklərlə dolu olan

zəmanə idi?! Bu sərsəm hakimiyyəti yaradan, qoruyan, sovetlərdən miras qalmış müti cəmiyyət idi! Andreyin üsyanı, bir növ intiqamı da bu cəmiyyətə qarşı deyildimi?! Və düzələcəkmi, düzələ biləcəkmi beyni ovulmuş, yumruq altında çabalayan cəmiyyət?!

Bayaqdan kəlləmi yorub düşündüklərimi hiss edən Andrey maşına oturub bazanı tərk edəndən sonra da xeyli susdu. Mən hansı hisslər keçirdiyimi dilimə gətirə bilmirdim.

– Səni anlayıram, – dedi Andrey. – İnan mənə, Rüfət, gördüklərin mənim planlarıma daxil olmayan zərurətdir. Məni başa düş, hər zaman güclülər qalib gəlib, hər zaman! Zəif oldunsa, nə qədər ədalətli olsan belə, sən ölümə məhkumsam; bu murdar dünyada səndən də güclülərin olduğunu bir an da unutmayasan gərək. SSRİ boyda imperiyada nazir oğlu olsam da aciz və zəif olduğumu heç vaxt özümə bağışlamaram, heç vaxt! Mənim mübarizəm – özünüqoruma, özünütəsdiq olsa belə, qanunsuz, hətta cinayət də olsa özümü daha rahat, xoşbaxt hiss edirəm. Çünki yaratdığım imperiyanın başında mən varam; hər kəs mənimlə hesablaşır, gücümdən qorxur. Hamıdan yüksəkdə olmaq hissinin necə möhtəşəm olduğunu bunları yaşamadan duymaq olmaz!

Bilmirəm, “dəliyəm-güclüyəm” prinsiplərində çox uzaq və öz ədalət kriteriyalarıma sadiq olduğumu bildiyindənmi, yoxsa bazada haldan-hala düşdüyümü görüb mənə acıdığındanmı evə gələn kimi tələsik dedi:

– Rüfət, qardaşım, gördüklərini unut! Sadəcə, sil beynindən və mənə qulaq as.

– Eşidirəm, – deyib divanda əyləşdik.

O xeyli fikirləşdi, münasib söz axtarırdı elə bil, tapdı yoxsa yox, bilmirəm, amma çox götür-qoydan sonra əllərini dizimin üstünə qoyub ciddi bir görkəm aldı.

– Bir daha səni itirmək istəmirəm, – dedi. – Başa düşürsən?

Başımı tərpətdim ki, “hə”.

Dediyinə görə, Kutuzov prospektindəki yenicə təmirdən çıxmış üç otaqlı mənzili Andreyə Sonyanın atası İsrayilə köçəndə bağışlamışdı. Hündür tavanlı, geniş pəncərələri prospektə aşılan otaqlar Sonyanın arzusuna görə modern üslubda təmir olmuşdu. Rahat və yungül mebellər, kitab rəfləri, gözəl çərçivələnmiş ailə şəkilləri, çıl-çıraqlar, şamdanlar otaqlara yaraşıq verməkdən başqa nağılvari bir rahatlıq gətirirdi.

O bayaqdan əlində oynatdığı bir topa açarı mizin üstünə qoyub söhbətinə davam etdi:

– Bundan sonra bu balaca mənzil sənindi.

Balaca, haa! Belə qiymətli hədiyyəni gözləmədiyimdən dik ayağa qalxıb dedim:

– Andrey, buna ehtiyac yoxdu. Narahat olma, dostlarım mənim üçün mənzil kirayə ediblər. Düzdür, o günkü hadisədə açarları itirmişəm, amma problem deyil, yenisini sifariş verərəm.

Sözümü axıracan dinləməyib açarları götürüb ovcumda sıxdı.

– Bir kəlmə də eşitmək istəmirəm. Mən harda desəm orda da yaşayacaqsan. Bizim biznesin şərtləri belədir. Bir də ki, mənə yaxın olmağın vacibdir, axı biz Sonya ilə bir bina aralıda oluruq.– Qolumdan tutub pəncərəyə yaxınlaşdı, üzbəüz hündür binanı göstərib, – bax orda,– dedi, – dördüncü mərtəbədə...– Tez də söhbəti dəyişdi.– Hə, Moskvadakı dostlarınla məni tanış etmək istəməzsən?

– Çox şad olarlar, – dedim.

Gülümsəyib başıyla razılığını bidirdi. Bir az otaqlara göz gəzdirdikdən sonra bildirdi ki, bura mənimçin də, onunçun da rahat olar. Əvvəlcə bir neçə vacib biznes ortaqlarından söz açdı, nəzarət edə bilmədiyini dilə gətirib mənə tapşırdı ki, onlarla tanış olandan sonra üzərlərində nəzarəti mən boynuma götürüm. O, dediyi hər sözə ehtiyatla, həssaslıqla yanaşdığından məsələyə aydınlıq gətirməkdə məqsədi düşdüyü vəziyyətlə məni tanış etmək idi. Odur ki, hər on gündən bir deyilən

məbləği ortaqlardan almaq və Raisanın bankındakı hesaba köçürmək lazım idi.

Bax, bu başqa məsələ! Deməli, heç olmazsa on gündə bir dəfə Raisayla görüşəcəkdim. Bu ki, lap yerinə düşdü!..

Sevincim heç on dəqiqə də yaşamadı. Andrey ciddi bir görkəm alıb dedi:

– Qardaşım, səninlə açıq danışacam. Yəqin ki, bilmirsən, son vaxtlar Sonya yaman dəyişib, dəymədüşər olub... İçir, özü də çox içir. Amerikadan bu yana həkim qalmayıb onu göstərməyim, bir-iki ay müalicələr təsir edir, sonra yenə başlayır...

– Səbəb?...

– Başa düşmürəm. Yəqin ki heç nədən ehtiyacı olmayan qadın şıltaqlığı. Bilirsən, mən onun bütün kaprizlərinə dözürəm, bəlkə də ondandı?! Başa düşmürəm, heç nə başa düşmürəm...

Söhbətin məğzini tez bilmək üçün soruşdum:

– Mən sənə necə kömək edə bilərəm ki?

“Sənə” yox, “ona” demək istəyirdim, amma Andreyin xasiyyətini bildiyimdən belə soruşdum. Necə oldusa sualıma cavab gözləmədən əlavə etdim:

– Məncə, uşağınız olsa. İndiyə kimi nəyi gözləyirsiz?

Andrey özü də çaşıb qaldı. Sanki qeyri-adi söz demişdim. Heç olmasa bu neçə ildə bir uşaq dünyaya gətirmək olardı ki?! Sənin imkanlarınla Moskvanın bütün uşaq bağçaların, yetimxanaların saxlamaq olardı. Bir uşaq saxlamağa nə var ki?! Elə biri bizim kənddə – ən kasıbın qapısında beş-altı uşaq böyüyür... Hə, uşaq sarıdan bolluqdu bizim tərəflər, elə bil, bir biriylə bəhsə giriblər, maşallah, əkib-doğurlar ilbəil, ta ki, arvadların uşaqlığı quruyur, kişilərinki də o söz. Abort elətdirənə də birtəhər baxırlar e...

– Uşaq? – Təəccüblə soruşdu Andrey.

– Hə, əlbəttə, uşaq! Andrey, məncə ailəni saxlayan uşaqdı, uşaq! Biz tərəflərdə ikicə il döğmayan gəlinin dalından vurub göndərirlər dədəsinin xarabasına ki, qısır gəlin kimə gərəkdi. Bildin?

– Zarafatından qalmırsan. Yazıq. Bəlkə... o gəlinin günahı yoxdu? Nə isə, siz qafqazlılar qəribəsiz...

– Zarafat nədi, mən ciddi deyirəm. Özü də oğlan, nə qədər çox oğlan doğsa, o qədər başucalığıdır!

– Başa düşürəm.

– Hə. Əlbətdə, şəhərlilər elə deyil, mən kənddəkilərdən danışıram.

İkimiz də gülüşdük. Daha uşaq məsələsini qabartmadıq. Deyəsən Andrey bu barədə söhbətin davam etdirməyi lazım bilmədi; nəsə söhbəti dəyişməklə kifayətləndi.

***

İl yarım idi ki, Andreyə sədaqətlə xidmət edirdim. Şəriklərindən vaxtlı-vaxtında pulları yığıb "Novıy den" kommersiya bankında Sonyanın adına açılmış hesaba köçürüdüm. Əvvəllər belə əməliyyatlarda səriştəm olmasa da Raisanın köməyilə hər şeyi dəqiqliyilə öyrənir, hər müştəridən aldığım pulun ayrıca hesabını aparır, lazım gələndə Andrey, ya da Sonya xırda cib xərcliyi götürəndə də qeydlər aparırdım. Desəm güləcəksiniz, onların xırda cib xərcliyi on-on beş min dollar civarında olurdu. Şəriklərindən alıb (buna "qoparıb"da demək olar) banka köçürdüyum məbləğ yüz-yüz əlli min dolları ötürdü. Beləcə, hər on gündən bir tanış ofislərin şefləriylə görüşüb onları müflis etmək mənim vəzifə borcum idi.

İşimdə (buna iş demək mümkündüsə) püxtələşdikcə, bütün xırdaçılıqlara nüfuz etdikcə anlamışdım ki, onlar heç də Andreyin iş ortağı yox, vəzifəsini, var-dövlətini, ailəsini, gələcəyini qorumaq üçün reketlərdən müdafiə olunan qorxaq hərifləri. İlahi, qorxu və müsibətlə qazandıqları pulların yarıdan çoxunu necə də həvəslə mənə verir, hələ təzim də edirdilər! Əlbəttə, bir az qürurlular məbləği azaltmaq, ya da verməkdən imtina etmək istəyənlər də vardı. Yazıqlar... onda,

Andreyin bədheybətləri fəaliyyətə keçirdilər, sonrası da məlum məsələ ki, sınırdılar, özü də pis.

Ayda bir dəfə bəzi nazirlərə, şəhər merinə "qonorar"lar verilirdi. Ziyafətlər, qiymətli hədiyyələr də öz yerində. Keçmiş nazir oğlu yuxarıların boş damarını yaxşıca tutmuşdu. Bu boş damar çoxları üçün sovetlərdən miras qalan ən işlək əza idi.

Lap yadımdan çıxmışdı. Sonralar Mədətlə Vəfadarı Andreylə tanış edəndə gözlərimə inanmadım. Sən demə, Andrey Mədəti tanıyırmış; bəzi bazarlardan, topdansatış bazalarından zəruri məlumatları ona Mədətin ötürdüyünü, bunun əvəzində yaxşıca haqq aldığını və bunun ən təmiz biznes olduğunu etiraf edəndə heç inanmağım gəlmirdi; belə adamlara bizlər "işverən", ruslar "suka" deyirdi axı?! Nə vaxtdan satqınlıq təmiz biznes sayıldı? Deməli pula görə ən qiymətli dəyərlər beləcə məhv olub gedirmiş.

Deyirəm axı, bu var-dövlət, cah-cəlal, qorxmadan üstündə silah gəzdirmək, heç kəslə hesablaşmamaq, özünə bu qədər inam hardan qaynaqlanırmış. Arvad-uşağını Göyçayda atıb, oradakı rəzil, miskin yaşayış səviyyəsini yaxşı bildiyindən ayda " it payı" kimi 300– 400 dollar göndərməklə onların ağızlarını yuman, Moskvanın düz göbəyindəki mənzilində eyş-işrətlə məşqul olan, səmimiyyət və təvəzökarlıq maskası geymiş bir insan hansı dəyərlərin sahibi olmalıdır ki?

Ona, onun bacarıq və qabiliyyətinə, mədəniyyətinə necə məftun olmuşdum?! Niyə bu qədər axmaq və sadəlövhsənmiş?!...

Tanıdığım bəzi adamların murdar sifətini, eybəcər içini görüb tanıyandan sonra özümə, ancaq özümə lənət yağdırmaqdan başqa əlacım qalmadığını dərk edəndə elə bilirdim ki, sadəlövhlüyümə görə dünyanın ən gicbəsər adamı elə mən özüməm – yalançı səmimiyyətlə həqiqi insani keyfiyyətləri çaş-baş saldığıma görə! Araz demişkən, zəmanə adamı olmadım ki, olmadım!

O gündən çalışırdım ki, Mədətlə çox rastlaşmayım. Əslində, ondan bir pislik-filan görməmişdim, insafən, məni böyük şəhərdə qarşılayıb evində qonaq eləyən, bütün problemlərimi sözsüz həll edən o idi və bunları unutmaq, üstündən xətt çəkmək kişiliyimə yaraşmırdı, amma özümlə bacarmırdım, qaçırdım ondan, həm də vaxtım olmurdu ki, görüşək. Elə bil Andrey də başa düşmüşdü bu soyuqluğu, amma heç də üzümə vurmurdu.

Bir sərin yay axşamı Andreyin "şərik"lərindən topladığım pulları banka təhvil verib Raisa ilə sözləşdim ki, axşam mənim evimdə görüşək. Könülsüz razılaşdı.

Moskvanın yay axşamları çox ecazkar olur; Bakıdan fərqli olaraq yaşıllığa bürünmüş şəhərin havasından küknar, şam, akasiya, ağcaqayın ağaclarının ətri gəlir, adamın ciyərinə dolduqca özünü milyonlarla əhalisi olan meqapolisdə deyil, sıx bir meşədə hiss edirsən. Eləcə bu gözəl havadan uda-uda yaşadığım evin yanındakı marketə girdim. Şampan şərabı, meyvə, bir qutu şokolad alıb küçəyə çıxdım. Necə də gözəl axşam idi!

Günəş asta-asta hündürmərtəbəli binaların arxasında əriyirdi.

Evə qalxmadım. Həyətdəki skamyada oturub Raisanın maşınını gözlədim. Saat 8-30 u göstərirdi, sözləşdiyimiz vaxtdan yarım saat ötürdü. Raisa gəlib çıxmadığından narahat olmağa başladım.

"Görəsən niyə gecikir?" Onun punktuallığına bələd olduğumdan narahatçılığım bir az da artdı. Telefonu açıb zəng vurdum; telefonu açmırdı. Bir də, bir də zəng vurdum. Telefon susurdu. Artıq təşvişə düşdüm. "Nəsə olub, yoxsa... "

Sürücümü buraxmışdım, həm də iki kvartal aralıda yaşadığından gəlib çıxması uzun çəkərdi deyə taksi tutub Raisagilə getməyi qərara aldım, özü də təcili!

Telefonum boğuq-boğuq çağırmağa başlayanda dayandım. Düyməni basıb az qala bağırdım:

– Hardasan?

Cavab əvəzinə hıçqırıq eşitdim; o ağlayırdı.

– Raisa, axı nə olub, danış. Hardasan, lənət şeytana! Mən dəli olacam. Alo... alo, Raisa...

Bir neçə saniyə keçdi, amma mənə elə gəldi ki, bir ildi bu axmaq, yöndəmsiz telefondan asılı qalmışam. Nəhayət eşitdiyim bircə cümlə məni özümdən çıxardı.

– Biz daha görüşə bilmərik.

– Niyə? Nə olub axı, danış...

– Rufat, məni sevirsənsə, heç olmasa bir az sevirsənsə, məndən uzaq gəz, xahiş edirəm.

Heç nə başa düşmürdüm. İkicə saat əvvəl razılaşıb vaxt təyin etmişdik, o da gələcəyinə söz vermişdi. Bu iki saatda nələr baş verdi ki?! Məni bankın içində, kabinetində görəndə belə az qalır yazı masasının üstündə, tələm-tələsik işini görüm, bəs indi nə baş verir axı?

– Mən heç nə başa düşmürəm. Gəlirəm...

– Evdə deyiləm, gəlmə.

– Hardasan axı?

– Vacib deyil. Sonra danışarıq. Sevirəm səni...

– Dud... dud... dud...

Az qala dəli olurdum. Raisa narahat, həm də qorxa-qorxa danışırdı. Kimdən, nədən qorxurdu ki?! Sevir, istəyir, istəyirsə bəs niyə qaçırdı məndən? Yox, burda nəsə sirr var. Və özümə söz verdim ki, səhər açılan kimi düz banka gedib hər şeyi yerbəyer edəcəm. Marketdən aldığım ərzaqla dolu paketi yaxındakı zibil yeşiyinə tullayıb evə getdim.

Səhərə bir ömür yol qalırdı.

Səhər tezdən bankın qarşısında görüşdük. Məni görəndə özünü itirdi.

– Salam.

– Sabahın xeyir.

– Yorğun görünürsən.

– Bütün gecəni yatmamışam.

– Axı nə olub?
– Bağışla məni. Biz dostuq, deyilmi?
– Hə.
– Onda qulaq as mənə. Bizim yaxınlığımız kimlərinsə xoşuna gəlmir. Məni təhdid edirlər, bankı əlimdən alacaqlarıyla hədələyirlər. Başa düş, mən başqa cür edə bilmərəm. Mənə aid olan gördüyün hər şey mənimdi, həm də mənim deyil. Başa düşürsən?
– Yox, – dedim, – heç nə başa düşmürəm, düşmək də istəmirəm! Səni təhdid edənlər kimdi? Onları tanıyıram? Mən özüm onlarla bacararam. Adını de.
Raisa mənə elə baxdı ki, sanki "sən nə qədər sadəlövhsən" demək istəyirdi. Acı-acı gülümsədi, yorğun gözləri balacalaşdı, başını yüngülcə yelləyib dedi:
– Bunu bilməsən yaxşıdır. Hər şey bitdi, hər şey...
– İstəyirsən Andreyə deyim. Deyim?
İndi o təəssüflə məni süzürdü. Başa düşdüm ki, gizlətdiyi sirrini açmağa cəsarəti çatmırdısa da Andreyin adını eşidər-eşitməz qəribə bir görkəm aldı, özü də bilmədən istehzasını biruzə verdi.
– Biz hamımız onun sevimli nökərləri deyilikmi? Eh, Rüfət, sən doğrudan da heç nə anlamırsan. Özün burdasan, amma uçan xalçayla keçmişdən gələn qonaq kimisən. Hamıya inanırsan, hamıya. Bu səmimiyyətdən, əsl dostluğa sədaqətdən doğan bir hiss deyilmi?
"Onun sevimli nökərləri"dedi. Yəni Andrey bizim yaxın münasibətimizə görə nədənsə şübhələnə bilər? Bəlkə də şübhələnər: etibar etdiyi pulları mən toplayır, Raisanın bankındakı hesaba yatırırdım. İnsanlar çiy süd əmib axı, fikirləşə bilər ki, Raisa ilə əlbir olub onun sayı-hesabı bilinməyən sərvətinə ortaq olaram. Əlbəttdə, istəsəydim, Araz deyən kimi zəmanə adamı olsaydım, bu su içmək kimi bir şeydi. Bunu edərdimmi? Əsla yox! Mən onlar kimi zəmanə adamı ola bilməzdim! Gör neçə vaxtdı bir dəfə də olsun məndən hesabat istəmir, bank

qəbzlərini də gözucu nəzərdən keçirirdi, guya bu qədər var-dövlətə biganədir. Ay səni yaramaz! Bunu necə düşünə bilər axı?! Bir tərəfdən də fikirləşdim ki, bu Raisanın da quraması olar; aramızdan su keçməyən Andreylə münasibətləri pozmaq üçün. Niyə? Bu onun nəyinə gərəkdi? Bəlkə Sonya?

“Bəlkə... bəlkə... bəlkə... ” Dörd yol ayrıcında nabələd yolçuya bənzəyirdim. Şübhələr, məntiqsiz açıqlamalar, “bəlkə”lər hara üz tutacağıma mane olurdu. Yenəmi qapılar üzümə qapandı?

Təkid etməyimə baxmayaraq Raisa məyus halda olanlara açıqlama vermədən məndən uzaqlaşıb banka daxil oldu. İlk dəfə ona yazığım gəldi. Elə özümə də.

İçimi suallar didə-didə Andreylə görüşə tələsdim.

... Nədən, hardan söhbətə başlayacağımı götür-qoy edirdim ki, mənim narahatçılığımı hiss etsə də özünü o yerə qoymadı. Əgər Raisanı təhdid edən, mənimlə görüşməyə qadağa qoyan, onu qorxudan Andrey idisə bəs niyə bunu hiss etmədim? Mənimlə həmişəki kimi hal-əhval tutdu, zarafat etdi, təzə lətifə də danışdı, hətta Raisanı da soruşdu. Amma çox yorğun, bikef olduğunu gizlədə bilmirdi.

– Nəsə olub?– Soruşdum.

– Sonya...– Başını iki ovucunun içində sıxıb yırğaladı. – Sonya, yenə başlayıb...

– İçir?

– Hə, içir, hər şeyi qırıb dağıdır, dəlilik edir... Heç bilmirəm nə edim. Dostum, kömək elə, bəlkə sənə qulaq asdı, xahiş edirəm...

– İndi hardadı ki? Evdə yoxdu?

– Bağ evinə apardım. Bəlkə sakitləşdi.

Çoxdan idi Andreygilə gəlmədiyimdən nələr baş verdiyindən xəbərsiz olsam da onun təlaşını, narahatçılığını görüb mən də üzülməyə başladım. Sonyanın tez-tez dəyişən xasiyyətindən xəbərdar idim, amma bu qədər içməklə, dava-

dalaş salmaqla nəyə nail olmaq istədiyini anlaya bilmirdim. Belə gözəl, imkanlı əri olan qadının dərdi nə ola bilərdi? Axı, həqiqətən, Andrey onun nazıyla həddən artıq oynayırdı, onun bütün şıltaqlığına dözürdü – başqa nə istəyirdi ki bu qadın?! Bizimkilər olsaydı, bir az səbr edər, edər, kasa dolandan sonra, vallahi-billahi, başına elə oyun açardı ki, dədəsinin toyunda çalınan zurnanın səsi bir ay qulağından getməzdi. Qudurğanlıq, harınlıq, şıltaqlıqmı deyim buna? Bəlkə də Sonyanı hövsələdən çıxaran, ona əzab verən başqa şey idi və bunu Andrey də bilirdi, amma özünü bilməməzliyə vururdu?

– Yaxşı eləmisən, – dedim. – Qərarın nədir?

Bilirdim ki, Sonya ilə bağlı nəsə fikirləşib və mənə vacib tapşırıq verəcək. Ərklə əlini çiynimə qoydu, o biri əliylə çənəsini ovuşduraraq dedi:

– Bilirsən, Rüfət, çoxdan sənə demək istəyirdim, amma bilmirəm, razılaşarsan ya yox.

– Eşidirəm...

– Sonya sənin xətrini çox istəyir. İstəyirəm onun yanında olasan. Görürsən də, nə vaxtsa bircə dirəyini, bir kərpicini də qoparmaq mümkün olmayan böyük bir imperiyanın içində öz balaca imperiyamı yaratmışam. Buna görə Sonyaya evlənmə-yimə borclu olsam da indi qazandıqlarımı onun şıltaqlığına qurban verə bilmərəm. Verməərəm! İşlərini Leonid Tarasoviçə təhvil ver, günü sabahdan köç bağ evinə. Mən də arxayın olaram. Nə deyirsən?

Mən nə deyə bilərdim axı? Ağa deyir sür dərəyə. Hə, məni bircə şey narahat edirdi: Andrey keçmiş silahdaşlarına inamını itirib, yoxsa, mənə daha çox etibar edirdi? Özü demişkən, "ən qiymətlisi" olan Sonyaya cangüdənlik edənləri nədən kənarlaş-dırsın ki? Bəlkə nəsə xoşagəlməz olay var, öyrənmək lazımdır. Bir də, dəqiqləşdirmək yerinə düşərdi; məni cangüdən kimi Sonya istəyib, yoxsa bu Andreyin təklifiydi? Əlbəttə, bunu Andreydən soruşmayacam. Sonra...

Bir yandan Raisa ilə əlaqəli söz-söhbətlərdə onun əli olmadığına əmin oldum. Bax, buna görə sevindim. Həm də sevindim ki, Sonya Raisayla rəfiqədirlər, deməli ara-sıra onunla görüşməyimə imkan yaradacaq.

Günü-gündən məni aldadan uşaq sadəlövhlüyüm daha hansı sürprizlərlə üzləşdirəcəkdi?!

Andreylə razılaşandan sonra şəhər kənarına çəkilib balaca bir kafedə qəlyanaltı etdik. Səhərisi günü işlərimi Leonidə təhvil verib "Kutuzov"dakı evimdən lazımı əşyalarımı yığışdırıb Andreyin "Ceep"də bağ evinə getdik.

Xəstəxanadan çıxandan sonra ilk dəfə ayaq basdığım, o romantik axşamı hələ də unutmadığım bağ evi! O vaxtdan buralara gəlməmişdim deyə həmən xatirələri, gözəl anları yaddaşımda qoruyub saxlamışdım; o payız axşamı, qaraçıların şaqraq musiqisi, rəqslər, Andreyin etirafları, bir də ki, Raisa.

Sonya bizi çox soyuq qarşıladı. Xidmətçı qız sərin şərbətə qonaq etməsəydi əhvalım lap korlanacaqdı. Andrey onun qoluna girib, deyəsən yataq otağına aparanda hiss etdim ki, Sonya onun qolunu itələdi. Sonra xeyli vaxt otaqdan çıxmadılar. Arada Sonyanın əsəbi qışqırığını, Andreyin kobud cavabını eşitdim deyə həyətə çıxdım.

Hiss etdim ki, xidmətçi qız sözlü adam kimi mənə yaxınlaşmağa imkan axtarır, nəsə demək istəyir. Elə bu vaxt Andreyin bağırtısını eşitdim.

– Ol-yaa!...

Qız arxaya çevrilib qorxa-qorxa evə cumdu.

– Lyudaa, – dedi.

Andrey lap hövsələdən çıxmışdı deyəsən. Bağırdı. – Bu Lyuda hardan çıxdı? Blinn...

Qızın əli-ayağı əsirdi.

– Adım, – dedi, – Lyudadı, Lyudmila.

– Lənət şeytana, nə fərqi var?! Ona su ver, tez! – Əlini yataq otağının qapısına sarı uzatdı. Xidmətçi qız başını yellədib

çaşqınlıqla ondan uzaqlaşdı, bir göz qırpımında qapını örtüb gözdən itdi.

Andreyin bu dərəcədə özündən çıxdığını birinci dəfəydi görürdüm. Görünür bu dəfə onu çox əsəbiləşdirmişdi. Üzümə baxmadan "sən qal" deyib evdən çıxdı, maşına oturub getdi.

Dilxor olmuşdum. Sonyanın bu vəziyyəti məni heç açmırdı. Bir tərəfdən də nə edəcəyimi, boynuma götürdüyüm çətin vəzifəyə nədən, hardan başlayacağımı ağlıma sığışdıra bilmirdim. Əgər bu qadın xəstədirsə, illah da psixi xəstədirsə (onun bayaqkı hərəkətlərindən, danışığından hiss olurdu) onda, vay mənim halıma!...

Özüm özümə ürək-dirək verdim. Andrey də heç nə deməmiş çıxdı aradan. "Sən qal". İlahi, sən özün mənə səbir ver!

Axşama yaxın nigarançılığıma son qoyan Lyuda oldu. (Bu bəstəboylu qızcığaz bəlkə də dünyanın ən məsum, sadəlövh, ürkək məxluquydu!) Əlində iri ağ hamam dəsmalı tələm-tələsik yataq otağından çıxaraq pilləkənin altından şütüyüb vanna otağına girdi, suyun şırıltısını eşitdim, bir neçə dəqiqə keçməmiş yaş dəsmalla vestibülə çıxıb Sonyanın yanına qayıtmaq istərkən məni ilk dəfə görürmüş kimi gülümsədi, əliylə işarə elədi ki, "hər şey yaxşıdır".

Çox şükür! İndi rahat ola bilərəm. Həyətə çıxdım. Qoca bağban deyəsən işlərini qurtarıb evə getməyə hazırlaşırdı. Ona yaxınlaşıb görüşdüm. Kişi, papiros tüstüsündən saralmış qalın bığlarını eşərək elə gülümsədi ki, sanki bu həyətdə onunla birinci dəfə beləcə hal-əhval tuturdular. Andreyin ailəsinə yaxın adam olduğumdanmı, yoxsa, bundan sonra bağ evində qalacağımdan qabaqcadan xəbərdar olduğundanmı əlindəki belə söykənərək ciddi görkəm alıb heyfisləndi:

– Yaxşı gəlindi, amma...

O qədər sakit söylədi ki bunu, özümü ona bir az da yaxınlaşdırdım.

– Nə amma?

Bağban dediyinə peşman olmuşdu deyəsən; o yan-bu yana baxdı ki, onun sözlərini məndən başqa eşidən olmadı ki?

– Heç...

Bağbanlıq etməsinə baxmayaraq intiliqent adam idi, içənə də heç oxşamırdı. (Adətən bu yaşda olan, tanıdığım rus kişilərinin əksəriyyətindən bu gün də olmasa dünəndən içdiyi arağın, ya da samaqonun qıcqırmış iyi gəlir). Onun üst-başından isə təzəcə biçilmiş yonca, bir də papiros qoxusu gəlirdi. Maraq məni öldürürdü. Bir az da kişiyə yaxınlaşıb pıçıltıyla soruşdum:

– Ağsaqqal kişisən, adam oxunu atıb, yayını gizlətməz, ammasını de. Hə... – Göz vurdum deyəsən. Kişi elə bil mənim də pıçıltıyla danışmağımdan hürkdü, öz dilindən bəlaya düşən adam kimi udqundu, peşimançılığını gizlədə bilməsə də səsini bir az da yavaşıdı, dedi:

– Mən Sonyanın da, Andreyin də atasını yaxşı tanıyırdım. Allah rəhmət eləsin! – Xaç çəkdi. – Amin! Bağ evləri yan-yana idi, bax, – deyib əlini günbatan tərəfə uzatdı, – hasarın o üzündəki imarət Sonyanın atasının idi, satıb getdilər... Andrey də pis uşaq deyildi... – Başımla təsdiq elədim ki "bilirəm". – Hər il bütün yayı, Mövlud bayramını, yeni illəri burada keçirirdilər. Mənim evim kəndin kənarındadı, lap sonuncu ev. Keçi saxlayırdım. Düz altı il ikisinin südünü Andreylə Sonya içib – pulsuz-parasız. Gözəl vaxtlar idi, gözəl! Heç bilmirəm nə olub bunlara. Son vaxtlar... son vaxtlar Andryuşa yaman quduzlaşıb, Soniçkayla heyvan kimi rəftar edir, ev dustağı eləyib. Axı Sonyanın atası olmasaydı indi Andrey nə gündəydi, bir Allah bilir? Ehh. Bunu Allah götürməz axı?! Yazıq Soniçka.

Kişinin ürəyi açılmışdı. İki dost ailəni çoxdan tanıdığı, uşaqların xasiyyətinə körpəlikdən bələd olduğu aşkar idi. Bunları mənə danışmaqda məqsədini bilməsəm də, bəzi müəmmalı nüanslar aydınlaşsa da mənim üçün qaranlıq qalan məqam vardi; görəsən Sonya barədə ona nə deyiblər? Niyə tələm-tələsik cangüdənlərini dəyişib məni bura gətirib? Onu təhdid

etməyəmi? “Mən də arxayın olaram”– demişdi axı. Nədən narahat idi, nədən?...

Onsuz da hədindən artıq danışdığını hiss edib mənim fikrə getdiyimdən istifadə edərək əlindəki beli saraya aparmaq bəhanəsiylə aralandı. Sarayın qapısına çatanda nə düşündüsə çevrilib günahkar görkəm alıb dedi:

– Amma xahiş edirəm, dediklərim aramızda qalsın, olar?

Kişinin yersiz narahatçılığına son qoyub başımı tərpətdim: “Olar”. O sağ əlini çiyninə qaldırıb işarəylə təşəkkür elədi.

– Sizi Sonya Markovna otağında gözləyir.

Bu Lyuda idi – gözəl, bəstəboy qızcığaz...

Qapını döyüb gözlədim.

– Gəl, – dedi.

İçəri girəndə onu elə halsız və pərişan gördüm ki, üzülsəm də nə baş verdiyini soruşmağa cəsarət etmədim. Heç gözləmirdim ki, o ən əziz adamı kimi içindəki acıları mənimlə bölüşə bilər. Sanki qarşımda ürəyini açmağa, dərdini danışmağa yaxın rəfiqəsini axtaran əlacsız qalmış bədbaxt, biçarə bir qadın dayanmışdı.

– Görürsən, – dedi, – dostun, əziz dostun məni nə hala salıb? Mən artıq dəli olacam. Yox, mən artıq dəli olmuşam! Dəli necə olurki?! Dəliyəm, dəli!..

“Əziz dostun”u elə vurğuladı ki, elə bil Andrey ondan çox mənə yaxınmış! Niyə görə qadınlar öz istədiklərinə nail ola bilməyəndə acıqlarını ən yaxın adamından çıxır, onu səbəbsiz incitməkdən zövq alır, özü də özünəməxsus istedadla! Bağbanın bayaq dediklərində nə qədər həqiqət vardısa da o qədər də məlumatsızlıq olduğu apaydın idi. Uşaqlıq və gənclik illərindən fərqli olaraq qoca bağbanın onların bu günkü həyatına yaxından müdaxilə edə bilməməsi, onların intim həyatında nələrin baş verdiyindən bixəbər olması, bəlkə də daima onları tanıdığı kimi görmək istəyi kişini real həyatdan uzaqlara, Andreylə Sonyanın qayğısız uşaqlıq illərinə aparırdı...

Sonyanın cilddən-cildə girib Andreyi hövsələdən çıxardığı artıq mənə məlum idu. Dəfələrlə onların mənasız mübahisələrinin, çarpışmalarının üstünə gəlib çıxmışdım. Amma bunun əsl səbəbini heç cürə anlaya bilmirdim. Daha doğrusu, kübar ailələrinin içinə bələdçiliyim olmadığından bunu dərk etmirdim. Çox çətin olacaq mənimçin, çox! Hər sözündə istehza, davranışında təkəbbür!

"Səndə də az deyil ha!" demək istədim, amma,– Sakitləş bir az,– dedim.– Sənə istirahət lazımdır.

– İstirahət? Bu zindanda istirahət?! O tirandır, faşistdir! Görmürsən məni konslaqerdə saxlayır?!

– Hər şəraiti olan...– Dodağımın altında mızıldadım və yaxşı ki, məni eşitmədi.

– Nə?-deyə soruşdu.

– Heç, deyirəm, sakitləşin, artıq gecdir, mən gedim yerbəyer olum, səhər danışarıq. İndi Lyudanı çağıraram...

– Lazım deyil! Heç kimi görmək istəmirəm, get!...– Səsindəki tondan "cəhənnəm ol!" iyi gəlirdi.

Lyuda məxsusi mənim üçün ayrılmış otağı göstərib nə lazım olsa istəməmi xahiş etdi. Minnətdarlıq edib bir fincan şəkərsiz qəhvə istədim. Geniş hollun giriş qapısıyla üz-üzə səliqəli otaqda ikinəfərlik taxt, kitablar qalaqlanmış rəf, balaca stol və iki stul, arxa həyətə açılan iri pəncərənin yanında da duş kabinəsi vardı. Taxtın üstündə dəyişik ev paltarları, hamam xalatını görüb sevindim. Bəstəboy qıza qəhvə gətirməyi tapşırmasaydım elə indicə duşa girərdim. Gözləməli olacam.

Bağ evinə gələndən hiss etmişdim ki, Lyuda mənə nə isə demək istəyir, amma buna münasib şərait yaranmırdı; əvvəlcə Andrey onu əsəbiləşdirdi, sonra da ki özündən çıxmış Sonyanın yanından əl çəkmədiyindən imkan olmadı danışmağa. Yəqin Sonya ilə əlaqəli nəsə demək istəyir.

Acı qəhvənin füsinkar ətri otağa dolanda Lyudanın gəldiyini hiss etdim. O gülümsünürdü. Qəribədi, görəsən bu qıvraq, məlahətli balaca qızcığaz heç yorulmur?

– Sizin qəhvə,– deyib, fincanı stolun üstünə qoydu.

Təşəkkür edib maraqla soruşdum:

– Gözəl qız, deyə bilərsənmi burada nə baş verir? Maadam ki, gəlmişəm, deməli hər şeyi öyrənməliyəm, deyilmi?

O nəhayət mənimlə təkbətək qaldığından məmnun görünsə də, deyəsən bu sualı gözləmirdi. Özünü itirənkimi oldu, yoxsa mənə elə gəldi deyə bilmərəm, amma adəti üzrə dodaqları qaçdı, almacıqları yetişmiş şaftalı rəngi aldı, qaşlarını və çiyinlərini oynadaraq cavab verdi:

– Mən heç nə deyə bilmərəm, çünki, heç nə bilmirəm. Doğrudan...

Bu cavabdan çox başdaneləməyə oxşadı. Bayaqdan məni niyə təqib edirsən, elə indi, qəhvəni qoyub otaqdan çıxmaq belə istəmirsən.

– Məndən qorxursan?-Soruşdum və incə barmaqlarını ovucuma aldım.

Lyuda duruxdu.

– Niyə qorxmalıyam ki?-dedi.– Düzdü, bir az çəkinirəm. Yaman qaraqabağ adamsız.

– Burax bu rəsmiyyəti, mənə "sən" de. Bir də ki, qorxma... düzdü, komendant kimi gəlsəm də mən adamyeyən deyiləm. – Güldüm. Zarafatım xoşuna gəldisə də əlini ovucumdan çəkib bir az aralandı. Qız əməlli-başlı pörtmüşdü.

– Əslində...– dedi, – əslində, sizə ... sənə deyəcəyim var, amma Sonya Markovna barədə yox...

Maraq məni götürdü. Axı bu bəstəboy xidmətçi qız mənə nələr anlada bilərdi ki? Başımla işarə etdim ki, anlat.

– Bilirsən, mən bu kənddə yaşayıram, hər gün də eyni yolla gəlib-gedirəm. Düzdü, işlərim çox olanda, bəzən burada gecələsəm də, Sonya Markovna tez-tez məni evimizə buraxır... Gəlməsəydin heç deməzdim bunu. Eşidəndə ki, mühafizəçi sən olacaqsan, sevindim... Bilirsən, yazığım da gəlir ona, qınayıram da...

– Kimi?... Açıq danış görüm kimdən danışırsan?

– Adını bilmirəm. Əvvəllər görməmişəm buralarda. Sizinkilərərdən olsa da gözləri yaponlara daha çox oxşayır – gözləri qıyıq. Üzünü tük basıb, paltarı nimdaş, iy verir, lap bomj kimi, amma çox nəzakətlidir. Rusca yaxşı danışmır, elə bil göydən düşüb buralara... Kilsənin yanında köhnə saray var, orda gecələyir deyəsən. Anam bir neçə dəfə yemək aparıb ona... Yazıqdı...

"Sizinkilərdəndi". Heç sevmədim bu cür ayrıseçkilikləri: sizinkilər, bizimkilər, ruslar, qeyri-ruslar... İnsanları mənsubiyyətinə, dininə, rənginə görə kateqoriyalara bölən, özlərindən başqa hamıya qarşı dözülməz, açıq-aşkar nifrət bəsləyən şovinistlərin əqidə prizması! Əlbət ki, Lyuda belə şeylərdən uzaq bir qızdı, amma indiki qarmaqarışıqlıqda onun da gündəlik eşitdikləri bundan ibarət deyildimi?

– Yəni, qafqazlıdır.

– Bilmirəm. Bəlkə də.

– Lyudiçka, bilirsən qafqazda nə qədər xalq yaşayır? Eee, hamısı da baxtı kimi qara... Nə isə, sabah baxarıq. Göstərərsən yerini?

– Əlbəttə,– dedi, sonra da təşvişlə soruşdu.– Onu öldürməzsən ki?

– Nə?! Bu hardan gəldi ağlına? O ki səfildi, Lyuda. Allah artıq onu cəzalandırıb.

Lyuda karıxdı.

– Allah yaratdığına zülm etməz.– İnamla dedi.– İnsanlar zalımlaşıb, insanlar. Keçən il kənd qəbristanlığında iki Qafqazlını nə günə salmışdılar... Heç yadımdan çıxmır.

Qızcığaz bulud kimi dolub durmuşdu. Bircə kəlməyə bənd idi ki yanaqları islansın. Onu sakitləşdirməyə çalışdım:

– Unut getsin. Ay axmaq, yaxşı görək. Hər şey yaxşıdı. Biz günahsız insanlara əl qaldırmırıq.

"Biz" dedim, yəni Andreyin adamları. Mən də eşitmişdim ki, biznes qurmaq üçün tanınmış avtoritetin adından istigadə edib imkanlı biznesmendən külli miqdarda borc götürüb, sonra

da qaytara bilmədikləri üçün həmən borc alan "nerusski"ləri "Tapor"un başkəsənləri bura gətirib, əvvəl yarıcan edib, sonra da diri-diri basdırıblar.

Qız həmin dəhşətli hadisəni yadına salıb həyacanlanmışdı. Mənim təki kəntöy adama əlindən sevimli oyuncağı alınmış uşaq kimi kövrəlmiş qızı ovutmaq o qədər də asan olmadı. Deməli, neçə illərdi evində xidmət etdiyi Andreyin nə işlərlə məşğul olduğundan xəbərdar idi ki, beləcə təşviş keçirirdi. Onu inandıra bildim, ya yox, amma, müəyyən dərəcədə sakitləşdirdiyimə əmin olduqdan sonra qapıyacan yola salıb duşa girdim.

## Özüm də bilmədən onun xəyanətinə şərik oldum.

İlıq duşdan sonra xəyallarımın qoynuna girib uzansam da heç rahat yata bilmədim. İllər boyu məni insafsızcasına, addım-baaddım izləyən itkilərimin nə dədər çox və amansız olduğunu düşündükcə gözümdən yuxu qaçır, bədənim ağır daş altında qalıbmış kimi əzilirdi.

Deyəsən səhərə yaxın bir az mürgüləmişdim, yoxsa, pəncərədə oynayan günəşin şəfəqlərini birinci görən, ağacdan-ağaca qonub oxuyan quşların səsini ilk eşidən mən olmalıydım. Saat ona qalırdı.

Tez qalxıb duşa girdim. Yadıma yataqxana duşxanası düşdü nədənsə. Suyun altında qurduğum xəyallar çəkdi özünə; yanımda Marqo peyda oldu, məni oxşadı, bədənimə sarıldı, qulağıma nəsə pıçıldadı, öpdü, öpdü, sonra... sonra da sabun köpüklərinə qarışıb yox oldu. Vücudumu döyəcləyən qaynar su şırnağının parıltıyla ətrafa çilənən damlalarından burula-burula yuxarı qalxan buxar gözümə Raisanın şəffaf siluetini andırdı. Necə də bu buxarın ağuşunda boğulmaq istərdim. Bu qarabasmaya bənzər xəyalların içində təkcə Aliyə yox idi. Onu heç belə təsəvvür edə bilmirdim nədənsə. İtmişdi, ərimişdi, yox olmuşdu intim xəyallarımdan.

... Qapı döyüldü. ”İmkan verməzlər ki, heç olmasa bircə an tərki-dünya olasan!”

– Gəldim, – deyib hamam xalatımı əynimə keçirdim, kəmərini bağlaya-bağlaya qapını açdım:

Lyuda idi.

– Bağışla, – dedi. – Gəldim deyəm ki səhər yeməyi hazırdı.

– İndi gəlirəm,– dedim. Paltarımı geyinib həyətə çıxdım. Sonya məni gözləyirdi.

– Sabahınız xeyir!

– Salam. Gəl otur.

– Nuş olsun!

– Sağ olun.

Sonya bu gün çox gözəl görünürdü; əynində naringi rəngli ipək don, belində açıq qırmızı yüngül kəmər, nazik boynunu qucaqlayan saçları, açıq sinəsi onu ecazkar etmişdi. Dünənki vəziyyətdən sonra onun belə bəzənib-düzənməsi xoşuma gəldi, ən azından ona görə ki, ilk iş günümdən onun əhval-ruhiyyəsinin yaxşı olması mənə də gümrahlıq gətirdi. ”Belə gözəl qadını heç əsəbiləşdirmək olar? Vallah, gözəl qadınlar ancaq sevgi üçün yaranıblar! Andreyi başa düşə bilmirəm, niyə mələk kimi arvadından gen qaçır? Mən olsaydım... ”

– Qəhvə içirsən, yoxsa çay?-Lyuba soruşdu.

– Çay,– dedim, – limonla.

Lyuda gülümsəyərək çini çaydandan çay süzə-süzə gah mənə, gah da Sonyaya baxırdı. Bu qızın müəmmalı baxışları bir yana dursun, gülüşü də səssiz və sehirliydi. Sonya, yəqin ki, tez-tez irişməyi, gülməyi yox, məhz, irişməyi onun üzünə vururdu deyə, hələ ki, bir xəbərdarlıq etmədiyini görüb özünü güclə yığışdırdı.

Səhər yeməyini bitirib otağıma getmək istəyirdim, Sonya məni saxladı. Süfrəni yığışdıran xidmətçi qızın uzaqlaşdığını görəndən sonra :

– Rüfət,– dedi,– səndən bir şey xahiş etsəm...– Özümdən ixtiyarsız onun nə demək istədiyini anladım. Mənə Andreyin cəsusu kimi baxdığından, yəni “heç kimə deməzsən ki?” deməsini gözləmədim, razılıq əlaməti olaraq başımı tərpətdim ki, siz bilən məsləhətdi. Bundan ürəklənib davam etdi.– Rəfiqəmgilə getmək istəyirəm. Apararsan?

Sanki Lyuda belə eşitməsin deyə ehtiyatla, o qədər pəsdən xahiş etdi ki, onun xahişdən çox yalvarışla dolu baxışlarında ilişib qalmış sualın cavabını çox da ləngitmədim, “hə” dedim. Deyəsən, Andreyə xəbər verəcəyimdən qorxduğu üçün cavabım onu tam qane etmədi, hələ də məsum-məsum mənə baxdığını görüb sakitcə əlavə etdim:

– Deməröm, arxayın ol.

Sonya mənə tam etibar etdiyindən uşaq kimi sevindi, hazırlaşmaq üçün evə qalxdı. Bu zaman Lyuda qayıtdı. Sonyanın ardınca baxa-baxa maraqla soruşdu:

– Xanım harasa gedir?

– Hə. Alış-veriş etmək istəyir... Qoy bir az ürəyi açılsın.

Əlbət ki, Lyuda mənə inanmadı, (heç inanmasın!) bic-bic gülümsəyib başını buladı, nəsə demək istədi, amma susdu.

Bir müddət mənə elə gəlirdi ki, Sonyanın Lyudaya qarşı yersiz hücumları qadın qısqanclığından başqa bir şey deyil. Amma heç cürə anlamırdım ki, Lyudanı Andreyə nə səbəbdən qısqana bilər. Demək olar Andrey bağ evində tək-tük hallarda olardı, onda da beş-on dəqiqə, uzağı yarım saat. Vəssalam!

Təəcübümə səbəb olsa da heç iyirmi dəqiqə keçmədi ki, füsunkar gözəlliyi ilə adamı valeh edən Sonyanın maşının yanında peyda olduğunu hiss etdim. İlahi, inana bilmirdim ki, o bu görüşə hazırlaşmaq üçün cəmi iyirmi dəqiqəsini sərf edib. Son zəng mərasiminə hazırlaşan qız uşağı kimi günlərlə, aylarla hər xırda detala belə diqqət yetirən, hər yerə gedərkən saatlarla bütün qarderobunun altından vurub üstündən çıxan Sonyayanın xasiyyətinə yad idi bu tələskənlik. Amma nə qədər

tələsik geyinib-keçinsədə qarşımda dayanıb məni də tələsdirən xanımın gözəlliyinə məftun olduğumdan o, sanki məni xəyaldan ayırmaq üçün əlini donub qalmış gözlərimin qarşısında yelləbərək özümə gəlməyimi istəyirdi. Ayıldım. Ani olaraq qarşımda, bəlkə də Andreydən başqa hər bir kişini dəli edə biləcək gözəlçənin – Merlin Monrunun dayandığını görüb dərindən nəfəs alıb sükanın arxasına keçdim. Ön güzgüdən arxa oturacaqda yerini rahatlayan Sonyaya bir də baxdım; tanıdığım gündən onun bu qədər xoşbəxt görməmişdim desəm, yanılmaram. Dünənki qadından əsər-əlamət belə qalmamış, əsəblərini yerindən oynadan gərginliyi sönmüş vulkan kimi sakitləşmişdi. Sonya öz gözəlliyi ilə ətir saçırdı... Nədən?

Rəfiqəsigilə iki dəfə gəlmişdim. Bir dəfə, deyəsən, İsveçdən gələndə. İkincisi yadımda deyil, məncə ad günü idi, ya özünün, ya da misirli sevgilisinin-unutmuşam... Mayakovski küçəsindən burulub əllinci illərin tikilisi olan binanın qarsısındakı yaşıllıqlara bürünmüş səliqəli həyətə girib maşını saxladım, qapını açmaq üçün düşdüm. Sonya birinci sinifə gedən uşaq təki sevincək maşından düşdü, nəsə axtarırmış kimi gözücu, binanın qarşısında park olmuş maşınları nəzərdən keçirib çantasını çiyninə atıb dedi:

-Burda gözlə. Yarımca saat...

İkinci bloka girər-girməz başıma dolan axmaq bir fikir məni rahat buraxmadı; rəfiqəsiylə yarım saatlıq görüşə görə bu canfəşanlıq nəyə lazımdı? Yox, burda hansısa sirr var. Olsun, məgər, Raisa ilə əlaqəmin kəsildiyi gündən mənə dəxli olmayan heç nəyə baş qoşmayacağımı özümə söz verməmişəm? Cəhənnəm olsun sirrlər də!

Qara "Mersedes-Benz"in ikncі blokun qarşısında dayanması, arxa qapısının açılıb-örtülməsi, şosseyə tərəf şütüməsi heç iki dəqiqə keçmədi və başımı qarışdıran fikirlərə o qədər aludə olmuşdum ki, binaya kimin girdiyi gözümdən yayındı. Kimsə evinə gəlirdi, ya da kiməsə qonaq. Qonaq?! Həə, deməli, qonaq? Əlbətdə, bunu indiyə qədər ağlıma gətirməmiş-

dim. Əlbətdə, rəfiqəsigildə kiminləsə görüşə gəlir. Bu da bir konspirasiyadı bəlkə? Cəhənnəm olsun bəlkələr! Adamı xərçəng xəstəliyi kimi içindən yeyir. Bu məni niyə narahat edirdi, bilmirəm. Özümü sakitləşdirməyə çalışsam da ürəyimdə min bir şübhə toxumu cücərirdi. Bir tərəfdən də onun "yarım saat"ı çoxdan bitdiyindən bu şübhələr bir az da çoxalırdı. Lənət sənə, kor şeytan!

Maqnitafonu işə saldım. Kənardan baxanların diqqətini çəkməmək üçün , lap professional detektivlər kimi, ikiəlli sükanı qucaqlayıb başımı üstünə söykədim, özümü yatmış kimi göstərsəm də Sonyanın girdiyi blokdan diqqətimi yayındırmırdım. Bir az keçmiş Sonya blokun ağzında göründü. Tələsə-tələsə, sanki ağır cinayət törətmiş cani kimi arxaya baxmadan hadisə yerindən uzaqlaşmaq istəyirdi. Guya qapını açıb maşına əyləşməsini görmədim. Qapı çırpılandan sonra başımı qaldırıb ona baxdım; bir az qarışmış saçına sığal çəkdi, baş barmağıyla pozulmuş makiyajını qaydaya salırmış kimi yanağında, dodağının ucunda gəzdirdi, təlaş içində olan nəzərini gözümdən yayındırıb süni şəkildə gülümsədi, "gedək" dedi.

– Gec qayıtdın,– dedim dilucu.

– Hə,– dedi,– rəfiqəm, – sən ki onu tanıyırsan?– o qədər çərənçidi ki! Başladı, dil boğaza qoymaz, elə üyüdür, üyüdür...

Heç nə eşitmirdim. Yalan danışırdı, gözünün içinə qədər yalan! Mənə də yox da.

Danışa-danışa çantasından boya, güzgü çıxarıb rəngi getmiş dodağını boyamağa başladı. Maşını işə salıb yerindən tərpədərkən ön güzgüdə onun alışıb-yanan gözləri, mirvari kimi parlayan dişlərinin arasında sıxaraq oynatdığı şışkin dodaqları gözümə sataşanda dərk etdim ki, cinayət də olmasa özümdən ixtiyarsız bu gün onun xəyanətinə şərik olmuşam. Bir vaxtlar Andreyə şərik olduğum kimi.

Bundan sonra Andreydən xəbərsiz rəfiqə ziyarətləri nə qədər davam edəcəkdi deyə bilmərəm, amma hiss edirdim ki, bu nə ilkdi, nə də son.

Xəstəxanada mənə baş çəkərkən Andreyin gözlərinə baxaraq hər sözünə önəm verən, bəlkə ərinə xoş gəlməz deyə xırda detalları da ölçüb-biçəndən sonra danışan, hətta ona dediyim komplimentdən həyacanlanaraq çaşqın-çaşqın Andreyə baxan Sonya indi hardaydı? Nələr oldu axı? Bütün qadınlar eyni qəlibdənmi çıxıblar?

Əmin idim ki o, Andreyi sevmir. Əgər o, Andreydən intiqam alırdısa, nədən gözlərində çaldığı qələbənin qığılcımları yox, nəinki mənim, dostlarının, hətta Tanrının qarşısında xəcalət çəkə biləcəyi iyrənc rəzilliyindən soraq verən göz yaşları parlayırdı?!

Həyacandan maşını necə sürdüyümü bilmirdim. Məqsədindən xəbərsiz olduğumdan verdiyim kişi sözünə tüpürüb Andreyi bu rəzillikdən xilas etmək üçün nə edəcəyimi götür-qoy edə-edə mənim fikirlərimi oxuyurmuş kimi yalvarışla dolu baxışlarını məndən çəkməyən Sonyanı güzgüdən izləyə-izləyə yaşıl darvazanın qarşısında əyləci nə vaxt basdığımdan xəbərim olmadı. Başqa vaxt dəli kimi maşın sürdüyünə görə sürücülərini tənbeh etməyinə baxmayaraq indi susurdu. Maşından düşüb heç nə olmayıbmış kimi evə qalxdı. Mən isə səssiz-səmirsiz sükana söykənib gözlərimlə onu müşayət etdim. İlk dəfəydi acizliyimə sığındım.

Şübhələr əfi ilan kimi qoynuma sarılmışdı. Bu ilanı necə boğmalı?...

## Uşağı sağ qaldı, doğuşdan yarım saat sonra özü öldü.

Lyuda təlaş içində otağıma soxulanda elə bildim Sonya özünə qəsd edib. Bu qənaətə gəlməyimə səbəb son vaxtlar onun davranışında olan dəyişikliklər, özündə-sözündə olmaması, qapını içəridən qıfıllayaraq heç kəsi yanına buraxmaması idi. Yanılmışdım.

Qız qapını açan kimi üstümə atılıb bağırdı:

– Kömək et, Rufat, tez!..

"Axı nə olub?"soruşmağa imkan vermədi, ayaqqabılarımı geyər-geyməz qolumdan tutub həyətə sarı dartışdırdı. Onu ilk dəfəydi belə həyacanlı görürdüm. Bir yandan da bu cür sərbəst, ərk elədiyi dost kimi rəftarı məni təəccübləndirsə də xoşuma gəldi. Sonyanın otağına tərəf deyil, həyətə üz tutmağından anladım ki, ona heç nə olmayıb. Maraqla soruşdum:

– Ay qız, məni hara dartırsan? Kimə kömək edim? Danışsana, lənət şeytana!..

O isə gözünün yaşını tökərək məni həyətə çıxardı. Bu balaca qızcığazdakı gücə heyran olmuşdum; o məni sözə baxmayan dəcəl uşaq kimi əlindən sürüşüb çıxmayım deyə qolumdan bərk-bərk yapışıb arxasınca sürükləyirdi sanki.

– Ona kömək lazımdır, yoxsa öləcək.

– Kimə?.. Kim öləcək?

Darvazaya çatanda dayandım. Soruşdum ki, uzağa gediriksə maşını götürüm. Qapıdakı cangüdənə qapını açmağını xahiş etdi və mənə baxıb dedi:

– Yaxındadı, kilsənin yanında. Gedək.

Son günlərin hadisəsi başımı o qədər qarışdırmışdı ki, "kilsənin yanında "deməsəydi anasının tez-tez baş çəkdiyi, kənd kilsəsinin həyətində özünə "yuva" qurmuş gözləri qıyıq kişi yadıma belə düşməzdi.

Evin qərb hasarındakı tini dönən kimi üç yanı meşəylə əhatə olmuş balaca gölün sahilində lövbər salmış kiçik gəmiyə bənzər taxtadan tikilmiş qədim kilsə göründü. Doğrusunu deyim ki, neçə vaxt idi Andreyin bağ evinin beşaddımlığında olan təbiətin yaratdığı bu ecazkar mənzərəni görmək ürəyimdən keçirdi. Amma ekstrimal şəraitdə onun ziyarətinə gələcəyim ağlıma da gəlməzdi. İknci kursda tələbə inşaat dəstəsində Gəncəyə, Göy-gölə getməyim yadıma düşdü. Göllərin də ekizi olarmış! Sanki yamyaşıl ağaclar qollarını açıb bu balaca gölü bağrına basıb; səmanın maviliyi göz yaşıtək dumduru suyun şəffaflığına qarışıb. Tənha kilsə bu gözəlliyi pis nəzərlərdən

qoruyan qala kimi ağ, sarı, bənövşəyi çiçək yağışında mürgüləyən gölə möhtəşəmlik verir. Rəssam fırçasını aciz qoya bilən gözəl mənzərəydi!

Kilsəyə çatmamış onu dövrəyə alan alçaq taxta hasara birləşmiş daxmanın küçəyə açılan qapısından içəri girdik. Divarları köhnə, artıq istifadəyə yararsız taxta, şalban parçalarıyla bir-birinə pərçim edilib damı sınıq-salxaq şiferlə örtülmüş yosma tikili bu gözəlliyin fonunda ürək bulandırırdı.

İçəri daxil olandan sonra gördüyüm mənzərə daha eybəcər, daha sönük oldu: günorta saatlarına baxmayaraq içəri çox qaranlıq və cansıxıcıydı. Buranın havası o qədər ağır idi ki, sanki dezinfeksiya olunmayan zibil yeşiyinin içində tənbəki doldurub çəkirsən.

Mənimlə salamlaşan – çox gəlib getdiyindən buranın havasına, daha doğrusu havasızlığına öyrəşmiş – Lyudanın anası arxası qapıya tərəf oturub xəstəyə həlim içirdiyindən, daxmanın küncündəki sınıq-salxaq divanın üstündə uzanıb zarıldayan kişinin sifətini görə bilmirdim. Çoxdan istifadə ömrünü bitirmiş sınıq-salxaq divanın tinində ayaqları qırıq yastı tumbanın üstündə, yəqin ki, kilsədən gətirilmiş iki şam yanırdı. Müdhiş bir görüntü!

İrəli gedib ona yaxınlaşdım. İçəri girərkən burnuma dolan qoxu daha da kəskinləşdi. Anlaya bilmədim, bu aylarla yuyulmayan, nimdaş və köhnə olduğu qədər də kirli pal-paltarın, yorğan-döşəyin, kim bilir neçə vaxtdı su dəyməyən dərisinin, yoxsa daxmanın iyi idi.

Lyuda maraq və həyacanla gah mənə, gah da xəstəhal kişiyə baxırdı. Anası həlimi içirib qurtarandan sonra qaşığı saxsı nimçənin içinə qoyub ayağa durdu.

– Güclə yedi,– dedi.

Bu qayğıkeş qadına minnətdarlıq edib əlimi çiyninə qoyanda quyunun dibindən gəlirmiş kimi boğuq səs məni diksindirdi. Səs o qədər xırıltılı və əzgin idi ki, əvvəlcə nə dediyini anlamadım. Bir az da yaxınlaşanda öz adımı eşitdim.

-Rü-rü-fət... Rü-fət...

Başımla Rüfət olduğumu təsdiq etsəm də gah Lyudaya, gah da ansasına tərəf baxıb lal sual verdim ki, o məni hardan tanıyır? Lyuda çiyinlərini atdı. O isə, elə hey adımı təkrarlayırdı:

– Rüfət... Rüfət...

Yorğun badamı gözləri çuxura düşmüş, tütün tüstüsündən saralmış saqqalının sıxlığından o qədər də gözə çarpmayan çapıqlar, alnındakı dərin qırışlar yaşlı adam təəssüratı yaratsa da ona diqqətlə baxanda çox da qoca olmayan kişinin aldadıcı simasında çəkdiyi əzabların, sarsıntı və faciələrin qoyduğu iz aydın hiss olurdu. O, güclə seziləcək təbəssümlə gözlərimə baxır, mən də adımı bilən bədbəxtin üzündə çöhrəmə eyni təbəssümü gətirə biləcək hansısa tanış, isti cizgilər axtarırdım... Kim idi bu biçarə? Ağlıma gələn ilk sualı verdim:

– Sən kimsən, dost?– Nədənsə sualım təəccübləndirdi onu. Hətta inciyən kimi göründü. Gözlərini yumdu. Azca keçmişdi ki, göz qapaqlarının ucundan sızan göz yaşı kül rənginə dönmüş kipriklərinə yayıldıqca şam işığında parıldayıb daxmanı bir az da işıqlandırdı elə bil. Maraq məni öldürürdü. Tanıya biləcəyim kimsəni xatırlatmırdı o.

– Sər-dar-am, Rüfət, öz... öz-bəy...

Gözlərini açmadan pıçıldadı. Əvvəlcə bu ad mənə heç nə demədi. Elə bul utanırdı, onu tanıyacağımdan xəcalət çəkirdi. Bir anlığa keçmişə, uşağlığıma, izi-tozu yaddaşımdan silinib getmiş kəndimizə qayıtdım. Hamını gözlərimin qarşısından keçirdim. Qarmaqarışıq, alatoran yaddaşımın əzik-üzük səhifələri arasında badamgözlü dostumu aradım və... tapdım. Bu adamda Sərdardan əsər-əlamət yox idi. Bir noxud dəni boyda da...

Ağlıma belə gətirə bilmədiyim bu təsadüf məni sarsıtdı. Lənətə gəlmiş zəmanə insanı necə iyrənc hallara salarmış?! Nədən?..

– Öz-bəy?!. Bu... bu nə haldı? Sən... sən bura necə gəlib çıxmısan?

Verəcəyim suallar boğazımdaca qor olub qalırdı. Onun bu halını görmək məni dəhşətə gətirmişdi. Bəlkə soruşmağın heç mənası da yox idi. Tez, tələsik bu girdabdan qurtarmaq gərək onu. Nənəm demişkən: "Sərgərdan gəzən kişi sahibsiz it kimidir – daşlayanı yiyə duranından çox olar". Aramızda baş verənlər öz yerində, qərib eldə ölümlə çırpınan uşaqlıq dostuma sahib çıxmalıydım.

Lyudadan xahiş etdim ki, evlərindən təmiz odeyal, mələfə gətirsin. Mən maşın dalınca qaçdım.

Əvvəlcə istədim bağ evinə aparım, lap lazım olsa Andreyə zəng vurub vəziyyəti başa salım, amma fikrimi tez də dəyişdim, daha doğrusu Sərdarın halının getdikcə pisləşəcəyindən ehtiyat edib bir başa xəstəxanaya aparmağa qərar verdim. Belə yaxşıdı... Lyudanı bağ evinin qarşısında düşürdüm ki, Sonya ikimizin də müəmmalı şəkildə yox olmağımızdan narahat olmasın. Bir də tapşırdım ki, ona hər şeyi başa sal, qoy professora zəng edib xəstəxanada bizi gözləməsini rica etsin. Lyuda düşən kimi maşının sürətini artırdım. Arxa oturacaqda odeyala bürünmüş, başını adını öyrənməyə macal tapmadığım Lyudanın anasının dizinə qoymuş Sərdar içini çəkə-çəkə zarısa da hiss etdi ki, o xilas yolundadı.

Professor İsaak Romanoviç bizi təlaş içində qarşıladı. Xəstəni görüncə sanki rahatlandı, dərindən "ah"çəkdi. Sən demə Sonya ona zəng edib deyəndə ki ağır xəstə gətirirlər, qorxub, elə bilib Andreyə nəsə olub. Bilirdim, operativlik bu xəstəxananın prinsiplərindən biridi. Xərəyi maşının yanına verən növbətçi tibb işçiləri "bomj"lara məxsusi iyə məhəl qoymadan Sərdarı xərəyə mindirib liftə sarı sürdülər. Professor baş tibb bacısına göstərişlər verəndən sonra bizə sarı dönüb ürək-dirək verməyə başladı:

– Əzizim, mən yaman qorxmuşdum. Elə bildim... Nəysə, yaxşı ki hər şey yaxşıdı! Qorxulu bir şey görmürəm. İndi ən yaxşı həkimlər onu müayinə edəcək. Onu hardan tapmısız? –

Qəfil soruşdu. Xəstəxanaya daxil ola-ola hər şeyi ətraflı danışdım. O çox təsirləndi və bizə ikinci mərtəbədəki kabinetinə aparıb orda gözləməyi tapşırdı. Çox keçmədi Andrey də gəlib çıxdı. Təqribən dörd saata yaxın vaxt keçdi. Kabinetin divarındakı iri kəfkirli saat 21-20-ni göstərəndə professor içəri girdi. Üçümüz də birdən ayağa qalxdıq. Yəqin ki narahatçılığımıza son qoymaq üçün tələsik dilləndi:

– Təlaşa ehtiyac yoxdu. Çox zəifləyib, əlbətdə, aclıq, soyuq, rütubət də öz işini görüb. Amma orqanizmi möhkəmdi, yaxşı qulluq, vitaminlər tezliklə ayağa durmağına kömək edəcək. İndi sistem altındadı... Andrey, Rüfət siz evə gedin, sizlik bir iş yoxdu. Əlbətdə, əgər tibb işçilərinə etibar etmirsizsə, qala bilərsiz.

Artıq İsaak Romanoviçin bu tipli atmacalarına öyrəşmişdik deyə bu sözdən sonra qalmağa nə ehtiyac? Sağollaşıb çıxdıq. Andrey də bağ evinə getmədi, heç Sonyanın hal-əhvalını da sormadı. Lyudanın anasıyla qayıdanda gecə yarıdan keçmişdi. Kənd zülməti üstünə çəkib uyuyurdu və səhərin necə açılacağını bir Allah bilirdi...

***

Sərdar həkimlərin səyi nəticəsində sağalıb tez ayağa durdu, mənim, hətta professorun düşündüyündən də tez. Xəstəxanadan çıxandan sonra Lyudanın anasının təkidiylə (bu fədakar, şəfqətli xanımın adı Veronika Karlovnaymış) Sərdarı onların evinə yerləşdirdik. Çünki Veronika Karlovna özü demişkən, yeganə qızı Sonyanın yanında qulluğa girəndən onsuz da tək-tənha yaşayır, həm də, bir növ Sərdara isinişib. Geniş həyətbacasını, üçotaqlı kərpic evini görəndə fikirləşdim ki, görəsən bu gen-bolluqda da darıxmaq olar? Bu bir tərəfdən çox əla oldu; Sərdarı bağ evinə aparmaq, Sonyanın xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq heç bir məntiqə uyğun gəlməzdi – öz evim olsaydı başqa məsələ.

Axır ki, üz-üzə, göz-gözə oturduq. Pərvərdigarə, gör neçə illər keçmişdi! Bəlkə onunla bu vəziyyətdə rastlaşmasaydım, bax beləcə, uşaqlığımızdakı kimi diz-dizə oturub baxışmasaydım ancaq şirin uşaqlıq xatirələrindən özgə bir şey qoymayıb yanımızdan ildırım surətiylə ötüb keçən insafsız, insafsız olduğu qədər də əzazil həyatın bizə, artıq daha bir şans verəcəyinə şübhə edərdim. Çünki indicə Sərdarın solğun, yorğun gözlərinə baxanda mənə elə gəldi ki, o elə doğulandan bu yaşda olub. Görüşmədiyimiz zaman aralığında bir igid ömrü yaşansa belə. Bu onun saçlarında, üz cizgisində, səsinin ahəngində özünü biruzə verirdi. Nə vaxtsa kəndimizin, hətta bütöv rayonumuzun sayılıb-seçilənlərindən olan "uçotçik" Mirbalanın oğlu, rayon maliyə şöbəsinin müdiri Gülbala müəllimin qardaşı oğlu Sərdarı bu halda görəcəyimi düşünməzdim. İnstitutu qurtarandan sonra onu ən azından rayonun baş zootexniki, ya da ət tədarükü kombinatının direktoru kimi görürdülər. Əşi, bu fələyin oyunundan baş açmaq müşkil işdi. Yəqin o da məni Avropa çempionu görmək istərdi. Görəsən amansız həyat öz sərt fırçasıyla yaratdığı əsərinə baxa bilsəydi mənimtək utanardımı? Söhbəti necə, nədən başlamaq hər ikimizçin çətin olduğundan ilk ağlıma gələn sualı verdim:

– Buralara necə gəlib düşmüsən? – Mənim üçün ən maraqlısı bu sualın cavabıydı. O, mən biləni Bakıdan və Gəncədən uzağa getməmişdi. Niyə də gedəydi, yaxşı iş-gücü, arxası, ev-eşiyi, təsərrüfatı vardı və heç vaxt da maddi sıxıntıları olmamışdı. Sualıma cavab gözləyə-gözləyə onun içini oxumağa çalışırdım. O danışmağa başladı: Sərdar başına gələnləri bəzən təmkinlə, bəzən sərt tərzdə danışır, sanki ona inanmayacağımı düşünərək arada sohbətinə pauza verib mənim reaksiyamı hiss etmək istəyirdi. Eşidəcəyim, sarsılaraq içimi didəcəyim Sərdarın sərgüzəştləri ürəyindən daş asılmış kimsənin belə damarındakı qanını dondura bilərdi. O danışdıqca mənə rahat, təmkinli olduğunu hiss etdirmək üçün

süni surətdə əsəbilərini cilovlamağa çalışsa da üzündə, boynunda qıclaşan əzələləri onu “ələ verirdi”.

– Məni aldatdılar, – dedi. – Heç vaxt belə bir kələyin qurbanı olacağımı düşünməzdim. İnandım. Bilirsən, uzun illər rayonun aqrar şöbəsinə rəhbərlik eləyən birisinə inanmaya bilməzdim. Axı o... Nə isə... olan oldu. Qismətim beləymiş.

Sərdarın gah təəssüflə, gah istehza, gah da nifrətlə dolu səsinin tonu tez-tez dəyişir, bəzən qəhər boğduğundan söhbətinə ara verib sakitləşir, udqunur, ya da öskürürdü.

“Kimin əvvəli, kimin axırı” deyimi yadıma düşdü. Əvvəllər bu deyimi ona heç cürə aid etməzdim. Çünki əvvəllər, mənim kimi onu yaxından tanıyan heç kəsin ağlının ucundan keçməzdi ki, Bəyim arvadın deyimi olmasın, ev-eşiyini, yatırını Nikolayın topu da dağıda bilməyən “uçotçik” Mirbalanın oğlunun da “axırı” olarmış; uşaq vaxtı süd gölündə üzən “uçotçik” balasını bunca rəzil olmuş səfil vəziyyətdə necə təsəvür edə bilərdim ki? Demə bu vəzifəlilərin ayıbını partbilet örtürmüş.

Sərdar danışırdı:

– Mehbalı müəllim – o, aqrar şöbənin sədriydi – sən tanımazsan, təklif edəndə... təklif edəndə ki, Rusiyaya iki sisterna spirt vursaq bir-iki aya milyonçu olarıq... Çoxları bu işlə məşğul idi, eşitdiyimdəm, bildiyimdən yaxşı da qazanırdılar. ”Suxoy zakon”dan təzəcə çıxmış Rusiyadakı işbazlar da Azərbaycandan gələn şərabı, spirti keyfiyyətindən asılı olmayaraq əldən qapırdılar– bunu bilirdim. Əvəzində də guya taxta-şalban, toxumluq taxıl gətirirdilər. Sənədlər bank zəmanətiylə aparılsa da pullar nəqdləşdirilir, sonradan yerbəyer edilirdi. Bir növ maxinasiyadı.

– Heç inana bilmirəm, – dedim.

– Nəyə?

– Sənin... risk eləməyinə. Axı... Məgər Mirbala dayı rəhmətə gedib? Yəni...

– Hə, – cavab verib başını aşağı saldı, – altı ildi. Papa sağ olsaydı buna qol qoymazdı. Mən indi başa düşürəm, nə qədər axmaq olmuşam, axmaq!

Əlimi çiyninə qoydum. O başını qaldırıb məyus-məyus mənə baxdı. Açıq pəncərədən otağın döşəməsinə zərif qırmızımtıl xətt çəkmiş qürub günəşinin şəfəqləriylə oynayan yüngül tül pərdə asta-asta yelləndikcə axşam düşdüyünü xəbər verirdi və rus kəndinə məxsus axşamların xoş rahiyəsi Sərdarın ağrılı söhbətinə bir az yumşaqlıq gətirirdi. Qıyıq gözlərini yumdu, otağa dolan havanı çiçək iyləyirmiş kimi ciyərinə çəkdi, sonra otaqda tək olmadığını bilmirmiş kimi irişərək gözünü açıb mənə baxdı, dərindən köks ötürüb davam etdi:

– Əvvəl hər şey əla idi. Sisternləri yola saldıq: birində kəmşirin, birində təmiz spirt. On gündən sonra Rastova gələndə yükümüz artıq yerindəydi. Bizi, daha doğrusu sisternləri gözləyən dostların köməyilə ikicə günə malı əritdik. Rüfət, qardaşım, inanmazsan, heç mən də inanmazdım, öz gözlərimlə qazandığımız pullar kiplənmiş kisələri görməsəydim – inanmazdım! İki kisə ağzınacan kiplənmiş pul!. Əlbəttə, dostlar öz haqqlarını götürüb bizi yük qatarıyla Bakıya yola saldılar. Bu dəhşət idi.

– Yük qatarıyla?

– Hə də, konspirasiya məqsədilə. Heç yük qatarında olmusan? Cəhənnəm əzabıdı bu, əsl cəhənnəm. Əzab-əziyyətli olsa da dözürdüy, zəmanə pis, yollar xətalı. Kalan pulla sağ-salamat evə qayıtmalıydıq axı... Allah kəsəydi o pulları!

– Sonra necə oldu?

Sərdar dedi ki, rayona qayıdandan sonra bircə ay keçməmiş nəfsini saxlaya bilməyib, yenə girişib çaxır biznesinə. Bu dəfə Şamaxının şərab zavodundan dörd sisterna şirin çaxır vurublar, qış girər-girməz malı çatdırıblar Rusyətə ki taxta-şalbanla mübadilə etsinlər. Düzdü, bu dəfə bir az gec və ucuz satıblar. Bir-birindən xəbərsiz işbazlar Azərbaycanın şərab zavodlarının satılmayan məhsulunu ağına-bozuna baxmadan Rusiyaya

daşıdıqlarından əməlli-başlı rəqabət yaranıbmış. Deyəsən, həm də çaxırın keyfiyyətindən narazılıq olub, həm də yerli mafiozların, nə bilim avtoritetlərin haqqı vaxtında çatmıb deyə onarı əməlli-başlı sıxışdırıblar. Axır ki dəyər-dəyməzinə satdıqları çaxırın pulunu yığa biliblər.

– Elə bil, – Sərdar davam etdi, – şeytan girdi qəlbimə. Pul oğraş şeymiş, qardaş. Mehbalıya dedim:"Ayə, a məllim, allah bilir bir də buralara gəlmək qismət olacaq, ya yox, gəl bu gecəni kef eliyəy, vallahi-billahi, dünyanın malını bir kopoolu uda bilmib bu vaxtacan... " Eşitmədi məni, "üz vurma" deyib evdə qaldı. Tıxatıx pulla dolu iki idman çantasını çarpayının altına dürtüşdürüb tapşırdım ki, qapını heç kimə açmasın, mən səhərə qayıdacam. Bir kopa pulu cibimə basıb çıxdım şəhərə, restoranda qəşəng yeyib-içdim, elə ordaca bir ürəyün istiyən xalaşkayla tanış olub onun evinə getdik. Rüfət, qardaşım, ağlım çaşmışdı, inandığımız haqqı, birinci kərəydi arvadıma xəyanət edirdim. İnanırsan? – Başımı tərpətdim ki, "hə". "Xəyanət"i deyəndə rəngi ağardı. Bəlkə mənə elə gəldi. Bir zaman Semaşkonun həyətində Marqoyla qol-boyun olduğmu görmüş, aramızda olan münasibətdən xəbərsiz olduğu halda, yemə-içmə, gördüyünü rayona çatan kimi birinin üstünə beşini qoyub əmisi oğluna çatdıran Sərdarın süni etirafı mənə gülünc görükdü. "Görürsən, dostum, günahsız bəndə yoxmuş... "

O əsəblərini ram edə bilmirdi:

– Səhər, keyfi kök, yır-yığış edib yola çıxmaq üçün kirayə tutduğumuz evə gəlib çatanda dəhşətə gəldim: qapının qıfılı qırılmış, otağın altı üstünə çevrilmişdi. Şərikimi eyvanın qapısı ağzında al-qan içində görəndə elə qorxdum, elə qorxdum, az qala dilimi udacaqdım. Mehbalını vəhşıcəsinə öldürmüş, pullarımızı da götürüb aradan çıxmışdılar. Başımı itirmişdim, nə edəcəyimi bilmirdim. Bir anlığa özümü Mehbalının yerində, ya da onun yanında təsəvvür etdim və ürpəndim. Nədənsə, dünən axşam məni xəyanətə sürükləyən şeytana minnətdar oldum. "Cəhənnəm olsun pul! "Şəhərdə bir-iki adam tanıyırdım –

işlərimizi "düzüb-qoşan", yəni, vaqonları qarşılayıb sənəd-sünədi yoluna qoyub sexlərlə bizi calaşdıran Aliklə Romanı. Heç nəyə toxunmadan evdən çıxdım. Yaxşı ki üstümdə bir az pulum qalmışdı. Aliklə görüşüb əhvalatı danışdım. O, əvvəlcə mənə inanmadı. Ağzından qaçırdı ki, bəlkə pula görə şərikini sən öıdürmüsən, ya da öldürtmüşən? Bu qarma-qarışıqlıqda bir-iki dozaya görə kimi desən öldürərlər; killer tapmağa nə var ki? – Elə-belə də dedi, d üz gözümün içinə baxa-baxa. Bunu necə düşünə bilərdi?..

Mən :

– Kim olsa elə düşünər,– dedim. Sərdarın badamı gözləri bir az da qıyıldı.

– Hə. Düzdü. Ona görə geri qayıda bilmədim. Lənətlənmək-dən qorxdum, lənətlənməkdən!..

Camaatı necə inandırmaq olardı ki? Sağ olsun Roma, dostlarının sayəsində Mehbalanın nəşini evə yollamağa kömək elədi.

– Sən də ilişib qaldın... Nə qədər ağır olsa da, gərək gedəydin. Məncə, başa düşərdilər. Qayıtmamağın daha çox şübhə yaradır.

– Kaş o gecə ondan ayrılmayaydım, ya da dilə tutub özümlə aparaydım. Mehbalıya nə var – Mehbalı ölüb canını qurtarmışdı. Mənsə, iztirab, əzab çəkməyim bir yana dursun, fəlakət də addım-addım arxamca gəldi. Gəldi, axırda öz kölgəmə döndü-hara qaçdım əlindən qurtula bilmədim. Hamıdan qaçırdım, illah da özümüzünkülərdən. Elə bilirdim məni axtarırlar, tanınmağımdan qorxurdum – şəhər-şəhər, kənd-kənd dolaşıb sərgərdan ömür sürürdüm. Haralarda olmadım. Və bir gün, bir gün mənə kömək etmək istədiyini bildirən orta yaşlı dağıstanlı kişiylə rastlaşdım. "İstəsən səni fermaya işə düzəldərəm" dedi. Əvvəlcə inanmadım ona, sonra razılaşdım. Razılaşmayıb neylərdim. Sevindi, məni "UAZ"-na mindirib "step"in boz çöllərindəki çoban fermasına apardı. Hansısa çobanla anlaşılmaz dildə xeyli söhbət elədi. Çoban da, o da məni altdan-altdan

süzüb bic-bic qımışırdılar. Bizə yemək verdi, gecədən keçmişdi, "çöl-biyabanda yolu tapmazsan" deyə ona təkidlə gecələmək təklif etdilər, razı olmadı, çıxıb getdi. O gündən qara günlərim başladı; sən demə yaxşıca pul alıb məni çobana satıbmış it oğlu! Demə sevinməyi səbəbsiz deyilmiş alçağın. Dili bilmədiyim üçün sənədlərimi əlimdən almışdılar. Qoyun otarırdım – mən, ali təhsilli zootexnik-çoban! Rasim əmoğlu demişkən, demə burnumnan pox eşəcəyəmmiş. Düz dörd il! Bir balaca usyankarlıq edəndə də "səni çeçen bayoviklərinə yaxşı pula satarıq" deyib hədələyirdilər. Bilirdim ki, müharibə təzə başladığından orda da dərəbəylikdi. Mənimlə heyvan kimi rəftar edir, ölməyim deyə yedizdirirdilər ki, qaçmağa taqətim olmasın. Sonda dözə bilmədim, gecəylə fermadan qaçdım. Rüfət, d-dostum, bilirsən qurbanolduğum məni sənin qənşərinə niyə çıxarıb?

– Bilmirəm.

Bir az susub durdu. Handan-hana suala sualla cavab verdi:

– Sən... sən Allaha inanırsan?

– Hə, – dedim.

– Sən bilməsən də, Allahımız sənə qarşı amansız olduğumu unutmub. (Mən də unutmamışdım) O seçib bu günü – məni günahıma görə utandırmaq, xəcil etmək üçün... Sənin sevginə həsəd, yox, gizlin paxıllıq edən əclaf oldum. Mənim barədə nə fikirləşsən haqqın var. Axı... axı hər şey başqa cür ola bilərdi mən axmağlığ etməsəydim. Görmüşdüm. Nolsun ki. Aliyəyə deməməliydim. Nə bileydim axırınız belə olacaq. Hamı bilirdi ki Aliyə Rasimi sevmirdi, sevə bilməzdi.

– Ancaq onu seçdi, – dedim, – sənin canfəşanlığınla... Arxadan iş çevirdin, Sərdar. – Dayana bilmədim. Havaxtsa onu əllərimlə boğub öldürməyə hazır idim. İndi isə soyuqqanlılıqla onun artıq mənimçin heç bir məna kəsb etməyən etiraflarına qulaq asırdım. "Bəlkə ona deyim? Deyim ki, aldım intiqamımı, öldürdüm oğraş əmoğlunu, öldürdüm! Onda əlimə keçsəydin, səni də gəbərdərdim. Hayıf! " Ürəyimdə nə deyəcəyimi götür-

qoy etsəm də indiki vəziyyətində onu üzmək istəmədim. Düşündüm ki, nə fayda, olan olub, keçənə də güzəşt edərlər. Deyəsən daha Sərdara nifrət eləmirdim. Sadəcə ona yazığım gəlirdi.

– B-bağışla... – Sərdarın xırıltılı səsi məni fikirdən ayırdı. – Qurban olum, bağışla. Onsuz da Aliyə öləndə. Aliyə öləndə başa düşmüşdüm ki...

– Nəə?!– Elə bağırdım ki, bayaqdan söhbətimizə mane olmamaq üçün qonşu otaqdan çıxmayan Veronika da həyacanla içəri girdi. Sərdarın rəngi qaçdı.

– Sən... bəs... Rüfət, bilmirdin? Öldü. Öldü Aliyə. Doğuş vaxtı. Uşağını dünyaya gətirdi, heç üzünü də görmədi yazıq, yarım saatdan sonra həmişəlik yumdu gözlərini...

Bütün dünya başıma fırlandı. "Necə yəni, öldü? Bəs Rasim? O niyə bir söz demədi onda? Desəydi, desəydi, məni də qatilə çevirməzdi. " O külək döyən qayalı sahilə xəyalən bir də qayıtdım, söhbətimizi yadıma saldım, "daha bunların mənası yoxdu " demişdi, ya da buna bənzər bir şey, deyəsən Rasim demək istəyirdi, sözlü adama oxşayırdı, amma demirdi – qüruru imkan vermirdi. Lənətə gələsiz! Hamınız lənətə gələsiz. Sevgimi də əlimdən aldız, məni qatil etdiz. " Aliyənin ölümünə inana bilmirdim. Sanki "sən düz başa düşmədin, o ölməyib" deyəcəyini eşitmək üçün Sərdara baxıb ərklə soruşdum:

– Sən nə çərənniyirsən, başın xarab olub?

Cavab vermədi. Elə bil o, Aliyənin ölümündə günahkarıydı; başını sinəsinə əyib durmuşdu. Veronika bir şey anlamadığından hələ də qapının ağzında donub qalmışdı. Havam çatmır, boğulurdum. Güclə oturduğum kətildən qalxıb açıq pəncərəyə yaxınlaşdım. Kəndin günbatanındakı ağcaqayın meşəliyindən axıb gələn yüngül havanı ciyərimə çəkdim. Köməyi olmadı. Sərdar dediyinə peşman olmuşdu. Dərdimi səssiz-səmirsiz içimdə boğa-boğa nəmli gözlərimi soyuq ulduzlardan ayırıb balaca otaqda gəzinməyə başladım. Sərdar dinməz-söyləməz oturduğundan otağa çökmüş səssizliyi açıq pəncərənin o

üzündən eşidilən işıldaböcəklərin məğrur civiltisindən savayı kimsə pozmaq iqtidarında deyildi.

“Günah məndədir!” – qəfil fikrimdə dolaşıb az qala dilimin ucuna düşən bu nida ilk dəfəydi ürəyimə saldığı şübhələri darmadağın etdi. Çoxdan, o küləkli gündə öz mənasız ölümünün gözünə qürurla baxan Rasimin ölüm günündən çox-çox əvvəl də bunu düşünmüşdüm. Aliyənin sadəlövhlüyündən alçaqcasına istifadə edib şəhvətimi boğa, cilovlaya bilməyib özümü Marqoya əsir edəndə iki yol ayrıcında çabalayan biri kimi də bunu demişdim. Bir yandan, sevgidən doğulmasa da bağrına basa bilmədiyi körpəsinin anasız qaldığına görə özümü müqəssir sandım.

Bu ötən ayın ağrı-acısını unutmaq, çəkdiyim sarsıntıların məngənəsindən sıyrılıb çıxmaq üçün uzaq, lap uzaq, insan ayağı dəyməyən bir yerə qaçmağa hazırdım. Bəs qaça biləcəyim yer vardımı? Özüm özümdən gizlənə biləcəyim yer...

***

Sərdara başım elə qarışmışdı ki, ancaq yatandan-yatana gəldiyim bağ evində baş verənlərdən xəbərsizdim. Sən deyən fövqalədə bir şey olmasa da Sonyanın mənimlə soyuq münasibətindən hiss edirdim ki, yerlimə canfəşanlıq etməyim onu elə də açmır. Bu bir ayda evdən çölə çıxmadığını nəzərə alsaq, onun öz cəmiyyətindən uzaq düşməsindən nələr çəkdiyini başa düşmək olardı. Bir yandan mənə olan hörməti, bir yandan da aramızdakı kiçicik sirlər əsəbilərini boğmağa səbəb olmuşdu. Sərdar Aliyənin ölüm xəbərini verəndən sonra içimdə anlaya bilmədiyim bir boşluq vardı deyə, tənha qalmaq, hətta hönkür-hönkür ağlamaq istəyirdim. Ağlaya bilmirdim, boğulurdum, amma gözlərimdən bir damla belə yaş çıxmırdı.

Bu gün hava çox istidi.

Üstündə sənəd olmamasına baxmayaraq Andey Sərdarı Bakıya yola salmağa çeçen dostunun vasitəçiliyilə Moskva-Bakı reysinə “yer” düzəltdirmişdi deyə bu gün ona üst-baş almaq üçün mağazalara baş çəkmək, ordan da axşam reysinə yetişmək lazımdı.. Sərdarla şəhərə gedəcəyimi duyan Sonya eşitdirdi ki, onu da yolüstü Sülh prospektində düşürüb qayıdan-başı götürüm. Ev dustağı olan Sonyaya yazığım gəlsə də, “bu Sülh prospekti hardan çıxdı?” deyə fikirləşdim. Bu ünvana ilk dəfə gedəcəyindən narahatlığımı duydu.

– Kitab mağzasına, sonra da rəfiqəmin gözəllik salonuna baş çəkəcəm, – dedi. Razılaşdım. Əgər bilsəydim ki, onun Sülh prospektinə getməkdə əsas məqsədi nədi, qəti etiraz edər, bəlkə ağır söz də deyərdim. Deyəsən odla oynadığımdan xəbərim yox idi.

Sonya hazırlaşana kimi maşını işə salıb Veronika xanımgilə getdim. Sərdarı götürüb bağ evinə qayıdarkən qapının ağzında duran “Ceep” gözümə sataşanda dodağımı dişlədim. “Andrey bizi şəhərdə gözləməliydi axı? Bəlkə sürücüsü tək gəlib? “Yeganə cangüdən (o, cangüdməydən çox evi güdürdü) məni gözləyirmiş kimi hələ darvazaya çatmamış təlaşla maşına sarı atıldı. Rəngi-ruhundan həyacanlı olduğunu o dəqiqə hiss etdim. Gözucu “Ceep” ə nəzər saldım: sürücü yerindəydi. Əyləci basıb qışqırdım:

– Özünü maşının altına niyə atırsan? Axmaq ayı!

– Şef...

Dalısını eşitməyə ehtiyacmı var? “ Deməli Andrey gəlib, (niyə, bilmirəm) Sonyanın hazırlaşdığını görüb, hirslənib, təhqir edib, bəlkə döyüb də. Olmaya... olmaya qulağına söz çatıb? Nə isə... məncə indi Sonyanın daha çox mənə ehtiyacı var.”

– Əsəbidi. Səni gözləyir, – cangüdən mızıldadı.

Maşından düşdüm, həyətə girdim və pilləkənə çatmamış evdən çıxan Andreylə üz-üzə gəldim. Həddən ziyadə ciddi siması quru, cansıxıcı, bir az da qəddar adam təəssüratı yaratsa

da mən onu özüm kimi tanıyırdım: o, Sonyayla dalaşsa, onun barədə nəsə bilsəydi bu qədər sakit olmazdı. Amma bu sakitlikdə gizli bir təlaş vardı. Əlimi sıxıb hal-əhval tutmadan məni besedkya sarı aparanda anladım ki fövqaladə nəsə baş verib. O pıçıltıyla danışırdı.

– Sən... onunla görüşürsən?-dedi və mənimlə üz-üzə dayandı. – Düzünü de.

Heç nə anlamadığımdan tutuldum. “Kiminlə?” soruşmaq istədim. Andreyin müəmmalı sualı, bic baxışı, mətləbini aydınlaşdırmadan kimlə görüşdüyümün onu belə narahat etməsinə şübhələnməyə bilməzdim. “Niyə ürəyimi üzür, “mustafa”sın demir?” deyə fikirləşirdim ki özümdən ixtiyarsız süalına sualla cavab verdim:

– Kimnən... görüşürəm ki?

– O qancığla, Raisayla, görüşürsən? – Dişini qıcıdaraq soruşdu və ilk dəfə, ərklə yox, hikkəylə, qapı tıqqıldadırmış kimi yumruğunu sinəmə döyəclədi. Özümü güclə saxlayırdım. Andreydən bu yekəbaşlığı heç gözləmirdim. Nəyə görəsə hirsini-hikkəsini üstümə tökməyi bir yana qalsın, guya bilmirdi ki məni Sonyanın qıçına bağlayandan adım da yadımdan çıxıb? Bir də ki, məni Raisadan uzaqlaşdıran özü deyildi? Görəsən nə qələt eləyib?..

– Nə olub Raisaya?

Dua edirmiş kimi əllərini göyə qaldırdı, sonra da “ufff” eləyib sağ əlini sinəsinə döyəcləyərək fısıldadı:

– Ona heç nə olmayıb, heç nə, başa düşdün?! Nə olubsa mənə olub, mənə!.. Sualıma cavab ver: axırıncı dəfə nə vaxt görmüsən o fahişəni, hə?

– Onunla görüşmürəm, – sakit dedim. – Axı nolub, niyə hirs...

– İtin belindən gəlmiş, xəstəyəm deyə bir həftəydi bankda görükmürdü... Bu gün biliblər ki, Raisa... uxxx, onun anasını, üç milyon pulu bankın seyfindən götürüb, özü də yoxa çıxıb. Üç milyon dollar! Başa düşürsən? Qoy əlimə keçsin, qancıq,

onun hər tikəsini noxud boyda edəcəm! Mənimlə oyun oynayır? Qoy olsun! Onsuz da əlimdən qaça bilməyəcək. Cəngəllikdə də olsa tapıb timsahlara yem edəcəm... Pulun içinə işiyim, söhbət pulda deyil, başa düş, Rüfət, o, etibarıma xəyanət edib. Qabağımda minlərlə adamın zağ-zağ əsdiyini bilə-bilə məni tapdalayıb, üzümə tüpürüb. Doğulduğuna peşiman olacaqsan, Raya! Mənə rast gələn gününə peşiman olacaqsan!..

Son cümlələri elə dedi, sanki qənşərində mən deyil, Raisa dayanmışdı. Döşə ki, döşəyəsən! Birdən əsəbini cilovlayıb baxışını üzümdə oynatdı, üstümə basqı edib əbəs yerə qəlbimə dəydiyini duyub yalandan gülümsündü, heç nə olmubmuş kimi "bağışla" deyib darvazaya sarı üz tutdu. Andrey ağlını itirmişdi? Bu izdivacda, xəyanətdə, cinayətdə məni də şərik görməsi, suçlu sanması toxundu mənə. Üzr istəməsi də, bir növ "xala xətrin qalmasın" oldu.

– Nə etmək fikrindəsən? – Arxasınca səsləndim. Andrey bir neçə addım atandan sonra dayanıb çöndü, "sənə dəxli yoxdu" deyirmiş kimi baxıb:

– Dostunu yola sal, gəl yanıma, – deyib həyətdən çıxdı.

Əlbəttə, əgər xəyanət edibsə Raisaya haqq qazandırmaq alçaqlıq olardı. Amma buna heç cürə inana da bilmirdim. Mən biləni onun gözü tox və heç nəyə ehtiyacı yoxdu; tək yaşayan qadına bəs edəcək gözəl mənzili, bağ evi, sanballı işi, var-dövləti vardı. Təkcə sevgidə yarımamışdı. Sərsəm cinayətə əl bulamasında anlaşılmazlıq ola bilərdi. Nədənsə, onun sadəlövh qadın olduğunu bildiyimdən kiminsə toruna düşdüyünə əmin idim. Amma ağlıma kimsə gəlmirdi.

Sonya həyətə belə çıxmadığından başa düşdüm ki vəziy–yətdən xəbərdardı, yəqin bugünkü planları alt-üst olduğundan zəncir çeynəyir. Daha baş qoşmadım. Küçəyə çıxanda Andreyin maşını toz-duman içində yox olmuşdu. Mən də sükan arxasına keçib yola düşdüm. Bir söz demədiyimdən Sərdar da susurdu. Fikrim qarışmışdı. "Üç milyon! Gör necə göynədir? Sən ki bu pulları halallıqla yığmamısan, niyə təsirlənirsən,

niyə? Tutaq ki, risk edirsən, bu boyda cinayətkar ordu, başkəsənlər, killerlər saxlayırsan, dövlət içində dövlət sahibisən. Axı bunların daimi olmadığını yaxşı bilirsən. Bilirsən ki, nifrət etdiyin bir quruluşa qarşı etdiyin bütün cəhdlərin sonucu var, qazandığın başgicəlləndirən triumf mifdi, dəhşət, qorxu, basqı üzərində qurduğun yalnışdı. Sən nə Makedoniyalı İskəndər, nə də 1-ci Pyotr kimi tarixdə qala bilməyəcəksən. Demokrat kimi hakimiyyətə gəlib sonda dövləti hərciмərclik oylağına çevirən Yelçinin də ayılan günü olacaq. Qurduğun bu "dövlət " bir gün tarimar ediləcək. Bəli, tanrının gözündən yayınmış bu ölkədə gec-tez qanunlar işləyəcək. Vallah işləyəcək!...

Sovetin dövründə vəzifəsinə, arxasına güvənərək dövlətin sərvətini talayıb özünə gün-güzaran quranlar da elə bilirdi əbədi cənnətdə yaşayacaqlar. Demək olar, dövləti hamı talayırdı, amma sərvəti bitib-tükənmirdi, vallah! Əlinə balaca səlahiyyət keçən oğurluq edirdi. "Oğrudan oğruya halaldı" prinsipiylə yaşamaq bu ölkədə ən iyrənc vərdiş idi. Qəribəsi oydu ki, hər kəs taladığını halal tikə bilirdi, özününkü sanırdı. Zavodda fəhlədən tutmuş direktoracan, rayon rəhbəri, prokuror, nə bilim, rəis, nazir, Sov. İKP Mərkəzi Komitəsinəcən rüşvət xəstəliyinə yoluxmuşdu. Uzağa niyə gedim, biri elə Sərdarın əmisi. Kor da, kar da bilirdi ki, kolxozun fermasında uçotdan gizlədilən yüzlərlə camışı var. Noldu? Moskvadan yoxlama gələndə verdilər Kürün cənginə, elə bil yerli-dibli camış-mamış olmayıb. Bir kopoyoğlu tapılmadı komissiyaya Kürdə boğulan dilsiz-ağızsız camış sürüsünün murdar olmuş cəmdəklərini göstərsin. Yuxarıdan gələnlər də "faktın olmadığını, ərizənin qərəzlə yazıldığını" Mərkəzə "doklad" elədi, asetrin kababına, "Göy-göl" konyakına qonaq olub rayondan üz tutdular Moskvaya. Yoxlama gedəndən sonra Kremlə anonim ərizəni Səməndərin yazdığını öyrənəndə onun bütün külfətini külliküf elətdirdi – didərgin saldırdı rayondan. İndi ki sovet hökuməti yoxdu. Azadlıqdı, müstəqillikdi, demokratiyadı. Bəs hanı o azadlıq? Hanı demokratiya? Əziyyətlə, zillətlə iş quran

komersantların əlindən hədə-qorxuyla aldırdığın pullar neçə günahsızın qanına bulaşdığını bilirsən. Afşor zonalarda ərit-diyin milyonların içində Raisanın bankına girib-çıxanlar okean-da damla boyda olsa da tökdüyün qanlar, törətdiyin cinayətlər, qətllər saysız-hesabsızdı, Andrey... ”

Dairəvi yola çıxanda saata baxdım: 15. 27. “Gecdi”. Şəhərə girmək fikrindən vaz keçib Domadedova aeroportuna istiqamət götürdüm; şəhərdə tıxacda ləngiyə bilər, təyyarəyə gecikərik deyə yol boyu zəhləmi tökən düşüncələrdən güclə ayrılıb Sərdarla zarafatlaşdım da:

– Moskva ne prinimayet. – Özümlə danışırammış kimi mızıldadım.

– Nə? – Sərdar deyəsən başa düşməyib çaşqın-çaşqın so-ruşdu.

– Heç. Deyirəm göstərə bilmədim sənə Moskvanı. Domade-dov bazarından alış-veriş edib gedərik aeroporta. Yaxşı düşməz Ramzanı gözlətmək, – dedim. Sərdar başını yellədi.

Başımızın üstündən uçan təyyarənin uğultusu qarşısına çıxan hər şeyi tar-mar edən qasırğa kimi fikirlərimi dağıtdı. Ticarət mərkəzinə girəndə Sərdara baxdım: elə bil ilk dəfə görürdüm onu. Həm də son dəfə. Üzündə gizli bir sevinc, həm də təlaş sezilirdi. Mən isə heyfislənirdim. Onun yerində olmadığıma görə.

– T-tutmazlarki məni? Sənədə görə...– Qəfil soruşdu Sərdar. Başı bəlalar çəkdiyindən yazığı qınamırdım. Qanunların işlə-mədiyi ucsuz-bucaqsız məmləkətdə generalın “əli çatmayan yerə” adi milis serjantı asanlıqla girə bilirsə, avtoritetlər, qanun oğruları zonalarda deyil, dövlət aparatında belə əl-qol açıb at oynadırsa sən nədən danışırsan, Sərdar?!

Ona sarı çevrilib inamla başımı yellədim, gülümsəyib təla-şına son qoydum.

– A rəhmətliyin oğlu, gör kimlər qarışıb bu işə. Zarafat deyil.

Yenə təyyarə uğuldayır. Səmada əriyən tüstü zolağının biri yox olmamış havada yeni ağ zolaq əmələ gəlir. Yəqin ki bu şəhərin sakinləri gündəlik işlərini yuxularını da şərik olan təyyarələrin uçuş cədvəliylə nizamlayır. Təsəvvür etdim ki, bir gün, yox, bircə saat uçuş qrafiki pozulsa, bir dənə də təyyarə enib-qalxmasa Domadedova sakinlərinin halı necə olar?..

– Hə, ürəyin nə istəyir ala bilərsən, utanma, – deyib iri pavilyonun rəngarəng vitrinlərini göstərdim. O uşaq kimi kövrəlmişdi. Başını razılıqla tərpədəndə bunu hiss etdim. Əvvəlcə özünə kostyum, köynək, ayaqqabı bəyəndi. Pulunu ödədim, satıcı qız səliqəylə büküb üstündə "Domadedovo" loqosu olan iri zənbilə qoyub bizə verdi. Etiraz etməyinə baxmayaraq təkid elədim ki qadınına da bir hədiyyə seçsin. Yaraşıqlı don və şarf aldıq. Qolundan tutub uşaq şöbəsinə sarı dartdım.

– Heç soruşmadım, sən də deməmisən,– dedim,– neçə uşağın var?

– D-dörd. Üçü qız, b-biri də... oğlan... Rüfət. Oğlumun adı Rüfətdi... Sənin adını...

Salon boyu qaynayan müştərilərə məhəl qoymadan düz camaatın gur yerindəcə donub durdum. Həm sevindim, həm təəccübləndim. "Görəsən oğluna niyə mənim adımı qoyub?!" Özümdən ixtiyarsız onu o uşaqlıq çağlarındakı kimi bağrıma basdım. İkimiz də kövrəldik. Daha heç nə soruşmadım. Kəndimizdə adaşımın olmasından gizlincə fəxarət duydum.

Uşaq şöbəsində cərgə-cərgə asılmış gah oğlan, gah qız bölməsindəki al-əlvan paltarları gözdən keçirir, heç nə almayan, vaxtını xərcləyən adam kimi o üz-bu üzə çevirir, gözü qarşısında havaya qaldırıb tərəddüdlə baxır, təzədən yerinə asırdı. Elə başa düşdüm xoşuna gələn, ürəyinə yatan bir şey seçə bilmir. Satıcılardan birindən ona kömək etməyi xahiş etdim. Qız məmuniyyətlə hələ bir mayka belə seçməyən Sərdara yaxınlaşıb salamlaşdı, nə münasibətlə, neçə yaşında uşaq üçün hədiyyə aldığını soruşanda mənə sarı çevrilib çiyinlərini atdı. Çaşqınlıqla "bilmirəm" dedi. İndi başa düşdüm, başa düş-

düm ki, Sərdar itirdiyi dörd-beş ilin içində artıq böyümüş uşaqlarını asılqanda asılmış geyimlərdə heç cürə təsəvvür edə bilmir. Uşaqlar onun yaddaşında dörd il əvvəlki kimi qalmışdı, heç böyüməmişdi.

-Sən gələndə adaşımın neçə yaşı vardı?-Soruşdum.

-Doqquz,– dedi.

-Bəs qızların?..

Gözlərini qıyaraq bir xeyli fikirləşdi, əsəbi halda barmaqlarıyla nəsə hesablayıb nəhayət dilləndi.

-İki... altı... on iki... Hə, iki, altı, on iki idi yaşları.

Gözləri doldu. Satıcı qızdan xahiş etdim ki, öz zövqünə görə on üç-on dörd yaşlı oğlan, altı, on və on altı yaşında qızlar üçün hədiyyə dəsti seçsin. Həm sifarişin çox olduğunu, həm də ona etibar etdiyimi eşidən qız sevinərək işə başladı. Düz yarım saat ciddi-cəhddən sonra kassanın qarşısında uç iri paketlə peyda oldu. Kassir malların qiymətini hesablayıb məmnunluqla dedi:

– Dumayu, ponravitsya. Pozdravlyayu...

Pulu ödəyib təşəkkür etdim, paketləri götürüb ticarət mərkəzindən çıxdıq.

Havadan kerosin qoxusu gəlirdi.

Ramzanla görüşümüzə on dəqiqə qalmış biz aeroportdaydıq.

Səsli-küylü nəhəng hava limanının girişində əsəbindən siqaret sümürən nazik bığlı, seyrək saqqalı oğlan bizi görən kimi siqaret kötüyünü zibil yeşiyinə atıb yaxınlaşdı. İkiəlli salamlaşandan sonra ona çox vacib missiya yerinə yetirmək tapşırıldığından ciddi nəzərlərlə gah məni, gah da Sərdarı süzüb baş hərəkətiylə hansımızın yola salınacağını öyrəndi. Dedim ki, Bakıya Sərdar uçmalıdı. Cəld onun qoluna girib "getdik" dedi. İndi başa düşdüm ki o niyə danışmır: sınıq-salxaq ruscasını mən güclə anladım, qalmışdı Sərdar.

Oğlanın tələskənliyi məni yaman çaşdırdısa da onu başa düşürdüm. Axı təyyarəyə qeydiyyat başlamamış sənədsiz

sərnişini yerbəyer etməliydi. Odur ki, Ramazandan xahiş elədim bizə beşcə dəqiqə imkan versin adam kimi vidalaşaq. Əslində neçə vaxt idi bir yerdəydik, amma Sərdarla düz-əməlli dərdləşə bilməmişdik. Xeyli baxışdıq. Səssiz-səmirsiz. Bir də qucaqlaşdıq. Həyacandan unutmayım deyə onunçun ayırdığım pulu cibinə qoydum. Ayrıca konvertə bükdüyüm iki min dolları da ona verib pıçıldadım:

– Anamın, nənəmin qəbrini abıra saldır. Yəqin ot basıb...

Tez-tez bığlarını ovan Ramzanın dilxor görkəmini görüb son dəfə qucaqlaşdıq.

– Yaxşı yol!

– Ölənəcən haqqın boynumdadı. – Sərdarın yanağından iki gilə yaş süzüldü

– Get, gecikirsən. Çatanda zəng vur... Balaca Rüfəti də öpərsən.

Arxaya dönmədən aeroportdan uzaqlaşdım. İlk dəfə çiynimdən götürülən daşın ağırlığını hiss etdim.

* * *

Raisa barədə xoşagəlməz şaiələr dolanmaqda davam edirdi. Deyilənlərdən nəyin düz, nəyin yalan olduğunu anlaya, Andreydən heç bir informasiya ala bilmirdim. Ara-sıra sürücüsündən sızan qorxunc xəbərlər məni dəhşətə gətirsə də bunu təsdiq, ya inkar edəcək hansısa təsəlliverici məlumat yox idi. Andrey yırtıcıya çevrilmişdi. Hər halda bunu eşitdiklərim təsdiqləyirdi. Ruslanın dediyindən Raisa başıbəlalı üç milyonu təzə dostu Karaxanla Türkiyəyə keçirərkən yaxalanıb. Düzdü, bu Karaxandı, nədi, aradan çıxa bilib, amma Raisa yaxalanıb, özü də pis. Raisanın qafqazlılara simpatiyası olmadığı məlumdu. Bəlkə də işinin xətrinə Andreyə xoş gəlməkçin mənimlə yaxınlıq eləməsini saymasaq, qeyri slavyanlarla dostluq eləməzdi. Bəs hardan çıxdı bu Karaxan?! Onunla əlaqəli hər şeyi bilmək istədim. Kim idi, hardan peyda olmuşdu?

Moskvada yaşayan çeçen tanışlarımdan soruşdum, təəssüf ki heç nə öyrənə bilmədim. Elə bil bu adam göydən düşmüşdü.

Xeyli vaxt keçəndən sonra bir məclisdə Andrey "G planeti" şirkətinin prezidenti Salamon Gelenin söhbətində ödəmə vaxtı keçmiş (yəni "ölü") pulları diriltmək barədə yeni strategiya hazırladığını və bunu yarıcıddi, yarızarafat "Raisa sindromu" adlandırdığını deyəndə onun strategiyasının necə dəhşətli ola biləcəyinə şübhəm də qalmadı. Özlüyümdə Raisaya verdiyi işgəncələr barədə düşünsəm də bunu təsəvvürümə gətirə bilmirdim. Yəni Andrey üç milyona görə havalanıb?..

Sərdarı yola salmışdım deyə bir az rahat idim. Özümə söz verdim ki, nəyin bahasına olur-olsun Raisanın yerini öyrənəcəm, ölüsünü ya dirisini tapacam. Sən demə Andrey də mənim ürəyimdən keçənləri duyubmuş. Tezliklə özündən uzaqlaşdırmaq üçün min cür bəhanələr quraşdırırdı. Ən çox keçərlisi də Sonyanın "tutmaları"nın yenidən başlamasıydı. Təcili kəndə qayıtmağımı tələb etdi. Hə, tələb etdi. Həmişə ərklə deyərdi, xahiş edərdi. Bu dəfə əmranə tələb etdi.

Bezmişdim belə həyatdan. İstədim son vaxtlar qulağımın dibində özünə yer eləmiş dəli şeytanın pıçıltılarına səs verib baş götürüb qaçım bu zırrama ölkədən. Amma hiss edəndə ki, Andrey məni təhdid edir, hər addımımı nəzarətdən buraxmır, fikrimdən daşındım. Ölkəni bərbad hala salmış kefnəqulu rəhbərlərin ucbatından göz qabağındaca darmadağın edilən nəhəng dövlətin paytaxtında at oynadan Andreyin öz arvadına diqqət yetirməyə vaxtı yoxmuş?! Vaxt tapardı. Bəs sevgi?

Azdırdı məni Andrey. Guya gözəlçəsinə nəzarəti ikiqat artırmaq idi məqsədi. "Bilirsən də, mənim başım çox qarışıqdı. Vəziyyəti özün görürsən. Deyəsən yuxarıdakılar da diksinib ayılırlar. Hökumətdə baş verənlər bizim xeyrimizə işləmir. Hə, sən belə şeylərə qarışmasan yaxşıdı. Get kəndə, Sonyanı da tək qoyma. Tapşırmışam, beş-altı min "göy" qoyublar maşınına. Hələlik bəs edər sənə... Yenə lazım olsa zəng et, göndərim.

Buralarda görükməsən yaxşıdı. Sonyanı səndən başqa heç kim başa düşmür. Heç mən də. ”

“Heç mən də”. Bunu o qədər soyuq, həm də istehzayla dedi deyəsən. Elə gəldi ki, Andrey arvadıyla bərabər məni də özündən uzaqlaşdırmaq istəyir. Zatən arvadından çoxdan uzaq idi.

* * *

Qızılı xəzan altında mürgü döyən kəndə çatdım. Ay hələ görükməsə də qarşıdan gələn qışın erkən soyuğunu hiss edirmiş kimi bir-birinə qısılıb üşüyən ağacların arasından boylanan tək-tük elektrik lampaları qızılı-qırmızı xalıya bənzər kənd yoluna zəif işıq salırdı. Sürəti azaltdım. Şüşələri aşağı saldım və rezin təkərlərin altında xışıltıyla səs salan yarpaqların payız uverturasına qulaq verərək yaşıl darvazaya sarı yaxınlaşdım. Qapıçı darvazanı açdı. Maşını həyətin bir tərəfinə verib əylədim. Lyuda maşınımı görüb sevincək üstümə cumdu. Doğması kimi boynuma sarıldı. Sərdarı soruşdu. Çoxdandı görünmədiyimdən narahat olduğunu dedi. İndi dərk etdim ki, Sərdarı yola salan gündən gör nə qədər vaxt ötübmüş. Hər şeyin yaxşı olduğunu söylədim.

– Sərdar sağ-salamat çatıb. Zəng vurmuşdu.

– Bəs niyə qayıtmadın?

– Andrey buraxmadı. Vacib işlər vardı. Çox vacib.

– Yaman darıxmışdım. – Qəfil ağzından çıxan sözə görə utandı.

“Elə mən də” demək istədim. Amma qızcığazın pörtdüyünü görüb söhbəti dəyişdim.

– Soyuqdu. Keçək içəri. Sonya yatır?

– Televizora baxır. Gələcəyini bilmir.

Əlindən tutub pillələrlə qalxırdıq ki yarıaçıq qapının ağzında Sonya göründü. Yalançı təbəssümün içində gizlədə

bilmədiyi qəzəbli baxışlarını məndən özgə kim sezə bilərdiki! Bu qadın hamını qısqanırdı deyəsən.

– Gəldin, – dedi və içəri keçdi. Bu qıcıqverici səsin nə demək istədiyini anlayırdım. Hətta, əvvəllər ona yazığım da gəlirdi. Kişisiz qalmış cavan qadının özgə reaksiyası ola da bilməzdi. Qəlbini sarımış çarəsizlik bir yana dursun, ölmüş ümidləriylə arzularının arasında çabalayan gözəl xanımın təkcə solğun gözlərinə baxmaq kifayətdi ki, onun dərinliyində özünə yuva salmış tənhalıq çəyirdəyini sezə biləsən. Və bu çəyirdəyin cücərib rişə salmasıyçün bircə damcı suya ehtiyacı vardı. Dolmuş gözlərini Lyudadan gizlətdisə də mən bunu duydum. Yəqin ki, ötmüş gözəl zamanlarda olduğu kimi, əlində ağ zanbaq buketi, uzun illər həsrətində qaldığı ərinin qapını açıb içəri girəcəyini, onu ağuşuna alacağını, öpüşlərə qərq edəcəyini gözlədiyi halda, hansısa qafqazlının onun evində cavan qulluqçusuyla danışıb-gülməsi kimi açardıki?!

Sonyanın soyuq davranışından Lyudaya da pay düşdü. “Mənə isti süd gətir!”-deyə üstünə bağırdı. Lyuda mətbəxə cumanda başa düşdüm ki, yaxşısı budur, duş qəbul edib yatım. Gecənin xeyrindən qaçmaq gərək.

Səhər erkən oyandım. Vanna otağına getməmiş həyətə çıxıb payızın fırçasından çıxmış mənzərəyə gözüdolusu tamaşa etmək istədim. Bağban hələ gəlmədiyindən həyət başdan– başa qızılı rəngə boyanmışdı. Hələ damın, hasarın üstünə döşənmiş qırmızı kirəmitlərin üstünü demirəm. Hava əməlli-başlı soyumuşdu. Həmişəyaşıl ağaclardan başqa bütün bitkilər köynəkdən çıxmışdı. Bu vaxtlar kimsənin oyaq olmadığını bildiyimdən qazonun yaşıl üzünü gizlədən qırmızı xallı sarımtıl yarpaq komasını xışmalayıb başımın üstünə qaldırıb səpələdim. Şeh – gecə üşüyən ağacların altına səpələnmiş yarpaqlarına düşən göz yaşlarıydı sanki – uzümü yudu. Üşaq kimi kövrəldim. Körpəykən payız ayları ürəyimi sıxardı; gözünün qənşərində ağacların, otların, çiçəklərin can verməsinə, təbiətin kütləvi

ölüm səhnəsinə baxmaq məni ağrıdardı. Sonralar, təbiət payızda ölüb yazda yenidən döğulub dirçəldikcə sevinərdim. İndi ağaclara acıdım.

Kimsə görər deyə əllərimi çırpıb evə qayıtdım. Yuyunub holla çıxdım. Soba yanırdı, deməli Lyuda oyaqdı. Qəhvənin ətri məni mətbəxə çəkdi. Sübh tezdən bir fincan qəhvə pis olmazdı.

– Yaman tez oyanmısan? Soyuq olmayıb ki? – Lyuda mətbəxə girdiyimi görüncə soruşdu.

– Yox. Son vaxtlar tez dururam.– dedim.– Yaşlaşıram...

– Tanrı eşqinə, nə danışırsan, nə yaşlaşmaq? Sən... sən çox cavan görünürsən.

Məni gülmək tutdu.

– Hə, bizim tərəflərdə deyərlər ki, sənin yaşıdların hələ evlənmib?

O da gülümsədi. Əlimlə Sonyanın yataq otağına işarə elədim ki, görəsən oyanmayıbki? O da səssizcə başını buladı :”yox”.

Pəncərənin qarşısındakı künc divanında tokülən yarpaqlara tamaşa edə-edə qəhvəmi içirəm. O isə qara şokolad yeyə-yeyə altdan-altdan məni süzür. Hiss edirdim ki, mənimlə özünü çox rahat hiss edir. Bəzən elə gəlirdi ki, Lyuda, bəlkə də mənə görə Sonyanı atıb getmir. Üç yüz dollara görə onun axmaq kaprizlərinə niyə dözür ki?! Həmişə soruşmaq istəmişəm bunu. Amma xətrinə dəyər deyə susmuşam. Bəlkə vurulub? Cavandı, əsl sevilən vaxtıdı. Onun yaşıdları belə ağır, zəhlətökən işlər görmür e, ən dəbli geyimlərdə, bütün günü tusovkalarda, kefdə-damağda. İndi onun oğrun baxışları gözümə sataşanda yataqxanada otağıma basqı edən Marqo yadıma düşdü: həmin gizli istək, həmin coşqu, həmin ehtiras deyildimi?..

Dodağımda şokolad ətrini hiss edəndə fikirdən qopdum və Lyudanın boynuma sarılaraq dodağımdan öpdüyünü görəndə mətbəx başıma fırlandı. Raisadan sonra qadınlardan ehtiyat edirdim. Bir otaqda qadınla təkbətək qalmaqdan qorxurdum da.

Həm də Sonyanın evində belə özbaşınalığın nə ilə bitəcəyini nəzərə almamaq axmaqlıq olardı. Onu özümdən qoparmağa cəhd etdim. Qız əl çəkmir, gah üst, gah da alt dodağımı rahatlukum çeynəyirmiş kimi ağzında gövşədiyindən hiss etdim ki, o, ilk dəfə kişiylə öpüşür – təcrübəsizdi.

Hər an Sonya yuxudan ayıla bilər və nəyi də hiss etməsə bütün mətbəxi başına götürmüş marçıltı səsini duya bilərdi. Təhlükə hər an başımızın üstündən Domokl qılıncıtək asılmışdı. O isə əl çəkmirdi. Özünü-qadınlığını dərk edəndən bu saraydan kənara çıxmayan, qəpik-quruşa görə fermada sağıcı köməkçisi işləməkdənsə, öz kəndində ağılasığmaz məvacib və kübar qayğını itirməməkçin ciddi nəzarət və qadağalara riayət edib nəinki həmyaşıd olduğu oğlanlarla, heç qızlarla da ünsiyyət qurmayan bu yelbeyin qızcığazın nə istədiyini çox yaxşı bilirdim. Sanki xeyli vaxtdı pusquda dayanıb bu anı gözləyirmiş. Onu necə sakitləşdirməyi düşünür, qulağına pıçıldayırdım ki, bu mümkün deyil, biz bunu etməməliyik. Ürəyim dediyin dilim təkrarlasa da barmaqlarım dinc durmur, onun köynəyinin düymələrini açırdı. Balaca döşlərini oynadanda Lyuda şahə qalxan at kimi əllərini tavana sarı uzadaraq açıq sinəsini dodağıma sürtdükcə mən haldan-hala düşürdüm. Yox, yox, yox... Bu biabırçılığa son qoymasaq işlər fırığ olacaq.

Özümü güclə ələ alıb qızı divanın o biri küncünə itələyə bildim. Tez də mətbəxdən çıxıb duşevoya soxuldum. İlıq suyun altında Sonya Lyudanı çağıranacan dayandım. ”Gəlirəm” deməsiylə qırılan qab-qacaq səsi eşitdim. Yəqin ki, keçirdiyi sarsıntıdan əl-ayağı əsən qız nəsə qiymətli bir şeyi salıb sındırmışdı, yoxsa , ”öldürəcək məni!” deməzdi. Bunu qapıdan holla çıxanda aydınca eşitdim.

Andrey toylarının ildönümünə İtaliya ustasına xüsusi sifarişlə düzəldirdiyi çini fincan və desert boşqabı çilik-çilik olmuşdu. Sonya yataq otağından əsnəyə-əsnəyə çıxanda mətbəxin döşəməsinə səpələnmiş sevimli qablarına elə baxdı ki,

sanki hər tinbaşı “talkuçka”larda satılan ucuz saxsı qab qırılmışdı. Barmağının ucuyla göstərib:

-Yığışdır o zibili,– dedi.

Ən azından söyüləcəyini gözləyən Lyuda əl-ayağa düşdü. Xanım qəlyanaltıya gələnəcən döşəməni sahmana salır, altdan-altan mənə baxıb turp kimi qızarırdı.

Elə bil ruh idim. Sonya yanımdan o yan – bu yana ötür, məni görmür, bir kəlmə də kəsmək istəmirdi. Çox həvəssiz, yüngül qəlyanaltı elədi. Qulluqçuya da heç nə buyurmurdu. Mən hövsələdən çıxmışdım. Onun belə davranışı məni heç açmır, özümü artıq, gərəksiz adam hiss edirdim ki, telefona gələn zəng hər şeyi dəyişdirdi. Lyuda dəstəyi qaldırıb kiminsə salamını alandan sonra “baş üstə” deyib xanımı çağırdı:

– Sizi istəyirlər.

Çoxdan bu zəngi gözləyirmiş kimi qırışığı açıldı. Cəld dəhlizin başındakı kiçik masadakı telefona yaxınlaşdı. O başdan gələn səsi eşitcək nəhayət gülümsədi. Qulaq verir, ara-sıra “hə”, “yaxşı” deyirdi. Danışıq, daha doğrusu telefondan “asılma” düz yarım saat davam etdi. (O telefona yaxınlaşandan gözlərim kəfkirli saatın əqrəblərini qovurdu)

Dəstəyi asdı. Mənə çöndü, indicə görürmüş kimi ” sabahın xeyir... maşını işə sal, indi gəlirəm” – deyib otağına keçdi. Lyuda çaşıb qalsa da, bayaqkı hərəkətinə görə çəkdiyi xəcaləti ört-basdır eləmək üçün xanımın qismən sevinib evin ab-havasını dəyişməsi yerinə düşdü. Onu bu iztirabdan qurtarmaq üçün sanballı söz tapa bilməsəm də işarə elədim ki, hər şey normaldı. Axı mən də onu itələdiyimçin xəcalət çəkirdim...

Paltarımı dəyişib həyətə çıxdım. Bağban hələ də gəlməmişdi. Adətən səhər tezdən iş başında olan nurani qoca yox idi. Xəzəl yağışı bütün həyət-bacanı ağuşunsa almışdı.

Mühərriki işə salıb xanımı gözlədim. Radionu qoşdum. İqor Talkov həzin və kövrək mahnı oxuyurdu. Lap payız havası duyulan...

Sonya pilləkəndə göründü. Soyuq payız havasına uyğun geyinmişdi. Azca açıq sinəsində bərq vuran briliyant qaşlı kolye, qırmızı yun kostyum, üstündən yüngül xəz gödəkcə. Əlində də al-qırmızı uzunsov çanta. Bu libasını ilk dəfə görürdüm: kraliça Elizavetaya bənzəyirdi. Hə, bu başqa məsələ! Yırt maskanı, göstər əsl simanı, aç içindən gələn gizli duyğularını. Burda ki Andrey yoxdu? Mən də ki...

Ondan incidiyimi biruzə vermək üçün bilərəkdən qapını açmağa kömək etmədim. Bu onun heç vecinə də deyilmiş. Arxa qapını açıb əyləşdi, radionun səsini kəsməyi xahiş etdi və doğrudan da kraliça ədasıyla: "Kosmos" mehmanxanasına sür" dedi.

– Talkovu sevmirsən?-Soruşdum.

– Payızı sevmirəm.– dedi.– Əhvalımı pozmaq istəməzdim. O da payız qədər qənmli oxuyur.

Gözətçi çoxdan darvazanı aşıb gözləyirdi. Radionu söndürən kimi tərpəndik.

Saat yarımdan sonra "Kosmos" mehmanxanasının qarsısında xeyli dövrə vurub boş yer taparaq park etdim. Sonya heç nə demədən düşüb mehmanxanaya sarı tələsdi. Əlbəttə onu gözləməliydim. Qəribə o idi ki, həmişə nə qədər gözləməyimi deyərdi. "Deyəsən uzun çəkəcək bu görüş" fikirləşdim. Elə də oldu. Başımı sükana söykəyib mürgü döyməksən savayı heç nəyə həvəsim olmadı, hansı ki, maşının ön şüşələrini silə, ya da mehmanxananın ətrafında veyillənə bilərdim. Gözlərim yumulurdu.

İdman institutunda oxuyanda tələbə yoldaşım dostu barədə maraqlı, həm də çox kədərli əhvalat danışmışdı. Sonya xanımın oğrun sərgüzəştləri həmən əhvalatı yadıma saldı.

Demişdi dostunun bir bacısı varmış. Ata-anası sevimli qızını həkim görmək istədiyindən onuncu sinfdə oxuyarkən kimya-biologiya müəllliminə yaxşı pul verib onu dərsdən sonra qəbul imtahanlarına hazırlamağı tapşırıb. Dərs ili başlayandan qız,

həftənin üç günü müəllimləsigilə gedirmiş. Rayon yerini bilirsiz də, qız uşağının küçədə tək-tənha gəzməsinə (lap qoltuğunda kitab-dəftər olsa belə) birtəhər baxırlar. Yeganə qardaşı əsgərlikdə, ata-anası işdə. Məktəb vaxtı, yenə başadüşüləndi, amma dərs olmayanda, illah da axşam vaxtı başqa məhəllədə kiminsə "yetişmiş" qızının görünməsi hər hansısa dedi-qodunun yaranmasına, həm də sürətlə bütün rayona yayılmasına şərait yaradır. Hə, atası müasir fikirli insan olsa da oğlu xidmətini başa vurub gələnəcən qızı müəllimənin evinə özü aparıb-gətirir. Arada vaxtı olanda da, anası. Qızın bir rəfiqəsi kimya müəlliminin qonşusu imiş – bir mərtəbə aşağıda yaşayırmış. Bir gün onlara gəlib anasına deyir ki, niyə əziyyət çəkirsiz, mən onu evinizə ötürərəm, narahat olmayın. Ana sevinir. Daha, tez-tez işdən icazə almağa ehtiyac olmayacaqdı. Beləcə günlər, aylar ötür. Qızın qardaşı da əsgərlikdən qayıdıb gəlir. Atası oğluna "Jiquli" alandan, bacısını müəllimləsigilə maşınla aparır, beşmərtəbənin həyətində məşqələsi qurtaranacan gözləyir, sonra da evə gətirirdi. Amma nələr baş verdiyindən bixəbər qardaş yeganə bacısını gələcəyin adlı-sanlı həkimi kimi təsəvvür edib hələ də bu əziyyətətindən xüsusi zövq alacaqdı ki, dünən axşam çayxanada qulağını dəlib-deşən söhbəti eşitməsəydi..

Üç cavan oğlan, siqaret tüstüsünü bir-birinin üzünə pilləyə-pıləyə çay içir, ağızlarını marçıldadaraq şit-şit gecə macaralarından danışırdı. Arxası ona sarı oturub, güləndə əcaib səslər çıxaran oğlan isə tez-tez "mərc at, aparım. Bütün rayonda elə şey tapammassan" – deyirdi.

"Atası, qardaşı yoxdu qızın?"

"Əşi, desəm yıxılarsan pola. Hi-hi-hiii. Qardaşı özü gətirir ee..."

"Nağıl danışma. Başın xarabdı?!"

"Mənim yox, bax, q ardaşı oğraşın başı toçnı – o söz... "

"Əə, oğraş-moğraş olmasaydi şeyimiz əlimizdə qalardı, hi-hi-hiiii... Üç yüz verirəm. Nə vaxt gedək? Dedün dərs oxuyur guyə?"

“Hə, prafessur olacağ. Ha-ha-haaaa! Ha-ha... ”

“De, sən öl, birinci sən olmusan?! Bəlkə çoxdanın cındırıdı, xəstə-məstə olmasın haaa. Şeyimə nəsə olsa, nəslüvi köçürtdürərəm rayonnan!”

“Başun xarabdı? Deyirəm onuncuda oxuyur, hələ xamdı, özüm ölüm! Güldi ee, gül! Saba “dərsi” olmalıdı. 16-nın qabağına gəl, saat 4 də. Üç yüzü hazırla. ”

“Papanın canı sağ olsun! ”

Bəlkə də fikir verməzdi, bu söhbət də ona toxunmazdı, əgər ünvanı eşitməsəydi – 16-cı bina. Bacısının müəllimısi, həm də rəfiqəsigilin binası. Məşğələ də saat 4 də. Bir də ki, “qardaşı gətirir” deməsi. Bu qədər təsadüfmü olar ?! İstəyib dil pəhləvanlığı edən gədələrə baş qoşsun, amma bu işin axırına çıxmağı qərara alıb.

Səhərisi gün 16-cı binanın qarşısında maşından düşən qız binaya girən kimi onun dalınca gedir. Bacısı, müəllimısi yaşayan üçüncü mərtəbədə dayanmayıb, yuxarı qalxdığını hiss edir. Çayxanadakı cavanların söhbəti qulaqlarında cingildəyir. Ürəyi elə sürətlə vurur ki, hansı qapının açılıb-örtüldüyünü anlaya bilmir. Elə bu vaxt aşağıdan addım səslərini eşidir. Tez yuxarı, beşinci mərtəbəyə qalxıb gözləyir. Dünənki iki oğlan imiş. Pillələrin ağzındakı qapının zəngi basılır, az keçməmiş qapı aşılır və kobud qadın səsi eşidilir:

– Ədə, quyruğun yoxdu ki?

Əcaib səsli oğlan: “Arxayın ol” deyəndən azca sonra qapı kilidlənir. Dostum deyirdi ki, o pilləkəndə necə, nə qədər dözüb gözlədim, bilmirəm. Çünki dəqiq bilmirdim bacım orda ola bilər. Amma məşqələyə getmədiyinə tam əmin olduğumdan dəli olmuşdum. Xalxın evinə hücum etməcəydim ki?!

Oğlanlar gedəndən sonra yarım mərtəbə aşağı düşüb, dayanıb qapının ağzında və onca dəqiqə keçməyib yenə həmən qapı açılıb, rəfiqəsiylə bacısı üst-başını sahmana sala-sala dəhlizdə görükür, dostum onların üstünə şığımaq istəyəndə,

artıq gec imiş, qız duyuq düşərək eyvana cumur və özünü aşağı atır...

Tələbə yoldaşımın dediyindən, ata-anası qızlarının "morq"-dakı meyidinə sahib çıxmadan rayonu tərk edib, çünki dostu da ona hər şeyi danışandan sonra kəndirlə özünü körpüdən asıbmış.

Sonya mənə nə bacı, nə də sevgiliydi. Amma, nədənsə, mənə elə gəlirdi ki, tələbə yoldaşımın dostuyla məndə zərrəcən fərq yoxdu. Amma yox, o, heç nədən şübhələnmədən bacısını müəllim yanına gətirirdi. Bəs mən? Mən ki bilirəm, lap yaxşı bilirəm – Sonya dostumun kişiliyinə, ad-sanına, tutduğu mövqeyə tüpürərək kiminləsə sevişməyə gəlib. Bunu hiss etməmək üçün uzunqulaq olasan gərək. Bəs nədən buna mane ola bilmirəm? Dost dediyim birinin mənə etibar etdiyi sevimlisinə bu boyda xəyanət etməsinə imkan verirəm?! Bir tərəfdən də fikirləşirdim ki, ərinin dostu olduğumu, hər an ona baş verən rəzaləti anlada biləcəyimi başa düşə-düşə məni vecinə almırsa, deməli burda bilmədiklərim var və bilmədiklərim elə Andreyə bağlıdı. Nəyi bilmirdim, nəyi? Ax, Andrey, Andrey...

Fərqində olduğum bir həqiqət də var ki, məni buna vadar edirdi: Andreyin biganəliyindən əzab çəkən, psixi gərginlik keçirərək içkiyə qurşanan Sonyaya yazığım gəlir, iztirablarına dözə bilmirəm. (Bu heç də təsəlliverici səbəb deyil. )

Əvvəllər nənəmin şeytan barəsindəki nağılabənzər söhbətləri yadıma da düşməzdi. Amma indi... Uşaqkən yuxularımda daş-qalaq eləmək istədiyim şeytan barədə danışanda nənəm deməzdimi, qorxma, uşaqların qəlbinə şeytan girə bilməz? Deyərdi. Nənəm aldadırdı məni. Şeytan insanla birgə doğulur. Bəlkə də ana bətnində toxumu mayalanandan. Elə olmasaydı, insan, Allahın sevimli mələklərinin adını təsadüf hallarda dilinə gətirdiyi halda, şeytan bizim sanki yol yoldaşımız, can sirdaşımız olur. Hətta, dəli və ağıllı şeytanımız var. Ən çox sevdiklərimizi "ay şeytan!" deyə əzizləmirikmi? Bəs niyə onu daşlamaqdan usanmırıq? Min illərdi daşlanan şeytan nədən bizi

tərk etmir? Qorxmur?! İnsandan, hətta, Tanrıdan da qorxmur. Bundan sonra da min illər keçəcək, biz onu, o da bizi daşlayacaq; biz qorxudan, o sevgidən. Hərənin atacağı öz daşı var. Şeytanın daşı daha kəsərliymiş!

Yenə daşları götürüb şeytana atmaq, onu qovmaq istəyi baş qaldırdı içimdə. Hər şeyi olduğu kimi Andreyə demək, onun gözlərini açmaq, dostluğumuza gətirdiyim xələli silmək istədim. Qərarımda qətiyəm. Hə, indi Sonya gələcək, onu evə aparıb gedəcəm düz Andreyin hüzuruna. Onun, Sonyanın ağuşuna girmiş şeytanı çıxarmağı bacarmasam da, heç olmasa öz şeytanımdan azad olum. Bu mümkündürmü? Mümkündürmü?!

Arxa qapının çırpılmağı fikirlərimdən ayırdı. Sonya:

-Gedək,– dedi.

Güzgüdən, alışıb-yanan gözlərində oynayan sevinc qığılcımlarını necə görməyəsən, dodağına təzəcə çəkilmiş al-qırmızı boyanın məstedici qoxusunu necə duymayasan? Deyəsən ətiri də başqaydı – bayaqkı deyildi – dənizi xatırladırdı...

Maşını sürüb yola çıxanda soruşdum:

– İndi hara?

– Hara istəyirsən...

Az qala qarşıdakı "Opel"ə çırpacaqdım. "Anlamadım. Necə yəni, hara istəyirsən?" Güzgüdən gözlərinin içinə baxdım. Ciddiydi.

– Zarafat edirsən?

– Nə zarafat? Sür... Acımışam yaman. Ürəyin hara istəyir, sür. Sənin zövqünə bələd olmaq istəyirəm. Olmazki? – Oturacağın arxalığına elə yaxınlaşdı, sanki qucaqlayacaqmış məni.

– Olar. Onda mən... mən bir yaxşı yer bilirəm, ora gedək.

"Deyəsən görüş yuksək səviyyədə olub. Kefi kökdü. " Bayaqkı fikirlər başımdan uçub getdi. Ondan heç vaxt belə səmimi təklif eşitmədiyimdən sevincək də oldum. Bir dəqiqəliyə hara aparacağımı götür-qoy edib axırda "Bakı" restoranına getməyə qərar verdim; onun xoşuna gələcəyinə əmin olduğum üçün.

Yenə tanış musiqi, tanış abu-hava... Çoxdan buralara baş çəkmirdim – guya vaxt olmurdu. Gödəkcəmi maşında saxladığımdan Sonyanın xəz gödəkçəsini qarderoba təhvil verib zala keçdik. Gülərüz, qarayanız xidmətçi oğlan sifarişi qəbul edib cəld uzaqlaşdı. Sonyanın gözləri ad günündə qiymətli hədiyyə almış uşaq kimi alışıb-yanırdı. Tezliklə manqalda bişmiş tərəvəzlərdən hazırlanan ətirli sousla kabab gəldi. Məndən icazə alıb yüz qram viski də içdi. Kraliçaya layiq sifariş verə bilməsəm də süfrəyə qoyulan naz-nemətlərdən məmnun göründüyünə sevindim. Hələ quzu kababını demirəm; elə iştahla yeyirdi ki! O nə düşünürdü, bilmirəm, amma mən özümü Bakıda hiss etdim bir anlıq.

Yeyib qurtaranda qəhvə sifariş verdim. Hər ikimiz susurduq.

Çoxdan onu bu qədər işıq saçan görməmişdim. Çox xoşbəxt görünürdü. Bu xoşbəxtlikdə payım varmış kimi mən də buludlarda süzürdüm.

Sonya necə də Marqoya bənzəyirdi – hər ikisi gözəl, hər ikisi qızğın ehtiraslı. Hətta vücuduma sarınan dəli şeytana qulaq versəydim, onu ağuşuma almaq, bir neçə saat əvvəl – bir anlığa Marqonu onun yerində – üz-üzə, göz-gözə təsəvvürümdə canlandırdığıma görə – əhvalını bu qədər dəyişdirə bilən bəxtəvər centlimenin yerində olmaq ürəyimdən keçərdi. Yəni, etibara, dostluğa da tüpürərdim?! Axı, o centlimendən nəyim əskikdi. Bir də ki, insan həmişə nəyisə arzulayır. Qəbahətmi bu? lənətə gələsən, dəli şeytan! Bəlkə də şeytanlıq deyildi bu.

Qəhvə gəldi. İçərək ilk dediyi kəlmə bu oldu:

– Niyə beləsən?

Nə bilmək istədiyini anlamasam da söhbətə başlamasından rahatlandım.

– Necəyəm?-Soruşdum.

– Belə... Qəribəsən...

– Ola bilər.

– Bilirsən, mən Andreyi uşaqlıqdan tanıyıram. O da qəribəydi. Hə, hə, çox... Yaşıdlarından həmişə fərqlənərdi; danışığında, hərəkətində, nə bilim... Hər şeydə fərqliydi. Onu mənə sevdirən də buydu – fərqliliyi. Zəhləni tökmürəmki?– Şıltaq bir ədayla soruşdu.

– Yox. Xoşdu.

– Rəfiqələrim ik-üç oğlanla dostluq edib ancaq ən güclü, ən, ən yaraşıqlısıyla görüşürdüsə... Başa düşürsən də... nə demək istəyirəm... Hə, uşaq deyilsən ki. Mən onu sevirdim. Dəlicəsinə. Fərqliliyinə görə. Hətta, məktəb illərində ağır xəstəlik keçirdiyini bilsəm də, zəif, utancaq olduğunu bilsəm də sevirdim. Elə şeylər varki onu deyə bilmirəm. Nə mənası bundan sonra. Sən ki görürsən, onun necə dəyişdiyini. Görürsən? Görürsən... Amma elə şeylər varki onu ancaq mən bilirəm, mən görürəm..

– Məsələn?-Maraqlandım. İlk dəfəydi Sonya Andrey barəsində içindəkiləri açıb-tökmək, yüngülləşmək istəyirdi. Daha təklikdə əzab çəkmək istəmirdi deyəsən. Bunları mənə dediyinə bir tərəfdən sevindim. Deməli, inanır, etibar edir.

– O, qorxaqdı. Rəzil və qorxaq! – Sonya mənim reaksiyamı görməmək üçün gözlərini masanın, sonra da boş kətilin üstündə çantasını gəzirmiş kimi oynatdı və sonra onu maşında unutduğunu yadına salıb nəsə mızıldadı. Acı-acı güldü.

– Şəhəri ovucunda saxlayan Andrey – qorxaq?!

– Ha-ha-haaa! Uyyyy. Bəsdi görüm. Güldürmə məni, tanrı eşqinə... Bu ölkəni sovetin sərvətini oğurlayıb harınnamış, indi kapitalistə çevrilən keçmiş kommunistlər, onların əlinə su tökən, ətrafında yalağlanıb altın dolduranlar, çirkli pullar, qətillər, qorxu və təzyiq hesabına yüksək rütbələrə soxuşdurulan başkəsənlər idarə edirlər. Hələ sənin kimi “əfqan”ların, qoluzorlu idmançıların hesabına gecə-gündüz çiçəklənən qumarxanaların, fahişəxanalara çevrilmiş mehmanxanaların hamilərindən danışmıram. Tezliklə dağılacaq öz iyrənc imperiyanı atamın pulları hesabına qurub Andrey. Bu ölkədə pul hər şeydi;

vəzifə, hörmət-izzət, hətta sevgi də alınıb satılır. Saxta imperiyalar qurulduğu kimi də məhv olacaq, gec-tez. Məni incitməklə o bunu daha da yaxınlaşdırır. Ölüvay, qorxaq adamlar qəddar olur, bilirsən? Daima özlərini müdafiə etməyi düşünüb özgələrə zərər vurmaq qorxaqların xislətidi.

– Bəlkə də...

Elə bil dediklərinə peşimanmış kimi xeyli susdu. Ancaq zərif caz musiqisi, bir də qonşu masada oturanların pıçıltısı bu sükutu pozurdu. Tez xidmətçi oğlanla hesablaşdım, qarderobdan gödəkçəni götürüb çıxdıq.

Yol boyu da dinib-danışmadıq. O, ilk dəfə görürmüş kimi Moskvanın küçə-prospektlərinə tamaşa edir, mən isə Andrey barədə düşünürdüm. "Görəsən daha nələrdən xəbərsizəm? Elə şeylər varki onu ancaq mən görürəm, mən bilirəm – deməklə, Sonya nəyi nəzərdə tuturdu? Gərək Raisa barədə soruşaydım. Yəqinki nəsə bilir. Soruşacam, hə... "

– Raisadan xəbərin var?

Mənə elə gəldiki o, bu sualı çoxdan gözləyirmiş. Çünki, cavabı hazırmış kimi düşünmədən dilləndi:

– Hə. Yazıq qız... Sənin xəbərin yoxdu bəyəm?

– Nədən?

– Ooo, Rufatik, yoxdu Rayıçka, yoxdu...

Xətalı vəziyyət yaratmayım deyə maşını yolun kənarına verib əylədim.

– Əminsən buna?

– Hə. "Dostun" onun da axırına çıxdı...

– Necə?

– Onun quduz köpəklərinə yem olub Rayıçka. Bunu təsəvvür etmək belə dəhşətdi!

Mən isə təsəvvür etdim. O buldoq sifətli vəhşiləri göstərmişdi Andrey. "Hərənin bir missiyası var doğuluşundan" da demişdi. Bumudu sənin missiyan?! İsanın, Məryəm ananın şərəfinə kilsələrdə şam yandırıb sədəqə paylamağınla kimin gözünə kül üfürürdün bəs? Tanrının?! Sən özünü Tanrı hesab

eləyirsənmiş, Andrey. Amma yanılırsan. Nəfsini boğa bilməyən, acgöz varlıq heç insan da ola bilməz. Tanrı var-dövlət hərisi olsaydı, özünə şərik – insan yaratmazdı.

Sonya mənim necə üzüldüyümü görüb üzr istədi. Raisayla guya əlbir olub pulları oğurlayan çeçen oğlanın axtarışımın da mənasız olduğunu dedi. Dedi ki, məni çaşdırıblar, əslində aradan çıxan adam-burda biznes qurmaq istəyən iş adamı – türk imiş. Andrey hər şeyi xırdalığına qədər düşünübmüş. Aldadaraq sənədləri hazırlamaq, icazə və yer icarəsiyçin külli miqdarda pul alıb. Türklərin rus qadınlarından xoşlandığını bildiyindən onu Raisayla tanış edib, sonra da evində qalmağı təklif edib. Başı sevgi macarasına qarışan türk işlərin yubandığını hiss edəndə pullarını tələb edir. Sən demə Raisa da vurulubmuş. Andreydən xəbərsiz hesabdan pulları çıxarır və təzə sevgilisiylə Türkiyəyə qaçmaq istəyir...

Mən bu nağıla inana bilmirdim. Raisanın vurulmağına, Türkiyəyə qaçmağına heç inanmırdım. Amma hər şey ola bilərdi. Andreyin, Raisanı nəyə görəsə aradan götürmək üçün bu iyrənc planı hazılrladığına şübhə etmirəm. Elə bizim aramızı da sən vurmusanmış. Nəyə görə?..

Mənə dost deyən Ayın görünən üzüymüş. Qaranlıq tərəfi dərk etmək üçün kosmosamı uçmaq gərək?!

***

Çırtaçırtla yanan sobanın qarşısında əllərini ovuşduran Sonya bəyaz qara bürünmüş həyətə baxan geniş pəncərənin qarşısında qurduğum, Lyudanın şövqlə bəzədiyi küknar ağacına heç gözucu da baxmadan deyinirdi. Bayram gecəsi daha təmtaraqlı olsun deyə pəncərənin qarşısındakı divanı kənara çəkmişdik. Pərdələr açıq olduğundan adama elə gəlirdi ki, qışın bu oğlan çağında bərbəzəkli küknar meşəsindəsən. Lyuda da, mən də intizarla gözləyirdik ki, heç olmasa gözucu da olsa yeni il yolkasına baxıb hər il olduğu kimi “lap uşaqlığım yadıma

düşdü!" – deyəcək, sevincək öz sevimli kreslosuna yayxanıb bəzəkli yolkadan gözünü çəkmədən xatirələrə dalacaqdı. Əbəs yerə! Bircə gün, heç olmasa bayram gecəsi ona olub keçənləri, ağrı-acılarını unutdurmaq üçün bu şaxtalı havada bütün meşəni ələk-fələk edib ən gözəl küknarı axtarmağımız, xizəyə qoşub gətirməyimiz, çardaqdakı köhnə yolka bəzəklərini taparaq bəzəməyimiz əbəs imiş.

Bu ev belə qasırğa görməmişdi yəqin. Sanki küknar meşəsində uğultu qopdu, çovğun qalxdı, qapı-pəncərələr cingildədi və gözəlliyinə tam heyran ola bilmədiyimiz bəzəkli küknar ağacı guruppultuyla pəncərəyə çırpıldı, üstündəki incə şüşə oyuncaqlar çilik-çilik olub yerə səpələndi. Bu o qədər gözlənilməz oldu ki, bayaqdan sobanın üstündəki piştaxtaya qoyub hələ də tərəddüd içində içməyə qərar verə bilmədiyi litrlik viski butulkasını yolka ağacına vıyıldatdığını onun havada yarıaçıq qalmış əlini görməsəydik zəlzələ olduğunu zənn edərdik. Üçümüz də heykələ dönmüşdük. Deməyə söz yox idi. Sakitliyi pozan, pəncərə çərçivəsinə dəysə də sınmayıb döşəmədə dığırlanan viski butulkasıydı. Və qəfil Sonyanın dəli bağırtısı otağı lərzəyə saldı:

– Cəhənnnəm oluuunnnn! Rəddd olunnnnn!...

Və yerə sərələndi. Lyuda cəld ona yaxınlaşdı. Mən su gətirmək üçün mətbəxə qaçdım. Ani olaraq ağlıma gələn Andreyə zəng etmək oldusa tez də fikrimdən daşındım. "Bütün bu həngamələr ona görə deyildimi? Bu gözəllikdə qadını qəfəsdə çabalayaraq çırpınan köməksiz, əlacsız quşcuğaza çevirən bəs kimiydi? İndiyə kimi yağlı vədlər verə-verə günü günə qatan, ayı, ili ötürə-ötürə, guya xəstəymiş deyərək ər kimi bir gün də yanında olmayan, qəlbini ovutmayan o deyildimi?"

Sudan ikicə qurtum aldı. Lyuda nə qədər elədi onu qaldırmağa taqəti çatmadı – ölü kimi ağırdı.

Qucağıma alıb yataq otağına apardım...

Və iki gün otaqdan çıxmadı.

Və bu iki gündə Lyuda Andreylə Sonyanın yeni il bayramlarında necə şənləndiyindən, bahalı hədiyyələrdən, səyahətlərindən danışanda anladım ki, artıq qayıdışı mümkün olmayan, paramparça olub, ancaq xatirəyə dönmüş gözəl evlilik həyatına bircə anlıq belə baş vurmaq ölüdən can diləmək kimi bir şeymiş! Sonya, köhnə kino lentlərini geriyə fırlamaqla özünə əzab verməkdə davam edirmiş; çərxi-fələyin intizamına şapalaq vuraraq.

...Andreydən xəbər-ətər yoxdu. Sonya əvvəlkitək özünə qəsd edib içir. Lyuda mənimlə sevgi yaşamaq üçün məqam gəzir. Eşitdiyimdən bağban da istefa verib, daha işə çıxmır. Məni və Lyudanı saymasaq, bircə qapıdakı nəzarətçi-cangüdən qalıb Andreyin nökərlərindən. Onsuz da qış girəndən, ərzaq almağı nəzərə almasam, heç kim bir yerə getmir. Heç darvazanı açıb-bağlamağa ehtiyac olmursa, o nəzarətçini niyə saxlayır Andrey? Bəlkə məni güdür? Ehh... Bircə yaz gəlsəydi..

***

Heç kimin xəbəri olmasa da mən bilirdim ki, neçə ildi Andrey onunla yatmır. Səbəbini anlamasam da təxmin etmişdim: o, Sonyanı nəinki arvadı, heç qadın kimi də sevmir. Yoxsa Sonya sevgisini kənarda axtarmazdı ki?!. Düzdür, bundan ancaq mənim xəbərim vardı, daha doğrusu ötən yay Andreyə rəfiqəsigilə gedəcəyini deyib maşını mərkəzdəki evlərinə sürdürəndə şübhələnmişdim. O, “rəfiqəm burda yaşayır” demişdi mənə. Hələ Moskvaya ilk dəfə gələndə Mədətlə Andreyin ünvanını axtarandan o mənzili tanıyırdım və bilirdim ki, orada heç kim yaşamır. Sonya Andreyi də, məni də aldatmışdı...

Keçən həftə də çox içmişdi. Məni eşitmədi, ” heç vecimə də deyil Andreyin göstərişləri”, deyib üstümə bağırdı da. Andreyə zəng etdim ki, həkimini göndər, yenə özündə-sözündə deyil...

İlahi, həkim gəlib gedəndən sonra əsəbindən zəncir çeynəyib məni necə təhqir etdiyini görəydin!

Onsuz da həkimin müalicəsinin bir effekti gözə çarpmırdı. O yenə də içir, qab-qacağı vurub sındırır, hamını söyürdü. Axırıncı dəfə qiymətli Çin vazasını balkondan həyətdəki boş hovuzun içinə tullamışdı, demək olardı ki, evdə divardakı bir neçə qiymətli rəsm əsərlərindən, mətbəxdəki mebeldən başqa sındırılası, atılası heç nə qalmamışdı. Əvvəllər məndən ehtiyat edib çəkinirdisə, son vaxtlar məni də adam yerinə qoymurdu. Andrey isə ciddi olaraq tapşırırdı ki, xahiş edirəm, müalicə bitənə kimi onu gözdən qoyma, yenə də səndən çəkinir.

Bu gün hələ az içib. Bilmək olmazdı, bəlkə bütün günü əyyaşlıq edəcək, məni hövsələdən çıxaracaqdı. Əvvəllır neçə dəfə Andreydən xahiş etmişdim ki, mənə bir əməlli-başlı kişi işi tapşır. Məni də razborkalara, doyüşlərə, lap ölümə göndər, amma qadınlara mühafizəçi qoyma. Andrey mənə nə desə yaxşıdır? Dedi ki, Sonya mənim ən qiymətlimdir, sən də ən yaxın dostum. Onu səndən başqa heç kəsə etibar etmirəm. Əlbəttə, Sonyanın qiymətli olmasının səbəbini yaxşı bilirdim. İsraildə yaşayan qayınatası sovetin dövründə qazandığı cah-cəlalını, evləri, xarici banklarda saxladığı varidatını yeganə qızına vəsiyyət etmişdi. Kişinin "QosPlan"da uzun illər işləyib yığdıqları böyük bir şəhərin on illik büdcəsini ötüb keçirdi. Ona görə Sonyanın bütün şıltaqlığına dözürdü. Amma Sonyanın ara-sıra onun qarasına deyinməsini, yerli-yersiz dava-dalaş saldığını görəndən sonra dalağım sancmışdı ki, burda nəsə başqa sirr var.

Dəlisov tutmaları baş qaldıranda Moskvanın ən mötəbər klinikalarında çalışan professorları evinə gətizdirən Andrey Sonyanın ciddi xəstəlikdən deyil, onun soyuqluğundan, bığanəliyindən "dəli"lik etdiyini bilsə də, yenə özünü o yerə qoymur, "Sonyacan, sən sağalacaqsan, mütləq sağalacaqsan!" deyib, onu daha da nevroz halına salırdı. Mən dəfələrlə bunun şahidi olmuşdum.

...Əvvəllər şəxsi sürücüsü vardı Sonyanın. Səhv eləmirəmsə, adı Stepan idi. Çox sakit, gülərüz oğlandı. Sözün düzü, onu heç danışan görməmişdim, elə bil ağzında dili yox idi yazığın. Amma həmişə üzü gülürdü. Sonyanın əmrlərini itaətgarcasına dəqiq və təmiz yerinə yetirirdi. Mən Sonyanın cangüdəni təyin ediləndən Stepanın yanında əyləşib Andreyin qızıldan qiymətli sevgilisini müşaiyət etmək, bütün günü bu dilsiz-ağızsız oğlanla bir yerdə olmaq qismətimə düşmədi – maşını əlindən alıb özünü də Dmitriyevskiy şossenin qurtaracağındakı lombarda göndərdilər. Sonradan bildim ki, hər zaman lal oyunu oynayan Stepan, sən demə, vələdüznanın biriymiş, gördüklərini, eşitdiklərini qulluqçulara, cangüdənlərə nəql edirmiş, özü də bərbəzəyilə.

Andreylə münasibətləri pozulmayana kimi bahalı butikləri, elit gözəllik salonlarını, kino-teatları, konsert salonlarını bir-birinə vuran Sonya saatlarla köhnə rəfiqələriylə vaxt keçirməyi çox xoşlardı; kafedə dondurma yeyə-yeyə kimlərinsə qeybətin qılmaqdan ləzzət alırdı. Elə vaxt olurdu ki, saatlarla onun həndəvərində fırlanır, göz-qulaq olurdum, amma nə danışıb, kimi müzakirə etdiyinə məhəl qoymurdum. İçkiyə qurşanandan sonra rəfiqələri yavaş-yavaş ondan bir bəhanə uydurараq uzaqlaşırdılar. Son vaxtlar zənglər də kəsilmişdi kişi dostlarından. Özünə hörmət edən hər kişi kefli qadınla yatağını bölməz axı. O içki məsələsində əndazəsindən çıxırdı son vaxtlar. İçir, içir, həm də sevgi dilənirdi. Mən bu neçə ildə onun gönünə də bələd olmuşdum desəm yanılmaram. Kosmos mehmanxanasındakı görüşü sonuncu olduğunu da bilirəm. Mənimlə restorana gedib yeyib-içməyi, ürəyini boşaltmağı da bir oyun idi yəqim. Məndən uzaqlaşmamaq üçün, ələ almaq üçün düşündüyü oyun. Əslində məndən özgə onun halına yananı yox idi. Buna baxmayaraq mənim sadəlövhlüyümdənmi, yoxsa maymaqlığımdanmı istifadə edərək, arada təhqir eləməkdən də usanmırdı. Mən lap təngə gəlmişdim. Amma dözürdüm. Dözməliydim.

Başqa əlacım vardı ki?! Onsuz da həyat mənimçin çoxdan sona çatmışdı, çoxdan. Əynindən hərbi formanı çıxarmamış hoqqa çıxarıb adam öldürən, dərəbəylikdən istifadə edib qaçan, hətta bunları uşaqlıq dostuna belə etiraf etməyə kişiliyi çatmayan birisinə bu bandit yuvasından əlverişli yer vardımı? Eh, Rüfət, Rüfət...

***

... Bu yaz əvvəlkilərə heç bənzımirdi. Bu gördüyüm bütün bahar aylarından rəngiylə, ətriylə fərqlənirdi; havada yasəmən qoxusu asıla qalmışdı elə bil...

İnsanlar da başqalaşmışdı – bir az həlim, bir az güləş, bir az şən. Əvvəlki adamlar keçən yazda qalmışdı...

Bu yazı gözləyirdim. Gec də olsa, sadəlövhlükdən düşdüyüm vəziyyətin ciddiliyini anlamışdım. Mən biləni, deyəsən, hökumətin özünə gəlməsi Andreyin də qılıncını kütləşdirib. Ara-sıra, əyalətlərdə bandit dəstələrinin sıradan çıxarılması xəbərləri eşidilir. Kələklə gələnlər küləyin gücünə tab gətirmirlər deyəsən. Bu külək, göz görə-görə sərvətləri tarmar edilən, başbilənləri çox olsa da sahibsiz qalmış, tanrının gözündən düşən nəhəng dövlətin varidatını fırıldaqla mənimsəyib özününkü edən, qazanclarını ofşor zonalara təpələşdirən oliqarx sürüsüylə əlbir– dilbir olmuş bandit kopalarını da qabağına alıb süpürəcəkdi yəqin. Hələ ki zəif əsirdi küləklər. Fırtına gözlənilməz ola bilər. Qəfil. Əzilənlər, gücsüzlər, tabsızlsar fırtına gözləyirdi. Çox olsalar da əllərindən gözləməkdən özgə nə gələr ki tabsızların...

Hər şeyə tüpürüb iyirmi, otuz il əvvələ qayıtmaq mümkünmü? Yenə beş-altı il öncə bilsəydim, çeçen müharibəsinin qızğın vaxtında aradan çıxmaq olardı. Bir ara lap ucqar kənddə, aulda da gizlənmək olardı. Amma Dağıstanda, Çeçendə də aləm bir-birinə qarışdığından, ağlım kəsmirdi ki, girdirmə sənədlə çox uzağa gedəm. Yollar qorxuludu. Hətta dəmir yolları

da milis forması geymiş banditlərin nəzarətindədi; qəfil basqınlar, talama, hətta onlara tabe olmayanların canına qəsd eləmək bir içim suymuş. Sən demə, necə ki fağır birisinə vəzifə veriləndə möhürünə güvənib aciz bəndələrə zülm edər, eləcə, əlverişli məqam düşən kimi bu qədər nifrət, qəddarlıq, yırtıcı xisləti hər birimizin içində yatıb qalıbmış. Guya can deyib, can eşidən sovet vətəndaşları bir himə bənd imiş ki, milisin, KQB-nin vahiməsindən qurtulan tək, əslində kim olduqlarını açıb göstərsin. Bu nəhəngliyində insan cəmiyyəti iblisin istismarındaydı; güləni də, ağlayanı da...

İndi özümü sürgündə hiss edirəm. İnsan yığını olan dünyadan iyrənirəm. Ətrafımda hara, kimə baxıramsa hər şey yaddı mənə. Özümü qınayıram. Sonyanın, Raisanın və yüzlərlə insanın çəkdiyi əzablarda mənim də payım olduğunu indi dərk edirəm. Axı o gün, o lənətə gəlmiş gün, bircə caniyə, bir göz qırpımı hərəkətsiz qalsaydım bəlkə Qleb yox, uçurumlu dərədə qarğa-quzğuna Andrey yem olardı. Deməli, bu cəlladlar imperiyasının təməl daşını qoyanlardan biri də mən idim...

## Tanıya bilmədim səni, mələk.

– Rəfiqələrim inadla italyanların üzərində qalsalar da mənə həmişə elə gəlirdi ki, dünyanın ən ehtiraslı kişiləri Qafqazlılardı... Eh, görünür yanılırammış?!

– Qafqazlı... kişi dostunuz var bəyəm?

– Yoox... – deyib yarımçıq viski butulkasını başına çəkdi. – Heç italyan dostum da olmub. Ha-ha-haaa!..

– Onda yanıldığınızı hardan bilirsiz?-Maraqlandım.

O gözlərini qıyıb məni süzdü. Nədənsə ağzını büzüb dindi:

– Boş-la... elə-belə, söz gəlişi dedim...

Başını yelləyərək sifətinə tökülmüş saçlarını arxaya atdı. Onu sərxoş halda bu qədər yaxından görməmişdim. Heç bir

mənа kəsb etməyən baxışlarını sifətimdə elə gəzdirdi ki, sanki yazı taxtasında yazılmış iyrənc sözü əskiylə silir. Nə qədər xahiş etdimsə daha içməsin, qulağına girmədi. Son vaxtlar çox içdiyindən dərisinin rəngi də solmuşdu elə bil. Andrey tapşırmışdı: gördün yenə əyyaşlıq edir, mənə zəng elə, həkimini göndərim. Buna daha ehtiyac olmadığına əmin idim, çünki Sonyanı dayandırmaq mümkün deyildi.

– Qafqazlıları yaxından tanımadığınız halda, qarasına danışmaq haqsızlıqdı,– dedim.

İncidiyimi görüb gülümsündü:

– Bəsdi... Bax, biri elə sən, ürəyin qadın istəmir heç? Yoxsaa, sən dəə..

Söhbətimizin gözlənilmədən dalana dirənəcəyini ağlıma belə gətirməzdim. Aramız o qədər açıq idi ki, yanımda hər cürə söhbətlər edirdi. Mənimlə ərkyana danışır, hətta şəxsi məsələlərindən də, problemlərindən də söz açırdı. Lakin birinci dəfəydi intim mövzuya keçdiyindən tutuldum, otaqdan çıxmaq istədim. O məndən nə istəyirdi axı?! Məni qıcıqlandırmaqla nəyə nail olmaq istəyirdi ki?

– Yoxsa, nə? Nə?..– Sakit və incik cavab verdim.

– Ha-ha-ha. Bunu mən soruşdum, sualıma cavab ver... Hə, yoxsa sən də... sən də dostun kimi im... impotent... sən... hə?... İm-po-tent.

– Nə?!

Eşitdiyimə təəccübləndiyim qədər məyyus oldum. O bunu deməyə də bilərdi. İkisinin arasında ölə biləcək siirri bu məqamda diriltmək nəyə lazım imiş? Bayaqdan sönük gözlərində işıltılar çözəldi. Əzəli intiqamını almış cəngavər kimi, ürəyini quyuya boşaldan İsgəndər-Zülqərney kimi rahatlandı. Sanki həyatı boyu çiyinlərində daşıdığı ağır yükdən canını qurtarmışdı.

– Hə, hə, hə... İmpotentdi sənin dostun! İndi bildin, bildin? İlahi, indiyəcən buna necə dözmüşəmmiş?!

İmpotent. Bu bir kəlmə bütün qaranlıqlara işıq səpdi. Ünvanını axtararkən qonşu qadın onun xəstəliyindən, İsrailə müalicə almağa getdiyindən danışmışdı axı. Bir yandan da Sonyaya qarşı anlaşılmaz münasibəti. Kör-kor, gör-gör. Andrey təkcə onunla yox, bütün qadınlarla soyuq idi. Nə əsgərlikdə, nə də sonralar, hələ bir dəfə də qızla, qadınla olduğundan, kimisə sevdiyindən söhbət aşmaz, ya da ürəyindən bazlıq keçdiyini dilinə gətirməzdi. Biz qafqazlılar, o mənada hədd bilmərik; sevişdiyimiz qadınlar barədə hər şeyi, yeri düşdü-düşmədi, (təki söhbət seksdən olsun) yerli-yataqlı, bir az da öz fantaziyalarımızı böyür-başına qoşa-qoşa nəql etməyi xoşladığımızdan, hətta bununla fəxr etdiyimizdən, ilk baxışdan onun hərəkətinə təəccüblənsəm də, sonralar belə qənaətə gəlmişdim ki, bu, Andreyin çox mədəni və qapalı bir ailədə tərbiyə aldığından irəli gəlir. Yanılmışammış. Deyəsən mənim düşüncələrə qapandığımı, fiziki qüsuruna görə öz arvadı tərəfindən ağır ittiham edilən dostumun indiyəcən nələr çəkdiyini ürəyimə salıb onu dinləmədiyimi duymurdu Sonya.

-Sən də gecə-gündüz sadiq köpək kimi keşıyimi çəkirsən. Mənim də zəhləmi tökmüsən. Tökmüsən zəhləmi. Hansı kişilikdən danışırsan?! Neçə ildi bizim yanımızdasan, bir gün də olsun sağa-sola qaçdığın yadıma gəlmir. Soruşmaq ayıb olmasın, harda, nə vaxt görüşürsən qadınla? Hə, bəlkə... bəlkə elə dostunla sevişirsən?..

Diksindim. Bu dəqiqə onu böğmağa hazır idim.

– Xanım !...– Qəzəblə ona çımxırdım ki, həddini aşmasın. Ağlını itirmiş sərxoş qadına baş qoşmağım yersizdi. O isə heç vecinə almadan, dediyinin fövqündə olmadan üyüdürdü:

– Ha-ha-ha-haaa! Ax, mənim axmaq başım! Yadıma düşdü, əlbətdə ki, Raisa!..

“Məni nə hesab edir bu başdan xarab?! Bayaqdan əsəblərimlə oynadığı bəs deyil, kimlə yatdığımı da bilmək istəyir?! Hələ gör nə murdar, iyrənc fikirləri varmış?! Tfuuu!...”

Çox qəribəydi ki, onun axmaq şıltaqlıqlarını ciddiyə almadan nazıyla oynamağa səbrim də vardı. Lyudanın anası xəstələnməsəydi onun gic-gic sayaqlamalarına o dözməli olacaqdı. Elə bil qəsdən məni qıcıqlandırır. Bilir ki, əlindən heç hara qaçan deyiləm, buna bəhanəm də yoxdu. ”Gəlsənə, mənim xətrimə içəsən” dedi və ikinci viski stəkanını doldurdu. Etiraz etdim.

– Yaxın gəl,– deyib əlini ehmalca divana döyəclədi.– Gəl. İndi səndən savayı heç kimə etibar etmirəm. Bildin? Heç Andreyə də...

Bayaqdan ayaq üstə olduğumu indi anladım.

Birdən qəribə əda ilə dilinin ucunu dodaqlarının arasında oynadaraq gözlərini yumdu. Əvvəlcə elə başa düşdüm ki, içkinin təsirindən dili-dodağı quruyub. Su qədəhinə “Borjomi” süzüb ona tərəf uzatdım. Gözlərini açanda eyni vaxtda, bir əliylə ona sarı uzanmış “Borjomi”ni alıb jurnal masasının üstünə qoydu, o biri əliylə də biləyimdən yapışıb özünə tərəf dartdı.

– Öpp məni... öp, öp, öp...– deyə yalvardı. Bu sakit yalvarışdan çox sudan çıxmış balığın lal imdadına bənzəyirdi. ”Öp məni” dedikcə can verən balıq kimi qurumuş dodaqlarını açıb yumurdu. Gözləri bağlıydı, sakitcə aradan çıxmaq olardı. Amma elə bərk qamarlamışdı ki, əlində qopmağa halım yox idi. Bəlkə də həvəsim...

– Öp... öp məni...

Bu o qədər gözlənilməz oldu ki, hələ də heç bir şey anlamadığımdan onunla dodaq-dodağa, göz-gözə qaldığıma heyrət etdim. Palıd meşəsnin havasını xatırladan viskinin xoş ətri burnumun dəliklərində nəfəsimə qarışdı. Bir saniyə keçmədi ki, bu məstedici tam dodaqlarımdan içimə axdı...

Səsindəki titrəyiş bütün vücuduna sirayət etdi. Qollarımın arasında, sanki sudan çıxmış balıq kimi çabalayır, imdad istəyirdi. Ehtiraslı pıçıltı beynimə əmr edirdi: “Öp məni... öp... öp...” Qırmızı dekoltesindən şışıb çıxmış döşləri sinəmdə

yırğalandıqca bədənimi bürüyən atəşdə yanmağa başladım. Sonya sərxoş olduğundanmı, yoxsa şəhvətin pəncəsinə belə tez düşdüyümdənmi bu anı əldən verməmək üçün incə barmaqlarını paçamın arasında oynatmağa başladı. Dənizdə başlayan qəfil qasırğadan səmtini, tarazlığını itirən yelkənli qayığın aqibətinin necə ağır və dözülməz olduğunu təsəvvür edirsən?! Mən nəhəng ümmanda, ağılasığmaz ehtiras fırtınasında batmağa hazırlaşan balaca qayığa bənzəyirdim.

Sonya şalvarımın toqqasını, zəncirbəndini elə sürətlə və acgözlüklə açırdı ki, sanki ömrü boyu tamarzı qaldığı qiymətli sərvət, xəzinə tapmışdı. İstəsəm də, artıq özümü idarə etmək iqtidarında deyildim. Kənardan baxan olsaydı başa düşməzdi ki, o məni, yoxsa mən onu soyundururdum. İstəklərimiz, hisslərimiz, dəliliyimiz bir nöqtədə birləşmişdi. Ürəyinin guppultusuna həmahəng nəfəs alır, sinəsi elə qalxıb enirdi ki, sanki, bu dəqiqə ürəyi yerindən çıxıb qucağıma düşəcəkdi.

Yumşaq, ağappaq paçasının arasında məni özünə elə sıxmışdı ki, şeytani şəhvətini söndürmək deyil, adicə təbii tələbatını ödəmək üçün kişi həsrətində yanan bu mələyin nədən iztirab, əzab çəkdiyini indicə anlamağa başladım – Andreydən ala bilmədiyi sevgi həzzini xəyanətkarcasına kənarda axtarmaq, uzun illərdi, məhz nədən içkiyə qurşanmağına ərinin biganə qalması Sonyanı bütün sərhədləri tarimar etməyə məcbur edibmiş. Gizlincə görüşdüyü bir saatlıq sevgililəriylə tələsik, hansı oyunlardan çıxdığını təsəvvürümə belə gətirə bilmirdim. Ona sevgi gərək idi. Ancaq sevgi. Əsl kişi sevgisi. Bəs əvəzində bu sevgini ala bilməyəcəyini bilə-bilə, nədən atasının varidatını qurban vermişdi? Azad sevgisini qorumaqçınmı? Yəqin ki, Andreyin basılmaz mövqeyi onu mühafizə edirdi.

Hər dəfə mənə, tək mənə yox, elə Andreyin cangüdənlərindən bir neçəsinə gözaltı nəzər yetirməsinin neçə dəfə şahidi olmuşam. Andrey barədə nə deyir desin, amma onun çox həssas insan olduğuna bələdəm. Ola bilməzdi ki, Sonyanın sərgüzəştlərindən bixəbər olsun. Xəbərdardısa buna necə

dözürdü? İndi başa düşdüm niyə qafqazlı kişilərdən söz açırmış. Sonyaya yaxşı məlumdur ki, qafqazlılar nəinki ehtiraslı, həm də sirr saxlayan olurlar. Ona məşuq, özü də sirr saxlamağı bacaran məşuq gərək idi! Deməli, belə maskarad göstərməyin sonucu buymuş? Bilərəkdən onları yox, məhz məni qarmağına ilişdirdi. Məndən heç Andrey də şübhələnməzdı deyə. Nə qədər sadəlövh və axmağammış...

***

Etdiyim qələtdən özümə gəlməmişdim. Ondan, yataq otağında asılmış Andreyin portretindən, hətta bizim günahımızın cansız şahidləri olan divarlardan da utanırdım.

Lyudanın evdə olmaması Sonyanın xüsusi bacarıqlarını biruzə verir: o, mətbəxdə çoxdan görmədiyi işlərə baş qoşur, yemək bişirir, qəhvə dəmləyir, hətta bulaşıqları belə yuyurdu. Düzdü, bişirdikləri o qədər də dadlı-tamlı deyil. Amma içkini azaltdığına görə bunu üzünə vurmuram. Bəzən gücüm çatandan ona kömək edirəm.

Çox ehtiyatla, hər xırda detalları belə qabaqcadan götür-qoy edən Sonya, lazım gəlsə, məni dostuna xəyanətdə suçlamaqla, hədə-qorxu gəlib iyrənc sövdələşməyə razılıq verməyimə nail oldu. Münasibətimiz nə qədər davam edə bilərdi, buna da o qərar verəcəkdi. Heç bir şansım yox! Hə, bu andan zaman mənim əleyhimə işləyir.

Moskvadan – Andreydən səs-səmir yoxdu. Bizi it yerinə də qoymur. Mən əzab çəkirəm. Get-gedə özümə nifrətim artır. Lyudanın anası da sağalmaq bilmir ki, bilmir. Nədənsə onu qınayıram düşdüyüm axmaq vəziyyətə görə. Yaya da bir şey qalmayıb. Qaçıb canımı qurtarmağa nail olmadım. Çox pis ilişmişəm. Bizlər bunu başqa cür adlandırardıq.

Əvvəllər oğrun-oğrun, onu müşaiyət etsəm də, heç mənə də bildirmədən (guya kor idim) ayda iki-üç dəfə görüşə gedirdisə,

indi hər gün məni yatağına sürükləyir. O, günü-gündən gözəlləşir; gözləri işıqlı, dərisi zanbaq ləçəyi kimi parlaq, səsi zərif. Mən isə, sonradan ağlagəlməz həzz yaşasam da, hər dəfə ürəyimi yeyə-yeyə yataq otağına ayaq basıram.

Beləcə iyirmi iki gün!

İyirmi iki gün iztirab çəkə-çəkə dostumun yatağını bölürəm. Bəlkə də bu müsibət, heç zaman arzulamadığım, xəyalında belə olmadığım iyrənc yaşam uzun çəkərdi, əgər...

... Holldan eşidilən ayaq səsləri məni oyatdı. Qorxu-hürkü bilmədən, asudə qol-boyun olub yatdığımız otağın qapısı döyüləndə yerimdən dik atıldım. ”Kim ola bilərdiki?” Burdan həyət görünmdiyini bilə-bilə pəncərəyə yaxınlaşdım. Yəqin ki öz canımı qurtarmaq yox, Sonyanı ələ verməmək üçün arxa baxçaya tullanmağı fikirləşdim. Qapı dayanmadan döyülürdü. Sonyaya başa saldım ki mən həyətə atılan kimi, ehmalca durub geyinsin və qapını açsın. Əynimi tələmtələsik geyinib pəncərəni açmaq istəyirdim ki, iki pezəvəng zərblə itələyib açdıqları qapıdan içəri soxuldular. Əvvəlcə elə başa düşdüm, Andreyin düşmənlərindən, ya da xüsusi təyinatlılardandı. Amma nə başlarında maskaları vardı, nə də əllərində silahları, deməli, Andreyin qoluzorbalılarıdı ki, rahatca evə girə biliblər. Evin yeganə mühafizəçisini qapının ağzında sakitcə dayanmış görəndə buna tam əmin oldum. Qəfil basqıdan hələ də özünə gəlməmiş Sonya adeyala bürünə-bürünə yerindəcə büzüşürdü qorxudan. Amma heç biri ona barmağıyla da toxunmadı. İksi də mənim qollarımı arxaya burub divara dirədilər. Sanki bunu çoxdan gözləyirəmmiş kimi nə bir kəlmə dindim, nə də müqavimət göstərirdim. Sonya da səsini çıxarmadı, elə bil belə də olmalıydı, çox rahat və sakit nəzərlərlə olanlara tamaşa edib susurdu...

Başıma endirilən küt zərbədən yerə sərilərkən yataq otağı qırmızı tora büründüyündən, əsim-əsim əsərək divarın tininə qısılmış Lyudanı seçə bilmədim...

***

... Saatlarla gəldiyim yol boyu qulağımda cingildəyən iyrənc yad kəlmələrdən bezimişəm. “Qollarımı niyə bağlayıblar, mən ki müqavimət göstərmirəm? Belə olacağını bilirdim axı? Bilirdim. O gün, restorana getdiyimiz gün, köhnə arvadlar demişkən, sandığı açıb, pambığı tökəndə ürəyimə dammışdı bunun axırı yaxşı qurtarmayacaq... Onsuz da öldürəcəksiz, heç olmasa son məqamda adam kimi rahat oturardım. Zalım uşağı, skotçu o qədər hikkəylə dartıblar ki, biləklərimdə qan işləmir, barmaqlarım mənim deyil. Özümü rahatlamaqçın qurcalanıram, elə o dəm də yanımda oturanın dirsəyi çiynimdə guppuldayır. Lənət olsun Sonyaya, məni cuppulu siçan kimi tələyə saldı. Bəs Lyuda? O nə gəzirdi otaqda? Hə, hə, gördüm axı, oydu, Lyuda, otaqın küncünə qısılmışdı. Bəlkə bu qancıq Sonyanın oyunlarıydı? O yüz faiz hiss etmişdi Lyudanın mənə qarşı biganə deyil, bilirdi. Yanıq qadınlar bir-birini tez anlayar, dəqiq. Nə var ki, burda, Andreyin yanında aydan arı, sudan duru görünməkçün Lyudaya tapşıra bilərdi ki,məsələn, amandı, durma gəl, dostu ona təcavüz edir, ya da sadəcə, gözü düşüb arvadına, yoldan çıxarmaq istəyir. Lyudaya da elə bu bəsdi, qısqanclıqdan, ya acığından Andreyə xəbər çatdırmağa nə var ki?! Belə də olmasa, nəsə buna bənzər bir şey olduğuna əminəm. Andrey mənimlə üz-üzə gəlmək istəməyib: özü, ən yaxın adamları da üzə vurmasalar da, illərlə ərsiz yaşayan Sonyanın min oyundan çıxdığını bilməmiş olmazlar. Axı Andrey onu da bilməmiş olmazdı ki, əgər istəsəydim, çoxdan, lap evlərinə ilk gəldiyim gündə ki, Sonya mənə nəzər yetirirdi (bunu axmaqlar hiss etməzdi), elə o vaxtdan, ya da sonralar biləndə ki, Andrey ona biganədi, yaxınlıq verər, heç etiraz da etməzdi Sonya. Xasiyyətimə bələddi, istəsəydim, bu mənimçin su içimlikdi. Ancaq mən bunu etmədim. Əlim çatacaq qədər yaxın, demək olardı gözümün qarşısında ərinə xəyanət etdiyini duysam da, heç dilucu da eşitdirmədim, duyuq salmadım, qurdumu orda-

burda öldürə-öldürə yaşadım. Amma sən... Əlbət ki, son zamanlar o qədər zəhirmardan içdi ki, bütün dost-tanışları ondan uzaq düşdü, xətrinə dəyən, istəyinə zidd gedən kimsəni bircə anda bit kimi əzib xurdxəşil elətdirməkdən qorxmayan girdirmə sevgililəri də iyrəndi ondan. Bir atımlıq barıtları hesabına məmur olanlardan, yuxularında belə görmədikləri sərvət və hörmət sahibi olanmaq naminə Andreyin qoltuğuna sığınanlardan bəzisinin Sonyanın yatağından keçdiyini bilirdim axı. Axmağam, axmaq! Gərək vaxtında bu biyabırçılığa son qoyardım. Bəd ayaqda, özümü sığorta etmək üçün. Kim deyib ki, qadınların ağlı toyuq ağlıdı?! Səhv demisən, ay başdanxarab! Qadınlar özlərini nə qədər sakit və axmaq kimi göstərsələr, o qədər də məkirli və qəddar olurlar. Hə də, istədiyini aldın, doydun, lənətə gələsən... bu zibildən təmizlənməyə biri qurban getməliydi. Məndən sərfəli qurbanlığı hardan tapacaqdı Sonya. Keçmişi ləkəli, əli qana bulaşmış, girdirmə sənədlə qürbətdə gün keçirən səfil qafqazlı. Bununçunmu bəsləyirdin bu qurbanlıq qoyunu?... ”

...Gözlərimə bağlanmış yaylıq açılandan sonra, heç fikirləşmədən anladığım bircə şey oldu: lap az çəkəcək, ani bir göz qırpımında qanadları qırılmış göyərçin kimi müvazinətimi itirib fırlana-fırlana ona doğru uçacam. O, lap uşaq çağlarımdan cılız varlığımda, qəddarcasına çalın-çarpaz iz qoyduğunu yaddaşımdan əbədi silmək üçün məni öz müdhiş qoynuna alacaq.

Göy üzü qıpqırmızı közə düşmüş təndir kimi alışıb yanır. Aşağıda – göz işlədikcə hüdudsuz, mavi bir sonsuzluq. Dağılıb parçalanmış buludlar kimi yumşaq ağ duman seyrəldikcə, qarşıdakı məchulluğun aydın siması gecə vaxtı qalın meşədə azmış nabələd adamın üzünə açılırırmış kimi, hər şey yenidən doğulur elə bil – saf, billur cazibəsində saxlamaq üçün. Onun əfsanəvi pıçıltısını eşidir, göydən şığıyan, heç də bu yerlərə xas olmayan cəhənnəm istisini özünə yaxın buraxmayıb sifətimə toxunan yumşaq havanın şirin tamını duyur, qəlbimi riqqətə gətirən bu qəribə nemətə sarı can atır, var-gücümlə onun sehirli

ətrini, sərinliyini ciyərimə doldururam. Heç vaxt, heç vaxt ona bu qədər yaxın olacağıma, əlim toxunacaq qədər, lap ovucumun içi kimi yaxından duyacağıma inanmazdım. Həmişə ondan uzaq qaçarkən, ancaq yuxularımda cismimə məhrəm olan varlığın bu qədər qorxunc olduğuna da bəlkə heyrət etməzdim.

Onunla təkbətək, üz-üzə durmuşam. Hələ çoxmu duracam? Hər an kürəyimə dirənmiş avtomatın açılsacağını gözləyirəm. Bir də körpünün beton sürahisinə dirənib aşağıya baxıb vahimələnirəm. Bu dağ çayı deyil, nə qədər gurhagurla axsa da şaqqıltı salmaz, səsi eşidilməz. Amma qoynuna aldığını bir andaca udar. Əjdaha kimi.

Taleyimin dədəmlə oxşarlığına acıldım. Buna baxmayaraq, sevindim ki, anamla nənəmin gözləri həmişə yolda qalacaq, məni gözləyəcək, yanlarına döşənməkdənsə, gözləsələr yaxşıdı. Aralarındakı boş qalmış qəbir yeri də heç kimə qismət olmayacaq.

Avtomat lüləsi iki dəfə onurğamda taqqıldadı. Hikkəylə, yəni ki, yuxulama, irəli get, bundan o yana yolun yoxdu. Bəs arxaya baxsam nə olar, nə dəyişər? Heç nə. Orda mənim mənasız keçmişim qalır...

Son addımımı atıram. Ayağımın birin surahinin kobud arakəsməsinə qoyub qalxıram. Sonra ikincisin. Qurşaqdan yuxarı havadan asıla qalmışam elə bil. Bircə toxunuş bəs edər ki, kəlləmayallaq olub guruppultuyla aşağıya yumbalanım. Yüngül meh bir yandan, çayın cazibəsi də o biri tərəfdən bədənimi özünə çəkir. Qəhqəhə çəkib gülmək istəyirəm, dəli kimi. Vahimədən yox ki, Andreyin məni boş damarımdan tutmasına hiddətimdən. Şəhərin ətrafında o qədər bataqlıq, gölməçə, sahibsiz yerlər, hətta zibilxanalar vardı ki?! Mənim leşimi oralarda qurd-quşa yem eləməyə nə vardıki! Bir dənə paslı gülləsinəmi heyfi gəlmişdi, yoxsa arxadan vurmamağımı tapşırmışdı başkəsənlərinə? Yooxx! Basa-basa bu boyda yol qət eləməyin mənasını indi anladım. Axar sudan qorxduğumu

bilirdi axı. O məni axar çayın dəlisov sularında boğulmağıma üstünlük verib...

Zəif kölgələri suyun üzərində oynayan ac qağayılar qığıldaşır, əli avtomatlı adamları görmək adi hala çevrildiyindən, buna məhəl qoymadan şütüyüb keçən tək-tük avtomobillərin gurultusunu vecinə belə almayan qarğalar körpünün həndəvərinə atılmış yem qırıntılarını didişdirə-didişdirə şellənirdilər. Gözümü ətrafdan yığıb qollarımı göy üzünə qaldırdım. Tanrıdan nə diləyəcəyimi düşünmədən gözlərimi səmanınənginliyinə zillədim. Heç nə dəymədi gözümə. Səsimi kimsə eşidərdimi?!

...Ayaqlarım sürahidən üzüldü... İlk və son dəfə, lap tranplindən tullanan üzgüçülər kimi aşağıya sarı şığıyan bədənimin necə ağır olduğunu indi hiss edirəm və indi anlayıram ki, insan ömrü boyu niyə uçmağı arzulayırmış...

Yaşar Bünyad
İBLİS BUSƏSİ

Çapa imzalanıb: 17.03.2017
Formatı 60x84 1/16,
Fiziki çap vərəqi 19
Tiraj 100

Bakı, Azərbaycan